**BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM**

# «NİSA» SURƏSİ

## *SURƏNİN XÜSUSİYYƏTLƏRİ*

Bu surə 177 ayədən ibarətdir və Mədinədə nazil olmuşdur, iman və ədalətə dəvət, əvvəlki ümmətlərdən ibrət almaq, Allah düşmənləri ilə dostluq əlaqələrinin kəsilməsi, yetimlərin himayə edilməsi, eləcə də evlənmə, irs, ilahi rəhbərə itaət, hicrət, Allah yolunda cihad və s. kimi məsələləri əhatə edir. Bu surənin ilk 35 ayəsi ailə məsələləri ilə əlaqədar olduğundan «Nisa» (qadınlar) adlandırılmışdır.

﴿ بسم الله الرحمن الرحيم ﴾

**AYƏ 1:**

﴿يَا أَيُّهَا النَّاسُ اتَّقُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُم مِّن نَّفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالاً
كَثِيرًا وَنِسَاء وَاتَّقُواْ اللّهَ الَّذِي تَسَاءلُونَ بِهِ وَالأَرْحَامَ إِنَّ اللّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا﴾

**TƏRCÜMƏ:**

***«Ey insanlar, Rəbbinizdən qorxun. O Allah(dan) ki, sizi bir candan (ilk möcüzəvi varlıq kimi torpaq və gildən yaratdığı adam, insan və bəşər adlı canlıdan) yaratdı, onun cinsindən (həmin cür möcüzəvi şəkildə) zövcəsini yaratdı (və onların arasında ər-arvadlıq nikahı bərqərar etdi) və o ikisindən (onların birinci nəslində ilkin şəriət qanunlarına müvafiq olaraq və ya naçarlıqdan bacı ilə qardaşın evlənməsi və ya qızlar üçün Cənnət oğlanları, oğlanlar üçün isə Cənnət qızları nazil etmək yolu ilə) çoxlu kişi və qadın (törədib) yaydı. Adı ilə bir-birinizdən bir şey istədiyiniz Allahdan və qohumlar(la əlaqəni kəsməkdən və bağlılıq tellərini qırmaq)dan qorxun. Həqiqətən, Allah daim sizə nəzarət edir.»***

**TƏFSİR:**

## *AYRISEÇKİLİKLƏ MÜBARİZƏ*

Bu surənin ilk ayəsində bütün insanlara xitab olunur, onlar ilahi təqvaya, pərhizkarlığa dəvət edilir və buyurulur: Ey insanlar! Pərvərdigarınız qarşısında təqvalı olun!

Sonra insanın bütün əməllərinə nəzarət edən Allahı təqdim etmək üçün Onun sifətlərindən birinə – bəşər cəmiyyətinin vəhdətinə səbəb olan xüsusiyyətinə işarə edərək buyurur: O Allah ki, sizi bir insandan xəlq etmişdir.

Qurandakı «nəfsi-vahidə» (vahid bir nəfs) kəlməsi ilə bütün insanların atası kimi təqdim olunan Həzrət Adəmə (ə) işarə edilir. Başqa ayələrdəki Bəni-Adəm (Adəm övladları) təbiri də məhz həmin məsələyə işarədir.

Sonrakı cümlədə buyurulur: Adəmin həyat yoldaşını ondan yaratdı.

Bu cümlənin mənası heç də Həvvanın Adəmin (ə) hansısa bir bədən üzvündən yaradılması deyil. Əksinə, məqsəd bundan ibarətdir ki, Adəmin (ə) həyat yoldaşını onun öz cinsindən qərar verdi. İmam Baqirdən (ə) nəql olunan rəvayətdə Həvvanın Həzrət Adəmin (ə) bir qabırğasından yaradılması fikri şiddətlə təkzib olunmuş və aşkar şəkildə buyurulmuşdur ki, Həvva Adəmin (ə) xəlq edildiyi torpağın qalıqlarından yaradılmışdır.

Sonrakı cümlədə buyurulur: Allah-təala Adəm və onun həyat yoldaşından yer üzündə çoxlu kişi və qadın xəlq etdi.

Bu ifadədən məlum olur ki, insan nəslinin artması yalnız Adəmin özü və həyat yoldaşının vasitəsilə baş vermişdir və bu məsələdə başqa bir varlıq rol oynamamışdır.

Hər hansı sağlam bir cəmiyyətin təməlinin qoyulmasında təqva mühüm və əhəmiyyətli rol oynadığına görə ayənin axırında insanlar bir daha təqvaya dəvət olunur və buyurulur: Sizin nəzərinizdə əzəmətli olan və bir-birinizdən bir şey istəyərkən onun adını çəkdiyiniz Allah qarşısında təqvalı olun!

Sonra əlavə edilir: «Və öz qohumlarınızla qohumluq əlaqələrini kəsməkdən həzər edin.» Bu məsələnin məhz bu yerdə qeyd olunması Quranın sileyi-rəhimə və qohumluq əlaqələrinin bərqərar edilməsinə son dərəcə böyük əhəmiyyət verdiyini göstərir.

Ayənin axırında buyurulur: Allah sizə nəzarətçidir, sizin bütün əməllərinizi görür, niyyətlərinizdən agahdır, müxtəlif hadisələr qarşısında da sizin keşikçinizdir.

## AYƏ 2:

﴿وَآتُواْ الْيَتَامَى أَمْوَالَهُمْ وَلاَ تَتَبَدَّلُواْ الْخَبِيثَ بِالطَّيِّبِ وَلاَ تَأْكُلُواْ أَمْوَالَهُمْ إِلَى أَمْوَالِكُمْ إِنَّهُ كَانَ حُوبًا كَبِيرًا﴾

### TƏRCÜMƏ:

***«Və yetimlərin mallarını (onlar həddi-büluğa çatdıqdan sonra) özlərinə qaytarın. Murdar və haram (mal)ı (qiymət fərqinə görə) pak və halal (mal) ilə dəyişdirməyin (özünüzün pis malınızı onların qiymətli malları ilə dəyişdirməyin). Həmçinin onların mallarını öz mallarınıza qatıb yeməyin ki, həqiqətən bu, böyük günahdır.»***

## AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bəni-Qətfan tayfasından bir nəfərin çoxlu mal-dövləti var idi. O, dünyadan getdikdən sonra qardaşı onun yetim övladlarını himayəsinə götürdü və onların mal-dövlətini öz ixtiyarına keçirtdi. Qardaşının övladları böyüyüb kamal həddinə çatdıqdan sonra onların haqqını qaytarmaqdan imtina etdi. Bu məsələnin hökmünü Peyğəmbərdən (s) soruşduqda yuxarıdakı ayə nazil oldu. Qəsbkar kişi bu ayəni eşidən kimi dərhal tövbə etdi, mal-dövləti sahiblərinə qaytardı və dedi: «***Böyük günaha mürtəkib olmaqdan Allaha pənah aparıram!***»

### TƏFSİR:

***YETİMLƏRİN MAL-DÖVLƏTİNƏ XƏYANƏT QADAĞANDIR!***

Hər bir cəmiyyətdə müxtəlif xoşagəlməz hadisələr nəticəsində ailə başçıları dünyadan gedir, onların kimsəsiz övladları başsız qalır. Bu ayədə yetimlərin mal-dövlətləri ilə əlaqədar üç mühüm göstəriş verilmişdir:

1. Əvvəlcə göstəriş verilir ki, yetimlər kamal həddinə çatdıqları vaxt onların mal-dövlətlərini özlərinə təhvil verin. Sizin bu mal-dövlətdən istifadə etməyiniz yalnız əmanətdar və onun əsl sahibinə nəzarətçi kimi olmalıdır.

2. Sonrakı göstəriş onların mallarını boş yerə xərcləməyin qarşısını almaqla əlaqədardır. Belə ki bəzən yetimlərin qəyyumluğunu öhdəsinə alanlar malın dəyişdirilməsinin yetimin xeyrinə olduğunu, yaxud bir-birilə əsla fərqlənmədiyini və ya qalacağı təqdirdə xarab olduğunu bəhanə edərək yetimlərin yaxşı və keyfiyyətli

mallarını özlərinə götürür, özlərinin xoşagəlməz və xarab mallarını onun yerinə qoyurdular. Quran buyurur: Heç vaxt onların pak-pakizə mallarını özünüzün napak, xarab və pis mallarınızla dəyişdirməyin.

3. Onların mal-dövlətini öz mal-dövlətinizlə birlikdə (qarışdırıb) yeməyin.

Yəni yetimlərin mal-dövlətinin hamısına sahib olacağınız, yaxud yetimlərin haqqı aradan gedəcəyi təqdirdə özünüzün pis mallarınızı onların yaxşı malları ilə qarışdırmayın.

Ayənin axırında məsələnin əhəmiyyətini bildirmək üçün daha artıq təkidlə buyurulur: Yetimlərin malına bu cür təcavüz və haqsızlıq böyük günahdır.

## AYƏ 3:

﴿وَإِنْ خِفْتُمْ أَلاَّ تُقْسِطُواْ فِي الْيَتَامَى فَانكِحُواْ مَا طَابَ لَكُم مِّنَ النِّسَاء مَثْنَى وَثُلاَثَ وَرُبَاعَ فَإِنْ خِفْتُمْ أَلاَّ تَعْدِلُواْ فَوَاحِدَةً أَوْ مَا مَلَكَتْ أَيْمَانُكُمْ ذَلِكَ أَدْنَى أَلاَّ تَعُولُواْ﴾

**TƏRCÜMƏ:**

***«Əgər yetim qızlar barəsində (həmin dövrün adət-ənənəsinə uyğun evlənəcəyiniz təqdirdə) ədalətə riayət etməyəcəyinizdən qorxsanız, onda meyliniz olan (başqa) qadınlardan ikisi, ya üçü və ya dördü ilə evlənin. Və əgər birdən ədalətlə rəftar etməyəcəyinizdən qorxsanız, onda, yalnız bir qadınla, ya aldığınız bir kənizlə kifayətlənin. Bu iş sizin yolunuzu azmamağınıza və zülm etməməyinizə daha yaxındır.»***

## AYƏNİN NAZİLOLMA SƏBƏBİ

İslamdan əvvəlki adətlərə görə Hicaz əhalisinin çoxu yetim qızlara başçılıq edərək onları öz evlərinə aparır, böyüdükdən sonra onlarla evlənir və onların mal-dövlətlərini öz ixtiyarlarına keçirirdilər. Bütün işlərin idarə olunması öz əllərində olduğundan, hətta onların mehriyyələrini də adi mehriyyədən az verir, azacıq narahatlıq və anlaşılmazlıq yaranan kimi asanlıqla təlaq verib boşayırdılar. Yuxarıdakı ayə nazil oldu və yetimlərin qəyyumlarına göstəriş verildi ki, yetim qızların barəsində yalnız ədalətə tam və kamil surətdə riayət edə biləcəyiniz zaman onlarla evlənin.

**TƏFSİR:**

Bu ayədə yetimlərin hüquqlarından digər birinə işarə edilir və buyurulur: Əgər yetim qızlarla evlənəcəyiniz surətdə ailə münasibətləri, onların mal-dövlətləri və haqqı barəsində ədalətə riayət edə bilməyəcəyinizdən qorxursunuzsa, onlarla evlənmək fikrindən daşının və başqa qadınlarla evlənin.

Sonra buyurulur: Onlardan (başqa qadınlardan) ikisini, üçünü, dördünü özünüzə həyat yoldaşı seçin.

Sonra dərhal buyurulur: Bu onların arasında ədalətə tam şəkildə riayət ediləcəyi surətdədir. Amma əgər çox arvad aldığınız zaman onların barəsində ədalətə riayət edə bilməyəcəyinizdən qorxursunuzsa, bir arvad almaqla kifayətlənin ki, başqalarına zülm etməkdən amanda olasınız. Yaxud ikinci həyat yoldaşının yerinə özünüzün malik olduğunuz xidmətçidən (kənizdən) istifadə edin. Çünki onların şərtləri nisbətən yüngüldür. Buna baxmayaraq yenə də onlar müəyyən hüquqlardan bəhrələnməlidirlər.

Bu iş (yəni, bir həyat yoldaşı və ya kəniz seçmək) ədalətdən çıxaraq zülm etməyin qarşısını daha yaxşı alır. «***Həyat yoldaşları ilə əlaqədar ədalət***» dedikdə, kişinin

onların məişət xərcləri və məişətdən kənar ehtiyacları kimi məsələlərdə ədalətə riayət etməsi nəzərdə tutulur. Çünki qəlbi məhəbbətdən ibarət olan batini ədalət insanın qüdrətindən xaricdədir.[1]

***İNCƏ MƏTLƏBLƏR***

1. İslam dini məhrum təbəqələrin, xüsusilə yetimlərin, onların da içərisində yetim qızların himayəçisidir. Bu da iffətə və ailə münasibətlərinə riayət edilməsi, eləcə də onlardan sui-istifadə edilməsinin qarşısını almaq məqsədi daşıyır.
2. Yetimlərlə izdivacın tərk olunmasında ədalətsizlik əsasında rəftar edilməsinə yəqin olunması vacib deyildir; bu barədə ehtimal da kifayətdir.
3. Həyat yoldaşının seçilməsində qəlbi meyl və istəklər əsas məsələdir.
4. İslam dini çoxarvadlılıq məsələsi ilə müəyyən şərtlər daxilində müvafiqdir.

**AYƏ 4:**

﴿ وَآتُواْ النَّسَاء صَدُقَاتِهِنَّ نِحْلَةً فَإِن طِبْنَ لَكُمْ عَن شَيْءٍ مِّنْهُ نَفْسًا فَكُلُوهُ هَنِيئًا مَّرِيئًا ﴾

**TƏRCÜMƏ:**

***«Və qadınların mehriyyələrini onlara könül xoşluğu ilə və bir hədiyyə kimi verin (hərçənd ki, bu, sizin boynunuzda bir vacib, onlar üçün isə ilahi bir bəxşişdir). Əgər onlar könül xoşluğu ilə ondan sizə bir şey bağışlasalar, onu nuş və ləzzətlə xərcləyin.»***

**TƏFSİR:**

Lüğət alimi Rağib İsfahaninin dediyinə əsasən «nihlə» kəlməsi «bal arısı» mənasını verən «nəhl» kökündən alınmışdır. Bal arısı camaata şirin bal verib onlardan heç bir əvəz gözləmədiyindən insanlara verilən hədiyyəyə də «nihlə» deyilir.

Hədisdə buyurulur: «***Öz mal-dövlətinizin ən yaxşısını üç yerdə xərcləyin: 1. Mehriyyə. 2. Həcc. 3. Kəfən. Əgər mal-dövlətinizin ən yaxşısını mehriyyəyə sərf etsəniz, onda övladlarınız əməlisaleh olar.***»[2]

***İNCƏ MƏTLƏBLƏR***

1. Qadına mehriyyə vermək vacibdir (bu onun haqqıdır).
2. Mehriyyə qadının dəyəri deyil, sədaqət nişanəsi, dostluq və məhəbbət qapısıdır.
3. Mehriyyə qadının dəyəri deyil, kişinin qadına verdiyi bir hədiyyədir.
4. Qadının öz mehriyyəsinə malik olmaq haqqı vardır. Belə isə onun atası, yaxud qohum-əqrəbaları mehriyyəni özü üçün götürə bilməz.
5. Qadın öz mehriyyəsini almaqda, yaxud ərinə bağışlamaqda azaddır.
6. Ən çox ürəyəyatan mal o maldır ki, sahibi onu tam razılıqla bağışlamış olsun.

---

[1] Bunun hikməti ilə əlaqədar aşağıdakıları qeyd etmək olar:

1. Müharibə və s. kimi ağır hadisələrdə kişilər daha çox tələfata uğrayır, qadınlar isə dul qalırlar.
2. Qadınlar hər ayda bir neçə gün üzürlü olur və ailə münasibətləri qüvvədən düşür.
3. Cavanlar çox az hallarda belə dul qadınlarla izdivac etməyə razı olurlar.
4. Dul və ərsiz qadınların hamısında kifayət qədər təqva və öz cinsi qərizələrini cilovlama qüvvəsi yoxdur, digər tərəfdən də onlar izdivac etməlidirlər.

Deməli, kişi birinci həyat yoldaşının razılığı ilə və müəyyən şərtlər daxilində ikinci arvad ala bilər, bu zaman hər ikisinin çətinliyi həll olunur.

[2] «Ətyəbül-bəyan», həmin ayənin təfsiri

7. Zahiri razılıq kifayət deyil, qəlbən də razılıq hasil olmalıdır. İkrah və icbar üzündən olan hədiyyələrin heç bir etibarı və dəyəri yoxdur.

**AYƏ 5:**

﴿ وَلاَ تُؤْتُواْ السُّفَهَاء أَمْوَالَكُمُ الَّتِي جَعَلَ اللّهُ لَكُمْ قِيَاماً وَارْزُقُوهُمْ فِيهَا وَاكْسُوهُمْ وَقُولُواْ لَهُمْ قَوْلاً مَّعْرُوفاً ﴾

**TƏRCÜMƏ:**

***«Allahın sizin (yaşayışınız) üçün dayaq etdiyi mallarınızı (və yetimlərin mallarını), səfehlərə (və az yaşlı yetimlərin özlərinə) verməyin. Onlara həmin malın gəlirindən ruzi verin, onları geyindirin və onlarla bəyənilən bir tərzdə danışın.»***

**TƏFSİR:**

Rəvayətlərdə etimad olunmayanlar və şərab içənlər səfeh adlandırılır. Belə ki, ümumi və ya şəxsi mal-dövləti etibar olunmayan adamların əlinə vermək olmaz.

Rəvayətlərdə «səfeh» kəlməsi fasiqlərə və günahkarlara da deyilir. Mal-dövlət də cəmiyyətin qalıb davam etməsinə səbəb olduğuna görə onların ixtiyarına verilməməlidir. Belə isə, cəmiyyətin dayağı sayılan hər növ məqam, məsuliyyət və məlumatın fasiqlərə verilməsi yanlış bir işdir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Yelbeyinlər, səfehlər, şərab içənlər, ləyaqətsiz adamlar mal-dövlətə və iqtisadiyyata hakim olmamalıdır.
2. Səfeh adamın hətta öz mal-dövlətinə belə hakim olması sizə iqtisadi zərbə sayılır.
3. Rəftarlarda ötəri ürəkyanmalara və duyğulara deyil, cəmiyyətin iqtisadi mənafeyinə, eləcə də ideoloji cəhətdən inkişafına diqqət yetirmək lazımdır.
4. Səfeh adam öz mal-dövlətindən istifadə etmək haqqına malik deyil.
5. Hər bir quruluşun iqtisadi və maddi məsulları rəşid (əqli cəhətdən kamala çatan) və təcrübəli olmalıdırlar.
6. İqtisadi müqavilələri imzalayanlar fasiq və günahkar olmamalıdır.
7. Mal-dövlət hər bir ictimai sistemin həyat və iqtisadiyyatının davametmə səbəbidir.
8. Sərmayə donuq vəziyyətdə qalmamalıdır. Yetimlərin və səfehlərin mal-dövləti də dövriyyəyə buraxılmalı, istehsal sahələrində istifadə edilməlidir ki, malın (sərmayənin) özü deyil, onun qazancı onlar üçün xərclənsin.
9. Məhrumların ruhiyyəsinə və şəxsiyyət yönlərinə diqqət yetirmək lazımdır.

**AYƏ 6:**

﴿وَابْتَلُواْ الْيَتَامَى حَتَّىَ إِذَا بَلَغُواْ النِّكَاحَ فَإِنْ آنَسْتُم مِّنْهُمْ رُشْدًا فَادْفَعُواْ إِلَيْهِمْ أَمْوَالَهُمْ وَلاَ تَأْكُلُوهَا إِسْرَافًا وَبِدَارًا أَن يَكْبَرُواْ وَمَن كَانَ غَنِيًّا فَلْيَسْتَعْفِفْ وَمَن كَانَ فَقِيرًا فَلْيَأْكُلْ بِالْمَعْرُوفِ فَإِذَا دَفَعْتُمْ إِلَيْهِمْ أَمْوَالَهُمْ فَأَشْهِدُواْ عَلَيْهِمْ وَكَفَى بِاللّهِ حَسِيبًا﴾

**TƏRCÜMƏ:**

***«Yetimləri evlənmək həddinə (hər bir insanın və heyvanın ruhi və cismi təkamülünün ilk mərhələsi olan cinsi yetkinlik həddinə) çatana qədər sınayın. Beləliklə, əgər onlarda (fikir və ağıl baxımından) bir inkişaf görsəniz, onların mallarını özlərinə qaytarın. Onu (onların mallarını) böyüyəcəklərinə (və mallarını sizdən geri almalarından qorxduğunuza) görə israfla və tələm-tələsik yeməyin. (Yetimlərin qəyyumlarından) ehtiyacı olmayan kəs (yetimin malına əl vurmaqdan) çəkinsin. Yoxsul olan isə (yetimin malından) ürfi (və ədalətli zəhmət haqqı) miqdar(ın)da yesin. Beləliklə, onların mallarını özlərinə qaytarmaq istəyən zaman, onlar üçün şahid tutun (ki, sonradan bir mübahisə, dava-dalaş düşməsin). Allah yetərli hesab çəkəndir.»***

**TƏFSİR:**

Bu ayədə yetimlərin özləri və onların mal-dövlətləri ilə əlaqədar digər bir göstəriş verilir və buyurulur ki, onları həddi-büluğa çatdıqları vaxta qədər sınaqdan keçirin, əgər kifayət qədər əqli inkişaf və öz mal-dövlətlərinin, məişətlərinin idarə olunmasında kamala çatdıqlarını hiss etsəniz mal-dövlətlərini onların özlərinə qaytarın. Sonra bir daha yetimlərin qəyyumlarına təkidlə buyurulur ki, onlar böyüməzdən əvvəl onların mal-dövlətlərini israfla yeməyin.

Digər bir məsələ budur ki, yetimlərin qəyyumları sərvətli və varlı olsalar onların malından heç bir adla istifadə etməməlidirlər. Amma əgər fəqir və yoxsul olsalar, yalnız yetimlərin mal-dövlətini qoruyub-saxlamaq müqabilində çəkdikləri zəhmət haqqını ala bilərlər. Bu zaman ədalətə və insafa riayət etməklə öz haqlarını onların malından götürə bilərlər. Sonra yetimlərin qəyyumları barədə sonuncu hökmə işarə edilir və buyurulur: Onların mal-dövlətlərini özlərinə təhvil verdiyiniz zaman şahid tutun ki, heç bir ittihama, münaqişəyə və söz-söhbətə yer qalmasın.

Ayənin axırında buyurulur: Amma bilin ki, həqiqi hesab çəkən Allahdır və sizin hesab-kitabınız Onun yanında açıq-aşkardır. Əgər sizdən hər hansı bir xəyanət baş versə və bu sizin üçün təyin edilmiş şahidlərə gizli qalsa, Allah bunu hesaba alacaqdır. Allah mühasibə etmək üçün kifayətdir.

**AYƏ 7:**

﴿ لِّلرِّجَالِ نَصيِبٌ مِّمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ وَلِلنِّسَاء نَصِيبٌ مِّمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ مِمَّا قَلَّ مِنْهُ أَوْ كَثُرَ نَصِيبًا مَّفْرُوضًا ﴾

**TƏRCÜMƏ:**

***«Kişilərin ata, ana və yaxın qohumlarının qoyub getdiklərində payları vardır. Qadınların da ata, ana və yaxın qohumlarının qoyub getdiklərində payları vardır. (Mal istər) az olsun, ya çox, müəyyən və vacib bir pay(dır). (Belə bir hökmün olması ağıl baxımından lazım və gərəklidir, onun miqdarı və necəliyi isə hər bir şəriətə uyğun surətdə vacibdir).»***

**TƏFSİR:**

### *AYƏNİN NAZİLOLMA SƏBƏBİ*

Peyğəmbərin (s) dostlarından biri dünyadan getdi. Onun həyat yoldaşı dul və uşaqları kimsəsiz qaldı. Bununla yanaşı, onun əmioğlanları cahiliyyət dövrünün adət-ənənələrinə uyğun olaraq yalnız döyüş qüdrətinə malik olanları varis hesab etdiklərindən, onun mal-dövlətini öz aralarında bölüşdürüb ölənin həyat yoldaşına və yetim uşaqlarına heç nə vermədilər. Ölənin həyat yoldaşı bu məsələ ilə əlaqədar Rəsuli-Əkrəmə (s) şikayət etdi. Yuxarıdakı ayə nazil olduqdan sonra Peyğəmbər (s) o kişinin əmioğlanlarını çağırdı və ölənin mal-dövlətini onun həqiqi varislərinə qaytarmalarına göstəriş verdi.

### *İNCƏ MƏTLƏBLƏR*

1. İslamda qadınların da irs haqqı vardır və dinimiz onların digər hüquqlarının keşiyindədir.
2. İrsin müharibə və döyüş qüdrəti əsasında bölüşdürülməsi qadağandır.
3. İrsin miqdarı yox, onun ədalətli şəkildə bölüşdürülməsi əsas məsələdir.
4. İrs payı heç vaxt dəyişilmir.

**AYƏ 8:**

﴿ وَإِذَا حَضَرَ الْقِسْمَةَ أُوْلُواْ الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينُ فَارْزُقُوهُم مِّنْهُ وَقُولُواْ لَهُمْ قَوْلاً مَّعْرُوفًا ﴾

**TƏRCÜMƏ:**

***«Miras bölgüsü zamanı orada (vərəsələrdən olmayan) qohumlar, yetimlər və yoxsullar olsalar, onlara o maldan ruzi olaraq bir şey verin və gözəl, bəyənilən söz deyin.»***

**TƏFSİR:**

### *ƏXLAQİ BİR HÖKM*

Bu ayə də, şübhəsiz, irs bölüşdürüləndən sonrakı məsələlərlə əlaqədar nazil olmuşdur. Çünki buyurulur: «Hər vaxt ölmüş şəxsin qohum-əqrəbaları, yetimlər və yoxsullar irsin bölüşdürüldüyü yerdə hazır olsalar onlara da bir şey verin.» Mümkündür, ayədə varislərin özlərinə düşən paydan onlara vermələri nəzərdə tutulsun.

«Yətama» və «məsakin» kəlmələrinin qeydsiz zikr olunmasına baxmayaraq, məqsəd ölmüş şəxsin və varislərin qohum-əqrəbalarından olan yetimlər və yoxsullardır. Ayənin axırında göstəriş verilir ki, bu dəstədən olan məhrumlarla, yoxsullarla yaxşı danışıb layiqli şəkildə söhbət edilməlidir.

## AYƏ 9:

﴿ وَلْيَخْشَ الَّذِينَ لَوْ تَرَكُواْ مِنْ خَلْفِهِمْ ذُرِّيَّةً ضِعَافًا خَافُواْ عَلَيْهِمْ فَلْيَتَّقُوا اللّهَ وَلْيَقُولُواْ قَوْلاً سَدِيدًا ﴾

### TƏRCÜMƏ:

***«Özlərindən sonra (yaş və ya ruhi cəhətdən) zəif övladlar qoyacaqları təqdirdə onların (gələcəyi) barəsində qorxan şəxslər gərək (başqalarının yetimlərinə zülm etməkdən və vəsiyyətlərində öz övladlarının haqqını zay etməkdən də) qorxsun. Buna görə də Allahdan qorxsunlar və (başqalarının yetimləri ilə) doğru-düzgün söz danışsınlar (və malların sərf olunması və vəsiyyət edilməsində ədalətə riayət etsinlər)»***

### TƏFSİR:

Rəvayətlərə əsasən, yetim malını mənimsəmək həm dünyada, həm də axirətdə ağır nəticələr verir. Onun dünyadakı xəsarəti insanın öz övladlarına dəyir (bu, yuxarıdakı ayədə nəzərdə tutulur), axirətdə isə cəhənnəm əzabına səbəb olur (bu da sonrakı ayədə bəyan olunacaqdır).[3]

Bəlkə də ayə normal və təbii haldan artıq olan infaq və vəsiyyətləri qadağan edir və buyurur ki, məbada zəif və kiçik yaşlı kimsəsiz uşaqlarınız ola-ola bütün mal-dövlətinizi vəqf və ya infaq edəsiniz, nəticədə övladlarınız sizin ölümünüzdən sonra fəqirlik və bədbəxtlikdə qalsınlar.[4]

Bu da mümkündür ki, ayə, özü öləndən sonra kimsəsiz qalacaq övladları olanlara, onların gələcəyi üçün müəyyən proqram hazırlamağı tövsiyə etmiş olsun.[5]

### *İNCƏ MƏTLƏBLƏR*

1. İnsan hər işdə özünü başqalarının yerinə fərz etməlidir ki, onların dərdlərini daha yaxşı dərk edə bilsin. Başqalarının bizim yetim övladlarımızla doğru rəftar etməsini istəyiriksə, digərinin yetim övladaları ilə də o cür rəftar etməliyik.
2. Kim od yandırsa tüstüsü onun öz gözünə dolar (başqası üçün quyu qazan özü düşər): Camaatın yetim övladlarına zülm edilməsi cəmiyyətdə bir adət halına düşər və bizim yetim övladlarımız da nə vaxtsa zülmə məruz qalar.
3. Təbliğ üslublarında insanların fitrət və duyğularından istifadə etmək lazımdır.
4. Yetimlər geyim və yeməklə təmin olunmaqla yanaşı, məhəbbət, nəvaziş və doğru yola istiqamətləndirilməyə də ehtiyac duyurlar.
5. Yetimlərin mal-dövlətinə xəyanət, onların tərbiyəsində səhlənkarlıq, onlarla kobud rəftar yolverilməzdir.

## AYƏ 10:

﴿ إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْمًا إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَارًا وَسَيَصْلَوْنَ سَعِيرًا ﴾

---

[3] «Nurus-səqəleyn», 1-ci cild, səh. 370

[4] «Məcməül-Bəyan», həmin ayənin təfsiri.

[5] «Təfsiri Fəxri Razi», həmin ayənin təfsiri.

**TƏRCÜMƏ:**

***«Həqiqətən yetimlərin mallarını zülm ilə yeyənlər əslində qarınlarına od daxil edirlər (yetimin malına toxunmağın axirətdəki gerçək təzahürü od yemək olacaqdır). Və onlar tezliklə (yetimin malını yeməklə ölüm arasındakı az bir fasilədən sonra) yanar oda daxil olar və onun hərarətini dadarlar.»***

**TƏFSİR:**

«Əl-mizan» təfsirində əməllərin təcəssüm etməsi məhz bu ayəyə əsasən irəli çəkilmişdir. Yetim malının yeyilməsinin zahiri çöhrəsi sadəcə mal yemək, həqiqi və gerçək çöhrəsi isə Qiyamətdə cəhənnəm odunun yeyilməsi kimi aşkar olacaqdır. Əgər yetim malının yeyilməsində zülmə yol verilərsə, bu iş haram, əks halda, adi və yetimlərə heç bir ziyan çatdırmayan, həmçinin pis niyyətlə edilməyən gediş-gəlişlər, onların mal-dövlətlərinə bədbin olmamağın eybi yoxdur.

**AYƏ 11:**

﴿يُوصِيكُمُ اللّهُ فِي أَوْلاَدِكُمْ لِلذَّكَرِ مِثْلُ حَظِّ الأُنثَيَيْنِ فَإِن كُنَّ نِسَاء فَوْقَ اثْنَتَيْنِ فَلَهُنَّ ثُلُثَا مَا تَرَكَ وَإِن كَانَتْ وَاحِدَةً فَلَهَا النِّصْفُ وَلأَبَوَيْهِ لِكُلِّ وَاحِدٍ مِّنْهُمَا السُّدُسُ مِمَّا تَرَكَ إِن كَانَ لَهُ وَلَدٌ فَإِن لَّمْ يَكُن لَّهُ وَلَدٌ وَوَرِثَهُ أَبَوَاهُ فَلأُمِّهِ الثُّلُثُ فَإِن كَانَ لَهُ إِخْوَةٌ فَلأُمِّهِ السُّدُسُ مِن بَعْدِ وَصِيَّةٍ يُوصِي بِهَا أَوْ دَيْنٍ آبَآؤُكُمْ وَأَبناؤُكُمْ لاَ تَدْرُونَ أَيُّهُمْ أَقْرَبُ لَكُمْ نَفْعاً فَرِيضَةً مِّنَ اللّهِ إِنَّ اللّهَ كَانَ عَلِيما حَكِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Allah sizə övladlarınız(ın mirası) barəsində oğlanın payının iki qızın payı qədər olmasını tövsiyə edir.Beləliklə, əgər (varislərin hamısı) qadın - (iki qız və ya) iki qızdan çox - olsalar (ilkin hökmə əsasən, ölənin) mirasın(ın) üçdə ikisi onlarındır (və əgər ölənin ata-anası yoxdursa qalan hissə də onlara çatır). Əgər (varis təkcə) bir qız olsa, mirasın yarısı onundur (və əgər ölənin ata-anası yoxdursa, qalan hissə də ona verilir). Əgər ölənin övladı varsa, onun ata və anasının hər birinə mirasın altıda biri verilir.Əgər övladı yoxdursa və varis yalnız ata ilə anadırsa, onda (malın) üçdə biri ananın (qalan hissəsi atanın)dır.Əgər ölənin qardaşları varsa, malın altıda biri anasınındır.(Bütün bunlar) onun etdiyi vəsiyyətdən və ya (boynunda olan) borc(un maldan ayrılmasın)dan sonradır. Siz atalarınız və oğullarınızdan hansı birinin sizin üçün daha xeyirli olmasını bilmirsiniz.(Buna görə də irs çatan şəxslərin payları arasındakı fərqlərdən təəccüblənməyin və ona etiraz etməyin. Bu bölgü üslubu) Allah tərəfindən olan bir vacibdir. Həqiqətən Allah həmişə alim və hikmət sahibidir.»***

**TƏFSİR:**

İrsin hökmləri başqa dinlərdə də (o cümlədən Tövratın Edad sifrinin 27-ci bölməsinin 8-11-ci ayələrində) bəyan olunmuşdur. İncildə də qeyd olunur ki, Həzrət Məsih (ə) belə buyurur: «***Mən Tövratın hökmlərini dəyişdirmək üçün gəlməmişəm.***»

Cahil ərəblər qadınları və uşaqları irsdən məhrum edirdilər. İslam dinində heç bir varisi olmayan şəxsin mirası İslam hakiminə və ya imama çatır.

## İRS PAYI

Bu ayədə ölmüş şəxsin varisləri olan birinci təbəqənin (övladlarının, ata və anasının) irsdən olan payları bəyan edilir. Əvvəlcə buyurulur: Allah sizə övladlarınız barədə tövsiyə edir ki, oğlanlara, qızların payının ikiqat artığı verilsin. Bu, bir növ qızların da irs aparması və cahiliyyət dövründə mövcud olan adət-ənənələrlə mübarizə üçün təkiddir. Belə ki, cahil ərəblər onları irsdən tamamilə məhrum etmişdilər.

Sonra buyurulur: Əgər mərhumun övladları yalnız iki qız və ya ondan artıq olarsa, malın üçdə-ikisi onlara çatır. Əgər bir qız olarsa, malın yarısı ona çatır. Birinci təbəqədən olan övladla mərhumun övladları ilə eyni cərgədə olub irs aparan şəxslərə, yəni ata və anaya gəldikdə isə üç hal təsəvvür olunur:

1-ci hal: Vəfat edən şəxsin bir, yaxud bir neçə övladı olsun. Bu halda ata və ananın hər biri mirasın altıda-birini irs aparır.

2-ci hal: Meyyitin övladı olmasın və varis yalnız onun atası və anası olsun. Bu halda ananın payı malın üçdə-biridir, yerdə qalanlar isə atanındır.

3-cü hal: Varis təkcə ata və ana olsun, meyyitin də övladı olmasın. Lakin vəfat edən şəxsin (ya həm ata və həm də ana tərəfindən, yaxud təkcə ata tərəfindən) qardaşları olsun. Bu halda ananın payı üçdə-birdən altıda-birə enir, altıda-beş hissəsi isə ataya məxsus olur.

Həqiqətdə qardaşlar irs aparmadıqlarına baxmayaraq ananın irsinin artmasına mane olur, buna görə də onlara «sahib» deyilir.

Sonra buyurulur: Bu bölgünün hamısı mərhumun vəsiyyətlərini yerinə yetirdikdən və borclarını qaytardıqdan sonradır. Buna əsasən əgər mərhum vəsiyyət etmiş olsa, yaxud başqalarına borclu olsa, əvvəlcə vəsiyyətə əməl etmək, borcu ödəmək lazımdır. Əlbəttə, insan öz mal-dövlətinin yalnız üçdə-birini müəyyən işlərdə xərclənmək üçün vəsiyyət edə bilər. Əgər üçdə-birdən artıq vəsiyyət etmiş olarsa səhih deyil. Yalnız vərəsələrin icazəsi ilə səhih ola bilər.

Sonrakı cümlədə buyurulur: Siz atalarınızın və övladlarınızın hansının sizin üçün daha faydalı olduğunu bilmirsiniz.

Bu da keçən mətləbləri bir növ təkidləndirir ki, camaat arasında irs payları ilə əlaqədər olan qanunlar barədə münaqişəli heç bir məsələ qalmasın.

## NİYƏ KİŞİLƏRİN İRSDƏN OLAN PAYI QADINLARIN PAYINDAN İKİQAT ARTIQDIR?

İslami mənbələrə müraciət etməklə aydın olur ki, bu sual İslamın ilk çağlarından belə camaatın arasında yaranmış və onlar İslam rəhbərlərindən bu barədə müəyyən şeylər soruşmuşlar. O cümlədən, İmam Rza (ə) sualın cavabında belə buyurmuşdur: «***Qadınların kişilərin payının yarısı qədər irs aparmalarının səbəbi budur ki, qadın izdivac zamanı mehriyyə alır, kişilər də onlara müəyyən şeylər verməyə məcburdurlar. Bundan əlavə, qadınların məişət xərcləri kişilərin öhdəsinədir. Halbuki, onlar kişinin həyat və məişət xərcləri qarşısında heç bir məsuliyyət və cavabdehlik daşımırlar.***»

**AYƏ 12:**

﴿وَلَكُمْ نِصْفُ مَا تَرَكَ أَزْوَاجُكُمْ إِن لَّمْ يَكُن لَّهُنَّ وَلَدٌ فَإِن كَانَ لَهُنَّ وَلَدٌ فَلَكُمُ الرُّبُعُ مِمَّا تَرَكْنَ مِن
بَعْدِ وَصِيَّةٍ يُوصِينَ بِهَا أَوْ دَيْنٍ وَلَهُنَّ الرُّبُعُ مِمَّا تَرَكْتُمْ إِن لَّمْ يَكُن لَّكُمْ وَلَدٌ فَإِن كَانَ لَكُمْ وَلَدٌ فَلَهُنَّ
الثُّمُنُ مِمَّا تَرَكْتُم مِّن بَعْدِ وَصِيَّةٍ تُوصُونَ بِهَا أَوْ دَيْنٍ وَإِن كَانَ رَجُلٌ يُورَثُ كَلاَلَةً أَو امْرَأَةٌ وَلَهُ أَخٌ أَوْ

أُخْتٌ فَلِكُلِّ وَاحِدٍ مِّنْهُمَا السُّدُسُ فَإِن كَانُوَاْ أَكْثَرَ مِن ذَلِكَ فَهُمْ شُرَكَاء فِي الثُّلُثِ مِن بَعْدِ وَصِيَّةٍ يُوصَى بِهَآ أَوْ دَيْنٍ غَيْرَ مُضَآرٍّ وَصِيَّةً مِّنَ اللّهِ وَاللّهُ عَلِيمٌ حَلِيمٌ﴾

**TƏRCÜMƏ:**

***«Əgər arvadlarınızın (sizdən, yaxud başqa bir ərdən) uşağı yoxdursa etdikləri vəsiyyət və ya (boyunlarında olan) borc(un həmin maldan ayrılmasın)dan sonra onların mirasının yarısı sizindir, əgər uşaqları olsa onların mirasının dörddə biri sizindir. Həmçinin əgər sizin (ondan və ya qeyrisindən) övladınız yoxdursa, etdiyiniz vəsiyyət və ya (öhdənizdə olan) borc(un ayrılmasın)dan sonra sizin mirasınızın dörddə biri onundur və əgər övladınız varsa, mirasınızın səkkizdə biri onundır. Əgər irsi bölünən kişi və ya qadının ata, ana və övladı olmasa və onun (ana tərəfdən) bir qardaşı, yaxud (ana tərəfdən) bir bacısı olmuş olsa, o ikisinin hər birinə mirasın altıda biri çatır (və əgər babaları olmasa qalan hissəsi də onlara verilir). Əgər bir nəfərdən çox olsalar (qardaş yaxud bacı və ya hər ikisi olsa), varislərə ziyan vurmaq qəsdi olmayan vəsiyyətdən, yaxud (ölənin boynunda olan) borc(un ayrılmasın)dan sonra onlar malın üçdə birində (bərabər şəkildə) şərikdirlər. (Bu,) Allah tərəfindən olan bir tapşırıqdır. Allah alim və həlimdir.»***

**TƏFSİR:**

### *ƏR-ARVADIN BİR-BİRİNDƏN APARDIĞI İRS*

Bu ayədə ərlə arvadın bir-birindən necə irs aparması bəyan olunur. Əvvəldə buyurulur: Arvadlarınızın övladı olmazsa, onun qoyub getdiyi mal-dövlətin yarısı sizə çatır. Lakin əgər bir, yaxud bir neçə övladı olsa (hətta başqa ərindən olmuş olsa belə), onda onun mal-dövlətinin dörddə-biri sizə çatır.

Əlbəttə, bu bölgü də həyat yoldaşının borclarını qaytardıqdan və malı ilə əlaqədar etdiyi vəsiyyətlərini yerinə yetirdikdən sonradır.

Sonra buyurulur: Sizin övladınız olmazsa, vəfat etdiyiniz zaman arvadlarınız mal-dövlətinizin dörddə-birini irs aparır. Əgər övladınız olsa (hətta başqa arvadınızdan olsa belə), sizin arvadlarınızın payı səkkizdə-birə enir.

Bu bölgü də, əvvəlki bölgülərdə olduğu kimi, mərhumun vəsiyyətinə əməl etdikdən və borclarını qaytardıqdan sonradır.

Sonra bacıların və qardaşların irs hökmü belə bəyan edilir: Əgər bir kişi dünyadan getsə və onun bacıları və qardaşları ondan irs aparsa, yaxud qadın dünyadan getsə və onun bacısı və ya qardaşı olsa onlardan hər biri mərhumun malının altıda-birini irs aparır.

Ayədə qeyd olunan «kəlalə» sözü vəfat etmiş şəxsin ana tərəfdən irs aparan bacı-qardaşlarına deyilir. Bu o haldadır ki, vəfat edən şəxsin (ana tərəfdən) bir qardaşı və bir bacısı qalmış olsun. Əgər birdən artıq olarsa, irsin üçdə-birini irs aparırlar. (Yəni malın üçdə-birini öz aralarında bölüşdürməlidirlər.)

Sonra əlavə edilir: Bu şərtlə ki, əvvəlcə mərhumun vəsiyyətinə əməl edilsin və borcları ödənsin. Həmçinin, vəsiyyət və borcun ödənilməsi icra olunarkən vərəsələrə zərər dəyməsin.

Ayənin axırında bir daha təkid üçün buyurulur: Bu, Allah tərəfindən olan tövsiyədir. Allah elm və helm sahibidir.

Yəni Allahın sizə etdiyi bu tövsiyələri möhtərəm saymalısınız. Çünki Allah sizin mənafe və məsləhətinizi hamıdan yaxşı bildiyi üçün bu hökmləri müqəddər etmişdir.

Eləcə də vəsiyyət edənlərin niyyətlərindən də agahdır. Bununla yanaşı, elm sahibidir və Onun fərmanı ilə müxalifət edənləri də dərhal cəzalandırmaz.

### AYƏ 13:

﴿ تِلْكَ حُدُودُ اللّهِ وَمَن يُطِعِ اللّهَ وَرَسُولَهُ يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَلِكَ الْفَوْزُ الْعَظِيمُ ﴾

**TƏRCÜMƏ:**

***«Bunlar Allahın sərhədləridir (Onun sərhəd kimi pozulmaz hökmləridir). Kim Allaha və Onun peyğəmbərinə itaət etsə, (Allah) onu (ev və ağaclarının) altından həmişə çaylar axan Cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalarlar. Budur böyük uğur və nailiyyət!»***

**TƏFSİR:**

İrs qanunu ilə əlaqədar keçən ayələrdə irəli çəkilən məsələlərin ardınca bu ayədə ilahi hədd-hüduddan və qanunlardan söhbət açılır və buyurulur: Bunlar Allahın təyin etdiyi hədd-hüdud və sərhədlərdir ki, bunları aşmaq hər bir halda qadağandır. Hər kəs bu həddi-hüdudu aşaraq onlara təcavüz etsə, günahkar və müqəssir hesab olunacaqdır.

Sonra buyurulur: Hər kəs Allaha və Onun Rəsuluna itaət etsə və bu hədd-hüdudu möhtərəm saysa, ağaclarının altından çaylar axan behişt bağlarına daxil olacaq və orada əbədi qalacaqdır.

Ayənin axırında buyurulur: Bu da böyük qələbə və qurtuluşdur.

### AYƏ 14:

﴿ وَمَن يَعْصِ اللّهَ وَرَسُولَهُ وَيَتَعَدَّ حُدُودَهُ يُدْخِلْهُ نَارًا خَالِدًا فِيهَا وَلَهُ عَذَابٌ مُّهِينٌ ﴾

**TƏRCÜMƏ:**

***«Kim Allaha və Onun peyğəmbərinə itaətsizlik etsə və Onun (müəyyənləşdirdiyi) sərhədlərini aşsa (Onun hökmlərinə qarşı çıxsa), (Allah) onu həmişəlik qalacağı oda daxil edəcək və onun üçün alçaldıcı bir əzab vardır.»***

**TƏFSİR:**

Yuxarıdakı ayədə qeyd olunanların müqabilində olanlara bu ayədə işarə edilir və buyurulur: Allaha və Onun Peyğəmbərinə itaətsizlik edənlər, Allahın təyin etdiyi həddi-hüdudu keçənlər üçün cəhənnəm odu vardır və orada əbədi qalacaqlar.

Nəhayət, onların axır-aqibətlərinə işarə edilir və buyurulur: Onlar üçün xaredici əzab vardır.

Birinci cümlədə ilahi cəzaların fiziki və cismani yönləri, sonrakı cümlədə isə həmin cəzaların mənəvi yönü olan ifşa məsələsi irəli çəkilmişdir.

**AYƏ 15:**

﴿وَاللاَّتِي يَأْتِينَ الْفَاحِشَةَ مِن نِّسَآئِكُمْ فَاسْتَشْهِدُواْ عَلَيْهِنَّ أَرْبَعةً مِّنكُمْ فَإِن شَهِدُواْ فَأَمْسِكُوهُنَّ فِي الْبُيُوتِ حَتَّىَ يَتَوَفَّاهُنَّ الْمَوْتُ أَوْ يَجْعَلَ اللّهُ لَهُنَّ سَبِيلاً﴾

**TƏRCÜMƏ:**

***«(Ey İslam hakimiləri,) qadınlarınızdan çirkin əmələ (zinaya və ya müsahiqəyə) mürtəkib olanlara qarşı (bu töhməti vuran şəxsin vasitəsi ilə) özünüzdən (möminlərdən) dörd kişinin şahidlik etməsini istəyin. Beləliklə əgər şəhadət versələr, onları (bu əməlin cəzası olaraq əbədi həbs kimi) ölüm yetişərək onların canını alana və ya Allah onlar üçün (başqa) bir yol açana qədər evlərdə saxlayın. (Bu hökm İslamın ilkin çağlarında mövcud olub. Sonralar digər bir yol kimi onlara zina üçün müəyyənləşdirilmiş cəza növünün icra olunması göstərilib.)»***

**TƏFSİR:**

Bu ayədə çirkin zina əməlinə mürtəkib olan ərli qadınlara veriləcək cəzaya işarə olunur: Sizin qadınlarınızdan zinaya mürtəkib olanlar üçün müsəlman kişilərdən dörd nəfəri şahid tutun. Əgər bu dörd nəfər onların zina etməsinə şahidlik etsələr, qadınlarınızı əcəlləri gəlib çatana qədər evlərinizdə həbs edin.

Buna əsasən ərli qadınların iffət-namusla zidd olan yaramaz zina əməlinin cəzası «əbədi həbs» kimi təbir olunmuşdur. Lakin bunun ardınca dərhal buyurulur: yaxud Allah tərəfindən onlar üçün müəyyən bir yol qərar verildiyi vaxta qədər onları həbs edin. Bu təbirdən aydın olur ki, bu hökm müvəqqətidir və sonradan gələcək daş-qalaq hökmü ilə qüvvədən düşür. Bu məsələ fiqh və hədis kitablarında mövcuddur.

**AYƏ 16:**

﴿وَاللَّذَانَ يَأْتِيَانِهَا مِنكُمْ فَآذُوهُمَا فَإِن تَابَا وَأَصْلَحَا فَأَعْرِضُواْ عَنْهُمَا إِنَّ اللّهَ كَانَ تَوَّابًا رَّحِيمًا﴾

**TƏRCÜMƏ:**

***«(Ey İslam hakimləri) sizlərdən həmin əməli (zinanı) etmiş hər iki nəfəri (arvadı olmayan kişi ilə əri olmayan qadını ilahi cəza növünün icrası ilə) incidin. Əgər (cinayətlərinin qazının yanında sübut olunmasından qabaq) tövbə etsələr və (özlərini) düzəltsələr, onlardan vaz keçin. Həqiqətən Allah həmişə tövbələri qəbul edən və mehribandır.»***

**TƏFSİR:**

Bu ayədə qeyri-möhsinə adlı iffətə zidd olan zina əməlinin hökmü bəyan olunur və buyurulur: Çirkin zina əməlinə mürtəkib olan subay kişi və qadına əzab-əziyyət verin (cəzalandırın).

Bu ayədə qeyd olunan cəzalandırılma ümumi bir cəza qanunudur. «Nur» surəsinin ikinci ayəsinə əsasən bu cür zina əməlinə mürtəkib olan tərəflərin hər birinə yüz şallaq zərbəsi vurulur. Həmin ayə də bu ayənin bir növ təfsir və izahıdır.

Ayənin axırında bu cür günahkarlar üçün tövbə, əfv və güzəştə getməyin mümkünlüyünə işarə edilir və buyurulur: Əgər onlar doğrudan da tövbə edərək özlərini islahetmə məqamına gəlsələr, eləcə də keçmiş əməllərini yaxşı işlər vasitəsilə ört-basdır etməyə başlasalar onları cəzalandırmayıb güzəştə gedin. Çünki Allah tövbələri qəbul edən və mehribandır.

Bu hökmdən məlum olur ki, öz günahlarından tövbə edənlər əvvəlki günahlarına görə məzəmmət olunmamalıdır.

## AYƏ 17:

﴿ إِنَّمَا التَّوْبَةُ عَلَى اللّهِ لِلَّذِينَ يَعْمَلُونَ السُّوَءَ بِجَهَالَةٍ ثُمَّ يَتُوبُونَ مِن قَرِيبٍ فَأُوْلَئِكَ يَتُوبُ اللّهُ عَلَيْهِمْ وَكَانَ اللّهُ عَلِيماً حَكِيماً ﴾

### TƏRCÜMƏ:

***«Əslində (qəbulu ilahi vədəyə əsasən) Allahın öhdəsində olan tövbə, çirkin işi nadanlıq üzündən etmiş, sonra tez (ölümlə qarşılaşmamışdan qabaq) tövbə edən kəslər üçündür. Allahın, tövbələrini qəbul etdiyi kəslər onlardır. Allah həmişə bilən və hikmət sahibidir.»***

### TƏFSİR:

Əvvəlki ayələrdə iffətlə zidd olan çirkin zina əməlinə mürtəkib olanların cəzası və tövbə nəticəsində həddin güzəştə gedilməsi aşkar şəkildə bəyan edilmişdir. Bu ayədə isə onun şərtlərindən bəzilərinə işarə olunur və buyurulur: Allah yalnız o kəslərin tövbəsini qəbul edir ki, cəhalət və bilməməzlik üzündən günah etmiş olsunlar.

Bu ayədə «cəhalət» dedikdə məqsəd cinsi ehtirasların tüğyan etməsi, inadkar həvayi-nəfsin insanın əql qüvvəsinə və imanına qələbə çalmasıdır. Belə bir şəraitdə insanın günah barəsində olan elmi aradan getmir, buna baxmayaraq, inadkar və tüğyançı qərizələrin təsiri dairəsində olduğundan əməli olaraq təsirdən düşür. Elm öz təsirini itirdiyi vaxtdan etibarən əməl də cəhalət və nadanlıqla bərabər olur.

Sonrakı cümlədə tövbənin digər bir şərtinə işarə edilir və buyurulur: «Sonra dərhal tövbə edərlər.» Yəni öz işlərindən dərhal peşman olub Allah dərgahına qayıdarlar. Çünki kamil tövbə odur ki, günahın əsər və təsirləri insanın ruh və canından tamamilə silinmiş olsun.

Tövbənin şərtləri qeyd edildikdən sonra ayənin axırında buyurulur: Allah belə şəxslərin tövbəsini qəbul edir. Allah elmli və hikmətlidir.

## AYƏ 18:

﴿وَلَيْسَتِ التَّوْبَةُ لِلَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ حَتَّى إِذَا حَضَرَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ إِنِّي تُبْتُ الآنَ وَلاَ الَّذِينَ يَمُوتُونَ وَهُمْ كُفَّارٌ أُوْلَئِكَ أَعْتَدْنَا لَهُمْ عَذَابًا أَلِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Daim günah edib ölümləri çatan zaman (öləcəyini yəqin edəndə və ya zahiri hissləri Bərzəx aləminin əlamətlərini dərk edəndə) «mən indi tövbə etdim» deyənlər və həmçinin küfr halında ölənlər üçün tövbə yoxdur (onların tövbələri qəbul olunmaz). Ağrılı bir əzab hazırladığımız kəslər onlardır.»***

**TƏFSİR:**

Bu ayədə Allah dərgahında tövbələri qəbul olunmayanlardan söhbət açılır və buyurulur: Ölmək ərəfəsində olan və «indi günahlarımdan tövbə etdim» – deyənlərin tövbələri qəbul olunmayacaqdır.

İkinci dəstə isə bu dünyadan küfr halında (kafirlikdə) gedənlərə aiddir. Ayədə onların barəsində «küfr halında ölənlərin tövbəsi qəbul olunmur» – deyə buyurulur.

Həqiqətdə ayə bunu çatdırmaq istəyir ki, sağlam halda imanlı olub tövbə edən, lakin ölüm ayağında, dünyadan imansız gedənlərin keçmiş tövbələri də təsirsiz sayılır.

Ayənin axırında buyurulur: Hər iki dəstədən olanlar üçün dərdli əzab hazırlamışıq.

**AYƏ 19:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ يَحِلُّ لَكُمْ أَن تَرِثُواْ النِّسَاء كَرْهًا وَلاَ تَعْضُلُوهُنَّ لِتَذْهَبُواْ بِبَعْضِ مَا آتَيْتُمُوهُنَّ إِلاَّ أَن يَأْتِينَ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ فَإِن كَرِهْتُمُوهُنَّ فَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَيَجْعَلَ اللّهُ فِيهِ خَيْرًا كَثِيرًا﴾

**TƏRCÜMƏ:**

Bəzi adamlar varlı qadınlarla, onların mal-dövlətlərinə sahib olmaq üçün evlənirlər. Amma onların özlərinə çox da məhəbbət bəsləmirlər. Buna görə də bu ayədə buyurulur:

***«Ey iman gətirənlər, (ərləri ölmüş) qadınları zorla (cahiliyyət adətlərinə uyğun olaraq ərlərinin malları kimi) irs aparmağınız halal deyil. Həmçinin irslərinin sizə çatması üçün varisi olduğunuz qadınların evlənmələrinə mane olmağınız halal deyil. (Eləcə də mehriyyə olaraq) onlara verdiklərinizin bir hissəsini (əllərindən) almaq üçün onları (ərləri olduğunuz qadınları), (itaətsizlik və zina kimi) aşkar çirkin bir iş görmələri istisna olmaqla sıxıntıda qoymayın (amma aşkar çirkin bir iş görmüş olsalar onları halal yollarla sıxıntıda qoymaqla onlardan bir şey ala bilərsiniz). Onlarla yaxşı rəftar edin və əgər onları xoşlamırsınızsa, (yenə də onlarla keçinin, çünki) çox vaxt siz bir şeyi xoşlamırsınız və Allah onda çoxlu xeyir qoyur.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

İmam Baqirdən (ə) nəql olunur ki, bu ayə öz həyat yoldaşları ilə normal şəkildə, bir həyat yoldaşı kimi davranmayan və onları öldükdən sonra mal-dövlətlərinə sahib olmaq məqsədi ilə saxlayanların barəsində nazil olmuşdur.[6]

---

[6] «Məcməül-bəyan», 3-cü cild, səh. 24

**TƏFSİR:**

Bəlkə də bu ayədə yalnız irs aparılan mal nəzərdə tutulur və məqsəd budur ki, vəfat edən kişinin həyat yoldaşı da irs kimi bir kəsə çatmır. Birinci əri vəfat etdikdən sonra o, öz istək və iradəsi ilə yenidən ərə gedə bilər, istədiyi adamla evlənib ailə qura bilər.

***İNCƏ MƏTLƏBLƏR***

1. İslam qadınların hüquqlarını müdafiə edir.
2. Qadınların da malikiyyət hüquqları vardır.
3. Ailə münasibətləri mal-dövləti ələ keçirmək naminə deyil, məhəbbət əsasında qurulmalıdır.
4. Mehriyyənin zorla alınması haramdır.
5. Qadınlarla gözəl və bəyənilən şəkildə rəftar etmək lazımdır.
6. Xeyir işlərdən çoxu xoşagəlməz işlərin arasındadır, buna görə də həmişə ümidvar olmaq lazımdır.

**AYƏ 20:**

﴿ وَإِنْ أَرَدتُّمُ اسْتِبْدَالَ زَوْجٍ مَّكَانَ زَوْجٍ وَآتَيْتُمْ إِحْدَاهُنَّ قِنطَارًا فَلاَ تَأْخُذُواْ مِنْهُ شَيْئًا أَتَأْخُذُونَهُ بُهْتَاناً وَإِثْماً مُّبِيناً ﴾

**TƏRCÜMƏ:**

***«Bir arvadın (əvvəlki arvadınızın) yerinə başqa bir arvad almaq istəsəniz və onlardan birinə (boşamaq istədiyinizə, mehriyyə olaraq) çoxlu mal vermisinizsə, ondan heç nəyi geri almayın. Yoxsa onu (cahiliyyət dövründə adətiniz olan) böhtan, iftira və aşkar günah yolu ilə alacaqsınız?! (Cahiliyyət adəti belə idi ki, qadınlara böhtan atırdılar ki, məcbur olub öz mehriyyələrindən əl çəksinlər)»***

**TƏFSİR:**

Cahiliyyət dövründə bəziləri ikinci arvad almaq istəyəndə birinci arvadına töhmət vurmaqla, iftira atmaqla təzyiqə məruz qoyurdular ki, öz mehriyyəsini bağışlasın, əri də ona təlaq versin. Sonra o həmin mehriyyə ilə başqa bir arvad alırdı. Yuxarıdakı ayə cahilliyyət dövründən miras qalmış bu yanlış adəti məzəmmət edir.

***İNCƏ MƏTLƏBLƏR***

1. İslam nəzərindən ikinci dəfə evlənməyin eybi yoxdur.
2. Təlaq kişinin ixtiyarındadır.

3. İslam dini qadın haqlarını himayə edir və buyurur ki, ikinci dəfə olan evlilik heç vaxt birinci həyat yoldaşının haqqının tapdalanmasına səbəb olmamalıdır.

4. Qadının malikiyyət hüququ vardır və onun bütün var-dövləti, heç bir şey azaldılmadan özünə təhvil verilməlidir.

5. Zülmün ən pis növlərindən biri də camaatın malını mənimsəyib, sonra özünə bəraət qazandırmaq üçün mal sahibinə töhmət vurmaq, onun abır-heysiyyətini aparmaqdır.

**AYƏ 21:**

﴿ وَكَيْفَ تَأْخُذُونَهُ وَقَدْ أَفْضَى بَعْضُكُمْ إِلَى بَعْضٍ وَأَخَذْنَ مِنكُم مِّيثَاقًا غَلِيظًا ﴾

**TƏRCÜMƏ:**

***« Onu necə geri alırsınız halbuki siz (cismi və ruhi cəhətdən əlaqədə olaraq) bir-birinizə yetişmisiniz və onlar sizdən (nikah vasitəsi ilə) möhkəm bir əhd-peyman alıblar!»***

**TƏFSİR:**

Bu ayə göstərir ki, dini təbliğatda nəhy əz münkər edərkən insani atifə və duyğulardan lazımınca istifadə etmək lazımdır. Ayədə buyurulur ki, siz uzun müddət öz həyat yoldaşlarınızla ünsiyyətdə olduğunuz, bir-birinizdən ləzzət aldığınız halda nə üçün nahaq yerə onların mehriyyəsini geri almaq istəyirsiniz?! Həyatda baş verən narahatlıqlar zamanı əvvəlki gözəl günləri, ləzzətləri də yad etmək lazımdır. Evlilik əqdi möhkəm bir əhd-peyman olduğundan onu pozmaq caiz deyildir.

**AYƏ 22:**

﴿ وَلاَ تَنكِحُواْ مَا نَكَحَ آبَاؤُكُم مِّنَ النِّسَاء إِلاَّ مَا قَدْ سَلَفَ إِنَّهُ كَانَ فَاحِشَةً وَمَقْتًا وَسَاء سَبِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Atalarınızın evlənmiş olduğu qadınlarla - (cahiliyyət dövründə olub) keçən istisna olmaqla - evlənməyin. Həqiqətən də bu iş çox çirkin, (Allahın) qəzəb(in)ə səbəb olan və pis bir yoldur.»***

**TƏFSİR:**

Cahiliyyət dövrünün adət-ənənələrindən biri də bu idi ki, bir kəs dünyadan gedəndə onun övladları özlərinin ögey anaları ilə (atasının başqa arvadı ilə) evlənirdilər. Ənsardan Əbu Qeys adlı bir nəfər dünyadan getdi. Onun övladları özlərinin ögey analarına evlənmə təklifini irəli sürdülər. O qadın dedi: "Gərək Peyğəmbərdən bu məsələni soruşub vəzifəmi aydınlaşdıram." Peyğəmbərdən (s) soruşduqda bu ayə nazil oldu və ögey analarla evlilik qadağan edildi.

**AYƏ 23:**

﴿حُرِّمَتْ عَلَيْكُمْ أُمَّهَاتُكُمْ وَبَنَاتُكُمْ وَأَخَوَاتُكُمْ وَعَمَّاتُكُمْ وَخَالاَتُكُمْ وَبَنَاتُ الأَخِ وَبَنَاتُ الأُخْتِ
وَأُمَّهَاتُكُمُ اللاَّتِي أَرْضَعْنَكُمْ وَأَخَوَاتُكُم مِّنَ الرَّضَاعَةِ وَأُمَّهَاتُ نِسَآئِكُمْ وَرَبَائِبُكُمُ اللاَّتِي فِي حُجُورِكُم

مِّن نِّسَآئِكُمُ اللاَّتِي دَخَلْتُم بِهِنَّ فَإِن لَّمْ تَكُونُواْ دَخَلْتُم بِهِنَّ فَلاَ جُنَاحَ عَلَيْكُمْ وَحَلاَئِلُ أَبْنَائِكُمُ الَّذِينَ

مِنْ أَصْلاَبِكُمْ وَأَن تَجْمَعُواْ بَيْنَ الأُخْتَيْنِ إَلاَّ مَا قَدْ سَلَفَ إِنَّ اللّهَ كَانَ غَفُورًا رَّحِيمًا﴾

**TƏRCÜMƏ:**

***«(Qohumlarınızdan məhrəm adlanan yeddi dəstə:) analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaşınızın qızları və bacınızın qızları, (eləcə də süd əmmək və evlənmək yolu ilə digər bir altı dəstə:) süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, arvadlarınızın - yaxınlıq etdiyiniz arvadlarınızın himayənizdə olan qızları - əgər onlarla yaxınlıq etməmisinizsə onda sizə (ananı boşayıb qızla evlənməkdə) bir günah yoxdur-eləcə də (oğulluğa götürdüyünüz deyil) sizin belinizdən olan oğullarınızın arvadları və həmçinin iki bacını bir yerdə (eyni zamanda) almaq-(cahiliyyət dövründə olub) keçən istisna olmaqla-sizə əbədi haram olunmuşdur. Həqiqətən Allah həmişə çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Bu ayədə insana məhrəm, yəni evlənməsi haram olan qadınların adları qeyd olunur. Evlənilməsi haram sayılan və insana məhrəm olan qadınlar üç dəstədir:

1. Təvəllüd səbəbi ilə məhrəm olanlar (buna nəsəbi bağlılıq deyilir).
2. Evlilik səbəbi ilə məhrəm olanlar (buna səbəbi bağlılıq deyilir).
3. Süd verməklə insana məhrəm olanlar.

Məhrəmlərlə evlənmək bu ayənin hökmü nazil olmazdan öncə olsaydı bağışlanırdı.

Qeyd etmək lazımdır ki, məhrəmlərlə evlənmək qədim dinlərdə də haram olmuşdur.[7]

***İNCƏ MƏTLƏBLƏR***

1. Hər bir şeyin (yemək, içmək, müamilə, evlənmə və s.) halal və ya haram edilməsi yalnız Allahın ixtiyarındadır.
2. İnsan öz arvadının əvvəlki ərindən olan qızlarına öz qızı kimi baxmalı, onun tərbiyəçisi olmalıdır. Çünki onun yanında tərbiyə olunur və şəxs də onun atası sayılır.
3. Öz nəslinizdən olan övladların həyat yoldaşları sizə haramdır (məhrəmdir). Amma oğulluğa götürdüyünüz şəxsin həyat yoldaşı məhrəm deyil.
4. İki bacı ilə evlənmək adətən onların bir-birinə həsəd aparmasına səbəb olduğuna, şəxsi və cinsi rəqabət ilə nəticələndiyinə görə onların məhəbbətləri ədavətə səbəb olur, buna görə də yuxarıdakı ayədə bu iş qadağan olunmuşdur.

---

[7] Tövrat, «Sifri ədyan», 18-ci bab, 23-26-cı ayələr

## AYƏ 24:

﴿وَالْمُحْصَنَاتُ مِنَ النِّسَاء إِلاَّ مَا مَلَكَتْ أَيْمَانُكُمْ كِتَابَ اللّهِ عَلَيْكُمْ وَأُحِلَّ لَكُم مَّا وَرَاء ذَلِكُمْ أَن
تَبْتَغُواْ بِأَمْوَالِكُم مُّحْصِنِينَ غَيْرَ مُسَافِحِينَ فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً وَلاَ جُنَاحَ
عَلَيْكُمْ فِيمَا تَرَاضَيْتُم بِهِ مِن بَعْدِ الْفَرِيضَةِ إِنَّ اللّهَ كَانَ عَلِيمًا حَكِيمًا﴾

### TƏRCÜMƏ:

***«Və (həmçinin) ərli qadınlar - (müharibə zamanı kafirlərdən) əsir düşənlər istisna olmaqla - (sizə haram oldu). (Çünki onların ərsiz əsir düşmələri təlaq hökmündədir.) Bunlar (bu hökmlər) Allahın sizin üçün yazdığı və qərara aldıqlarıdır. Bunlardan (sadalanan on dörd qismdən) başqaları sizə halal oldu ki, günahdan çəkinən və zinadan uzaq halda öz mallarınızla (onlarla evlənmək) istəyəsiniz. (Sadalanan on dörd qismdən başqa) müvəqqəti evləndiyiniz qadınların mehriyyələrini vacib (mal) olaraq ödəyin. Vacib mehriyyə təyin olunduqdan sonra (mehriyyənin aradan götürülməsi və ya onun azaldılıb-çoxalması barəsində aranızda) qarşılıqlı razılığa gəldiyiniz şeydə sizin üçün günah yoxdur. Həqiqətən Allah həmişə (işlərin xeyrini) bilən və (şəriət və xilqətdə) möhkəm yaradılış sahibidir.»***

### TƏFSİR:

Kafir qadınların əsirliyə alınması əvvəlki ərindən boşanıb təlaqalma hökmündədir. Eləcə də bir qadının kafirliyə davam edən əri ola-ola özünün iman gətirməsi də onun öz ərindən ayrılmasına səbəb olur.

İslam nəzərindən ərli qadınlarla evlənmək, millət və dinindən asılı olmayaraq haramdır. Lakin bir arvadın kafirlərdən əsir alınması ona təlaq verilməsi hökmündədir və qadın əsir düşdükdən sonra bir heyz müddətində, hamilə olduqda isə doğuşa qədər iddə saxlamalıdır. İddə müddətində cinsi məsələlər caiz deyildir. Bu cür (daimi, yaxud müvəqqəti) evlənmə onların kafirlərə qaytarılması, yaxud başsız qoyulmasından daha yaxşıdır.

Əhli-Beytin (ə) buyurduğuna, eləcə də əksər sünni müfəssirlərinin dediyinə görə, «***fəməstəmtətum***» cümləsi müvəqqəti evliliyə – mütəyə dəlalət edir.

## AYƏ 25:

﴿وَمَن لَّمْ يَسْتَطِعْ مِنكُمْ طَوْلاً أَن يَنكِحَ الْمُحْصَنَاتِ الْمُؤْمِنَاتِ فَمِن مِّا مَلَكَتْ أَيْمَانُكُم مِّن فَتَيَاتِكُمُ
الْمُؤْمِنَاتِ وَاللّهُ أَعْلَمُ بِإِيمَانِكُمْ بَعْضُكُم مِّن بَعْضٍ فَانكِحُوهُنَّ بِإِذْنِ أَهْلِهِنَّ وَآتُوهُنَّ أُجُورَهُنَّ
بِالْمَعْرُوفِ مُحْصَنَاتٍ غَيْرَ مُسَافِحَاتٍ وَلاَ مُتَّخِذَاتِ أَخْدَانٍ فَإِذَا أُحْصِنَّ فَإِنْ أَتَيْنَ بِفَاحِشَةٍ فَعَلَيْهِنَّ
نِصْفُ مَا عَلَى الْمُحْصَنَاتِ مِنَ الْعَذَابِ ذَلِكَ لِمَنْ خَشِيَ الْعَنَتَ مِنْكُمْ وَأَن تَصْبِرُواْ خَيْرٌ لَّكُمْ وَاللّهُ
غَفُورٌ رَّحِيمٌ﴾

### TƏRCÜMƏ:

***«Sizlərdən azad və mömin qadınlarla evlənməyə maddi imkanı olmayan şəxs malik olduğunuz kənizlərdən cavan və mömin qızlarla evlənsin. Allah imanınızı***

***daha yaxşı bilir. Hamınız bir-birinizdənsiniz (hamınız iman telləri vasitəsi ilə bir-birinizə bağlanmış bədənin üzvlərisiniz). Buna görə də sahiblərinin icazəsi ilə onlarla evlənin və mehriyyələrini zina əhli və gizlin aşnası olana deyil, namuslu olduqları təqdirdə gözəl bir tərzdə onlara ödəyin. Beləliklə əgər bu qadınlar (kənizlər) evlənəndə(n sonra) çirkin işə (zinaya) mürtəkib olsalar, onların cəzası azad qadınlar üçün olanın yarısı qədərdir. (Kənizlə evlənməyə verilən) bu (icazə) sizin (subaylıq) məşəqqət(in)dən və (zinanın) zərər(in)dən qorxanınız üçündür. Sizin üçün səbr etmək daha yaxşıdır. Allah çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Evlilik mövzusunun davamında bu ayədə kənizlərlə evlənmə şərtləri bəyan edilir. Əvvəldə buyurulur: İmanlı, pak, iffətli və azad qadınlarla evlənmə qüdrətinə malik olmayanlar imanlı kənizlərlə evlənə bilərlər, çünki adətən, onların mehriyyələri az və sair xərcləri yüngüldür.

Sonra buyurulur: Siz onların imanlı olmasını ayırd edərkən batininə deyil, zahiri əlamətlərinə diqqət yetirməyə vəzifəlisiniz. Allah sizin iman və əqidənizə hamıdan artıq agahdır.

Bəziləri kənizlərlə evlənməyə ikrah hissi ilə yanaşdığından Quran buyurur: Sizin hamınız bir atadan və bir anadan dünyaya gəlmisiniz, bəzileriniz bəzilərinizdəndir. Buna əsasən kənizlərlə evlənməyə ikrah hissi ilə yanaşmamalısınız.

Sonra belə evlənməyin şərtlərindən birinə işarə edilir: Bu evlilik kəniz sahibinin icazəsi ilə baş verməlidir. Onun icazəsi olmadan batil sayılır.

Sonrakı cümlədə buyurulur: Onların mehriyyələrini özlərinə verin.

Bu cümlədən məlum olur ki, mehriyyə onların öz vəziyyətlərinə münasib və layiqli şəkildə verilməlidir, həmçinin onu kənizin özünə vermək lazımdır. Eləcə də məlum olur ki, qullar qanuni yolla əldə etdikləri mal-dövlətə sahib ola bilərlər.

Bu evliliyin şərtlərindən biri də budur ki, onlar gərək iffətli olsunlar, aşkarda zina əməlinə mürtəkib olmasınlar.

Sonrakı cümlədə kənizlərlə evlənmə və onların hüquqlarının müdafiəsi, eləcə də iffətə zidd olan zina əməlinə mürtəkib olduqları zaman cəzalandırılmaları hökmü qeyd olunur. Belə ki, əgər iffətə zidd olan zina əməlinə mürtəkib olsalar, azad qadınlar barəsində icra olunan hökmün (cəza tədbirinin) yarısı onlar üçün icra olunacaq, yəni onlara təkcə 50 şallaq zərbəsi vurulacaqdır.

Sonra buyurulur: O kəslər kənizlərlə belə evlənə bilər ki, cinsi qərizə onlara çox şiddətli təzyiq göstərsin və azad qadınlarla evlənməyə imkanları olmasın. Deməli, belə evlilik qeyd olunanlardan başqası üçün caiz deyildir.

Sonra buyurulur: Bir sıra əxlaqi və ictimai məsələlərə görə belə evlilikdən uzaq olmaq sizin xeyrinizədir (bu iş gərək zərurət miqdarında yerinə yetirilsin və siz günaha aludə olmayasınız).

Ayənin axırında buyurulur: Allah sizin, xəbərsizlik ucbatından keçmişdə etdiyiniz əməlləri bağışlayandır və O, mehribandır.

**AYƏ 26:**

﴿ يُرِيدُ اللّهُ لِيُبَيِّنَ لَكُمْ وَيَهْدِيَكُمْ سُنَنَ الَّذِينَ مِن قَبْلِكُمْ وَيَتُوبَ عَلَيْكُمْ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ ﴾

**TƏRCÜMƏ:**

***«Allah (dinin hökm və maarifini) sizə aydınlaşdırmaq, sizi sizdən əvvəlkilərin (dini) adətlərinə hidayət etmək və nəzərini sizə yönəltməklə tövbənizi qəbul etmək istəyir. Allah bilən və hikmət sahibidir.»***

**TƏFSİR:**

***BU MƏHDUDİYYƏTLƏRİN SƏBƏBİ***

Əvvəlki ayələrdə evlilik məsələləri ilə əlaqədar bəyan olunan müxtəlif hökmlərin ardınca belə bir sual yarana bilər ki, bu qədər məhdudiyyətlərin qoyulmasında və qanunların təyin edilməsində məqsəd nədir? Bu və ondan sonrakı iki ayədə həmin suallara cavab verilir və buyurulur: Allah bu göstərişlərlə xoşbəxtlik və səadət yollarını sizin üçün aşkar etmək istəyir.

Bunu da qeyd edək ki, siz bu göstərişlərə əməl etməkdə tək deyilsiniz və Allah sizi əvvəlki qövmlərin düzgün sünnələrinə tərəf dəvət edib yol göstərmək istəyir, üstəlik tövbələrinizi də qəbul edir.

Yolunuzdan azdığınıza görə məhrum olunduğunuz nemətlər bir daha sizə qaytarılar, bu şərtlə ki, İslamdan əvvəlki cahiliyyət dövrlərində düşdüyünüz azğın yollardan haqqa tərəf qayıdasınız.

Ayənin axırında buyurulur: Allah elmli və hikmət sahibidir, Öz hökmlərinin sirlərindən tamamilə agahdır, onu Öz hikmət və məsləhəti ilə sizin üçün şəriət qanunu halına salmışdır.

**AYƏ 27:**

﴿ وَاللّهُ يُرِيدُ أَن يَتُوبَ عَلَيْكُمْ وَيُرِيدُ الَّذِينَ يَتَّبِعُونَ الشَّهَوَاتِ أَن تَمِيلُواْ مَيْلاً عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Həmçinin Allah sizə nəzər salmaq istəyir. Nəfsi istəklərə tabe olanlar isə sizin böyük bir əyriliklə (haqq yoldan) sapmağınızı istəyirlər.»***

**TƏFSİR:**

Cinsi azadlıq ilk baxışda bir növ ləzzətdir. Lakin onun fərdi və ictimai zərərlərinə nəzər yetirməklə məlum olur ki, bu iş cəmiyyətin ən böyük süqutu, tənəzzülü və mənəvi inhirafıdır. Heç bir şeyə məhəl qoymadan açıq-saçıq şəkildə olan cinsi ləzzətlər insanın cismini əridir, fikrini daim bu işlərə məşğul edir, mal-dövləti bu yolda puça çıxarır, əmanətdarlığı məhv edib aradan aparır, ailə təşkil etməyə olan rəğbət və meylləri insanlardan alır, cəmiyyətə qanunsuz övladlar təhvil verir, çoxlu ruhi və cinsi xəstəliklər yaradır. Bir sözlə, cinsi azadlıq ardınca ən böyük xəsarət və bədbəxtçiliklər gətirir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Evlənmədə qoyulan şərtlər və məhdudiyyətlər Allah-təalanın insana olan lütf və mərhəmətini göstərir.

2. Heç bir qeyd-şərtə məhəl qoymayan şəhvət ardıcılları sizin şəhvət girdabında qərq olmağınızdan başqa bir şeylə qane olmazlar. Onlar sizi də özlərinə yoldaş etmək istəyirlər.

3. Şəhvətbazların tutduğu yolla getməyin, onları təbliğ etməyin. Çünki onlar sizin düşməninizdir.

**AYƏ 28:**

﴿ يُرِيدُ اللّهُ أَن يُخَفِّفَ عَنكُمْ وَخُلِقَ الإِنسَانُ ضَعِيفًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah (müvəqqəti evlənmək, kənizi almaq və digər qanunlarla) sizə yüngüllük gətirmək istəyir. İnsan (nəfsinin istəkləri müqabilində) zəif və aciz yaradılmışdır.»***

**TƏFSİR:**

Son üç ayədə ardıcıl olaraq Allah-təalanın lütf və mərhəməti irəli çəkilir, O Öz hökmlərini insanlar üçün bəyan edib göstərir. Eləcə də lütf və mərhəmətini onlara qaytarır və işlərində asanlıq olmasını istəyir. Çünki insan cinsi qərizələr tufanı qarşısında çox zəifdir, onun səbr və müqavimət qüdrəti çox azdır.

***İNCƏ MƏTLƏBLƏR***

1. İslam asan bir dindir və onda heç bir çıxılmaz vəziyyət mövcud deyildir.
2. Bu dinin əsası yüngülləşdirmə, hər hansı bir işə qüdrətli və müyəssər olmaq əsasındadır.

**AYƏ 29:**

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلاَّ أَن تَكُونَ تِجَارَةً عَن تَرَاضٍ مِّنكُمْ وَلاَ تَقْتُلُواْ أَنفُسَكُمْ إِنَّ اللّهَ كَانَ بِكُمْ رَحِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, qarşılıqlı razılıq əsasında olan ticarət istisna olmaqla öz aranızda bir-birinizin mallarını haqsız yerə (şəriət və qanuna zidd yollarla) yeməyin. İntihar etməyin, bir-birinizi öldürməyin və özünüzü günah təhlükəsinə atmayın. Həqiqətən Allah sizə qarşı həmişə mehribandır.»***

**TƏFSİR:**

Adam öldürməyin haram və qadağan olunmasının malın batil yolla yeyilməsi ilə yanaşı qeyd olunmasının səbəbi bəlkə də bu ola bilər ki, sağlam olmayan, xəstə iqtisadi sistem cəmiyyətin bir-birini qətlə yetirməsinə, yaxud həlak olmasına şərait yaradır.

***İNCƏ MƏTLƏBLƏR***

1. Fərdi mülkiyyət möhtərəm və toxunulmazdır, düzgün müamilə və razılıq olmadan başqalarının mal-dövlətindən istifadə etmək haramdır.

2. Ümmət və cəmiyyət vahid bir ruha, müştərək bir taleyə malikdir.

3. Haqq əsasında olmayan hər növ istifadələr, o cümlədən qəsb, oğurluq, irsin qarşısını almaq, qumar, mala qatqı qatmaq, saxtakarlıq, fəsad və günah törədən vasitələrin alveri, bir sözlə, batilin nümunəsi olan hər bir əməl haramdır.

4. Alver iki tərəfin razılığı əsasında olmalı, bu məsələdə icbara yol verilməməlidir.

5. İnsanın canı möhtərəmdir (toxunulmazdır), eləcə də insanın həm özünü öldürməsi (intihar etməsi), həm də başqasını öldürməsi haramdır.

**AYƏ 30:**

﴿ وَمَن يَفْعَلْ ذَلِكَ عُدْوَانًا وَظُلْمًا فَسَوْفَ نُصْلِيهِ نَارًا وَكَانَ ذَلِكَ عَلَى اللّهِ يَسِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Onu (başqasının malını yeməyi və birini öldürməyi Allahın hökmünün) hədd(lərin)i aşmaq və (özünə və ya başqalarına) zülm üçün edən kəsi tezliklə (yandırıcı) oda salacaq və odun istiliyini ona daddıracağıq. Bu, Allaha asandır.»***

**TƏFSİR:**

Bu ayədə qeyd olunan «zülm» ilə «üdvan» kəlmələrinin fərqi bəlkə də bu ola bilər ki, «üdvan» başqalarına edilən (haqsızlıq), amma «zülm» insanın özünə etdiyi zülmdür.

**AYƏ 31:**

﴿ إِن تَجْتَنِبُواْ كَبَآئِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُم مُّدْخَلاً كَرِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızı silər və sizi şərəfli bir yerə daxil edərik. (Günahların böyük və kiçik adlandırmaları onların fərdi və ya ictimai fəsadlarına görədir. Amma əslində Allaha itaətsizlik olması baxımından götürüldükdə bütün günahlar böyükdür.)»***

**TƏFSİR:**

Bu ayədən günahların iki növ: kiçik (səğirə) və böyük (kəbirə) olması aydın olur. «Kəhf» surəsinin 49-cu ayəsində qeyd olunur ki, Qiyamət günündə günahkarlar öz əməl dəftərlərini görərkən deyəcəklər: «***Bu necə əməl dəftəridir ki, böyüklü-kiçikli günahların heç biri unudulmamışdır?***»

Rəvayətlərə əsasən, kəbirə günahlar Allah-təala tərəfindən onu görən şəxsə cəhənnəm əzabı vədəsi verilən günahlardır.

Hədislərdə kəbirə günahların sayı müxtəlif qeyd olunur. Böyük alimlərdən bəziləri Quran ayələri və hədislərə istinadən onların sayının 33 olduğunu bəyan etmişlər. Əlbəttə, bu günahların da müəyyən dərəcə və mərtəbələri vardır, buna görə də bəzi günahlara "əkbərul-kəbair", yəni kəbirə günahların ən böyüyü adı verilmişdir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Əqidə və əməli düzgün olan şəxslərin cüzi günah və xətalarını güzəştə getmək lazımdır.

2. Allah-təala böyük günahları tərk edənlərin mükafatı olaraq onların kiçik günahlarından keçir.

Rəvayətlərə əsasən kəbirə günhların ən mühümləri aşağıdakılardan ibarətdir:

1. Allaha şərik qoşmaq.
2. Nahaq yerə adam öldürmək.
3. Valideynin üzünə ağ olmaq.
4. Cihad meydanından qaçmaq.
5. Yetim malını mənimsəmək.
6. Sələmçiliklə məşğul olmaq.
7. İffətli qadına zina töhməti vurmaq.
8. Zina etmək.
9. Livat etmək.
10. Oğurluq.
11. Ölü heyvan əti yemək.
12. Qan içmək.
13. Donuz əti yemək.
14. Zərurət (çıxılmaz hal) olmadan Allahdan başqası üçün kəsilən heyvandan yemək.
15. Çəkidə aldatmaq.
16. Qumar oynamaq.
17. Yalandan şahidlik etmək.
18. Allahın rəhmətindən ümidsiz olmaq.
19. Allahın əzbından əminamanlıq hissi keçirmək.
20. Zalımlara kömək etmək.
21. Zalımlara arxalanmaq.
22. Yalandan and içmək.
23. Başqalarına kin-küdurət bəsləmək və aldatmaq.
24. Başqasının malını nahaq yerə mənimsəmək.
25. Yalan danışmaq.
26. Təkəbbürlük etmək və özünü istəmək əsasında rəftar etmək.
27. İşlərdə israfa yol vermək.
28. Xəyanət etmək.
29. Həcci yüngül saymaq.
30. Allah övliyaları ilə müharibə etmək.
31. Boş-boş işlərlə, musiqi alətləri ilə məşğul olmaq.
32. Sehr və cadugərliklə məşğul olmaq.
33. Namazı tərk etmək.
34. Şərab içmək.

**AYƏ 32:**

**﴿وَلاَ تَتَمَنَّوْاْ مَا فَضَّلَ اللّهُ بِهِ بَعْضَكُمْ عَلَى بَعْضٍ لِّلرِّجَالِ نَصِيبٌ مِّمَّا اكْتَسَبُواْ وَلِلنِّسَاء نَصِيبٌ مِّمَّا اكْتَسَبْنَ وَاسْأَلُواْ اللّهَ مِن فَضْلِهِ إِنَّ اللّهَ كَانَ بِكُلِّ شَيْءٍ عَلِيمًا﴾**

**TƏRCÜMƏ:**

***«Heç vaxt Allahın, vasitəsilə birinizi digərinizdən üstün etdiyi şeyi arzulamayın (kişilər və qadınlar bir-birlərinin şəri, qanuni, cismi və ruhi üstünlüklərini, eləcə də***

***heç bir şəxs və ya dəstə başqasının Allah tərəfindən verilmiş mal, məqam və övlad kimi üstünlüklərini arzulamasın. Çünki bu imtiyaz və üstünlüklər hikmətə və yaradılış aləminin kamilliyinə əsaslanır və ona zidd arzular cəmiyyətdə paxıllığın və fəsadın aşkar olmasına səbəb olur). Kişilərin (ixtiyari və ya qeyri-ixtiyari xüsusiyyətlərlə) qazandıqlarından (əldə etdiklərindən) payları vardır. Həmçinin qadınların qazandıqlarından payları vardır. Allahdan (bir şey istədikdə) Onun fəzlindən istəyin ki, həqiqətən Allah hər bir şeyi biləndir (hər bir kəsə onun xeyrinə olanı verir).»***

### AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bu ayənin nazilolma səbəbi ilə əlaqədar qeyd olunur ki, Peyğəmbərin (s) zövcələrindən biri olan Ümmü Sələmə o Həzrətə (s) ərz etdi: «Nə üçün kişilər cihada gedir, amma qadınlar bu fəzilətdən məhrumdurlar? Nəyə görə bizə kişilərə müqəddər olunan mirasın yarısı verilir? Kaş biz də kişi olaydıq və onlar kimi cihada gedəydik, onların malik olduğu ictimai mövqedən bəhrələnəydik!»

Yuxarıdakı ayə nazil olaraq bu kimi suallara cavab verdi.

### TƏFSİR:

Qadınla kişinin apardığı irs arasındakı fərqlər müsəlmanların zehnində bir sual olaraq qalırdı. Onlar bu fərqlərin səbəbi kimi, həyat xərclərinin ümumiyyətlə kişilərin öhdəsinə düşdüyünü, qadınlara isə bu məsələdə güzəştə gedildiyini, üstəlik öz xərclərinin də kişilərin öhdəsinə olduğunu sanki nəzərə almırdılar. Əvvəldə də qeyd olunduğu kimi, qadınların payı əslində kişilərin payından ikiqat artıqdır. Buna görə də şərif ayədə buyurulur: Allahın sizdən bəzilərinin bəzilərinə nisbətən üstünlük səbəbi ilə əta etdiyi şeyləri heç vaxt arzu etməyin. Çünki bu fərqlərin hər birinin öz hikməti vardır, lakin bu hikmət sizə gizlidir. Əlbəttə, ayədə təbəqələr arasındakı sinfi istismar nəticəsində yaranan saxta təfavütlərə deyil, həqiqi və təbii fərqlərə işarə olunur.

Buna görə də dərhal buyurulur: Qadınlarla kişilərin hər birinin öz mövqe və fəaliyyətlərindən müəyyən bir bəhrələri vardır – istər bunlar qadınla kişini bir-birindən fərqləndirən cins kimi təbii mövqe olsun, istərsə də onların ixtiyari səyləri və işgüzarlıqları xatirinə olan fərqlər olsun.

Sonra buyurulur: Bu kimi fərqlər ilə əlaqədar bəzi yersiz arzular etmək əvəzinə Allahın lütf, mərhəmət və kərəmindən istəyin ki, sizə müxtəlif nemətlər, mövqelər və gözəl mükafatlar əta etsin, nəticədə xoşbəxt və səadətli şəxslər cərgəsində olasınız.

Ayənin axırında buyurulur: Çünki Allah hər şeydən agahdır, O, ictimai quruluşda təbii, yaxud hüquqi baxımdan hansı növ fərqlərin qoyulacağını çox yaxşı bilir. Eləcə də insanların batini sirlərindən agahdır; kimlərin yersiz arzularını, kimlərin də müsbət və qurucu fikirlərdə olmasını daha yaxşı bilir.

### AYƏ 33:

﴿ وَلِكُلٍّ جَعَلْنَا مَوَالِيَ مِمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ وَالَّذِينَ عَقَدَتْ أَيْمَانُكُمْ فَآتُوهُمْ نَصِيبَهُمْ إِنَّ اللّهَ
كَانَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدًا ﴾

### TƏRCÜMƏ:

***«Ata-ana, yaxınlar və (evlilik, cərirə zəmanəti, yaxud köləlikdən azad olma) əhd – peyman(ı) bağladığınız kəslərin qoyub getdikləri hər bir mal üçün varislər müəyyənləşdirmişik (və qohumluğun dərəcələri arasındakı fərq əsasında onlara irs***

***düşür). Hər bir insan üçün (onun) mirası çatan varislər müəyyənləşdirmişik (və onlar) ata-ana və onun (digər) yaxınları, həmçinin (evlilik, cərirə zəmanəti, köləlikdən azad etmə və imamət) əhd-peyman(ı) bağladığınız kəslər(dən ibarət)dir. Odur ki, (ey zəmanənin hakimləri,) onların paylarını özlərinə verin. Şübhəsiz, Allah hər şeyə şahiddir.»***

**TƏFSİR:**

«Əqədət əymanukum» cümləsi İslamdan qabaq iki nəfər arasında bağlanan müqaviləyə işarədir. Bu müqavilə azacıq dəyişikliklə İslamda da qəbul olunmuşdur və fiqhi kitablarda «zaminu cərirə» adlanır. Belə ki, iki nəfər bir-biri ilə əhd bağlayırdı ki, məişətdə qarşılıqlı olaraq bir-birinə yardım, cərimələrin ödənilməsində bir-birinə kömək etsinlər, nəhayət, bir-birindən irs aparsınlar. Bu da müasir dövrdə mövcud olan sığorta məsələsinə oxşayır; əgər bir şəxsə müəyyən qədər xəsarət dəysə, onunla müqavilə bağlayan tərəf (sığorta idarəsi və ya şirkəti) onun əvəzini verir. Bu qanunun özü İslam tərəfindən qəbul olundu, lakin bir-birindən irs aparmaları ölmüş şəxsin heç bir vərəsəsi olmadığı halda qəbul olundu.

***İNCƏ MƏTLƏBLƏR***

1. Qohum-əqrəbanın şəxsdən aparacağı irsin miqdarı Allahın fərmanı əsasında təyin olunur.
2. İnsanın müəyyən şərtlər daxilində öz mülkiyyət hüququnu başqasına verməyə ixtiyarı vardır.
3. Əhd-peymana vəfalı qalmaq vacibdir.
4. Borclular borc verdiyi adamların ardınca getməlidirlər.
5. İnsanın öz ölümündən sonrakı işlərlə əlaqədar bağladığı müqavilələr də möhtərəm sayılır.
6. Allah insanların hər bir işinə nəzarət edir.

**AYƏ 34:**

﴿الرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاء بِمَا فَضَّلَ اللّهُ بَعْضَهُمْ عَلَى بَعْضٍ وَبِمَا أَنفَقُواْ مِنْ أَمْوَالِهِمْ فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِّلْغَيْبِ بِمَا حَفِظَ اللّهُ وَاللاَّتِي تَخَافُونَ نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَاهْجُرُوهُنَّ فِي الْمَضَاجِعِ وَاضْرِبُوهُنَّ فَإِنْ أَطَعْنَكُمْ فَلاَ تَبْغُواْ عَلَيْهِنَّ سَبِيلاً إِنَّ اللّهَ كَانَ عَلِيًّا كَبِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Allah bəzilərini (kişiləri düşüncə, ruh və cismani qüvvə baxımından) digər bəzilərindən (qadınlardan) üstün etdiyi üçün kişilər qadınların ixtiyar sahibidir (və buna görə də cəmiyyətin işlərinin peyğəmbərlik və imamət məqamı ilə, eləcə də məsum tərəfindən təyinatla idarə olunmasını kişilərə məxsus etmişdir). Həmçinin kişilər mallarından (arvadlarına) xərclədikləri üçün öz arvadlarının ixtiyar sahibidirlər. Buna görə də ləyaqətli qadınlar itaətkardırlar və Allahın (onların hüquqlarını) qoruması müqabilində onlar da (ərləri yanlarında olmayanda onların hüquqlarını, sirlərini, mallarını) qoruyurlar. (Müştərək həyatla bağlı məsələlərdə) itaətsizliklərindən qorxduğunuz qadınlara (əvvəlcə) nəsihət edin və (sonra) yataqda onlardan uzaqlaşın və (əgər yenə xeyri olmasa, şəriət qanunu çərçivəsində) onları vurun. Beləliklə əgər sizə itaət etsələr daha (bundan sonra) onlara (əziyyət etmək üçün) bir yol axtarmayın. Həqiqətən Allah məqamı uca və böyükdür.»***

**TƏFSİR:**

## *AİLƏ QURULUŞUNDA BAŞÇILIQ*

Ailə kiçik bir ictimai birlikdən ibarətdir. Buna görə də böyük cəmiyyətdə olduğu kimi, onun da vahid bir rəhbəri, başçısı olmalıdır. Əks halda qadınla kişinin müştərək şəkildə öhdələrinə aldığı himayəçilik heç bir məfhuma malik olmaz. Deməli, onlardan biri ailənin rəisi, digəri isə onun nəzarəti altında olan müavini olmalıdır. Bu ayədə aşkar şəkildə buyurulur ki, ailə başçısı kişi olmalıdır: «***Kişilər qadınların başçısı və gözətçisidir.***»

Əlbəttə, bu təbirdən məqsəd zülm, istibdad, haqsızlıq və zorakılıq deyil, məşvərət və məsuliyyətləri nəzərə almaqla münəzzəm, vahid bir rəhbərliyin zəruri bir iş olmasını çatdırmaqdır.

İki hissədən ibarət olan sonrakı cümlənin əvvəlində buyurulur: İctimai sistem nəzərindən bu başçılıq Allah-təalanın bəzilərinə nisbətən digərləri üçün qərar verdiyi üstünlük xatirinədir.

Cümlənin ikinci hissəsində buyurulur: Həmçinin bu başçılıq kişilərin qadınlara və ailəyə qarşı ödəməli olduqları maddi infaqlarla əlaqədər verdikləri öhdəliklərə görədir.

Sonra əlavə edilir ki, qadınlar ailədə öhdələrinə aldıqları vəzifələrə görə iki dəstəyə bölünür: Birinci dəstə əməlisaleh qadınlardır. Onlar həyat yoldaşlarına qarşı itaətçi, təvazökardır, ərləri yanlarında olmadıqda onların sirlərini və Allahın onlar üçün qərar verdikləri hüquqları qoruyub hifz edirlər. Yəni istər maddi, istər namus baxımından, istərsə də ərləri onların yanında olmadığı surətdə onların sirr və şəxsiyyətlərinin qorunması nəzərindən xəyanətə yol vermir, öz məsuliyyət və vəzifələrini layiqincə yerinə yetirirlər.

İkinci dəstə isə öz vəzifələrini yerinə yetirməkdən imtina edən və itaətsizlik ruhiyyəsinə malik olan qadınlardır. Kişilərin belə qadınlar qarşısında müəyyən vəzifələri vardır ki, mərhələ-mərhələ icra olunmalıdır. İlk mərhələdə buyurulur: Tüğyan və inadkarlıq edəcəyindən qorxduğunuz qadınlara öyüd-nəsihət edin.

İkinci mərhələdə buyurulur: Sizin nəsihətlərinizin faydası olmadıqda yataq yerlərinizi onlardan ayırın.

Üçüncü mərhələdə isə buyurulur ki, qadının öz məsuliyyət və vəzifələri qarşısındakı inadkarlığı həddini keçərsə, öyüd-nəsihət, yataq yerinin ayrı salınaraq etinasızlıq göstərilməsi onlarda heç bir təsir qoymazsa və şiddətli reaksiya göstərməkdən başqa heç bir çıxış yolu olmazsa, onları fiziki cəhətdən tənbeh edib cəzalandırın.

Aydındır ki, bu mərhələlərdən hər biri təsirli olarsa və qadın öz vəzifəsini yerinə yetirməyə başlayarsa, kişinin bəhanə gətirərək ona əziyyət verməyə haqqı yoxdur. Buna görə də bu cümlənin ardınca buyurulur: Əgər sizə itaət etsələr, onlara zülm etmək üçün bir bəhanə axtarmayın.

Ayənin axırında kişilərə bir daha xəbərdarlıq edilir ki, ailə başçılığı mövqeyinizdən sui-istifadə etməyin və bütün qüdrətlərin fövqündə dayanan Allahın qüdrəti barəsində fikirləşin, çünki Allah yüksək məqamlı və böyükdür.

**AYƏ 35:**

﴿ وَإِنْ خِفْتُمْ شِقَاقَ بَيْنِهِمَا فَابْعَثُواْ حَكَمًا مِّنْ أَهْلِهِ وَحَكَمًا مِّنْ أَهْلِهَا إِن يُرِيدَا إِصْلاَحًا يُوَفِّقِ اللّهُ

بَيْنَهُمَا إِنَّ اللّهَ كَانَ عَلِيمًا خَبِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Və (siz, ey şəriət hakimləri, yaxud ey qövmün ağıllıları ) əgər o ikisinin (ər ilə arvadın) arasındakı çəkişmə və ziddiyyətdən qorxsanız, onda bir hakim kişinin ailəsindən və bir hakim qadının ailəsindən göndərin ki, əgər (aranı) düzəltmək qəsdləri olsa, Allah o ikisinin arasında uyğunluq yaradar. Həqiqətən Allah bilən və xəbərdardır.»***

**TƏFSİR:**

***AİLƏDƏ SÜLH YARADAN MƏHKƏMƏ***

Bu ayədə ərlə-arvadın arasında yaranan ixtilaf və çəkişmələrlə bağlı buyurulur: Əgər onların – ərlə arvadın arasında ayrılıq yaranacağından qorxursunuzsa, bir nəfəri kişinin ailəsi tərəfindən, bir nəfəri də qadının ailəsi tərəfindən hakim seçin ki, onların çətinliklərini və münaqişələrini həll etsinlər.

Sonra buyurulur: Əgər hakimlər tam hüsnü-niyyətlə, ürəyiyananlıqla işə başlasalar, məqsədləri də onları barışdırmaq olsa, Allah onlara kömək edər, onların vasitəsi ilə ər-arvad arasında ülfət və mehribanlıq yaradar.

Seçilən bu nümayəndələrə hüsnü-niyyət əsasında əməl etmələrini xatırlatmaq üçün ayənin axırında buyurulur: Allah niyyətlərdən agah və xəbərdardır.

Yuxarıdakı ayədə qeyd olunduğu kimi, ailədə barışıq yaradan məhkəmə İslamın şah əsərlərindən biridir. Bu məhkəmənin bəzi imtiyaz və üstünlükləri vardır ki, bu, başqa məhkəmələrdə gözə dəymir. O cümlədən:

1. Ailə mühitində mövcud olan münaqişəli məsələləri yalnız quru və ruhsuz qayda-qanunlarla həll etmək olmaz. Buna görə də göstəriş verilir ki, bu məhkəmənin hakimləri hər iki tərəflə – ər-arvadla qohum olan şəxslər olmalıdır ki, onların ailədaxili münaqişələrini həll etmək üçün insani duyğulardan, qəlbi atifələrdən istifadə edə bilsinlər.

2. Adi məhkəmələrdə münaqişə tərəfləri özlərini müdafiə etmək, özünün haqq olduğunu isbat etmək üçün bütün sirləri faş etməyə məcbur olurlar. Aydındır ki, ər və arvad ailə münasibətlərində mövcud olan sirləri yad adamlar qarşısında açıb desələr, bir-birinin insani duyğularına toxunarlar. Belə olan halda da əgər məcburi olaraq evə qayıtsalar, artıq əvvəldəki səfa-səmimiyyət və məhəbbət mövcud olmayacaqdır.

3. Adi məhkəmələrin hakimləri əksər hallarda ixtilafların həll edilməsinə laqeyid yanaşırlar. Halbuki ailə münasibətləri ilə əlaqədar təşkil olunan məhkəmələrdə hər iki tərəfin nümayəndəsi imkan daxilində çalışır ki, o iki nəfərin arasında səfa-səmimiyyət və barışıq yaransın. Başqa sözlə desək, «kəsilmiş suyu bir daha arxa döndərsinlər».

4. Bunlardan əlavə, belə məhkəmə digər məhkəmələrdə mövcud olan son dərəcə ağır maddi məbləği tələb etmir.

**AYƏ 36:**

**﴿وَاعْبُدُواْ اللّهَ وَلاَ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَى وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالجَنبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ إِنَّ اللّهَ لاَ يُحِبُّ مَن كَانَ مُخْتَالاً فَخُورًا﴾**

**TƏRCÜMƏ:**

***«Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın, ata-anaya həmçinin qohumlara, yetimlərə, yoxsullara, yaxın qonşulara, uzaq qonşulara, yaxın dostlara (həmkar, məclis yoldaşı, səfər yoldaşı və başqalarına), yolda qalana və sahib olduğunuz qul və kənizlərə layiqli bir yaxşılıq edin. Həqiqətən Allah təkəbbürlü və lovğa şəxsi sevmir.»***

**TƏFSİR:**

Bu ayədə bir sıra hüquqlar – istər Allahın bəndələr üzərindəki hüququ, istərsə bəndələrin öz hüquqları, eləcə də camaatla rəftar və ədəb qaydaları bəyan olunur ki, üst-üstə gəldikdə onlardan aşağıdakı göstərişlər əldə olunur:

1. Əvvəlcə şirki, bütpərəstliyi tərk etmək, yalnız Pərvərdigari-aləmə ibadət və bəndəlik etmək camaata tövsiyə edilir. Çünki bu iş bütün İslami göstərişlərin əsasını təşkil edir. Tövhidə və yeganəpərəstliyə dəvət hər bir faydalı iş görmək üçün insanın ruhunu pak, niyyətini xalis edir, əzm, qərar və iradəsini möhkəmlədir.

Bu ayədə hər şeydən əvvəl Allah-təalanın insan üzərində olan hüquqları bəyan olunur və buyurulur ki, Allaha sitayiş edin və heç bir şeyi Ona şərik qoşmayın.

2. Sonra buyurulur ki, ata-ananıza yaxşılıq edin.

Ata-ananın hüquqları Quranda ən çox qeyd olunan bir məsələlərdəndir. Belə ki, çox az mövzu tapmaq olar ki, bu qədər təkidlə bəyan edilmiş olsun. Quranda dörd yerdə tövhiddən sonra bilavasitə ata-anaya yaxşılıq etmək bəyan olunmuşdur.

3. Həmçinin, yaxın qohum-əqrəbalarınıza da yaxşılıq edin.

Bu da Quranda çoxlu təkidlərlə bəyan edilən məsələlər sırasında olub bəzən «sileyi-rəhim», bəzən də «qohum-əqrəbaya yaxşılıq » adı ilə irəli çəkilir.

4. Sonra yetimlərin hüququ bəyan olunur və imanlı şəxslərə tövsiyə edilir ki, onlara yaxşılıq və ehsan etməyə çalışsınlar. Çünki hər bir cəmiyyətdə müxtəlif hadisələr nəticəsində yetim qalan uşaqların unudulması həm onların öz vəziyyətlərini təhlükə ilə qarşılaşdırır, həm də cəmiyyəti müxtəlif çətinlik və təhlükələrlə təhdid edir.

5. Daha sonra miskinlərin və yoxsulların hüquqları xatırladılır. Çünki hər bir cəmiyyətdə əlil, iş qüvvəsini itirmiş və s. kimi insanlar vardır ki, onların unudulması və onlara laqeyd yanaşılması bütün insani prinsiplərin əksinədir.

6. Sonra isə əvvəlcə yaxın qonşulara yaxşılıq etmək tövsiyə edilir.

7. Daha sonra uzaq qonşular barədə tövsiyə verilir. İslam dinində qonşunun qonşu üzərində olan haqqı çox böyük əhmiyyət kəsb edir. Belə ki, Həzrət Əlinin (ə) məşhur vəsiyyətlərinin birində deyilir: "Peyğəmbəri-Əkrəm (s) qonşular haqqında o qədər tövsiyə etdi ki, biz o Həzrətin (s) qonşuların bir-birindən irs aparacağına dair göstəriş verəcəyini fikirləşdik."

Peyğəmbərdən (s) nəql olunan başqa bir hədisdə deyilir ki, bir gün o Həzrət (s) üç dəfə buyurdu: «Vəllah, billah, la yuminu "Allaha and olsun ki, imanı yoxdur!»

Bir nəfər soruşdu: «Kimin?» Peyğəmbər (s) buyurdu: «O kəsi deyirəm ki, qonşusu onun əzab-əziyyətindən amanda olmasın.»[8]

8. Quran daha sonra insanla müəyyən qədər dost və yoldaş olanlar barəsində tövsiyə edərək buyurur ki, dostunuza və yoldaşınıza yaxşılıq edin.

Əlbəttə, «vəs-sahibi bil-cənb» kəlməsi dost və yoldaşdan daha geniş mənaya malikdir. Beləliklə ayədə insanın cəmiyyətdə yaxşı rəftarı ilə əlaqədar ümumi və külli

---

[8] «Biharul-ənvar», 74-ci cild, səh. 152

göstəriş verilir: istər həqiqi dostlar olsun, istər həmkarlar, istər səfər yoldaşları, istər insana müraciət edənlər, istər şagird, istərsə də müşavir.

9. Barəsində tövsiyə olunan növbəti dəstə isə qürbət ölkədə (maddi köməyə) möhtac olan şəxslər – öz vətənlərində imkanlı olsalar belə, müəyyən səbəblər üzündən səfəri davam etdirməyə imkanı olmayanlar barəsində tövsiyə edilir.

10. Ayənin axırında varlıların ixtiyarında olan xidmətçilərə – qullara yaxşılıq etmək barəsində tövsiyə edilir və buyurulur ki, sahibi olduğunuz qullara yaxşılıq edin.

Bu ayə həqiqətdə Allahın hüquqları ilə başlanır və xidmətçilərin hüququ ilə sona çatır. Bunlar barəsində təkcə bu ayədə deyil, Quranın müxtəlif ayələrində də söhbət açılmışdır.

Ayənin axırında xəbərdarlıq etməklə yanaşı buyurulur ki, Allah təkəbbürlüləri və öyünənləri sevmir. Belə ki hər kəs Allahın əmr və fərmanlarından imtina etsə, təkəbbür edərək qohum-əqrəbasının, ata-anasının, yetimlərin, miskinlərin, yolda qalanların, dost-tanışların hüquqlarını yerinə yetirməkdən boyun qaçırsa, Allah dərgahında sevilənlərdən və Onun mərhəmətinin şamil olduğu şəxslərdən olmaz. Hər kəs də ilahi mərhəmətə layiq görülməzsə, əbədi səadətdən və xeyirdən məhrum olacaqdır.

**AYƏ 37:**

﴾ الَّذِينَ يَبْخَلُونَ وَيَأْمُرُونَ النَّاسَ بِالْبُخْلِ وَيَكْتُمُونَ مَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا ﴿

**TƏRCÜMƏ:**

***«Həmin o kəsləri ki, (mal və elmi sərf etməkdə özləri) xəsislik edir, camaatı da (söz və əməllə) xəsisliyə sövq edirlər və Allahın Öz fəzl və mərhəmətindən onlara verdiyini gizlədirlər. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.»***

**TƏFSİR:**

***RİYA ÜZÜNDƏN OLAN İNFAQLAR VƏ İLAHİ HƏDİYYƏLƏR***

Əvvəlki ayələrdə təkəbbürlülərin və özünü öyənlərin məzəmmət olunmasının ardınca bu ayədə buyurulur ki, təkəbbürlülər o adamlardır ki, nəinki özləri camaata ehsan etməkdən boyun qaçırır, simiclik edir, üstəlik camaatı da simiclik etməyə dəvət edirlər. Bundan əlavə, Allah-təalanın Öz fəzl və mərhəməti ilə onlara əta etdiyi şeyləri həmişə gizlətməyə çalışırlar ki, cəmiyyət üzvlərindən hər hansı birinin onlardan heç bir təvəqqesi olmasın.

Sonra onların işinin axır-aqibəti belə bəyan edilir: «Biz kafirlər üçün xaredici bir əzab hazırlamışıq.»

«Kafirlər» təbiri gətirilməsinin səbəbi bu ola bilər ki, simicliyin mənşəyi əksər hallarda kafirlikdir. Çünki simic adamlar həqiqətdə Allahın sonsuz nemətlərinə iman gətirməmişlər. «Onlar üçün xaredici əzab vardır» – deyə buyurulmasının səbəbi də bu ola bilər ki, onlar təkəbbürlük və özünü öyməyin cəzasını məhz bu yolla görəcəklər.

**AYƏ 38:**

﴾ وَالَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ رِئَاء النَّاسِ وَلاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَمَن يَكُنِ الشَّيْطَانُ لَهُ قَرِينًا فَسَاء قِرِينًا ﴿

**TƏRCÜMƏ:**

***«Həmin o kəslər ki, mallarını riya və camaata göstərmək xatirinə xərcləyirlər və Allaha və axirət gününə imanları yoxdur. Yoldaş və həmdəmi Şeytan olan kəs (bilsin ki,) o çox pis bir həmdəmdir »***

**TƏFSİR:**

Şeytan müəyyən şeyləri bəzən uzaqdan, bəzən isə yaxından təlqin edərək vəsvəsə yaradır. Möminlər onun vəsvəsəsindən daim qaçırlar, amma bəzən şeytan müəyyən adamların əbədi yoldaşı olur. Belə ki, «Zuxruf» surəsinin 36-cı ayəsində buyurulur: «***Hər kəs Allahdan üz döndərsə, onun üçün bir şeytan qərar verərik ki, onunla əbədi müsahib və yoldaş olsun.***»

***İNCƏ MƏTLƏBLƏR***

1. Həm infaqın tərk olunması, həm də riyakarcasına infaq edilməsi qadağan olunmuşdur. Əvvəlki ayədə simiclik məzəmmət olunurdu, bu ayədə isə riyakarcasına edilən ehsan və infaqlar tənqid atəşinə tutulur.
2. Riyakarlıq Allaha və Qiyamət gününə həqiqi imanın olmamasından irəli gəlir. Riyakar insan özü kimi insanlara arxalandığından, axirət savabından məhrumdur.
3. İnfaq və ehsanda əsas hədəf təkcə yoxsulların qarnını doydurmaq deyildir. Çünki bu məqsəd riyakarlıqla da təmin oluna bilər. İnfaqda əsas məqsəd infaq edən şəxsin mənəvi və ruhi yüksəlişidir.

**AYƏ 39:**

﴿ وَمَاذَا عَلَيْهِمْ لَوْ آمَنُواْ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَأَنفَقُواْ مِمَّا رَزَقَهُمُ اللّهُ وَكَانَ اللّهُ بِهِم عَلِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Əgər Allaha və axirət gününə iman gətirsəydilər və Allahın onların ruzisi etdiklərindən xərcləsəydilər, onlara nə ziyanı olardı?! Allah həmişə onları(n halını) biləndir.»***

**TƏFSİR:**

Bu ayədə yuxarıda qeyd olunan şəxslərin halına yanaraq təəssüf izhar edilir və buyurulur ki, əgər onlar bu azğın yoldan qayıdaraq Allaha və Qiyamət gününə iman gətirsəydilər, habelə Allahın onlara əta etdiyi nemətlərdən pak niyyətlə, ixlasla Allahın bəndələrinə infaq etsəydilər və bu yolla da dünya və axirət xoşbəxtliyini əldə etsəydilər, nə olardı?!

Ümumiyyətlə, Allah onların həm əməllərindən, həm də niyyətlərindən xəbərdardır. Buna müvafiq şəkildə də onlara cəza və ya mükafat verəcəkdir.

## AYƏ 40:

﴿ إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ وَإِن تَكُ حَسَنَةً يُضَاعِفْهَا وَيُؤْتِ مِن لَّدُنْهُ أَجْرًا عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, Allah (heç kəsə) zərrə qədər də zülm etməz və əgər həmin miqdarda yaxşı əməl mövcud olsa onu (onun savabını, yaxud eynini axirətdə) ikiqat artırar və Öz tərəfindən böyük bir savab (mükafat) əta edər.»***

**TƏFSİR:**

Bu ayədə əvvəlki ayədə qeyd olunan simiclərə və imansızlara xitabən buyurulur: Allah hətta zərrə miqdarında belə zülmü rəva görməz.

Zərrə əslində çox çətinliklə görünən kiçik qarışqalara deyilir. Lakin tədricən daha ümumi məna kəsb etmiş və hər bir kiçik şeyə aid edilmişdir. Bu gündə cismin ən kiçik hissələrindən olan atoma da zərrə deyilir. Misqal isə ağırlıq mənasında olduğundan «misqalə zərrətin» təbiri «son dərəcə kiçik olan cismin ağırlığı qədər» mənasını ifadə edir.

Sonra buyurulur ki, Allah nəinki zülm etməz, üstəlik əgər yaxşı bir iş görsəniz, onun mükafatını bir neçə qat artırar və Öz tərəfindən bu əməl üçün böyük mükafat verər.

### ALLAH NƏ ÜÇÜN ZÜLM ETMİR?

Adətən, zülmün mənşəyi ya cəhalətdir, ya qorxu, ya ehtiyac, ya hərislik və ya başqa şeylər. Allah-təala da zatən ehtiyacsız, elmli, hər növ eyb və nöqsandan pak olduğu üçün heç vaxt zülm etməz. Bundan əlavə, Allahın Özü bəndələrə ədalətli olmaq və ehsan etməyi əmr etdiyindən Onun zülm etməsi qətiyyən təsəvvür edilə bilməz. Lakin Allahın yaxşı əməllər müqabilində bəndələrinə əta etdiyi mükafat bir neçə qatdır (10 qat, 700 qat, yaxud da daha artıq).

## AYƏ 41:

﴿ فَكَيْفَ إِذَا جِئْنَا مِن كُلِّ أمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هَؤُلاء شَهِيدًا ﴾

**TƏRCÜMƏ:**

***«Buna görə də hər ümmətdən (onların iman, küfr, itaətkarlıq və itaətsizliklərinə şahidlik etmək üçün) bir şahid (peyğəmbərlərini) gətirəcəyimiz və səni də bunlara (bu ümmətə, yaxud o şahidlərə) şahid gətirəcəyimiz zaman (sənin və camaatın halı) necə olacaq?!lərindən) bir şahid gətirdiyimiz və səni də onlara şahid tutduğumuz gün necə olacaq?!»***

**TƏFSİR:**

Bu ayənin məzmunu Rəsuli-Əkrəmin (s) bütün ümmətə şahid olduğunu göstərir. Bu məsələ başqa yerlərdə də qeyd olunmuşdur («Bəqərə» 143, «Nəhl» 89 və s.).

İbn Məsud bu ayəni Peyğəmbəri-Əkrəmin (s) hüzurunda tilavət edəndə o Həzrətin (s) gözlərindən yaş axmağa başladı.[9]

Allah-təala üçün heç bir şahid gətirməyə ehtiyac yoxdur. Lakin insanda belə bir xüsusiyyət vardır ki, şahidlərin nə qədər çox olduğunu hiss edərsə, onun təlim-tərbiyəsi və təqvası üçün də bir o qədər təsirli olar.

Quranın buyurduğuna əsasən, Qiyamətdə şahidlər olduqca çoxdur. O cümlədən: Allah[10], peyğəmbərlər,[11] məsum imamlar,[12] mələklər,[13] yer,[14] zaman,[15] insanın bədən üzvləri.[16] Biz bilməliyik ki, Qiyamət şahidlərin gətirildiyi bir gündür.[17]

### *İNCƏ MƏTLƏBLƏR*

1. Peyğəmbərlər insanlara bu dünyada nümunə, axirətdə isə şahiddirlər.
2. İlahi sünnələrə əsasən hər bir ümmətin peyğəmbəri həmin ümmətə şahid olacaqdır. Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra da bütün xüsusiyyətlərdə o Həzrət (s) kimi olanlar (məsum imamlar) camaata şahiddir. İmam Sadiq (ə) buyurur: «**Hər bir zamanda biz Əhli-Beytdən olan bir imam camaata şahiddir, Rəsuli-Əkrəm (s) də bizə şahiddir.**»[18]

## AYƏ 42:

﴿ يَوْمَئِذٍ يَوَدُّ الَّذِينَ كَفَرُواْ وَعَصَوُاْ الرَّسُولَ لَوْ تُسَوَّى بِهِمُ الأَرْضُ وَلاَ يَكْتُمُونَ اللّهَ حَدِيثًا ﴾

### TƏRCÜMƏ:

***«Həmin gün kafirlər və Allahın elçisinə itaətsizlik edənlər arzu edərlər ki, kaş yerlə (torpaqla) yeksan olaydılar! Allahdan heç bir sözü gizlədə bilməzlər.»***

### TƏFSİR:

Şahidlər gətirilməzdən əvvəl günahkarlar və kafirlər öz günahlarını və fəsad əməllərini inkar edər, özləri üçün bir çıxış yolu axtarar və «Allaha and olsun, biz bu işlərin əhli deyildik» deyərlər («Ənam», 23). Lakin şahidlər həqiqətləri deyən zaman haqqı gizlətməyə heç bir yer qalmaz «kaş torpaqla bir olaydıq!» deyərlər.

### *İNCƏ MƏTLƏBLƏR*

1. Peyğəmbərin hakimiyyətlə əlaqədar verdiyi göstərişlərə itaətsizlik Allaha qarşı kafirliklə bərabərdir.
2. Qiyamət künü həsrət və arzular günüdür.[19]
3. Qiyamət günü heç bir söz və mətləb məxfi qalmayacaqdır.

---

[9] Fəxri Razinin, Mərağinin təfsirlərindən, həmçinin «Səhihi Buxari», «Səhihi Tirmizi», «Səhihi Nisai»dən nəqlən.

[10] «Həcc» surəsi, ayə 17

[11] «Nisa» surəsi, ayə 41

[12] «Bəqərə» surəsi, ayə 143

[13] «Qaf» surəsi, ayə 21

[14] «Zilzal» surəsi, ayə 4

[15] «Nurus-Səqəleyn», 5-ci cild, səh. 112

[16] «Nur» surəsi, ayə 24

[17] «Ğafir» surəsi, ayə 51

[18] «Nurus-Səqəleyn», 1-ci cild, səh. 399

[19] Qur’anda günahkarların həsrətli arzuları «kaş torpaq olaydım», «kaş torpaqda məhv olaydım», «kaş filankəsi özümə dost seçməyəydim», «kaş dünyada əql və təfəkkür sahibi olaydım», «kaş elə ölümlə məhv olub gedəydim» – deyə bəyan edilir.

## AYƏ 43:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى حَتَّىَ تَعْلَمُواْ مَا تَقُولُونَ وَلاَ جُنُبًا إِلاَّ عَابِرِي سَبِيلٍ حَتَّى تَغْتَسِلُواْ وَإِن كُنتُم مَّرْضَى أَوْ عَلَى سَفَرٍ أَوْ جَاء أَحَدٌ مِّنكُم مِّن الْغَآئِطِ أَوْ لاَمَسْتُمُ النِّسَاء فَلَمْ تَجِدُواْ مَاء فَتَيَمَّمُواْ صَعِيدًا طَيِّبًا فَامْسَحُواْ بِوُجُوهِكُمْ وَأَيْدِيكُمْ إِنَّ اللّهَ كَانَ عَفُوًّا غَفُورًا﴾

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, sərxoş halda (sərxoşluğunuz aradan gedənə və) nə dediyinizi bilənə kimi namaza yaxınlaşmayın. Həmçinin müsafir olduğunuz (və onda su tapmadığınız) hal istisna olmaqla cənabətli halda qüsl edənə kimi (namaza yaxınlaşmayın). Eləcə də cənabətli halda qüsl edənə kimi məscidə yaxınlaşmayın. Keçməyiniz (bir qapıdan girib digərindən çıxmaq) istisnadır. Əgər xəstə ya səfərdə ikən, sizdən biri ayaqyolundan gəlmiş, ya qadınlarla yaxınlıq etmiş olsa və su tapmasanız (və ya sudan istifadə etməməyə üzürlü səbəb olsa) pak torpaq axtarın və (iki əlinizi ona vurduqdan sonra) üzünüzə və əllərinizə sürtün. Doğrudan da Allah əfv edən və çox bağışlayandır.»***

**TƏFSİR:**

### *BİR NEÇƏ FİQHİ HÖKM*

Bu ayədə bir neçə şəriət hökmü bəyan olunur:

**1. Məst halında qılınan namazın batil olması.** Şərif ayədə buyurulur: “Ey iman gətirənlər! Məst halında namaza yaxınlaşmayın ki, nə dediyinizi biləsiniz.

Bunun səbəb və fəlsəfəsi də tamamilə aydındır. Çünki bəndə namazda Allahla danışır, Onunla raz-niyaz edir. Bu zaman o, ayıqlığın son həddində olmalıdır. Sərxoş insanlar da bu mərhələdən tamamilə uzaqdırlar.

**2. Cənabət halında namazın batil olması.** Ayədə buyurulur: “Həmçinin cənabətli olduğunuz vaxt da namaza yaxın düşməyin.”

Sonra bu hökmdə mövcud olan istisna hal belə bəyan edilir: “Amma əgər səfərdə olsanız və su da tapa bilməsəniz, bu halda namazı təyəmmümlə qılmalısınız və bunun eybi yoxdur.”

**3. Qüsl etdikdən sonra namaz qılmağın və ya məsciddən keçməyin caiz olması.** Bu da «***hətta təğtəsilu***» (qüsl edənə qədər) cümləsindən başa düşülür.

**4. Üzrü olan şəxslər üçün təyəmmüm etmək.** Həqiqətdə təyəmmümün qanuni hala salınmasının bütün yollarını bəyan edən sonrakı cümlədə əvvəlcə suyun bədənə zərərli olduğu hala işarə edilir və buyurulur: Əgər xəstə olsanız, yaxud səfərə getsəniz, yaxud sizlərdən biri öz təbii ehtiyacını ödəsə (ayaq yolu), yaxud da qadınlarınızla yaxınlıq etsəniz və bu kimi hallarda dəstəmaz və qüsl üçün su tapmasanız, pak-pakizə torpaqla təyəmmüm edin.

Sonrakı cümlədə isə təyəmmüm etməyin qaydası belə bəyan edilir: “Sonra üzünüzə və əllərinizə məsh edin.”

Ayənin axırında bu həqiqət bəyan edilir ki, yuxarıdakı göstəriş bir növ sizin üçün asanlıq və yüngülləşdirmədir. Çünki Allah-təala bağışlayan və mehribandır.

## AYƏ 44:

﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ يَشْتَرُونَ الضَّلاَلَةَ وَيُرِيدُونَ أَن تَضِلُّواْ السَّبِيلَ ﴾

**TƏRCÜMƏ:**

***«Məgər kitabdan (səmavi kitab olan Tövrat və ya İncil elmindən) bir pay verilmiş kəsləri görmədin ki, (həmin kitablardakı mətləbləri gizlətmək və təhrif etməklə öz qövmləri üçün) azğınlığı necə alır və sizin də haqq yoldan azmağınızı istəyirlər?!»***

**TƏFSİR:**

Bu ayədə Allah-təala təəccüb ifadə edən bir ifadə ilə Öz Peyğəmbərinə (s) xitab edərək buyurur: Səmavi kitabdan bir qədər bəhrələri olan bir cəmiyyəti görmədinmi?! Onlar bu kitabdan hidayət və mənəvi təkamül yolunda bəhrələnmək əvəzinə, həm özləri azğınlığa düşdülər, həm də sizin azğınlığa düşməyinizi istəyirlər.

Beləliklə, həm özlərinin, həm də başqalarının hidayət səbəbi olası şey onların pis niyyətləri xatirinə özlərinin azğınlığa düşmələrinə səbəb oldu. Onlar heç vaxt həqiqəti arayıb-axtarmaq istəmir, əksinə, hər şeyə nifaq, həsəd və dünyapərəstlik nəzəri ilə baxırdılar.

**AYƏ 45:**

﴿ وَاللّهُ أَعْلَمُ بِأَعْدَائِكُمْ وَكَفَى بِاللّهِ وَلِيًّا وَكَفَى بِاللّهِ نَصِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Kifayətdir ki, Allah sizin dost və başçınız olsun və kifayətdir ki, Allah sizin yardımçınız olsun!»***

**TƏFSİR:**

Bu ayədə buyurulur ki, bu kimi insanlar dost paltarında olub özlərini dost kimi göstərsələr də sizin həqiqi düşmənləriniz məhz onlardır. Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır.

Onların sizin səadətə çatıb hidayət olunmağınızla müxalifət etmələrindən də artıq düşmənçilik ola bilərmi?! Onlar bəzən dildə sizə xeyirxahlıq etmək istədiklərini deyirlər, amma başqa yerdə sizin bədxahınızdır və öz mənfur niyyətlərini həyata keçirmək üçün hər vaxt bir cildə düşürlər.

Lakin siz onların ədavətindən heç vaxt vəhşət və qorxu hissi keçirməyin. Çünki siz yalqız,köməksiz deyilsiniz. Allah sizin rəhbər və köməkçinizdir, Onun sizə köməkçi olması da kifayətdir.

**AYƏ 46:**

﴿مِّنَ الَّذِينَ هَادُواْ يُحَرِّفُونَ الْكَلِمَ عَن مَّوَاضِعِهِ وَيَقُولُونَ سَمِعْنَا وَعَصَيْنَا وَاسْمَعْ غَيْرَ مُسْمَعٍ وَرَاعِنَا لَيًّا بِأَلْسِنَتِهِمْ وَطَعْنًا فِي الدِّينِ وَلَوْ أَنَّهُمْ قَالُواْ سَمِعْنَا وَأَطَعْنَا وَاسْمَعْ وَانظُرْنَا لَكَانَ خَيْرًا لَّهُمْ وَأَقْوَمَ وَلَكِن لَّعَنَهُمُ اللّهُ بِكُفْرِهِمْ فَلاَ يُؤْمِنُونَ إِلاَّ قَلِيلاً﴾

**TƏRCÜMƏ:**

***«Yəhudilərdən bəziləri (Tövratın) kəlmələrin(in) yerini (dəyişib) təhrif edir və dillərini (ərəb ləhcəsində olduğu kimi) əyməklə və dinə tənə vurmaq məqsədilə deyirlər: «Eşitdik və (batində deyirlər) itaətsizlik etdik və eşit ki, eşitməyəsən».***

***(Onların bu sözlərinin zahiri mənası budur ki, pis eşitməyəsən. Lakin onu deməkdən məqsədləri budur ki, kar olasan yaxud yaxşı söz eşitməyəsən.) Həmçinin «raina» deyirlər (ki, onun mənası ərəb dilində «bizi riayət et», ibrani dilində isə «ey bizim çobanımız» deməkdir)! Əgər onlar «eşitdik və itaət etdik və eşit və bizə nəzər sal» desəydilər, şübhəsiz (bu) onlar üçün daha yaxşı və düzgün olardı. Lakin Allah onları küfrləri vasitəsilə lənətləmiş və (rəhmətindən) uzaqlaşdırmışdır. Buna görə də onların yalnız az bir hissəsi iman gətirər (və ya onlar həqiqətlərin yalnız az bir qisminə iman gətirərlər).»***

**TƏFSİR:**

«Səmina və əsəyna» (eşitdik və asi olduq) təbiri məsxərə üzündən deyilən bir sözdür və mənası «səndən demək, bizdən isə eşitməmək»dir.

Müsəlmanlar Peyğəmbəri-Əkrəmə (s) «raina» deyirdilər, məqsədləri də «bizi gözlə, bizi də nəzərə al» demək idi. Amma yəhudilər bu kəlməni təhrif edərək çox pis və yaramaz bir məna nəzərdə tuturdular. Çünki bu kəlmə «rəy» kökündən alınarsa «nəzərə almaq», «rəunə» kökündən alınarsa və nun hərfi təşdidlə – «rainna» kimi oxunarsa «bizi axmaq hesab et» mənasını ifadə edir. Yəhudilər dillərini əyərək kəlmə və hərflərin yerini dəyişir və müsəlmanları təhqir edir, məsxərəyə qoyurdular.

Əvvəlki ayədə də onların müsəlmanları azdırmaq məqsədləri, özlərinin dindən çıxmaları və kafirlikləri bəyan olunmuşdu. Məhz bu inad səbəbilə hidayət nurunu əldən verdiklərindən, Allah tərəfindən lənətə düçar oldular.

**AYƏ 47:**

﴿يَا أَيُّهَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ آمِنُواْ بِمَا نَزَّلْنَا مُصَدِّقًا لِّمَا مَعَكُم مِّن قَبْلِ أَن نَّطْمِسَ وُجُوهًا فَنَرُدَّهَا
عَلَى أَدْبَارِهَا أَوْ نَلْعَنَهُمْ كَمَا لَعَنَّا أَصْحَابَ السَّبْتِ وَكَانَ أَمْرُ اللّهِ مَفْعُولاً﴾

**TƏRCÜMƏ:**

***«Ey (səmavi) kitab verilmiş kəslər, bəzi üzləri məhv edərək arxalarına çevirməmişdən (cisimlərini bu hala salmamışdan və ya ruhlarını imandan küfrə döndərməmişdən), yaxud Əshabus-səbti (şənbə günü balıq tutan balıqçıları) lənətlədiyimiz (və eybəcər hala saldığımız) kimi onlara da lənət edərək (rəhmətimizdən) uzaqlaşdırmamışdan qabaq yanınızda olan (din və kitab)ın təsdiqi olan (və bu Peyğəmbərin və onun kitabının sizin yanınızda olan əlamətləri ilə uyğun gələn) nazil etdiyimizə (Qurana) iman gətirin. Allahın əmri həmişə yerinə yetəndir.»***

**TƏFSİR:**

***ÜZLƏRİN MƏHV EDİLİB ÇEVRİLMƏSİ***

Məqsəd insan qəlbinin, sağlam fitrətinin, əql qüvvəsinin səadət və xoşbəxtlik yolundan döndərilməsi ola bilər ki, bu da ilahi ayələrin müqabilində inadkarlıq göstərməyin nəticəsidir. Onlar irəliləmək əvəzinə geri qayıdırlar, insani çöhrələri və əql qüvvələri məsx olunaraq məhv edilir. Eləcə də Qiyamətdə zahiri üzlərin arxaya çevrilməsinə, məsx olunmasına və şəklinin dəyişilməsinə işarə ola bilər.

«Şənbə gününün səhabələri» dedikdə qanun pozan yəhudilər nəzərdə tutulur. Belə ki onlar şənbə günündə balıq ovunun haram edilməsi ilə əlaqədar Allahın fərmanına

qarşı çıxaraq itaətsizlik etdilər və şəri bir hiylə işlədərək həmin işi yerinə yetirdilər. Nəticədə ilahi əzaba düçar oldular; onların üzləri meymun şəklinə çevrildi.[20]

Bütün ilahi peyğəmbərlərin proqramlarında əsas və ümumi prinsiplər bir-birilə uyğundur, buna görə də dəvət üslubunda və təbliğ yollarında başqa din ardıcılları ilə olan müştərək etiqadlara ehtiramla yanaşmaq lazımdır.

***İNCƏ MƏTLƏBLƏR***

1. İslam digər din ardıcıllarını da Allah dininə dəvət edir.
2. Elm xadimləri və agah şəxsiyyətlər daha artıq məsuliyyət daşıyır və Allah dinində əsas etibarı ilə onlara xitab olunur.
3. İnadkarlar qarşısında müxtəlif təhdid növlərindən istifadə etmək lazımdır.
4. Təhdidin təsirli olması üçün əyani və əməli misalları xatırlatmaq lazımdır.
5. Tarix boyu inadkarların cəzalandırılması üçün ilahi əzab göndərilməsi ilahi bir qanundur.
6. Allahın fərmanının həyata keçməsi qəti və labüddür.

**AYƏ 48:**

﴿ إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدِ افْتَرَى إِثْمًا عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, Allah Ona şərik qoşulmasını (bu günahı) bağışlamaz və ondan başqasını (yaxud ondan kiçik günahları) istədiyi şəxs üçün (tövbəsiz) bağışlayar. Allaha şərik qoşan kəs həqiqətən böyük bir günah uydurmuşdur.»***

**TƏFSİR:**

Şirk məsələsi Quranda Allahdan qeyrisinə diqqət yetirib sığınmaq, bütə pərəstiş etmək, riyakarlıq, ilahi olmayan yönlərə təmayül, materializm və s. kimi adlardan istifadə olunaraq 200 dəfədən artıq irəli çəkilmişdir. Bu ayənin məzmunu eynilə 116-cı ayədə də təkrar olunmuşdur (təkrar bir növ hidayət amilidir). Şirk haqq mehvərindən çıxmaq, Allahdan birdəfəlik qırılmaq və başqasına qovuşmaq olduğundan heç vaxt bağışlanmır. Çünki bu işdə müşrik şəxsin özü müqəssir sayılır.

Əgər müşrik şəxs də şirkdən əl çəkib həqiqi mənada tövbə etsə Allah onu bağışlayar. «Zümər» surəsinin 54-ü ayəsində buyurulur: «***Həqiqətən Allah bütün günahları bağışlayır, belə isə Allahın rəhmətindən məyus olmayın, tövbə edib Onun dərgahına qayıdın.***»

Həzrət Əlidən (ə) nəql olunan bir hədisdə buyurulur: «***Bu ayə Quran ayələri içərisində ən çox ümidverici ayədir.***» («Təfsiri Safi»).

Allahın hikmətli rəhmət nəzərinin kimə doğru yönəldiyini heç kəs bilmədiyindən qürur hissi geçirməyə, günah əmələ cürətlənməyə heç bir əsas qalmır.

Bağışlanmağın bir neçə amili var:
1. Tövbə.
2. Yaxşı əməllər görmək.
3. Böyük günahlardan uzaq olmaq.
4. Şəfaət.

---

[20] «Ə’raf» surəsi, 162-ci ayə.

5. İlahi əfv (sonuncusu yuxarıdakı ayədə qeyd olunmuşdur).

***İNCƏ MƏTLƏBLƏR***

1. Şirk ən mənfur bir günah, ilahi məğfirətə mane olan bir amildir.
2. Günahların bağışlanması Allahın hikmətli iradəsinə aiddir.

**AYƏ 49:**

﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ يُزَكُّونَ أَنفُسَهُمْ بَلِ اللّهُ يُزَكِّي مَن يَشَاء وَلاَ يُظْلَمُونَ فَتِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Özlərini təmizə çıxarıb tərifləyənləri görmədinmi?! (Bəşər övladına özünü tərifləmək yaraşmaz„) əksinə istədiyinin pak olmasını tərifləyən Allahdır. (Əgər Allah onları tərifləməsə və onlara özlərini tériflədiklərinə görə əzab versə) onlara xurma çərdəyinin üzərində olan nazik sap qədər də zülm olunmaz.»***

**TƏFSİR:**

Özünü tərifləmək, bütün eyb və nöqsanlardan uzaq bilmək və hamıdan üstün saymaq digər Quran ayələrində də məzəmmət olunmuşdur («Nəcm» surəsi, 32-ci ayə - «***Özünüzü tərifləməyin. Allah müttəqilərin kim olduğunu daha yaxşı bilir.***»)

Həzrət Əli (ə) «Həmmam» xütbəsində müttəqilərin xüsusiyyətlərindən biri olaraq bunu qeyd edir ki, onlar hər vaxt tériflənsələr qorxarlar. Buna əsasən qürur, özünü böyük görmək və başqalarını təhqir etmək əsasında olan özünü tərifləmək qadağan edilir. Lakin Allaha pərəstiş etmək böyük bir dəyər sayılır.

Bunu da qeyd edək ki, ilahi cəzalar Allah tərəfindən insanlara edilən zülm deyil, insanların öz yaramaz əməllərinin nəticəsidir.

**AYƏ 50:**

﴿ انظُرْ كَيفَ يَفْتَرُونَ عَلَى اللّهِ الكَذِبَ وَكَفَى بِهِ إِثْمًا مُّبِينًا ﴾

**TƏRCÜMƏ:**

***«Bax gör (özlərini tərifləmək və Onun övladı olmalarını iddia etməklə) Allaha qarşı necə yalan uydururlar. Aşkar bir günah kimi, elə bu kifayətdir.»***

**TƏFSİR:**

Yəhudilərin özlərini yüksək irqdən hesab etmələri Allaha atılan ən böyük iftiradır. (Onlar özlərini, hətta Allahın sevimliləri və övladları hesab edirdilər!) Çünki Allah heç kəsi Özünə övlad qərar verməmişdir. Bütün insanlar Onun müqabilində bərabərdir, imtiyaz və üstünlük isə yalnız iman və təqva əsasındadır.

İftiranın yalan olmaqdan əlavə, töhmət, əzab-əziyyət, zülm, abır-heysiyyətin aradan aparılması kimi günahları da vardır.

Allaha iftira yaxmaq insanın orucunu da batil edir. İmam Baqir (ə) buyurur: «***Yalan danışmaq şərab içməkdən də ağır günahdır. Lakin iftira yalandan da şiddətlidir.***»

**AYƏ 51:**

﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ يُؤْمِنُونَ بِالْجِبْتِ وَالطَّاغُوتِ وَيَقُولُونَ لِلَّذِينَ كَفَرُواْ هَؤُلاء أَهْدَى مِنَ الَّذِينَ آمَنُواْ سَبِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Məgər kitabdan (Tövrat və İncildən) bir pay verilmiş kəsləri görmədinmi ki, hər büt və azğına iman gətirir və küfr edən kəslər barəsində «onlar iman gətirənlərdən daha doğru yoldadırlar» deyirlər?!»***

**TƏFSİR:**

«Ühüd» müharibəsindən sonra bir dəstə yəhudi Məkkəyə gedib müşriklərlə, müsəlmanların əleyhinə əhd-peyman bağladılar. Kafirlərin xoşuna gəlmək üçün onların bütləri qarşısında səcdə etdilər və dedilər ki, sizin bütə pərəstiş etməyiniz müsəlmanların İslamından daha yaxşıdır.

«Cibt» lüğətdə bütə, sehrkara və kahinə deyilir. Bu kəlmə Quranda bir dəfə, «tüğyan edən» mənasını verən "tağut" kəlməsi isə səkkiz dəfə qeyd olunmuşdur. Cibt və tağut dedikdə yəhudilərin səcdə etdiyi iki bütün, həm də cibt dedikdə büt, tağut dedikdə isə bütpərəstlər və onların himayəçilərinin nəzərdə tutulması mümkündür.

***İNCƏ MƏTLƏBLƏR***

1. İslamla mübarizə aparan düşmənlər bu yolda hətta öz əqidələrindən belə dönürlər (müşriklərin xoşuna gəlmək, onların razılığını cəlb etmək və müsəlmanların əleyhinə əlbir olmaq xatirinə onların bütləri qarşısında səcdə etmək kimi işlər görürlər.)
2. İnadkarlıq ruhiyyəsi düzgün və insaflı mühakimə yolunu dəyişir və haqqın gizlədilməsinə səbəb olur.

**AYƏ 52:**

﴿ أُوْلَئِكَ الَّذِينَ لَعَنَهُمُ اللّهُ وَمَن يَلْعَنِ اللّهُ فَلَن تَجِدَ لَهُ نَصِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Onlardır Allahın lənət etdiyi (Öz rəhmətindən uzaqlaşdırdığı) kəslər! Allahın lənət etdiyi şəxsə əsla bir yardımçı tapa bilməzsən.»***

**TƏFSİR:**

Düşmənlərin namərdcəsinə əhd-peyman bağlayaraq haqq əleyhinə əlbir olmaları heç vaxt müsbət nəticə vermir. Göründüyü kimi yəhudilərin İslam və müsəlmanlar əleyhinə apardıqları zəhərli təbliğatlar, məkrli və hiyləgərlik tədbirləri, eləcə də öz aralarındakı razılaşmalar küfr və şirkin bir nümunəsidir. Onların Məkkəyə gedib bütlərin qarşısında səcdə etmələri, nahaq mühakimə yürüdüb İslamın əleyhinə əhd-peyman bağlamaları və sair kimi işləri Allahın iradəsinin qarşısında heç bir iş görə bilmədi.

Hər kəs Allahın nəzərində mənfur olarsa, həmişə məğlubdur.

## AYƏ 53:

﴿ أَمْ لَهُمْ نَصِيبٌ مِّنَ الْمُلْكِ فَإِذًا لاَّ يُؤْتُونَ النَّاسَ نَقِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Məgər onların (Tövrat və İncil alimlərinin) hökümətdən bir payları var (ki, peyğəmbərlik və hidayəti istədikləri şəxsə versinlər)?! Əgər elə olsaydı, onda onlar camaata (mal və məqamdan) hətta xurma tumunun arxasındakı nöqtə qədər də olsun (bir şey) verməzdilər!»***

**TƏFSİR:**

Əvvəlki iki ayənin təfsirində qeyd olundu ki, yəhudilər Məkkə bütpərəstlərinin rəğbətini qazanmaq üçün Qüreyş bütpərəstliyinin müsəlmanların Allaha pərstiş etməsindən üstün olmasına şəhadət verdilər. Hətta onların özləri də bütlərin qarşısında səcdə etdilər. Bu və bundan sonrakı ayə onların yürütdükləri mühakimənin iki səbəbə görə dəyərsiz və etibarsız olmasını çatdırır. Bu ayədə buyurulur ki, yəhudilərin hökumətdən bir payı varmı ki, belə mühakimə yürütməyə əsasları olsun?! Halbuki, əgər belə olsaydı, camaata azacıq belə haqq verməz, hər şeyi öz ixtiyarlarına keçirərdilər.

## AYƏ 54:

﴿ أَمْ يَحْسُدُونَ النَّاسَ عَلَى مَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ فَقَدْ آتَيْنَآ آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُم مُّلْكًا عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Yoxsa onlar Allahın insanlara (Peyğəmbərə və onun əhli-beytinə) Öz fəzlindən verdiyi şeyə görə paxıllıq edirlər? Həqiqətən, Biz İbrahim ailəsinə kitab və hikmət (peyğəmbərlik, şəriət və əqli maarif) verdik və onlara böyük bir hökümət əta etdik.»***

**TƏFSİR:**

Əvvəlki ayədə yəhudilərin paxıllığı, bu ayədə isə onların həsəd kimi ruhi xəstəliklərinə toxunulur. Həsəd paxıllıqdan qat-qat pisdir. Çünki paxıl adam özünə aid olan şeyin bir kəsə yetişməsini istəmir. Lakin həsəd aparan adam başqalarına nəsib olan lütf və mərhəmətdən də narahat olur.

Yəhudilər Allahın Öz fəzl və mərhəməti ilə camaata (Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə)) bağışladığı şeylərə həsəd aparır və qeyd olunduğu kimi, öz həsəd şölələrini əsassız mühakimələrlə söndürmək istəyirdilər.

Sonra buyurulur: Nə üçün belə bir mənsəbin Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə ) (Bəni-Haşimə) əta edilməsindən təəccüblənib vəhşət hissi keçirir və onlara qarşı həsəd aparırsınız? Halbuki, Biz Ali-İbrahimə (yəhudilər də onun sülaləsindəndir) kitab və hikmət əta etdik, əzəmətli hökuməti onların (Bəni-İsrail peyğəmbərlərinin) ixtiyarına qoyduq. Amma təəssüflər olsun ki, siz naxələf övladlar bu dəyərli maddi-mənəvi sərmayələri qəlbin qəsavət bağlaması nəticəsində şər və yaramaz işlərə sərf edib əldən verdiniz.

İmam Sadiqdən (ə) nəql olunan hədisdə buyurulur: «***Bu ayədə düşmənlərin həsədinə məruz qalan şəxslər biz Əhli-Beytik.***»

Həsədin maddi və mənəvi, eləcə də fərdi və ictimai ziyanları olduqca çoxdur. İslam rəhbərlərinin hədislərində bunlara işarə edilmişdir. O cümlədən, İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur: «***Həsəd və bədxahlığın səbəbi qəlbin qaranlığı və korluğudur. Bu da Allahın insanlara verdiyi nemətlərin inkar olunmasından irəli gəlir və bu ikisi (qəlbin korluğu və Allahın bəxşişlərinə irad tutmaq) insanların həlakına səbəb olan küfrün iki qanadıdır.***»

**AYƏ 55:**

﴿ فَمِنْهُم مَّنْ آمَنَ بِهِ وَمِنْهُم مَّن صَدَّ عَنْهُ وَكَفَى بِجَهَنَّمَ سَعِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Beləliklə onların (kitab əhlinin) bəzisi ona (Muhəmmədə-səlləllahu əleyhi və alihi və səlləm) iman gətirdi, bəzisi ondan üz döndərdi və başqalarını da ona iman gətirməkdən saxladı. Alovlanmış od olan Cəhənnəm onlara kifayətdir.»***

**TƏFSİR:**

Bu ayədə Peyğəmbərə (s) və müsəlmanlara təskinlik verilir ki, camaatın imansızlığından narahat və məyus olmasınlar. Çünki tarix boyu belə olmuşdur; bütün peyğəmbərlər bir dəstə adamın imansızlığı, imandan kənar olması ilə qarşılaşmışlar.

**AYƏ 56:**

﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ بِآيَاتِنَا سَوْفَ نُصْلِيهِمْ نَارًا كُلَّمَا نَضِجَتْ جُلُودُهُمْ بَدَّلْنَاهُمْ جُلُودًا غَيْرَهَا لِيَذُوقُواْ الْعَذَابَ إِنَّ اللّهَ كَانَ عَزِيزًا حَكِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, ayələrimizi (Quranı) və (tovhid) nişanələrimizi inkar edənləri tezliklə (ölən kimi Bərzəx aləmində, yaxud Allahın nəzərində tez olan Qiyamətdə yandırıcı) oda daxil edəcək və onun istiliyini onlara daddıracağıq. Dəriləri yanıb bişdiyi zaman onların yerinə başqa dərilər gətirərik ki, əzabı (tam) dadsınlar. Doğrudan da Allah qüdrətli və hikmət sahibidir.»***

**TƏFSİR:**

Onlar hər an, ardı-arası kəsilmədən inadkarlıq və günah etdiklərindən yeni dəri verilməklə cəzalandırılmalıdır.

İmam Sadiqin (ə) dövründə din müxaliflərindən biri olan İbn Əbil Ovca Həzrətdən (ə) soruşdu: «Təzə dərinin günahı nədir?» İmam buyurdu: «Təzə dəri əvvəlki dərinin yanıqlarından əmələ gəlir. Bu ona bənzəyir ki, bir kərpic sınıb əzilsin, bir daha palçıq edilib yenidən kərpic formasına salınsın.»[21]

---

[21] «Təfsiri Safi», 1-ci cild, səh. 426

*İNCƏ MƏTLƏBLƏR*

1. Kafirlərin əzabı və cəzası daimidir.
2. Kafirlərin əzabının davam etməsi bu işi onlar üçün heç vaxt adiləşdirmir.
3. Yeni dərinin verilməsi onlara şiddətli əzabı dadızdırmaq üçündür. Çünki dəri yanan zaman insan daha artıq ağrı hiss edir və bu, dəriyə aid olan bir hissdir. Əgər yanğı sümüyə çatsa ağrılar nisbətən azalar.
4. Məad cismanidir. (Çünki dəriyə, onun bir şəkildən başqa şəklə düşməsi ilə əzab verilir).

**AYƏ 57:**

﴿ وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ سَنُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا لَّهُمْ فِيهَا أَزْوَاجٌ مُّطَهَّرَةٌ وَنُدْخِلُهُمْ ظِلاًّ ظَلِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«İman gətirib yaxşı işlər görən kəsləri tezliklə (qəsrlərinin və ağaclarının) altından çaylar axan Cənnətlərə daxil edəcəyik. Onlar orada həmişəlik və əbədi qalarlar. Onlar üçün orada (qadınlara xas aybaşıdan, pis əxlaq və əməldən, cismani eyblərdən) pak zövcələr vardır və onları geniş və sabit kölgə altına daxil edərik.»***

**TƏFSİR:**

Bu ayə iman gətirib saleh əməllər görənlərə tezliklə ağaclarının altından çaylar axan cənnət bağlarına daxil olacaqlarını və orada əbədi bir həyata nail olacaqlarını vədə verir. Bundan əlavə, onlara həm ruhi, həm də cismi asudəliklərinə səbəb olacaq pak-pakizə zövcələr veriləcək. Bu zövcələr qadına məxsus olan hər növ qanlardan, aludəliklərdən pak-pakizədir. Onlar bu dünyanın kölgələri ilə müqayisə oluna bilməyən həmişəlik behişt ağaclarının kölgələrində olacaqlar. Belə ki orada yandırıcı və yaxud soyuq küləklər əsməz.

**AYƏ 58:**

﴿إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ إِنَّ اللّهَ نِعِمَّا يَعِظُكُم بِهِ إِنَّ اللّهَ كَانَ سَمِيعًا بَصِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Həqiqətən, Allah sizə əmanətləri (vacibi əməlləri Allaha və camaatın haqlarını onlara) öz sahiblərinə qaytarmağınızı əmr edir. İnsanlar arasında (mübahisə və dava-dalaş barəsində və ya şəxslər və hadisələr haqqında) hökm çıxaranda, ədalətlə hökm çıxarın. Doğrudan da Allah sizə gözəl bir öyüdlə nəsihət edir. Həqiqətən Allah həmişə eşidən və görəndir.»***

Peyğəmbər (s) bu istəyin əksinə olaraq, Kəbə evini murdar bütlərdən təmizlədikdən sonra onun qapısını bağlayıb açarını Osman İbn Təlhəyə qaytardı, bu zaman Həzrət (s) həmin ayəni oxuyurdu.

**TƏFSİR:**

## *İSLAMDA ƏMANƏT VƏ ƏDAVƏT*

Ümumi və hərtərəfli bir hökmün bəyanedicisi olan bu ayədə buyurulur: Allah sizə fərman verir ki, əmanətləri sahiblərinə qaytarasınız. Ayənin ikinci hissəsində digər bir mühüm göstərişə işarə edilir: o da hökm verən zaman ədalətə riayət etməkdir. Ayədə buyurulur: Allah həm də sizə fərman verir ki, camaat arasında mühakimə yürütdüyünüz zaman ədalət əsasında hökm verəsiniz. Sonra bu iki mühüm fərmanı təkidləndirmək üçün buyurulur: Allah sizə necə də yaxşı öyüd-nəsihət verir və mövizə edir! Yenə də təkidlə buyurulur: Hər bir halda Allah sizin əməllərinizə nəzarət edir: həm sözlərinizi eşidir, həm də işlərinizi görür.

Aydındır ki, əmanət daha geniş mənaya malik olub hər növ maddi və mənəvi sərmayələrə şamildir. Bu ayənin aşkar buyurduğuna əsasən hər bir müsəlman əmanət sahibinin kimliyindən asılı olmayaraq heç bir əmanətə xəyanət etməməlidir – əmanət sahibi istər müsəlman olsun, istərsə də qeyri-müsəlman. Bu da həqiqətdə İslamda «insan hüquqları bəyannaməsi»dir.

Cəmiyyətdəki alimlər belə əmanətdar sayılır, onların vəzifələri həqiqətləri açıb demək, haqqı əsla gizlətməməkdir. İnsanın övladı da ilahi əmanətlərdir ki, valideyn onların təlim-tərbiyəsində laqeydliyə, səhlənkarlığa yol verməməlidir. Bundan da artıq insanın öz vücudu, eləcə də Allahın onun batinində qoyduğu bütün qüvvələr əmanətdir ki, insan onun qorunmasına, düzgün istiqamətdə istifadə olunmasına çalışmalıdır.

İmam Sadiq (ə) bir hədisdə əmanətin necə mühüm əhəmiyyət kəsb etməsi ilə əlaqədar öz dostlarından birinə buyurdu: «***Əgər Əlinin (ə) qatili mənim yanımda bir şeyi əmanət qoysa, yaxud məndən ona nəsihət verməyimi istəsə, yaxud da mənimlə bir şey barəsində məşvərət eləsə mən də bu işlər üçün hazırlığımı bildirsəm, şübhəsiz, əmanətin haqqına riayət edəcəyəm.***»

Çoxlu rəvayətlərdə qeyd olunur ki, əmanət dedikdə məqsəd ümmətin həqiqi rəhbərlərinin tanıtdırılmasıdır ki, bu da Əhli-Beytdən (ə) ibarətdir.[22]

**AYƏ 59:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً﴾

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə və (Peyğəmbərin məsum canişinləri olan) öz əmr sahiblərinizə tabe olun. Beləliklə, əgər (din və ya***

---

[22] «Təfsiri Burhan», 1-ci cild, 2-ci çapda da bu məzmunda 15 rəvayət nəql olunmuşdur. «Təfsiri Safi»nin 1-ci cildinin 24-cü səhifəsində isə 4 rəvayət qeyd edilmişdir.

***dünya işlərindən) bir şey barəsində mübahisəniz olsa, Allaha və axirət gününə imanınız varsa, onu Allaha və Onun peyğəmbərinə həvalə edin (dini ixtilafı şəriət alimi, dünya barəsindəki ixtilafı isə qazı vasitəsilə Allahın kitabına və Peyğəmbərin sünnəsinə əsaslandırın). Bu (sizin üçün) daha xeyirli və nəticə baxımından daha gözəldir.»***

**TƏFSİR:**

Bu və bundan sonrakı bir neçə ayə ən mühüm İslami məsələlərdən biri, yəni cəmiyyətə rəhbərlik ilə əlaqədardır. Bu ayə dini və ictimai məsələlərdə ixtilaf və münaqişə yaranan zaman müsəlmanların kimə müraciət etməsini bəyan edir.

Əvvəlcə imanlı şəxslərə xitabən buyurulur: Ey iman gətirənlər, Allaha itaət edin.

Aydındır ki, imanlı bir şəxsin bütün itaətləri Allaha itaətlə nəticələnməli, hər növ rəhbərlik də Allahın pak və müqəddəs Zatından qaynaqlanmalı, həmçinin Onun fərmanlarına müvafiq olmalıdır. Çünki varlıq aləminin mütləq hakimi və təkvini maliki məhz Odur. Hər növ hakimiyyət və malikiyyət də yalnız Onun fərmanı ilə olmalıdır.

Sonrakı mərhələdə buyurulur: Allahın Peyğəmbərinə itaət edin.

Günahlardan tamamilə pak və məsum olan, heç vaxt həvayi-nəfs üzündən söhbət etməyən və Allahın insanlar arasındakı nümayəndəsi olan bir Peyğəmbərə itaət edin, çünki onun sözü elə Allahın sözüdür və bu məqam və mənsəb ona Allah tərəfindən verilmişdir.

Üçüncü mərhələdə buyurulur: Peyğəmbərin sizin aranızda olan canişinlərinə itaət edin. Çünki onlar İslam cəmiyyətinin içindən çıxmışlar və camaatın din və dünyasının keşikçiləridir.

Sonra buyurulur: Əgər Allaha və Qiyamət gününə imanınız varsa, hər hansı bir şeydə ixtilafa düçar olsanız onu Allaha və Peyğəmbərə təqdim edin. Bu sizin üçün daha yaxşı, axır-aqibəti isə daha gözəldir.

## "ULİL-ƏMR" KİMLƏRDİR?

Bütün şiə təfsirçiləri yekdil nəzərlə buyurmuşlar ki, «ulil-əmr» dedikdə məqsəd məsum imamlardır ki, həyatın bütün sahələrində İslam cəmiyyətinin maddi və mənəvi rəhbərliyi Allah və Peyğəmbər (s) tərəfindən onlara həvalə edilmişdir. Bu ayə onlardan başqa heç kəsə şamil edilmir. «Təfsiri-Burhan»da bu barədə 39 rəvayət nəql olunmuşdur.[23]

Əlbəttə, onların tərəfindən, İslam cəmiyyətində müəyyən bir məqama seçilən şəxslərə itaət etmək də müəyyən şərtlər daxilində vacibdir. Onlara itaət etmək "ulil-əmr" olduqlarına görə deyil, "ulil-əmr"in nümayəndələri olduqları üçün vacibdir.

### *İNCƏ MƏTLƏBLƏR*

1. Peyğəmbərə (s) və "ulil-əmr"ə qeydsiz-şərtsiz itaət olunmasının vacibliyi onların ismətli (günahsız) olmasını göstərir. Deməli, "ulil-əmr" üçün bəyan olunan hər bir nümunə, məsum olmadıqda rədd olunur.

2. İtaətin vacibliyinin (əmr formasında olan «ətiu» kəlməsinin) təkrar olunması göstərişlərin növünü bəyan edir. Peyğəmbər (s) bəzən ilahi hökmləri bəyan edir, bəzən də hökumətlə əlaqədar müəyyən göstərişlər verirdi. Yəni o Həzrət (s) həm hakimiyyət, həm də risalət məqamına malik idi.[24]

---

[23] «Təfsiri Burhan» (ikinci çapı), 1-ci cild, səh. 381-386

[24] «Nəhl» surəsi, ayə 44, «Nisa» surəsi, ayə 105

3. “Ulil-əmr” kəlməsinin Allahın və Peyğəmbərin (s) yanında qeyd olunması, eləcə də itaətlə yanaşı mütləq şəkildə (qeydsiz) bəyan olunması göstərir ki, İslam sistemi və hakimiyyət çox yüksək müqəddəsliyə malik olmalıdır. Çoxlu rəvayətlərə əsasən, “ulil-əmr” dedikdə Əhli-Beyt (ə) imamları nəzərdə tutulur.

4. Camaat İslam quruluşunu qəbul etməli, sözdə və əməldə ilahi rəhbərlərə arxa olmalıdırlar.

5. İtaətdə ardıcıllıq qorunmalıdır (yəni, itaətdə əvvəlcə Allah, sonra Onun Peyğəmbəri (s) , daha sonra “ulil-əmr” gəlir.)

6. Mərifət (agahlıq) yollarından biri də bir şeyi onun ziddi ilə müqayisə etməkdir. Quran günahkarlar, həddini aşanlar, azğınlar, cahillər və zalımlar barəsində onlara itaət etməmək əmrini verir. Buradan da belə nəticə alınır ki, yalnız o kəslərə itaət etmək lazımdır ki, onlara itaət etmək Allah tərəfindən qadağan olunmasın.

7. Tağuta (Allah tərəfindən təyin olunmayana) itaət etmək haramdır.

8. Əgər bütün müsəlman qrupları Qurana və sünnəyə müraciət etsələr bütün ixtilaflar həll olunar, cəmiyyətə vəhdət və səfa-səmimiyyət hakim olar.

9. Kamil dinin ixtilafları həll etmək üçün bəyan etdiyi yollar olmalıdır.

10. Allahın, Peyğəmbərin (s) və ilahi rəhbərlərin hökmləri ilə müxalifət edənlər öz imanlarına şübhə ilə yanaşmalıdırlar.

11. Uzaqgörənlik və uzun müddətli mənafeyə riayət etmək dəyərin meyarıdır.

**AYƏ 60:**

﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ يَزْعُمُونَ أَنَّهُمْ آمَنُواْ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ وَقَدْ أُمِرُواْ أَن يَكْفُرُواْ بِهِ وَيُرِيدُ الشَّيْطَانُ أَن يُضِلَّهُمْ ضَلاَلاً بَعِيدًا﴾

**TƏRCÜMƏ:**

***«Məgər sənə nazil olana və səndən əvvəlkilərə (keçmiş peyğəmbərlərə) iman gətirdiklərini güman edən, lakin (mübahisə zamanı) mühakiməni ona qarşı kafir olmaları əmr olunmuş azğınların (kafirlərin azğın hakimlərinin) yanına aparmaq istəyən kəsləri görmədin?! Şeytan onları uzun-uzadı bir zəlalətlə azdırmaq istəyir.»***

**TƏFSİR:**

Özünü müsəlmançılığa vurmuş bir münafiqlə bir yəhudi arasında münaqişə yarandı. Bu barədə mühakimə yürütməyə gəldikdə, yəhudi şəxs əmanətdar və ədalətinə görə Peyğəmbəri (s) qəbul etdi. Lakin münafiq dedi ki, mən Kəb ibn Əşrəfin mühakiməsinə razıyam. (O, yəhudilərin böyüklərindən idi.) Çünki o müəyyən qədər hədiyyə verməklə Kəbin nəzər-diqqətini cəlb edəcəyini bilirdi. Yuxarıdakı ayə nazil olaraq bu əməli məzəmmət etdi.

İmam Sadiq (ə) buyurur: «***Tağut o kəsdir ki, haqq əsasında hökm etməsin, Allahın fərmanının müqabilində özündən hökm versin və ona itaət olunsun.***»[25]

Əvvəlki ayədə Allah və Peyğəmbər (s) münaqişələrdə müraciət yeri kimi bəyan edilir, bu ayədə isə münaqişəli məsələlərdə tağuta müraciət edənlər tənqid atəşinə tutulur. Yuxarıdakı ayədə səlahiyyətli şəxs, bu ayədə isə səlahiyyəti olmayan şəxs bəyan edilir və buyurulur ki, həqiqi möminlər hətta tağuta müraciət etməyi belə

[25] «Təfsiri Burhan», 1-ci cild, səh. 387

istəməzlər. Çünki tağutla saziş bağlamaq haramdır, daxili ixtilafların həll olunmasında yadlara müraciət etmək də qadağandır.[26]

## AYƏ 61:

﴿ وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ رَأَيْتَ الْمُنَافِقِينَ يَصُدُّونَ عَنكَ صُدُودًا ﴾

### TƏRCÜMƏ:

***«Onlara «Allahın nazil etdiyinə və Onun peyğəmbərinə tərəf gəlin» deyildikdə, münafiqlərin səndən tam üz döndərmələrini və başqalarını da saxlamalarını görərsən.»***

### TƏFSİR:

Münafiqlərin tağuta müraciət etmələri və yadların mühakimə yürütmələrini istəmələri təsadüfi bir hadisə deyil, onların zati xüsusiyyətləri və ruhiyyələri səmavi rəhbərlərlə müxalifət etmək və haqq yoldan üz çevirmək əsasındadır.

***İNCƏ MƏTLƏBLƏR***

1. Münafiqlər Allahın qanununa və Peyğəmbərin (s) fərmanlarına təslim olmurlar, lakin biz onları da haqqa dəvət etməliyik.
2. Münafiqlər camaatın Allaha qəlbən iman gətirməsi qarşısında həssas deyillər. Onların ən ümdə narahatçılıqları camaatın səmavi rəhbərlərin ətrafına toplaşmasıdır.
3. Münafiqlər öz məkrli planlarında camaatı Peyğəmbərdən (s) ayırmaq məqsədi güdürlər.

Eləcə də başqa bir yerdə oxuyuruq ki, Peyğəmbərin (s) yolunu bağlamaq Allahın yolunu bağlamaq, onu inkar etmək Allah ayələrini inkar etməkdir. «Ənam» surəsinin 33-cü ayəsində qeyd olunur: «***Əlbəttə, onlar (zalimlər) səni təkzib etmirlər. Əksinə, Allahın ayələrini inkar edirlər.***»

## AYƏ 62:

﴿ فَكَيْفَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ ثُمَّ جَآؤُوكَ يَحْلِفُونَ بِاللّهِ إِنْ أَرَدْنَا إِلاَّ إِحْسَانًا وَتَوْفِيقًا ﴾

### TƏRCÜMƏ:

***«Belə isə, öz əlləri ilə etdiklərinin cəzası olaraq onlara bir müsibət gələn zaman (onların üzrxahlıq və rüsvayçılıqları) necə olacaq? Sənin yanına gələrək Allaha and içirlər ki, bizim (kafirlərin yanına mühakiməyə getməkdə) yaxşılıqdan və (iki tərəf arasında) barışıq yaratmaqdan başqa bir məqsədimiz yox idi!»***

### TƏFSİR:

Onların mühakimə üçün tağuta müraciət etməkdəki dəlilləri barışıq yaratmaq iddiası idi. Onlar iddia edərək deyirdilər ki, əgər münaqişəli məsələni həll etmək üçün Peyğəmbərin yanına getsəydik və o da bir şəxsin xeyrinə mühakimə yürütsəydi,

---

[26] Ailə münasibətlərində yaranan ixtilaflarda da həm qadının, həm də kişinin qohumlarından bir nəfər seçilməlidir.

şübhəsiz, o biri şəxs Peyğəmbərdən inciyər və hay-küy qoparardı ki, bu da Peyğəmbərin məqamı ilə uyğun deyildi. Buna görə də «biz Peyğəmbərin abır-heysiyyətini və hörmətini qorumaq üçün münaqişəni filankəsin yanında irəli çəkdik» – deyirdilər.

***İNCƏ MƏTLƏBLƏR***

1. Münafiqlər və ikiüzlü müsəlmanlar çətinlik yarandıqda və təhlükə hiss etdikləri zaman ilahi rəhbərlərin yanına gəlirlər.
2. Münafiqlər həmişə öz yaramaz və qanunsuz əməllərinə bəraət qazandırırlar.
3. Münafiqlər Allaha and içməyi öz hədəflərini gizlətmək üçün bir vasitə kimi seçirlər.
4. Münafiqlərin işlərindən biri də özlərini xeyirxah kimi qələmə vermək, barışıqdan dəm vurmaqdır.

**AYƏ 63:**

﴿ أُولَئِكَ الَّذِينَ يَعْلَمُ اللّهُ مَا فِي قُلُوبِهِمْ فَأَعْرِضْ عَنْهُمْ وَعِظْهُمْ وَقُل لَّهُمْ فِي أَنفُسِهِمْ قَوْلاً بَلِيغًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah onların qəlblərindəkini (ikiüzlülük və düşmənçiliyi) bilir. Buna görə də onlardan üz çevir (mübarizə və döyüş fikrində olma), onlara nəsihət ver və yetərli və canlarına təsir edən söz de.»***

**TƏFSİR:**

Münafiqlərin səy və fəaliyyətləri əbəsdir. Çünki Allah həm onların batini niyyətlərindən agahdır, həm də lazım olduqda onları ifşa edir. Eləcə də münafiqlər üzrxahlıq etdikləri zaman sözlərində sabit deyillər. Əgər sabit olsaydılar, onlardan üz çevirmək fərmanı verilməzdi.

**AYƏ 64:**

﴿وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللّهِ وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Biz hər bir peyğəmbəri, yalnız Allahın kömək və izni ilə itaət olunmaq üçün göndərmişdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlsəydilər, sonra Allahdan bağışlanmaq istəsəydilər və Allahın Peyğəmbəri də (Allahdan) onlar üçün bağışlanmaq diləsəydi, şübhəsiz Allahın çox tövbə qəbul edən və mehriban olduğunu görərdilər.»***

**TƏFSİR:**

Əvvəlki ayədə zalım hakimlərə müraciət etmək məhkum edilir. Bu ayədə isə təkid edilərək buyurulur: Biz hər bir peyğəmbəri göndərdiksə yalnız Allahın əmri ilə (camaat tərəfindən) itaət olunması üçün və onlara qarşı heç cür müxalifət olmasın deyə göndərdik.

Çünki onlar həm Allahın göndərdiyi şəxslər, həm də ilahi hökumətin rəhbərləri idilər. Buna əsasən camaatın vəzifəsi həm ilahi hökmlərin bəyan olunması, həm də onların icra olunması baxımından peyğəmbərlərə itaət etmək idi. Sadəcə iman iddiası ilə qənaətlənmək olmaz.

Ayənin davamında günahkarların Allah dərgahına qayıdış yolu, eləcə də tağuta müraciət edənlər və ya hər hansı günaha mürtəkib olanlar üçün tövbə qapısı açılır və buyurulur: Əgər onlar özlərinə zülm etdikdən sonra sənin yanına gəlib Allahdan günahlarının bağışlanmasını istəsəydilər, Peyğəmbər (s) də onlar üçün Allahdan bağışlanmaq istəsəydi, Allahın tövbələri qəbul edən və mehriban olduğunu görərdilər.

Allahın və Peyğəmbərin (s) fərmanlarına itaət etməyin faydası onların özlərinə aiddir. Onunla müxalifətçilik də özlərinə zülm etmək sayılır. Buna görə də onların maddi həyatı məhv olar, mənəvi cəhətdən də geridə qalmış olarlar.

Bu ayədən Peyğəmbərə (s) və ya imamlara (ə) təvəssül etməyi şirk bilənlərin cavabı aydınlaşır. Çünki bu ayədə aşkar şəkildə buyurulur ki, əgər onlar Peyğəmbərin (s) yanına gəlib onu Allah dərgahında öz günahlarının bağışlanması üçün şəfaətçi və vasitəçi qərar versələr, bu iş onların günahlarının bağışlanmasında çox təsirli olar, tövbələrinin qəbul olunması da Allahın rəhmət və bərəkətinin nazil olmasına səbəb olar.

**AYƏ 65:**

﴾ فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيمًا ﴿

**TƏRCÜMƏ:**

***«Amma belə deyildir (onların imanları yoxdur). Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca iman gətirməzlər.»***

**TƏFSİR:**

Mühacirdən olan Zübeyr ibn Əvamla ənsardan olan bir şəxsin arasında xurma bağını suvarmaqla əlaqədar münaqişə yarandı. Peyğəmbər (s) belə hökm etdi ki, bağın yuxarı hissəsi Zübeyrin olduğu üçün əvvəlcə gərək bağı o suvarsın. Ənsardan olan kişi Peyğəmbərin (s) bu mühakiməsindən xoşu gəlmədi və dedi ki, Zübeyr Peyğəmbərin (s) bibisi oğlu olduğuna görə onun xeyrinə hökm etdi. Peyğəmbər (s) bu sözü eşitdikdə qəzəbindən rəngi qaçdı. Sonra yuxarıdakı ayə nazil oldu.

Qəribədir ki, özləri Rəsuli-Əkrəmi (s) mühakimə üçün qəbul etmişdilər, lakin onun verdiyi hökmə əməl etməkdən imtina etdilər.

İmam Sadiq (ə) buyurur: «***Əgər müəyyən şəxslər Allaha itaət etsələr, həmçinin namaz, oruc, həcc, zəkat və sair əməlləri yerinə yetirsələr, lakin Peyğəmbərin (s) işləri barədə sui-zənn etsələr, həqiqətdə mömin deyillər.***» Sonra Həzrət (s) yuxarıdakı ayəni oxudu.[27]

Bir sözlə, həqiqi imanın üç əlaməti var:

1. Münaqişəli məsələni həll etmək üçün tağuta deyil, Peyğəmbərə (s) müraciət etmək.

---

[27] «Təfsiri Burhan», 1-ci cild, səh. 389

2. Həzrətin (s) verdiyi hökmə sui-zənn etməmək.
3. Peyğəmbərin (s) fərmanını cani-dildən qəbul edib təslim olmaq.

Bunu da qeyd edək ki, mühakimə risalət və vilayət işləri ilə əlaqədardır, Allahın və Peyğəmbərin (s) aşkar buyurduqları müqabilində şəxsi rəy vermək qadağandır. Çünki bu kimi hallarda şəxsi rəyə əməl etmək həqiqi imanın olmadığını göstərir (bu, ayənin nazilolma səbəbinə diqqət yetirməklə aydın olur.)

**AYƏ 66:**

﴿وَلَوْ أَنَّا كَتَبْنَا عَلَيْهِمْ أَنِ اقْتُلُواْ أَنفُسَكُمْ أَوِ اخْرُجُواْ مِن دِيَارِكُم مَّا فَعَلُوهُ إِلاَّ قَلِيلٌ مِّنْهُمْ وَلَوْ أَنَّهُمْ فَعَلُواْ مَا يُوعَظُونَ بِهِ لَكَانَ خَيْرًا لَّهُمْ وَأَشَدَّ تَثْبِيتًا﴾

**TƏRCÜMƏ:**

***«Əgər Biz onlara «(cihad cəbhəsində hazır olmaqla) özünüzü öldürün və ya öz vətən və evlərinizdən çıxın» (deyə) qərar versəydik, (bunu) onların az bir qismi istisna olmaqla, yerinə yetirməzdilər. Əgər onlara verilən nəsihətlərə əməl etsəydilər, şübhəsiz bu, onlar üçün daha yaxşı və imanın sabitliyi və ruhun güclənməsi baxımından daha möhkəm olardı.»***

**TƏFSİR:**

Bu ayədə Peyğəmbərin (s) ədalətli mühakiməsindən narahat olanlarla əlaqədər bəhsi təkmilləşdirərək keçmiş ümmətlərə verilən üzücü vəzifələrin bir qisminə işarə edilir və buyurulur: Biz bunların üzərinə çox çətin və ağır vəzifələr qoymamışıq. Əgər əvvəlki ümmətlər kimi (məsələn, yəhudilər kimi. Belə ki, bütpərəstlikdən, danaya sitayiş etdikdən sonra onlara göstəriş verildi ki, bu günahın kəffarəsi olaraq bir-birinizi qətlə yetirin, yaxud qəlbən məhəbbət bağladığınız vətəndən çıxın) bunlara da ağır və üzücü göstərişlər versəydik ona necə tab gətirə bilərdilər?! Bir xurma bağının suvarılması üstündə Peyğəmbərin (s) verdiyi hökmə razı olmadıqları halda, digər imtahanlardan necə üzüağ çıxa bilərdilər?! Şübhəsiz, əgər onlara bir-birini qətlə yetirmək, yaxud ev-eşiklərindən çıxmaq əmr edilsəydi onlardan yalnız bir qrupu bu göstərişlərə əməl edərdi.

Sonra ilahi göstərişlərə əməl etməyin iki faydasına işarə edilir və buyurulur: Əgər onlar Allahın və Peyğəmbərin (s) mövizələrini, öyüd-nəsihətlərini qəbul etsəydilər həm öz xeyirlərinə bir iş görmüş olardılar, həm də bu onların imanlarının güclənməsinə səbəb olardı.

Bu ayədə ilahi hökmlərin mövizə və öyüd-nəsihət kimi təbir olunması bunu göstərir ki, ilahi hökmlərin yerinə yetirilməsinin faydası göstəriş verənin – Allahın xeyrinə deyil, məhz insanların öz xeyrinədir.

Bu ayədə buyurulur ki, insan Allaha itaət etmək və Onun fərmanlarını yerinə yetirmək yolunda nə qədər irəliləsə onun öz imanı və müqaviməti də bir o qədər möhkəmlənər. Həqiqətdə Allahın fərmanlarına itaət etmək insan üçün bir növ ruhun hazırlanmasıdır.

**AYƏ 67-68:**

﴿ وَإِذاً لَّآتَيْنَاهُم مِّن لَّدُنَّا أَجْراً عَظِيمًا. وَلَهَدَيْنَاهُمْ صِرَاطًا مُّسْتَقِيمًا ﴾

**TƏRCÜMƏ:**

***67. «Onda Biz də mütləq onlara Öz tərəfimizdən böyük bir mükafat əta edərdik.»***

Bu ayədə Allah-təalanın əmr və fərmanlarına itaət edib təslim olmağın üçüncü faydasına işarə edilir və buyurulur ki, qeyd olunanlardan əlavə, belə olan halda Öz dərgahımızdan onlara böyük və əzəmətli bir mükafat da verərdik.

Sonrakı ayədə isə dördüncü xeyir və faydasına işarə edilir:

***68. «Və şübhəsiz, onları (etiqad, əxlaq və əməldə) doğru yola hidayət edərdik.»***

Burada hidayət dedikdə Allah tərəfindən ikinci dərəcəli hidayət və mükafat ünvanı ilə verilən yeni lütf və mərhəmətlərdir ki, bu cür şəxslər ona layiq olmuşlar.

**AYƏ 69:**

﴿ وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء
وَالصَّالِحِينَ وَحَسُنَ أُولَئِكَ رَفِيقًا ﴾

**TƏRCÜMƏ:**

***«Allaha və Onun Peyğəmbərinə itaət edənlər (dünya və axirətdə) Allahın nemət verdiyi kəslərlə – peyğəmbərlər, doğruçular, şəhidlər, əməllərə şahid olanlar və saleh insanlarla – birlikdədirlər. Onlar gözəl dostlardır.»***

## AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bu və bundan sonrakı ayənin nazilolma səbəbi ilə əlaqədar nəql olunmuşdur ki, Peyğəmbərin (s) Novban adlı bir sahabəsi o Həzrətə (s) çox məhəbbət bəsləyirdi. Bir gün pərişan halda Peyğəmbərin (s) hüzuruna gəldi. Həzrət (s) onun narahatlığının səbəbini soruşduqda dedi: "Mən bu gün fikirləşirdim ki, Qiyamət günündə behişt əhli olsam, şübhəsiz, sizin məqamınızda olmayacağam. Əgər behişt əhli olmasam, onda vəziyyətim tamamilə aydındır və hər bir halda sizin hüzurunuzda olmaqdan məhrum olacağam. İndi necə pərişan olmaya bilərəm?!"

Bu iki ayə nazil oldu və belə şəxslərə müjdə verdi ki, Allaha itaət edənlər behiştdə də peyğəmbərlərlə, Allahın seçdiyi insanlarla yoldaş olacaqlar. Sonra Peyğəmbər (s) buyurdu: «***Allaha and olsun! Müsəlman bir şəxsin imanı yalnız o zaman kamil olar ki, məni özündən, atasından, anasından və bütün qohum-əqrəbalarından artıq sevsin, mənim sözlərim qarşısında təslim olsun.***»

**TƏFSİR:**

### *BEHİŞT DOSTLARI*

Əvvəlki ayələrdə Allahın əmr və fərmanlarına itaət edənlərin malik olduqları imtiyazlar sadalandı. Bu ayədə isə onlar təkmilləşdirilir və buyurulur: Allaha və Peyğəmbərə itaət edənlər Qiyamət günündə Allahın Özü tərəfindən onlara nemət verilən və nemət tamamlanan şəxslərlə birgə olacaqlar.

«Həmd» surəsində də qeyd olunduğu kimi, bu nemətə nail olanlar düz yolda qədəm götürənlər, azğınlığa və inhirafa azacıq belə yol verməyənlərdir.

Sonra bu cümlənin izahında dörd qism insanlara işarə edilir və buyurulur ki, onlar peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə birgə olacaqlar:

1. Peyğəmbərlər, başqa sözlə, Allahın insanların hidayəti üçün göndərdiyi xüsusi bəndələr camaata rəhbərlik etməkdə və onların düzgün yola hidayət olunmasında ilk addımları atırlar.

2. Siddiqlər və düzgün insanlar o kəslərdir ki, həm sözdə düz danışırlar, həm də əməlləri sözlərini təsdiq edir və göstərir ki, sadəcə iman iddiası etmirlər. Əksinə, Allahın əmr və fərmanlarına həqiqi mənada iman gətirmişlər. Rəvayətlərdə siddiqlərin ən gözəl və bariz nümunələri kimi məsum imamlar (ə) və Həzrət Fatimeyi-Zəhra Siddiqeyi-Tahirə (ə) qeyd olunmuşdur.

3. Şəhidlər, pak və ilahi əqidələr, ali hədəflər yolunda canlarını qurban verənlər, eləcə də Qiyamət günündə insanların əməllərinə şahid olan ləyaqətli insanlar.

4. Salehlər müsbət, qurucu və faydalı əməllər yerinə yetirməklə peyğəmbərlərin göstərişlərinə tabe olaraq yüksək maqamlara çatmışlar.

Ayənin axırında buyurulur: «Bunlar necə də yaxşı yoldaşlardır!»

Yuxarıdakı ayədən bu həqiqət də aydın olur ki, insanın yaxşı yoldaşları, dəyərli həmsöhbətləri o qədər əhəmiyyət kəsb edir ki, hətta axirət aləmində belə behişt nemətlərinin təkmil olması üçün bu böyük nemət Allaha müti olan bəndələrə əta edilir.

## AYƏ 70-71:

﴿ ذَلِكَ الْفَضْلُ مِنَ اللّهِ وَكَفَى بِاللّهِ عَلِيمًا. يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ خُذُواْ حِذْرَكُمْ فَانفِرُواْ ثُبَاتٍ أَوِ انفِرُواْ جَمِيعًا ﴾

### TƏRCÜMƏ:

***70. «(Həmin şəxslərlə) bu (dostluq) Allah tərəfindən olan bir əta və bəxşişdir. Allahın (hər kəsin layiq olduğu dərəcəni və ona münasib olan savabı) bilməsi kifayətdir.»***

***71. «Ey iman gətirənlər, (din düşmənləri qarşısında) öz hazırlığınızı qoruyaraq silahlarınızı götürün. Beləliklə (şəraitə uyğun olaraq) dəstə-dəstə və ya hamılıqla hərəkət edin və köçün.»***

### TƏFSİR:

Əvvəlki ayələrdə Allaha və məsum rəhbərlərə itaət, həmçinin Peyğəmbərin (s) hakimiyyəti məsələlərinə işarə olunmuşdu. Bu ayədə isə İslam ümməti üçün qüdrət, ayıqlıq və hərbi hazırlığın zərurəti, həmçinin haqq rəhbərlik məsələsi irəli çəkilir.

«Hizr» ayıqlıq, hazırlıq və müdafiə vasitəsinə deyilir.

«Sübat» isə «sübət»in cəm forması olub pərakəndə dəstələrə (düşməni gicəlləndirərək onun fikri təmərküzünü dağıdan partizan dəstələrinə) deyilir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Müsəlmanlar hər bir halda hazır vəziyyətdə və ayıq olmalı, düzgün plan cızmalı, təchizat və döyüş texnikasına, yüksək ruhiyyəyə malik olmalı, daxili və xarici düşmənlərlə rəftar məsələlərindən tamamilə agah olmalı və bütün bunlara mütənasib şəkildə tədbir tökərək əməl etməlidirlər.
2. Müsəlmanlar tam hərbi hazırlığa malik olmalıdırlar.
3. Müsəlmanlar könüllü dəstələrdə birləşməlidirlər.
4. Müsəlmanlar düşmənlə qarşılaşmaq üçün müxtəlif texnika və taktikalardan istifadə etməlidirlər.
5. Müsəlmanlar özlərinin ölkə sərhədlərini qorumalıdırlar.

Bu ayənin göstərişinə əməl etmək izzət rəmzi, ondan qafil olmaq isə müsəlmanların məğlubiyyətə və tənəzzülə uğrama səbəbidir.

## AYƏ 72:

﴿ وَإِنَّ مِنكُمْ لَمَن لَّيُبَطِّئَنَّ فَإِنْ أَصَابَتْكُم مُّصِيبَةٌ قَالَ قَدْ أَنْعَمَ اللّهُ عَلَيَّ إِذْ لَمْ أَكُن مَّعَهُمْ شَهِيدًا ﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, sizin aranızda (cihada yola düşməkdə) ağır tərpənən (və başqalarını da ağır tərpənməyə vadar edən), beləliklə sizə bir müsibət üz verdikdə «Allah mənə lütf və kömək etdi ki, orada onlarla birgə olmadım» deyən də var.»***

**TƏFSİR:**

Əvvəlki ayədə düşmən qarşısında ümumi cihad hökmü və hərbi hazırlıqla əlaqədar məsələlərin davamında bu ayədə bir dəstə münafiqin ruhi vəziyyəti bəyan edilir və buyurulur: Sizin aranızda olan belə ikiüzlülər Allah yolunda döyüşən mücahidlərin cərgələrində iştirak etməmək üçün çox ciddi çalışırlar.

Lakin mücahidlər cihad meydanından qayıdanda, yaxud onların məğlub olması, yaxud şəhid edilməsi kimi müharibə xəbərləri münafiqlərə çatanda onlar çox xoşhal olub deyirlər: "Allah bizə necə böyük bir nemət əta etdi! Biz onlarla birlikdə getmədik, belə ürəkyandıran səhnələrin şahidi olmadıq."

## AYƏ 73:

﴿ وَلَئِنْ أَصَابَكُمْ فَضْلٌ مِّنَ الله لَيَقُولَنَّ كَأَن لَّمْ تَكُن بَيْنَكُمْ وَبَيْنَهُ مَوَدَّةٌ يَا لَيتَنِي كُنتُ مَعَهُمْ فَأَفُوزَ فَوْزًا عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Və əgər sizə Allah tərəfindən (qələbə və qənimət kimi) bir lütf və mərhəmət gəlsə, o, sizinlə onun arasında əsla bir dostluq və məhəbbət olmamış (və sizinlə birgə döyüşdə iştirak edə bilməzmiş) kimi deyər: «Kaş mən də onlarla birgə olub böyük bir feyzə nail olaydım!k.»***

**TƏFSİR:**

Həqiqi möminlərin qələbə çalması və təbii olaraq qənimət əldə etməsi xəbəri onlara çatanda sanki möminlərlə heç bir bağlılığı olmayan yadlar kimi təəssüf hissi keçirir və həsrətlə deyirdilər: «Kaş biz də mücahidlərlə birlikdə olaydıq, bizə də böyük bir pay çataydı!»

Aydındır ki, Allah yolunda şəhid olmağı bir növ bəla və müsibət, şəhadətə nail olmayıb sağ qalmağı isə bir növ ilahi nemət hesab edənlərin nəzərində böyük qələbə və əzəmətli qurtuluş maddi qələbəyə nail olmaq və müharibə qənimətlərini əldə etməkdən başqa bir şey olmayacaqdır.

## AYƏ 74:

﴿ فَلْيُقَاتِلْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يَشْرُونَ الْحَيَاةَ الدُّنْيَا بِالآخِرَةِ وَمَن يُقَاتِلْ فِي سَبِيلِ اللّهِ فَيُقْتَلْ أَو يَغْلِبْ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Odur ki, gərək dünya həyatını axirətə satan kəslər Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşaraq öldürülsə, yaxud qalib gəlsə, tezliklə ona böyük bir mükafat əta edəcəyik.»***

**TƏFSİR:**

***MÖMİNLƏRİ CİHAD ÜÇÜN HAZIRLAMAQ***

Bu və bundan sonrakı bir neçə ayədə güclü imana, təsirli məntiqə və emosional əhval-ruhiyyəyə malik olanlar Allah yolunda cihada dəvət edilir. Ayənin əvvəlində buyurulur: Allah yolunda o kəslər cihad etməlidirlər ki, dünyanın əhəmiyyətsiz və alçaq həyatını axirət aləminin əbədi həyatına dəyişməyə razı olsunlar. Yəni yalnız belə bir müamiləyə razı olanlar həqiqi mücahidlərdən sayıla bilər.

Ayənin davamında buyurulur: Belə mücahidlərin taleyi tamamilə aydındır. Çünki iki haldan xaric deyillər: ya şəhid olacaqlar, ya da düşmənə qələbə çalacaqlar və hər iki halda da böyük mükafata nail olacaqlar. Şübhəsiz, bu cür güclü müqavimət ruhiyyəsinə malik olduqlarına görə məğlubiyyət onlar üçün heç bir əhəmiyyət kəsb etmir və hər iki halda özlərini qalib hesab edirlər. Hətta Peyğəmbərin (s) zamanında və ondan sonrakı dövrlərdə ölkələrin çox sürətlə fəth edilməsi barəsində kitab yazan alimlər bu məntiqi müsəlmanların inkişafında təsirli amillərdən hesab etmişlər.

## AYƏ 75:

﴿وَمَا لَكُمْ لاَ تُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ الَّذِينَ يَقُولُونَ رَبَّنَا أَخْرِجْنَا مِنْ هَـذِهِ الْقَرْيَةِ الظَّالِمِ أَهْلُهَا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ وَلِيًّا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ نَصِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Sizə nə olub ki, Allah yolunda və (o günlərdə müşriklərin hakimiyyəti altında olan Məkkə müsəlmanlarının, eləcə də bütün əsrlərdə zəmanə imperiyalarının***

***hakimiyyəti altında olan) kişi, qadın və uşaqlardan ibarət müstəzəflərin (zəif hala salınıb həmin halda saxlanılan təbəqənin) - həmişə "ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə Öz tərəfindən bir başçı ver və bizə Öz tərəfindən bir köməkçi təyin et" deyən kəslərin (nicatı) uğrunda vuruşmursunuz?!»***

**TƏFSİR:**

### *İNSANİ DUYĞULARDAN KÖMƏK ALMAQ*

Əvvəlki ayədə Allaha və Qiyamət gününə iman, eləcə də mücahidlərin xeyir və ya ziyanı əsasında dəlil gətirilərək möminlər cihada təşviq olunur. Amma bu ayədə insani duyğu və atifələrin həyəcanlandırılıb təhrik edilməsi əsasında cihada dəvət olunur və buyurulur: Nə üçün siz Allah yolunda və düşmənlərin əlində əsir olan məzlum və müdafiəsiz uşaqların, qadınların və kişilərin azadlığı yolunda cihad etmirsiniz?! Məgər insani duyğularınız, atifələriniz sakit oturaraq insan qəlbini riqqətə gətirən acınacaqlı səhnələrə tamaşa etməyə icazə verirmi?!

Sonra möminlərin insani duyğularını daha da şölələndirmək, hisslərini təhrik etmək üçün buyurulur: Bu məzlumlar və zəiflər: «Pərvərdigara! Bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) çıxart!» – deyə imdad diləyir, himayə olunmaq üçün Öz tərəfindən onlara bir rəhbər qərar verməsini, bir köməkçi təyin etməsini Allahdan acizanə istəyirlər.

Həqiqətdə yuxarıdakı ayə göstərir ki, Allah-təala onların duasını qəbul etmiş və bu böyük insani vəzifəni möminlərin öhdəsinə qoymuşdur. Möminlər Allah tərəfindən onların himayə olunması və xilas edilməsi üçün təyin olunmuş köməkçilərdir.

Bunu da qeyd etmək lazımdır ki, rəvayətlərdə imamlarımız (ə) buyurmuşlar: «***Biz ayədə qeyd olunan həmin zəiflərik ki, camaat bizim (ilahi) hökumətə çatmağımız üçün qiyam etməlidirlər.***»[28]

**AYƏ 76:**

﴿ الَّذِينَ آمَنُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ كَفَرُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ الطَّاغُوتِ فَقَاتِلُواْ أَوْلِيَاء الشَّيْطَانِ إِنَّ كَيْدَ الشَّيْطَانِ كَانَ ضَعِيفًا ﴾

**TƏRCÜMƏ:**

***«İman gətirənlər Allah yolunda vuruşurlar. Küfr edənlər isə azğının (haqqa itaətsizlik edən tüğyançının) yolunda vuruşurlar. Buna görə də siz Şeytanın köməkçiləri və dostlarına qarşı vuruşun. Şübhəsiz Şeytanın məkr və hiyləsi həmişə (Allahın tökdüyü tədbir müqabilində) zəifdir.»***

**TƏFSİR:**

Bu ayədə mücahidlərin əhval-ruhiyyələrini gücləndirmək, şücaətlərini artırmaq, düşmənlə mübarizəyə təşviq etmək, onların cərgələrini müəyyən etmək və hədəflərini aydınlaşdırmaq üçün belə buyurulur: İman gətirənlər Allah yolunda və Onun bəndələrinə faydalı olan işlər uğrunda mübarizə aparırlar. Lakin imansızlar tağutların, təxribatçı və dağıdıcı qüvvələrin yolunda vuruşurlar.

---

[28] «Təfsiri Safi», 1-ci cild, səh. 371, «Təfsiri Burhan», 1-ci cild, səh. 194

Yəni, həyat səhnəsi heç bir halda mübarizəsiz deyildir. Lakin bir dəstə haqq yolunda, digər bir dəstə isə batil və şeytan yolunda mübarizə aparır.

Ayənin davamında buyurulur: Şeytanın köməkçiləri və qoşunu ilə mübarizə aparın və onlardan əsla qorxmayın.

Tağutlar, tüğyançı qüdrətlər, hegemonlar və zalımlar zahirdə böyük və qüvvəli görünsələr belə, daxildə zəlil və bacarıqsızdırlar. Siz onların zahiri təchizatından və bər-bəzəklərindən qorxmayın. Çünki onların içləri boşdur. Onların tədbirləri də öz qüdrətləri kimi süst və zəifdir. Çünki onlar Allahın əzəli qüdrətinə deyil, şeytani qüvvələrə arxalanırlar.

**AYƏ 77:**

﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ قِيلَ لَهُمْ كُفُّواْ أَيْدِيَكُمْ وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ فَلَمَّا كُتِبَ عَلَيْهِمُ الْقِتَالُ إِذَا فَرِيقٌ مِّنْهُمْ يَخْشَوْنَ النَّاسَ كَخَشْيَةِ اللّهِ أَوْ أَشَدَّ خَشْيَةً وَقَالُواْ رَبَّنَا لِمَ كَتَبْتَ عَلَيْنَا الْقِتَالَ لَوْلا أَخَّرْتَنَا إِلَى أَجَلٍ قَرِيبٍ قُلْ مَتَاعُ الدَّنْيَا قَلِيلٌ وَالآخِرَةُ خَيْرٌ لِّمَنِ اتَّقَى وَلاَ تُظْلَمُونَ فَتِيلاً﴾

**TƏRCÜMƏ:**

***«Məgər (cihad hökmündən qabaq Məkkədə) "(müşriklərlə döyüşdən) əl saxlayın, namaz qılın və zəkat verin" deyilən (lakin döyüşə tələsən), amma (Mədinədə) döyüş yazılan və qərara alınan zaman, bir dəstəsi insanlardan Allah qorxusu qədər və ya ondan da artıq qorxan və "ey Rəbbimiz, nə üçün bizə döyüş qərara aldın (yazdın)? Nə üçün bizə azacıq bir möhlət vermədin?" deyən kəsləri görmədinmi?! De: "Dünyanın mənfəəti azdır və təqvalılar üçün axirət daha yaxşıdır. (Orada) sizə hətta xurma çərdəyinin yarığındakı nazik tel qədər zülm olunmayacaq və haqqınızdan kəsilməyəcəkdir."»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

İbn Abbasdan nəql olunmuşdur ki, müsəlmanlardan bir qrupu Məkkədə Qüreyş müşriklərinin şiddətli təzyiqləri və ağır işgəncələri altında olan zaman Peyğəmbərin (s) hüzuruna gəlib deyirdilər: "Biz İslamı qəbul etməzdən əvvəl möhtərəm və izzət sahibi idik. İndi o izzət və ehtiramı əldən vermişik. Düşmənlər tərəfindən əzab-əziyyətə, işgəncələrə məruz qalırıq. Əgər icazə versəydin, düşmənlə vuruşub öz izzətimizi geri qaytarardıq. Həmin zaman Peyğəmbər (s) onlara buyurmuşdu: «Hal-hazırda mənə mübarizə əmri verilməmişdir.» Lakin cihad hökmü nazil olanda əvvəllər atəşli çıxışlar edənlərin bəziləri cihada getməkdə süstlük göstərdilər. Yuxarıdakı ayə nazil olaraq müsəlmanları şücaətləndirməklə, eləcə də süst imanlıları tənqid atəşinə tutmaqla bəzi həqiqətləri bəyan etdi.

**TƏFSİR:**

***SÖZÜNƏ ƏMƏL EDƏNLƏR***

Burada buyurulur: Doğrudan da, bəzilərinin söz və əməlləri çox qəribədir! Münasib olmayan bir şəraitdə son dərəcə israr və hərarətlə, qəribə bir istəklə cihad icazəsi istəyirdilər. Lakin onlara əmr edildi ki, hal-hazırda cihad fikrində olmayın, öz ruhlarınızı saflaşdırın, namaz qılıb oruc tutun, qüvvələrinizi gücləndirin və zəkat verin. Amma cihad üçün hər bir cəhətdən şərait yarandıqdan, cihad hökmü verildikdən sonra qorxu və vəhşət hissi onların bütün varlıqlarını bürüdü, bu göstərişə qarşı çıxıb etiraz etdilər.

Onlar açıq-aşkar etiraz edərək deyirdilər ki, Pərvərdigara, nə üçün cihad hökmünü bu tezlikdə nazil etdin? Yaxşı olardı ki, bu əmri bir qədər təxirə salaydın, yaxud bu vəzifəni gələcək nəsillərin öhdəsinə qoyaydın!

Quran bu kimi şəxslərə iki cavab verir: Birincisi, ayədəki ifadələrdən aydın olur ki, onlar qüdrətli və qadir Allahdan qorxmaq əvəzinə, zəif və bacarıqsız insanlardan vəhşət hissi keçirirdilər, həm də onların camaat sarıdan keçirdikləri qorxu hissi Allahdan olan qorxularından daha artıq idi.

İkincisi: Belə şəxslərə deyilməlidir ki, cihadı tərk etməklə bir neçə gün aram yaşasanız belə, onsuz da bu fani dünyadan gedəcəksiniz. Lakin əbədi həyat pərhizkarlar üçün daha dəyərlidir. Xüsusilə öz mükafatınızı kamil şəkildə alacaqsınız. Sizə azacıq belə zülm edilməyəcəkdir.

**AYƏ 78:**

﴿أَيْنَمَا تَكُونُواْ يُدْرِككُّمُ الْمَوْتُ وَلَوْ كُنتُمْ فِي بُرُوجٍ مُّشَيَّدَةٍ وَإِن تُصِبْهُمْ حَسَنَةٌ يَقُولُواْ هَـذِهِ مِنْ عِندِ اللّهِ وَإِن تُصِبْهُمْ سَيِّئَةٌ يَقُولُواْ هَـذِهِ مِنْ عِندِكَ قُلْ كُلًّ مِّنْ عِندِ اللّهِ فَمَا لِهَؤُلاء الْقَوْمِ لاَ يَكَادُونَ يَفْقَهُونَ حَدِيثًا﴾

**TƏRCÜMƏ:**

***«Harada olsanız, hətta ucaldılmış hasarlar və qəsrlərin içində olsanız belə, ölüm sizi haqlayacaqdır. Onlara (münafiqlərə) bir yaxşılıq (sərvət, firavanlıq və qənimət) yetişəndə "bu, Allah tərəfindəndir" deyərlər, bir pislik (yoxsulluq, xəstəlik və məğlubiyyət) yetişəndə isə "bu, sənin tərəfindəndir (sənin nəhsliyinin ucbatındandır)" deyərlər. De: "Bunların hamısı Allah tərəfindəndir" (dünyada baş verən bütün hadisələr birbaşa Onun istək və iradəsi ilədir, lakin onları yaradan səbəblər müxtəlifdir). Bəs bu qövmə nə olub ki, sözü dərk etmək istəmirlər?»***

**TƏFSİR:**

Bu ayə möminləri cihada təşviq edir, onları müharibə meydanında ölümdən qorxmamağa çağırır. Eləcə də münafiqlərin bəd fal vurmaqlarına cavab verir. Belə ki onlar məsələni düzgün şəkildə anlayıb səbəblərini araşdırmaq əvəzinə, Allahı acı hadisələrin və məğlubiyyətlərin səbəbi hesab edirdilər.

Bunu da qeyd edək ki, rəhbərlərin bədnam edilməsi münafiqlərin həmişəki üslubudur. Məsuliyyəti öz üzərindən götürməklə günahlara bəraət qazandırmaq, eləcə də günahları başqasının boynuna atmaq olmaz.

Bilmək lazımdır ki, qələbə və məğlubiyyət, ölüm və həyat, acı və şirin hadisələr və s. bunların hamısı Allahın hikmətli təqdirinin təzahürünə əsasən dövr edir.

Ölümün qəti və labüd olmasına diqqət yetirməklə bilməlisiniz ki, harada olsanız ölüm sizi haqlayacaq. Buna görə də müharibədən qaçmağa heç bir əsas yoxdur.

**AYƏ 79:**

﴿ مَّا أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ اللّهِ وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ وَأَرْسَلْنَاكَ لِلنَّاسِ رَسُولاً وَكَفَى بِاللّهِ شَهِيدًا ﴾

**TƏRCÜMƏ:**

***«(Ey insan,) sənə yetişən hər hansı bir yaxşılıq Allah tərəfindəndir (onun səbəbi Allahın rəhmətidir) və sənə yetişən hər hansı bir pislik sənin öz tərəfindəndir (onun səbəbi sənin günahlarındır). (Ey Peyğəmbər,) Biz səni insanlara elçi olaraq göndərdik. Allahın (sənin peyğəmbərliyinə) şahid olması kifayətdir.»***

**TƏFSİR:**

İlahi dünyagörüşdə hər bir şey Allahın məxluqudur[29] və Allah hər bir şeyi gözəl yaratmışdır.[30]

Allaha aid olan şeylər yaradılışdır və həmişə gözəlliklə yanaşıdır. Bizim üçün xoşagəlməz sayılan hadisələr və çətinliklər ilk növbədə Allahın məxluqu olan kamalları əldən verməyin, ikincisi isə ilahi xeyirlərdən məhrum olmağın, habelə fərdin, yaxud cəmiyyətin pis əməllərinin nəticəsidir.

Hər bir halda insana nəsib olan kamallar Allah tərəfindən, nöqsanlı hallar və çatışmayan cəhətlər isə öz tərəfindəndir.

**AYƏ 80:**

﴿ مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا ﴾

**TƏRCÜMƏ:**

***«Allahın peyğəmbərinə itaət edən kəs, əslində Allaha itaət edib və kim üz döndərsə, Biz səni onların (əməlləri) üzərində gözətçi göndərməmişik.»***

**TƏFSİR:**

***PEYĞƏMBƏRİN SÜNNƏSİ İLAHİ VƏHY KİMİDİR.***

Bu ayədə Peyğəmbəri-Əkrəmin (s) insanların özləri, eləcə də onların gözəl, yaxud pis əməlləri qarşısındakı mövqeyi bəyan edilərək əvvəlcə buyurulur: «Hər kəs Peyğəmbərə (s) itaət etsə, Allaha itaət etmişdir.» Buna əsasən Allah qarşısındakı itaəti Peyğəmbərə (s) itaətdən ayırmaq olmaz. Çünki Peyğəmbər (s) Allahın iradə və istəyi ilə müxalif olan heç bir iş görməz.

Sonra buyurulur: Əgər müəyyən şəxslər bu hökmdən imtina edərək sənin göstərişlərinlə müxalifətçilik etsələr sən onların əməlləri qarşısında heç bir məsuliyyət daşımırsan və icbari şəkildə onların müxalifətlərinin qarşısını almağa vəzifəli deyilsən. Sənin vəzifən yalnız ilahi risaləti təbliğ etmək, insanları yaxşılığa dəvət edib pisliklərdən çəkindirmək, eləcə də yolunu azmış xəbərsiz insanlara düz yol göstərməkdən ibarətdir.

Diqqət yetirmək lazımdır ki, bu ayə Peyğəmbər (s) sünnəsinin və o Həzrətin (s) hədislərinin mötəbər bir sənəd kimi qəbul olunmasının zəruri olduğunu göstərən ən aşkar bir dəlildir. Məlum olduğu kimi, Peyğəmbər (s) də «Səqəleyn» hədisinə əsasən Əhli-Beytin (ə) hədislərini sənəd hesab etmiş və onlara məhəbbət bəsləməyi aşkar şəkildə vacib bilmişdir. Buradan aydın olur ki, Əhli-Beytin (ə) əmr və fərmanlarına itaət etmək Allahın fərmanlarına itaət etməkdən başqa bir şey deyildir.

---

[29] «Zümər», 63.

[30] «Səcdə», 7.

## AYƏ 81:

﴿وَيَقُولُونَ طَاعَةٌ فَإِذَا بَرَزُواْ مِنْ عِندِكَ بَيَّتَ طَآئِفَةٌ مِّنْهُمْ غَيْرَ الَّذِي تَقُولُ وَاللّهُ يَكْتُبُ مَا يُبَيِّتُونَ
فَأَعْرِضْ عَنْهُمْ وَتَوَكَّلْ عَلَى اللّهِ وَكَفَى بِاللّهِ وَكِيلاً﴾

### TƏRCÜMƏ:

***«Onlar (sənin yanında) «itaət edənlərik» deyirlər. Sənin yanından çıxanda(n sonra isə) onların bir dəstəsi öz gecə yığıncaqlarında, başlarında sənin dediyindən başqasını və özlərinin sənin yanında dediklərindən başqa şey dolandırırlar. Allah onların gecələr başlarında dolandırdıqlarını yazır. Odur ki, onlardan üz döndər və Allaha təvəkkül et. Allahın işləri öhdəsinə götürməsi kifayətdir.»***

### TƏFSİR:

Bu ayədə bir dəstə münafiqin və ya imanı zəif olan müsəlmanın vəziyyəti bəyan olunur və buyurulur: Onlar müsəlmanların arasında, Peyğəmbərin (s) hüzurunda olarkən öz mənafelərini qorumaq, ehtimal olunan zərəri dəf etmək, yaxud da zahirdə başqaları ilə eyni fikirdə olduğunu və ya Peyğəmbərin (s) fərmanına itaət etməsini göstərmək üçün deyirlər: «Cani-dildən ona itaət etməyə hazırıq!»

Amma bu münafiqlər və imanları zəif olanlar Peyğəmbərin (s) hüzurundan getdikdən sonra öz sözlərini və əhd-peymanları unudaraq özlərinin gecə yığıncaqlarında Peyğəmbərin (s) sözlərinin əksinə olan qərarlar qəbul edirlər. Lakin Allah bu yığıncaqlarda qəbul edilən qərarları yazır və Peyğəmbərə (s) göstəriş verir ki, öz tədbirlərində heç vaxt onlara güvənmə. Yalnız Allaha arxalan, çünki O ən yaxşı köməkçi və müdafiəçidir.

## AYƏ 82:

﴿ أَفَلاَ يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللّهِ لَوَجَدُواْ فِيهِ اخْتِلاَفًا كَثِيرًا ﴾

### TƏRCÜMƏ:

***«Bəs məgər onlar bu Quranın (maarifi) barəsində düşünmürlər?! Əgər o, Allahdan qeyrisi tərəfindən olmuş olsaydı, şübhəsiz, onda çoxlu ziddiyyət tapardılar.»***

### TƏFSİR:

Peyğəmbərə (s) vurulan ittihamlardan biri də bu idi ki, guya, «***o, Quranı başqasından öyrənmişdir!***»[31]

Quranın onların tərəfindən dərindən dərk oluna bilməməsi qəlblərinin paslanması və qıfıllanması ilə əlaqədardır. Başqa bir ayədə buyurulur:[32]

***"Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa qəlblərinə qıfıl vurulmuşdur?"***

Adi yazılar uzun müddət ərzində yazıldıqda və ya adi sözlər uzun müddət ərzində deyildikdə onda müxtəlif dəyişikliklər, təzadlar yaranır, müəyyən qədər təkmilləşir. Amma Quranın 23 il ərzində, həm də müxtəlif şəraitlərdə, o cümlədən, müharibə,

---

[31] «Nəhl», ayə 106

[32] «Məhəmməd», ayə 24

sülh, qürbət, hicrət, qüvvəli və zəif hallarda, eləcə də zamanın axarlarında, eyni zamanda təhsil almamış bir şəxs tərəfindən heç bir ixtilaf, ziddiyyət və təzad olmadan bəyan olunması onun bəşər kəlamı deyil, məhz Allah tərəfindən olan bir kəlam olmasına dəlalət edir.

Buna əsasən Quran Peyğəmbərin (s) əbədi möcüzəsidir və o Həzrətin (s) risalətinin haqq olmasına canlı bir dəlildir.

**AYƏ 83:**

﴿وَإِذَا جَاءهُمْ أَمْرٌ مِّنَ الأَمْنِ أَوِ الْخَوْفِ أَذَاعُواْ بِهِ وَلَوْ رَدُّوهُ إِلَى الرَّسُولِ وَإِلَى أُوْلِي الأَمْرِ مِنْهُمْ
لَعَلِمَهُ الَّذِينَ يَسْتَنبِطُونَهُ مِنْهُمْ وَلَوْلاَ فَضْلُ اللّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ لاَتَّبَعْتُمُ الشَّيْطَانَ إِلاَّ قَلِيلاً﴾

**TƏRCÜMƏ:**

***«Əgər onlara əmin-amanlıq və ya qorxu (müsəlmanların qələbəsi və ya məğlubiyyətinin səbəbi) barəsində bir xəbər çatsa (araşdırmadan) onu yayarlar, halbuki əgər onu Allahın peyğəmbərinə və özlərinin ixtiyar sahiblərinə həvalə etsəydilər, şübhəsiz onlardan araşdırma əhli olanlar onun həqiqətini dərk edərdilər (və bir çarə yolu tapardılar). Əgər Allah sizə lütf və mərhəmət göstərməsəydi, şübhəsiz ki, az bir qisminizi çıxmaqla hamınız Şeytana tabe olardınız.»***

**TƏFSİR:**

Sirli xəbərləri və şayiələri faş edib yaymaq müsəlmanlara həmişə zərbə vurmuşdur. Bu kimi xəbərlərin yayılması, adətən, aşağıdakı səbəblərdən irəli gəlir: sadəlik, intiqamçılıq hissi, zərbə vurmaq, kiminsə əlində oyun-oyuncaq olmaq, maddiyyata tamah, özünü göstərmək, özünün məlumatlı olduğunu bildirmək və sair. İslam dini hərtərəfli bir din olmaqla bu məsələni də irəli çəkərək sözügedən ayədə hərbi sirlərin açılmasını tənqid atəşinə tutmuş, qələbə və ya məğlubiyyət xəbərini öz rəhbərlərinə təqdim etməzdən qabaq camaat arasında yaymağı bir növ xəyali düşməndən vəhşət və ya qürur amili hesab etmişdir. Əgər ilahi məhəbbət və xəbərdarlıqlar olmasaydı bu yolda daha çox adam şeytanın toruna düşər, sirlərin ifşa olunması kimi səhvə düçar olardılar.

Buna əsasən, şayiə yaymaq münafiqlərin seçdiyi yollardan biridir. Halbuki, cəbhə xəbərləri və hərbi sirlər mərkəzi bir nöqtəyə aparılmalı, araşdırılıb təhlil edildikdən sonra məsləhət görülən qədər yayılmalıdır.

Buna görə də ilahi rəhbərə müraciət olunmadan hərbi xəbərlərin yayılması şeytana tabe olmaq sayılır. Əlbəttə, hərbi, siyasi və təhlükəsizliklə əlaqədar xəbərlərin hidayət olunması və ictimai sirlərin saxlanması ictihad və istinbat sahibi olan bir şəxsin – rəhbərin nəzarəti altında olmalıdır. Buna görə də vilayətlə fəqahət arasında qırılmaz rabitə mövcuddur.

**AYƏ 84:**

﴿ فَقَاتِلْ فِي سَبِيلِ اللّهِ لاَ تُكَلَّفُ إِلاَّ نَفْسَكَ وَحَرِّضِ الْمُؤْمِنِينَ عَسَى اللّهُ أَن يَكُفَّ بَأْسَ الَّذِينَ
كَفَرُواْ وَاللّهُ أَشَدُّ بَأْسًا وَأَشَدُّ تَنكِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Odur ki, Allah yolunda vuruş. Sən yalnız özün (öz vəzifən) üçün məsuliyyət daşıyırsan. Mömінləri də (cihada) həvəsləndir. Ümid var ki, Allah kafirlərin bəla və zərərin(dən siz)i saxlasın. Allah daha artıq bəla və daha ağır cəza verəndir.»***

**TƏFSİR:**

Kafirlər «Ühüd» müharibəsində qələbə çaldıqdan sonra Əbu Süfyan qürurla dedi: Bir daha kiçik «Bədr mövsümü»ndə (zil-qədə ayında «Bədr»də təşkil olunan bazarın adıdır) müsəlmanlarla qarşılaşarıq!»

Vədə verilən gün gəlib çatanda Peyğəmbər (s) camaatı cihada dəvət etdi. 70 nəfər hazır oldu. Lakin hərbi qarşıdurma baş vermədən müsəlmanlar sağ-salamat Mədinəyə qayıtdılar.

Buna əsasən, təhlükə hiss olunan zaman rəhbər hamıdan öndə getməlidir.

Əgər müsəlmanlar zəif və məzlumların ah-nalələrinə laqeyd yanaşsalar müsəlmanların rəhbəri təklikdə hərəkət etməlidir.

Peyğəmbərə (s) tək qaldıqda belə, düşmənlə müharibə etmək fərmanının verilməsi nümunəvi bir fərmandır.

**AYƏ 85:**

﴿ مَّن يَشْفَعْ شَفَاعَةً حَسَنَةً يَكُن لَّهُ نَصِيبٌ مِّنْهَا وَمَن يَشْفَعْ شَفَاعَةً سَيِّئَةً يَكُن لَّهُ كِفْلٌ مِّنْهَا وَكَانَ اللّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقِيتًا ﴾

**TƏRCÜMƏ:**

***«Kim (hər hansı bir xeyir işdə Allah və ya məxluq yanında) gözəl vasitəçilik etsə, həmin işdən ona pay (dünyada və axirətdə savab) çatacaqdır. Həmçinin kim pis vasitəçilik (hər hansı bir nahaq işdə və ya ləyaqətsiz bir şəxsin xeyrinə vasitəçilik) etsə, ona da həmin işdən (işin günah və əzabından) pay düşəcəkdir. Allah həmişə hər şeyə qadir və hər şeyi qoruyand.»***

**TƏFSİR:**

Ayədə qeyd olunan «muqit» kəlməsi başqasına «qüvvət verən», «canını qoruyan» deməkdir, həmçinin mühafizəçi və hesabdar mənasında da işlənir.

Əvvəlki ayədə qeyd olundu ki, hər kəs öz işinə cavabdehdir. Amma burada insanlar yaxşı işlərdə vasitəçiliyə dəvət edilərək buyurulur ki, hər kəs bu işi görsə, onun fayda və mükafatından bəhrələnəcəkdir. Buna əsasən, moizə etmək, barışıq yaratmaq, elm tədris etmək, cihada təşviq etmək, yaxşı işlərə kömək və s. - hamısı yaxşı işlərdə şəfaətin nümunələrindəndir. Bunun da müqabilində qeybət etmək, söz gəzdirmək, yaxşı işə maneçilik törətmək, töhmət vurmaq, fitnə-fəsad yaratmaq, camaatı cihaddan çəkindirmək, vəsvəsə yaratmaq, məkrli tədbirlərə əl atmaq və sair kimi işlər «səyyiə şəfaət»in (mənfi şəfaət) bariz nümunələrindəndir. Bütün vasitəçiliklərdə Allahı nəzərə almaq lazımdır.

Hədislərdə qeyd olunur ki, başqalarının barəsində dua etmək, əmr be məruf, insanlara düz yol göstərmək, hətta yaxşı işə işarə etmək belə, "həsənə şəfaət"in (müsbət şəfaət) nümunələrindəndir.[33]

---

[33] «Təfsiri Safi»

## AYƏ 86:

﴿ وَإِذَا حُيِّيْتُم بِتَحِيَّةٍ فَحَيُّواْ بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا إِنَّ اللّهَ كَانَ عَلَى كُلِّ شَيْءٍ حَسِيبًا ﴾

### TƏRCÜMƏ:

***«Sizə salam verildikdə siz ondan daha gözəl və yaxud onun kimi bir salam(la cavab) verin. Şübhəsiz, Allah hər şeyin hesabını aparandır.»***

### TƏFSİR:

Ayədə qeyd olunan «təhiyyət» dedikdə məqsəd salam vermək, yaxud hər növ başqa xoş rəftara deyilir – istər sözlə olsun, istərsə də əməllə. Bu zaman salam verilən şəxsin həyatı, sağlamlığı və şadlığı Allahdan istənilir. Hədiyyənin əvəzi də onun özündən yaxşı şəkildə verilməlidir.

İslamın tərbiyəvi sistemində təkcə kiçiklərdən böyüklərə salam verilmir, Allahdan, Peyğəmbərdən (s) və mələklərdən də salam verilir:

1. Allahın salamı.[34]

2. Peyğəmbərin salamı.[35]

Bir kəniz İmam Həsənə (ə) bir dəstə gül verdikdə İmam (ə) onu azad etdi. Camaatın bu barədə təəccüblə verdikləri suala həmin ayəni oxumaqla cavab verdi.

İslam dinində başqalarına salam vermək çox tövsiyə edilmişdir – istər salam verənin tanıdığı adam olsun, istərsə də tanımadığı. Simic o kəsdir ki, salam verməkdə də simiclik etsin. Peyğəmbər (s) görüşdüyü hər kəsə, hətta uşaqlara belə, salam verirdi.

Ayənin axırında salamın cavabının hər bir mərhələdə Allaha gizlin olmamasını bəyan etmək üçün buyurulur: «Allah hər şeyin hesabına yetişəndir.»

## AYƏ 87:

﴿ اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ لَيَجْمَعَنَّكُمْ إِلَى يَوْمِ الْقِيَامَةِ لاَ رَيْبَ فِيهِ وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ حَدِيثًا ﴾

### TƏRCÜMƏ:

***«Tək olan Allahdan başqa bir tanrı yoxdur. Sizi mütləq, (qəbirlərinizdən) barəsində heç bir şəkk-şübhə olmayan Qiyamət gününə (hesaba) toplayacaqdır. Sözdə kim Allahdan daha doğruçu ola bilər?!»***

### TƏFSİR:

***TÖVHİDLƏ MƏAD BİR-BİRİLƏ QIRILMAZ ƏLAQƏDƏDİR.***

Qiyamət günü bütün insanların əməllərindən hesabat almaq üçün bir yerə yığıldığı gündür. Belə isə, Allahın razılığını qazanmaq üçün yorulmadan çalışmaq və yalnız Ona ibadət etmək lazımdır.

Məadın haqq olmasına dair mövcud olan bütün dəlillərlə belə Allahın ədaləti, hikməti, təbiətdə Qiyamətin nişanələrinin mövcud olması, qış aylarında təbiətin bir

---

[34] «Saffat», 79.

[35] «Ən'am», 54.

növ ölüb baharda dirilməsi, yuxu və oyaqlıq, bədəndə olan hüceyrələrin yeniləşməsi və s. Qiyamətin barəsində azacıq belə şəkk-şübhəyə yer qoymur.

Ayənin axırında qeyd olunan mətləbləri təkid etmək üçün buyurulur: «Allahdan da doğru danışan bir kimsə ola bilərmi?»

### AYƏ 88:

﴿ فَمَا لَكُمْ فِي الْمُنَافِقِينَ فِئَتَيْنِ وَاللّهُ أَرْكَسَهُم بِمَا كَسَبُواْ أَتُرِيدُونَ أَن تَهْدُواْ مَنْ أَضَلَّ اللّهُ وَمَن يُضْلِلِ اللّهُ فَلَن تَجِدَ لَهُ سَبِيلاً ﴾

### TƏRCÜMƏ:

***«Bəs sizə nə olub ki, münafiqlər barəsində iki dəstə olmusunuz (bir dəstəniz onlara tərəfdar, digər bir dəstə isə müxalif olub), halbuki Allah onları etdiklərinə görə küfr və azğınlıq halına salmış və qəlblərini alt-üst etmişdir! Allahın öz azğınlığı içərisində boşladığı kəsi hidayət etmək istəyirsiniz?! Allahın öz azğınlığı içərisində boşladığı şəxs üçün (onun yaxşılığına doğru) əsla bir yol tapa bilməzsən.»***

### AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bəzi təfsirçilərin İbn Abbasdan nəql etdiyinə görə, zahirdə müsəlman olan bəzi məkkəlilər Mədinəyə hicrət etməyə hazır olmadılar. Lakin axırda Məkkədən çıxmaq məcburiyyətində qaldılar (bəlkə də malik olduqları yüksək mövqeyə görə casusluq üçün bu işə təyin edilmişdilər).

Müsəlmanlar bu hadisədən agah oldular və onlarla necə rəftar etmək məsələsinə gədikdə aralarında ixtilaf yarandı. Bəziləri inanırdı ki, bu dəstə həqiqətdə İslam düşmənlərinin köməkçiləri olduğuna görə onları qovmaq lazımdır. Lakin çox sadəlöhv şəxslərdən bir qrupu bu işlə müxalifətçilik edib deyirdi: «Biz Allahın birliyinə və Peyğəmbərin (s) nübüvvətinə şəhadət verənlərlə necə müharibə edə bilərik?!»

Bu zaman yuxarıdakı ayə nazil oldu və ikinci dəstənin yol verdiyi səhvə görə onları danlayıb sonra düzgün yolu göstərdi.

### TƏFSİR:

Bu ayənin nazilolma səbəbinə diqqət yetirməklə bu və ondan sonrakı ayələrin, əvvəllər münafiqlər barəsində nazil olmuş ayələrlə əlaqəsi tamamilə aydın olur. Ayənin əvvəlində buyurulur: Nə üçün münafiqlər barəsində iki dəstəyə ayrıldınız və hərəniz bir cür mühakimə yürütdünüz?!

Sonra buyurulur: Münafiqlərin mürtəkib olduğu çirkin və yaramaz əməllərə görə Allah-təala Öz himayəsini və müvəffəqiyyəti kəsmiş, onların fikirlərini tamamilə alt-üst etmişdir. Bunlar eynilə ayaq üstə durmaq əvəzinə kəlləsi üstə dayananlara bənzəyirlər.

Münafiqləri himayə edən sadəlöhvlərə xitabən buyurulur: Yoxsa siz Allahın, çirkin əməllər səbəbi ilə hidayətdən məhrum etdiyi adamları hidayət etmək istəyirsiniz? Halbuki, Allah hər kəsi hidayətdən məhrum etsə, onun üçün heç bir nicat və qurtuluş yolu tapmazsınız.

Çünki Allahın inkarolunmaz və həmişəlik qanununa görə, əməllərin təsir və nəticələri heç vaxt insandan ayrılmaz. Fikirləri çirkli və qarışıq, qəlbləri nifaq və riya

ilə dolu, işi-peşəsi Allah düşmənlərini himayə etmək olanların ilahi hidayətdən bəhrələnməsi necə mümkün ola bilər?! Bu çox yersiz bir təvəqqedir!

**AYƏ 89:**

﴿وَدُّواْ لَوْ تَكْفُرُونَ كَمَا كَفَرُواْ فَتَكُونُونَ سَوَاء فَلاَ تَتَّخِذُواْ مِنْهُمْ أَوْلِيَاء حَتَّى يُهَاجِرُواْ فِي سَبِيلِ اللّهِ
فَإِن تَوَلَّوْاْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ وَجَدتَّمُوهُمْ وَلاَ تَتَّخِذُواْ مِنْهُمْ وَلِيًّا وَلاَ نَصِيرًا﴾

**TƏRCÜMƏ:**

***«(Bu ayə kitab əhli və müşriklərdən olan kafirlərin öz müşrik qohum və dostlarının içərisində olanlar barəsindədir.) Onlar sizin də özləri kimi kafir olmanızı istəyirlər ki, bir-birinizlə bərabər olasınız. Buna görə də onlar Allah yolunda (və dini qəbul etmələrini sübuta yetirmək üçün İslam diyarına) hicrət etməyincə, əsla onlardan dostlar götürməyin. Beləliklə əgər (bu işdən) üz döndərsələr onları (müşriklər kimi) harada tapsanız tutun və öldürün. Onlardan heç vaxt dost və köməkçi götürməyin.»***

**TƏFSİR:**

Bəzi sadəlövh müsəlmanlar tərəfindən himayə olunan və onlara vasitəçilik edilən, eləcə də Quranın İslama yad olmasını bəyan etdiyi münafiqlər barəsində söhbət açan əvvəlki ayələrin ardınca bu ayədə buyurulur: Onların qəlbləri o qədər qaranlıq və zülmətdir ki, təkcə özləri kafir olmaqla kifayətlənmir, üstəlik sizin də kafir olaraq onlarla eyni səviyyədə olmağınızı istəyirlər. Deməli, onlar adi kafirlərdən də pisdirlər. Çünki adi kafirlər başqalarının əqidə və fikirlərini oğurlamaq əzmində deyillər. Amma bunlar başqalarının əqidələrini sarsıdaraq mənəvi cəhətdən təxribatçılıq fəaliyyəti göstərirlər. Belə isə, heç vaxt siz müsəlmanlar onlarla dostluq etməməlisiniz. Əgər öz əməllərinə yenidən baxaraq təxribatçılıq və nifaq əhval-ruhiyyəsindən əl çəksələr və Allah yolunda hicrət etsələr onda başqa məsələ. Bunun da əlaməti küfr və nifaq mərkəzindən çıxıb İslam mərkəzinə hicrət etmələridir. Yox, əgər hicrət etməyə razı olmasalar, bilin ki, küfr və nifaqlarından əl çəkməmiş, zahirdə İslamı qəbul etməklə təxribatçılıq və casusluq məqsədi güdürlər. Belə olan halda onları hər yerdə tapsanız əsir tutub lazım gördüyünüz təqdirdə də qətlə yetirə bilərsiniz. Ayənin axırında bir daha təkid üçün buyurulur ki, onlardan heç kəsi özünüzə dost və köməkçi tutmayın.

İslahatçı və inqilabi bir yolda hərəkət edən hər hansı bir cəmiyyətin, dost paltarına bürünmüş düşmənin və təhlükəli casusların şərindən xilas olmasının yeganə yolu onlarla bu cür ciddi şəkildə rəftar etməkdir.

**AYƏ 90:**

﴿إِلاَّ الَّذِينَ يَصِلُونَ إِلَىَ قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ أَوْ جَآؤُوكُمْ حَصِرَتْ صُدُورُهُمْ أَن يُقَاتِلُونَكُمْ أَوْ
يُقَاتِلُواْ قَوْمَهُمْ وَلَوْ شَاء اللّهُ لَسَلَّطَهُمْ عَلَيْكُمْ فَلَقَاتَلُوكُمْ فَإِنِ اعْتَزَلُوكُمْ فَلَمْ يُقَاتِلُوكُمْ وَأَلْقَوْاْ إِلَيْكُمُ
السَّلَمَ فَمَا جَعَلَ اللّهُ لَكُمْ عَلَيْهِمْ سَبِيلاً﴾

**TƏRCÜMƏ:**

***«Sizinlə aralarında əhd-peyman olan bir dəstəyə birləşənlər və ya sinələri sizinlə, yaxud öz tayfaları ilə vuruşmaqdan təngə gəlmiş halda sizin yanınıza gələnlər (bu hökmdən) müstəsnadırlar. Əgər Allah istəsəydi, şübhəsiz, onları sizin üstünüzə salar və onlar mütləq sizinlə vuruşardılar. Buna görə də əgər sizdən uzaqlaşsalar, sizinlə vuruşmaq istəməsələr və sülh təklifi versələr, onda Allah sizin üçün onlara qarşı (onlara hücum etməyə) bir yol qoymamışdı.»***

**TƏFSİR:**

Bundan əvvəlki ayədə kafirlərlə həmkarlıq edən münafiqlərə qarşı ciddi rəftar edib onları qətlə yetirmək məsələsi irəli çəkilmişdi. Bu ayədə isə həmin hökmdən istisna olunanlar qeyd olunur.

Sülh şəraitində, hətta kafirlərlə bağlanan hərbi müqavilələrə, eləcə də beynəlxalq müqavilələrə belə ehtiramla yanaşmaq lazımdır. Müharibələrdə bitərəf mövqe seçənlərə toxunmaq olmaz. Eləcə də sülhməramlı məqsədlərə, atəşkəs istəyinə ehtiram qoyulmalıdır. İslamda sülh ilkin yönə, müharibə isə müstəsna və ikinci dərəcəli yönə malikdir.

Müsəlmanlar həmişə Allahın qüdrətini nəzərə almalı, yalnız ona arxalanmalıdırlar ki, qürura düçar olmasınlar. Eləcə də hissləri normal vəziyyətdə olsun.

Müsəlmanlar o qədər qüdrətli olmalıdırlar ki, müxaliflər və İslam düşmənləri onlara hücum etmək fikrinə belə düşməsinlər. Buna görə də sülh təklifi təklikdə kifayət deyil. Tam əmin olmaq üçün onlar müharibəni tərk etməli, öz tərəflərindən «salam» bildirməlidirlər.

**AYƏ 91:**

﴿سَتَجِدُونَ آخَرِينَ يُرِيدُونَ أَن يَأْمَنُوكُمْ وَيَأْمَنُواْ قَوْمَهُمْ كُلَّ مَا رُدُّوَاْ إِلَى الْفِتْنِةِ أُرْكِسُواْ فِيِهَا فَإِن لَّمْ يَعْتَزِلُوكُمْ وَيُلْقُواْ إِلَيْكُمُ السَّلَمَ وَيَكُفُّوَاْ أَيْدِيَهُمْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ ثِقِفْتُمُوهُمْ وَأُوْلَئِكُمْ جَعَلْنَا لَكُمْ عَلَيْهِمْ سُلْطَانًا مُّبِينًا﴾

**TƏRCÜMƏ:**

***«Tezliklə (həm) sizdən amanda və (həm də) öz qövmlərindən xatircəm olmaq istəyən digər bir dəstə ilə qarşılaşacaqsınız. Onlar hər dəfə küfrə və müsəlmanlarla döyüşə çağrılanda, ona tərəf qayıdırlar. Beləliklə, əgər onlar sizdən uzaqlaşmasalar, sülh təklifi irəli sürməsələr və sizdən əl çəkməsələr onda, onları harada tapsanız tutun və öldürün. Sizə üzərlərində açıq-aşkar hökmranlıq bəxş etdiyimiz kəslər onlardır.»***

**TƏFSİR:**

Məkkəlilərdən bəziləri canlarının müdafiə olunması üçün Peyğəmbərin (s) yanına gəlib ikiüzlülüklə İslamı qəbul etdiklərini izhar edir, Məkkəyə qayıtdıqdan sonra yenidən bütpərəstliklə məşğul olurdular ki, kafirlər tərəfindən işgəncələrə, əzab-əziyyətlərə məruz qalmasınlar. Onlar bu üsulla öz mənafelərini hər iki qrup sarıdan təmin edirdilər və hər iki dəstə tərəfindən törənə biləcək təhlükədən amanda idilər. Əlbəttə, onların küfrə olan meylləri İslama olan meyllərindən daha artıq idi.

Buna əsasən, müsəlmanlar növbənöv düşmənlərini tanımalı, hər biri ilə onların özünə münasib şəkildə rəftar etməli, hər kəsin «İslamı qəbul etmişəm» - sözünə dərhal inanıb arxayın olmamalıdırlar.

İslam hökumətinin müsəlmanlara daim əzab-əziyyət verən, onlara qarşı məkrli planlar hazırlayan münafiqləri məhv etmək və cəmiyyəti onların murdar varlığından təmizləməyə tam ixtiyarı vardır.

Lakin ən kəskin, şiddətli və məhvedici rəftarlar İslamı məhv etmək əzmində olan münafiqlərə qarşı işlədilməlidir.

**AYƏ 92:**

﴿وَمَا كَانَ لِمُؤْمِنٍ أَن يَقْتُلَ مُؤْمِنًا إِلاَّ خَطَئًا وَمَن قَتَلَ مُؤْمِنًا خَطَئًا فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ وَدِيَةٌ مُّسَلَّمَةٌ
إِلَى أَهْلِهِ إِلاَّ أَن يَصَّدَّقُواْ فَإِن كَانَ مِن قَوْمٍ عَدُوٍّ لَّكُمْ وَهُوَ مْؤْمِنٌ فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ وَإِن كَانَ مِن
قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُمْ مِّيثَاقٌ فَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَى أَهْلِهِ وَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةً فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ شَهْرَيْنِ
مُتَتَابِعَيْنِ تَوْبَةً مِّنَ اللّهِ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Heç bir möminə səhv və xəta (tamamilə xəta üzündən baş verən və ya qəsdən edilənə oxşayan xəta) istisna olmaqla hansısa bir mömini öldürmək yaraşmaz (və bu həm ağıl, həm də şəriət baxımından da rəva deyildir). Kim səhvən bir mömini öldürsə, (qətlin kəffarəsi olaraq) bir mömin qulu azad etməli və öldürülənin qohumlarına (qanbahasını) bağışlamadıqları təqdirdə qanbahası verməlidir. Əgər öldürülən şəxs sizinlə düşmən olan bir dəstədən, özü də mömin olsa, onda (kəffarə olaraq) mömin bir qulun azad edilməsi vacibdir (və qanbahası lazım deyildir). Əgər sizinlə aralarında (sülh və ya himayə) əhd-peyman(ı) bağlanmış bir dəstədən olsa, onda onun qanbahası qohumlarına verilməli və mömin bir qul azad edilməlidir. (Qul) tapmayan kəs dalbadal iki ay oruc tutmalıdır. (Bunlar) Allah tərəfindən olan bir tövbədir. Allah həmişə (hər şeyi) bilən və hikmət sahibidir.»***

**TƏFSİR:**

### *AYƏNİN NAZİLOLMA SƏBƏBİ*

Məkkə müşriklərindən olan Haris ibn Yəzid adlı bir şəxs Əbu Cəhl ilə əlbir olub Əyyaş ibn Əbi Rəbiəyə İslamı qəbul etdiyinə görə işgəncə verirdilər. Müsəlmanlar Mədinəyə köçdükdən sonra Əyyaş da Mədinəyə köçdü. Bir gün o, Mədinənin ətrafında Haris ibn Yəzidi gördü və fürsətdən istifadə edərək onu qətlə yetirdi. O, bir İslam düşmənini öldürdüyünü fikirləşirdi. Halbuki, Harisin sonralar tövbə edib İslamı qəbul etdiyini bilmirdi. Bu hadisədən sonra Peyğəmbərin (s) hüzuruna gəlib hadisəni danışdı. Yuxarıdakı ayə nazil olaraq səhv və xəta üzündən baş verən qətlin hökmünü bəyan etdi.

### XƏTA ÜZÜNDƏN OLAN QƏTLİN HÖKMLƏRİ

Keçən ayələrdə münafiqləri, eləcə də İslamın ən təhlükəli düşmənlərini məhv etməklə əlaqədar müsəlmanlara tam ixtiyar verilmişdi. Bu qanundan sui-istifadə edilməməsi üçün, habelə düşmənçilik və kin-küdurət bəslədikləri şəxsi münafiq adlandıraraq ondan şəxsi qisas alınmasına yol verməmək üçün bu və ondan sonrakı ayədə səhvən və xəta üzündən olan qətlin hökmləri bəyan edilir. Bu ayədə buyurulur:

Heç bir mömin şəxsin (xəta üzündən olan qətl istisna olmaqla) imanlı bir şəxsi qətlə yetirməyə haqqı yoxdur.

Xəta üzündən olan qətlin kəffarəsi (cəriməsi) üç mərhələdə bəyan olunur:

Əvvəlcə günahsız olaraq səhvən öldürülən şəxsin müsəlman ailəsindən olması fərz olunur. Bu halda qatil iki iş görməlidir: həm müsəlman bir qul azad etməli, həm də öldürülənin qan bahasını (diyəni) öldürülən şəxsin ailəsinə verməlidir. Şərif ayədə buyurulur: Hər kəs bir mömini xəta üzündən qətlə yetirsə, mömin bir qul azad etməli və öldürülənin qan bahasını onun adamlarına (qəyyumlarına) verməlidir. Amma əgər öldürülən şəxsin ailəsi diyəni tam razılıqla güzəştə getsə, onda (verməməsinin) eybi yoxdur.

İkinci halda öldürülən mömin şəxsin müsəlmanlarla düşmən olan bir ailədən olması fərz edilir. Bu halda xəta üzündən baş verən qətlin kəffarəsi müsəlman bir qul azad etməkdir.

Maddi imkanlarının möhkəmlənməsi müsəlmanlar üçün ciddi bir təhlükə sayılan adamlara diyə verilməsinin heç bir zərurəti yoxdur. Bundan əlavə, İslam dini bu kimi şəxslərin İslama düşmən olanlarla (burada öz ailəsi ilə) rabitəsini tamamilə kəsilmiş hesab edir. Buna əsasən, xəsarətin ödənməsinə heç bir lüzum yoxdur.

Üçüncü halda isə öldürülən şəxsin ailəsinin müsəlmanlarla peyman (müqavilə) bağlamış kafirlərdən olması fərz edilir. Belə olan halda əhd-peymana ehtiram qoyulsun deyə, bir müsəlman qulun azad edilməsindən əlavə, öldürülən şəxsin qan bahsı da onun ailəsinə verilməlidir. Zahirən burada qeyd olunan «öldürülən şəxs» mömin olmalıdır.

Ayənin axırında qul azad etməyə imkanı olmayanlar, yəni ya bu işə maddi imkanı olmayan, ya da azad etmək üçün qul tapmayan şəxslər barəsində buyurulur: Hər kəsin qul azad etməyə imkanı yoxdursa, iki ay ardıcıl oruc tutmalıdır.

Sonra buyurulur: Bu hökmün (qul azad etməyin) iki ay oruc tutulmaqla dəyişdirilməsi Allah tərəfindən bəndələrə olan bir növ yüngüllük, güzəşt və tövbədir. Allah həmişə, hər bir şeydən xəbərdardır və Onun bütün göstərişləri mütləq hikmət əsasındadır.

### AYƏ 93:

﴿ وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا ﴾

### TƏRCÜMƏ:

***«Kim bir mömini qəsdən öldürsə (və bu əməli halal hesab etsə), onun cəzası Cəhənnəmdir ki, orada əbədi qalacaqdır. Həmçinin Allah ona qəzəb edər, onu Öz rəhmətindən uzaqlaşdırar və onun üçün böyük bir əzab hazırlayar.»***

### TƏFSİR:

«Ühüd» müharibəsinin böhranlı şəraitində müsəlmanlardan biri cahiliyyət dövründən miras qalmış şəxsi ədavətə görə digər bir müsəlmanı öldürdü. Peyğəmbər (s) vəhy yolu ilə bu işdən agah oldu və «Ühüd»dən qayıdarkən Quba adlı yerdə həmin mömin qatilin qətlinə fərman verdi. Bu kimi hallarda qatilin tövbə etməsinə və peşman olmasına heç vaxt əhəmiyyət verilmir.[36]

[36] «Məğazi», 1-ci cild, səh. 304, «Peyğəmbər və cihad» kitabından nəqlən, səh. 327

Müqəddəs İslam dini müsəlmanın canının qorunması, eləcə də ayrı-ayrı fərdlərin təhlükəsizliyinin təmin olunmasına son dərəcə böyük əhəmiyyət verir, mömin bir adamı qəsdən qətlə yetirənlərə əbədi əzab vədəsi verir ki, ağır cinayətlərin və qətl hadisələrinin qarşısı alınsın. Bu ayədə gələn «mömini qəsdən öldürmək» ifadəsi heç bir günah barəsində qeyd olunmamışdır.

***İNCƏ MƏTLƏBLƏR***

İslam quruluşunda heç bir məqamın və şəxsin başqalarını nahaq yerə qətlə yetirməyə və ya edam etməyə haqqı yoxdur. Buna görə də qəsdən törədilən qətl üçün qatildən bu dünyada qisas alınaraq cəzalandırılmasından əlavə, axirətdə də aşağıdakı dörd cür şiddətli əzab verilir:

1. Hər kəs imanlı bir adamı qəsdən qətlə yetirsə, onun cəzası cəhənnəmdir ki, orada həmişəlik qalacaqdır.
2. Allah ona qəzəb edəcəkdir.
3. Allah onu Öz rəhmətindən məhrum edəcəkdir.
4. Onun üçün böyük bir əzab hazırlamışdır.

Nahaq yerə adam öldürmək ən böyük cinayət və ən təhlükəli günahlardan biridir ki, əgər onunla ciddi şəkildə mübarizə aparılmazsa, sağlam cəmiyyətin mühüm şərtlərindən biri olan əminamanlıq və təhlükəsizlik bütünlüklə aradan gedəcəkdir. Quran günahsız bir adamın nahaq yerə öldürməyi yer üzündə olan bütün insanların öldürülməsinə bərabər hesab edir.

**AYƏ 94:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا ضَرَبْتُمْ فِي سَبِيلِ اللّهِ فَتَبَيَّنُواْ وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا فَعِندَ اللّهِ مَغَانِمُ كَثِيرَةٌ كَذَلِكَ كُنتُم مِّن قَبْلُ فَمَنَّ اللّهُ عَلَيْكُمْ فَتَبَيَّنُواْ إِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, Allah yolunda (cihad etmək üçün) səfərə çıxdığınız zaman diqqətlə araşdırma aparın və sizə salam verən və zahirdə İslama mənsubiyyət bildirən şəxsə, dünya həyatının mənfəətini əldə etmək istəyərək (bu bəhanə ilə onu öldürmək üçün) «sən mömin deyilsən» deməyin, halbuki Allah yanında çoxlu qənimətlər vardır. Bundan qabaq siz də, Allah (həqiqi imanla) sizin boynunuza haqq qoyana kimi elə idiniz (dildə iman gətirdiyinizi bildirir və həmçinin dünya mənfəəti üçün adam öldürürdünüz). Buna görə də gərək araşdırma aparasınız. Həqiqətən Allah etdiklərinizdən xəbərdardır.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

Qeyd olunur ki, Peyğəmbəri-Əkrəm (s) Xeybər müharibəsindən qayıdan zaman Üsamə ibn Zeydi bir dəstə müsəlmanla Fədək kəndlərindən birində olan yəhudilərə doğru göndərdi ki, onları İslama dəvət etsin, yaxud İslamı qəbul etmədikləri təqdirdə zimmə şərtlərini qəbul etsinlər.

İslam qoşununun gəlişindən xəbər tutan Mirdas adlı bir yəhudi onları qarşılamağa çıxdı. Allahın birliyinə və Peyğəmbərin (s) nübüvvətinə şəhadət verirdi.

Üsamə o yəhudinin öz canının qorxusundan və mal-dövlətini qorumaq üçün zahirdə İslamı qəbul etdiyini, batində isə müsəlman olmadığını güman edərək hücum edib onu öldürdü.

Bu xəbər Peyğəmbərə (s) çatdıqda çox narahat oldu və buyurdu: «Sən bir müsəlman öldürmüsən!» Üsamə narahat oldu və dedi ki, bu kişi canının qorxusundan və mal-dövlətini qorumaq üçün zahirdə İslamı qəbul etmişdi. Peyğəmbər (s) buyurdu: «Sən ki onun batinindən agah deyildin! Nə bilirsən, ola bilsin ki, həqiqətən müsəlman olmuşdu.» Bu zaman yuxarıdakı ayə nazil oldu.

**TƏFSİR:**

Bu ayədə ittihama məruz qalması mümkün olan günahsız şəxslərin canının qorunması üçün ehtiyat göstərişi verilir və buyurulur: Ey iman gətirənlər! Allah yolunda hərəkət etdiyiniz zaman axtarış aparın, İslamı izhar edən şəxslərə «sən müsəlman deyilsən!» deməyin.

Sonra əlavə edilir ki, bu dünyanın müvəqqəti nemətləri xatirinə İslam izhar edənləri ittiham etməyin, onları düşmən adı ilə qətlə yetirməyin və mal-dövlətini qənimət almayın. Halbuki, əbədi və dəyərli qənimətlər yalnız Allahın yanındadır. Baxmayaraq ki, keçmişdə belə idi. Siz cahiliyyət dövründə apardığınız müharibələrdə yalnız qənimət məqsədi güdürdünüz. Lakin indi İslamın və Allahın sizə qoyduğu minnət sayəsində bu vəziyyətdən xilas olmusunuz. Bu böyük nemətin şükrünü yerinə yetirmək üçün öz işlərinizdə dərindən təhqiqat aparın. Bunu da bilin ki, Allah sizin bütün əməl və niyyətlərinizdən agahdır.

Cihad – yaradılış aləmində mövcud olan ümumi bir qanundur. Bütün dünya varlıqları – istər bitkilər, istərsə də heyvanlar – öz mənafeləri qarşısında olan maneələri cihad vasitəsi ilə aradan qaldırırlar ki, istədikləri kamal həddinə çata bilsinlər.

Əlbəttə, buna da diqqət yetirmək lazımdır ki, cihad müdafiə yönünə malik olmaqdan əlavə, bəzi vaxtlar hücum xarakterli, bəzən də elmi, iqtisadi, mədəni və siyasi xarakterli ola bilər.

**AYƏ 95:**

﴿لاَّ يَسْتَوِي الْقَاعِدُونَ مِنَ الْمُؤْمِنِينَ غَيْرُ أُوْلِي الضَّرَرِ وَالْمُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً وَكُلاًّ وَعَدَ اللّهُ الْحُسْنَى وَفَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Cismində xəsarət və digər üzrü olmadan (müstəhəbbi və ya vacibi-kifayi) cihada getməyib (evdə) oturan möminlər, Allah yolunda mal və canları ilə cihad edənlərlə əsla bir deyildirlər. Allah mal və canları ilə cihad edənləri (evdə) oturanlardan (yüksək) bir dərəcə ilə üstün etmişdir və Allah onların hər birinə (iman və əməli müqabilində) yaxşı bir mükafat vəd etmişdir. Allah cihad edənlərə (evdə) oturanlardan daha böyük mükafatla üstünlük əta etmişdir.»***

**TƏFSİR:**

Əvvəlki ayələrdə cihad barədə söhbət gedirdi. Bu ayədə isə mücahidlərlə cihad meydanlarına getməyənlər müqayisə edilir və buyurulur: Cihadda iştirak etməyə mane ola biləcək xüsusi bir xəstəlik, yaxud narahatçılıq olmadan cihaddan imtina edənlər heç vaxt haqq kəlməsinin yüksəldilməsi üçün malları və canları ilə Allah yolunda cihad edənlərlə – mücahidlərlə bir ola bilməzlər.

Sonra mücahidlərin başqalarından olan üstünlüyü aşkar şəkildə belə bəyan edilir: Allah-təala öz malları və canları ilə Onun yolunda mübarizə aparanlara, cihad meydanında iştirak etməkdən imtina edənlərə nisbətən böyük üstünlük əta etmişdir.

Lakin bu kimi mücahidlərin qarşısında elələri vardır ki, cihad onlara vacibi-eyni deyildir və xəstəlik, bacarıqsızlıq və digər müəyyən səbəblər üzündən cihadda iştirak edə bilmədiklərinə görə onların saleh əməl, gözəl niyyət, iman və sair yaxşı əməllərinin mükafatı aradan getməsin deyə, onlara da gözəl vədə verilir və buyurulur ki, Allah hər iki dəstəyə – həm mücahidlərə, həm də evlərində oturanlara gözəl mükafatlar vədəsi vermişdir.

Lakin İslam məntiqində cihadın əhəmiyyəti bundan daha artıq olduğu üçün bir daha mücahidlərdən söhbət açılır və təkid olunur ki, Allah mücahidləri cihada getməyənlərdən böyük bir mükafatla seçib üstün etmişdir.

**AYƏ 96:**

﴿ دَرَجَاتٍ مِّنْهُ وَمَغْفِرَةً وَرَحْمَةً وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Öz tərəfindən (dünya və axirətdə) dərəcələr, bağışlanmaq və rəhmətlə! Allah həmişə bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Bu ayədəki «böyük mükafat» belə təfsir olunur: Allah tərəfindən mühüm bir dərəcələr, bağışlanmaq və rəhmət onlara nəsib olacaqdır.

Ayənin axırında buyurulur: Əgər həmin şəxslər öz ilahi vəzifələrini yerinə yetirərkən müəyyən günahlara mürtəkib olub öz əməllərindən peşman olsalar, Allah onlara bağışlanmaq vədəsi verər. Çünki Allah bağışlayan və mehribandır.

## AYƏ 97:

﴿إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ قَالْوَاْ
أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا فَأُوْلَئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَسَاءتْ مَصِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Həqiqətən mələklər özlərinə zülm etməkdə olan kəslərin canlarını alarkən (onlara) deyəcəklər: "(Din baxımından) nə (vəziyyət)də idiniz?". Deyəcəklər: "Biz yer üzündə (iman və əməl cəhətdən) zəif (vəziyyətdə saxlanılmış halda) idik". Mələklər deyəcəklər: "Məgər Allahın yeri geniş deyildi ki, orada (küfr mühitindən İslam mühitinə) hicrət edəydiniz?!" Odur ki, onların yerləri Cəhənnəmdir və ora çox pis bir dönüş yeridir.»***

**TƏFSİR:**

«Bədr» müharibəsindən əvvəl Məkkə kafirləri şəhər əhalisini müsəlmanlara qarşı müharibəyə çağırıb təhdid edirdilər ki, hər kəs bu müharibədən boyun qaçırsa evi dağıdılacaq və mal-dövləti müsadirə ediləcəkdir. Məkkədə məskunlaşan bəzi müsəlmanlar da hələ hicrət etmədiklərinə görə canlarının qorxusundan kafirlərlə birlikdə müsəlmanlarla müharibəyə gəlib «Bədr» döyüşündə öldürüldülər. Yuxarıdakı ayə nazil oldu və küfr mühitində qalmaqla, hicrəti tərk etməklə özlərinə zülm edənləri məzəmmət edib onları müqəssir saydı.

Deməli, küfr mühitindən hicrət edib başqa yerə getmək vacib, kafirlərin dəstəsində qalıb onların çox görünməsinə səbəb olmaq isə haramdır. Əgər müsəlman şəxs ətrafındakı mühiti dəyişdirməyə qadir olsa, mütləq bu işi görməli, əks halda, oradan köçüb hicrət etməlidir ki, Allah tərəfindən sorğu-suala tutulmasın, çünki Allah heç bir günah əmələ bəhanə yeri qoymur. Bunu da bilmək lazımdır ki, əsas məsələ hədəf və əqidədir. Həyat mühiti isə sonradan əlavə olunan şeylərdir. Əsas məsələ vətənpərvərlik deyil, Allahpərəstlikdir.

Rəvayətlərdə müstəzəf məsuliyyət yolunu ayırd edə bilməyən, haqla batilə fərq qoymağa qadir olmayan kəsə deyilir.[37] Hədislərdə qeyd olunur: **«hər kəs dinini qorumaq üçün hətta bir qarış belə hicrət etsə, behişt əhlidir və Həzrəti Məhəmmədlə (s), İbrahimlə (ə) bir yerdə olacaqdır.»**[38]

## AYƏ 98:

﴿ إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Heç bir çarəsi olmayan və (hicrət etməyə) heç cür yol tapa bilməyən zəif salınmış kişi, qadın və uşaqlar (hakim qüdrətin və ya elm öyrənməyə mane olan mühitin zəif hala saldığı bu kəslər) müstəsnadırlar.»***

---

[37] «Təfsiri Safi»

[38] «Təfsiri Safi», «Nurus-Səqəleyn», 1-ci cild, səh. 541

**TƏFSİR:**

Hər kəs haqqı tanısa, habelə mühitdən hərəkət etməyə və ya onu dəyişdirməyə qüdrəti olsa, o, müstəzəf deyil və belə şəxsin hicrət etməyə heç bir əsaslı üzrü, bəhanəsi yoxdur.

Küfrü dəf etmək üçün tədbirləri, haqqa təslim olmaq üçün bir yolu olmayanlar müstəzəfdirlər və şəri vəzifə onların üzərindən götürülür.

Bunu da qeyd edək ki, bəhanə xarakterli üzrlər deyil, yalnız həqiqi mənada üzürlü olan səbəblər qəbul edilir.

**AYƏ 99:**

﴿ فَأُوْلَئِكَ عَسَى اللّهُ أَن يَعْفُوَ عَنْهُمْ وَكَانَ اللّهُ عَفُوًّا غَفُورًا ﴾

**TƏRCÜMƏ:**

***«Buna görə də ümid var ki, Allah onları əfv etsin. Allah həmişə çox əfv edən və bağışlayandır.»***

**TƏFSİR:**

Bu ayədə buyurulur ki, onların ilahi əfv və rəhmətə nail olmaları mümkündür, çünki Allah həmişə bağışlayan və mehribandır.

**AYƏ 100:**

﴿وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيرًا وَسَعَةً وَمَن يَخْرُجْ مِن بَيْتِهِ مُهَاجِرًا إِلَى اللّهِ وَرَسُولِهِ ثُمَّ يُدْرِكْهُ الْمَوْتُ فَقَدْ وَقَعَ أَجْرُهُ عَلى اللّهِ وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Kim Allah yolunda (cihad etmək, yaxud dini elm öyrənmək və ya lazım olan dünya malı üçün) hicrət etsə, (öz din işlərini təmin edə bilməsi üçün) yer üzündə ürəyi istəyən qədər çoxlu və geniş sığınacaq tapacaqdır. Kim öz evindən Allaha və Onun peyğəmbərinə tərəf hicrət etmək niyyəti ilə çıxsa, sonra ölüm onu haqlasa, həqiqətən, onun mükafatı Allahın öhdəsinədir. Allah həmişə çox bağışlayan və mehribandır.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

Məkkə müsəlmanlarından biri ağır xəstələndiyi zaman dedi: «Məni Məkkədən çıxardın, bəlkə mühacirlərdən sayılam.» Onu şəhərdən çıxartdıqları vaxt yol əsnasında vəfat etdi, sonra bu ayə nazil oldu.

**TƏFSİR:**

***HİCRƏT İSLAMDA QURUCU BİR GÖSTƏRİŞDİR.***

Vacib hicrət fərizəsinə əməl etməkdə səhlənkarlığa, laqeydliyə yol verərək müxtəlif zillətlərə və bədbəxtliklərə düçar olanlara işarə edildikdən sonra bu ayədə hicrətin əhəmiyyəti tam qətiyyətlə göstərilir və onun barəsində iki yöndə bəhs edilir: Əvvəlcə hicrətin dünyəvi xeyir-bərəkətlərinə işarə edilir və buyurulur: Allah yolunda

və Onun razılığı üçün hicrət edənlər Allahın bu geniş dünyasında çoxlu əminamanlıq və geniş yerlər tapacaqlar ki, həmin yerlərdə haqqı dirçəldərək müxalifləri məğlub edə bilərlər.

Daha sonra hicrətin axirətdəki savabına və mənəvi yönünə işarə edilir və buyurulur: Əgər müəyyən şəxslər Allaha və Peyğəmbərə (s) doğru hicrət etmək məqsədilə öz ev-eşiklərindən və vətənlərindən çıxsalar və məqsədə çatmazdan əvvəl əcəl onları haqlayarsa onların əcr və mükafatı Allahın öhdəsinədir. Allah bağışlayan və mehribandır, onların günahlarını bağışlayır.

Deməli, hər iki halda hicrət qələbə ilə yanaşıdır.

Qeyd etmək lazımdır ki, hicrət təkcə canı qorumaq üçün deyil, İslam dinini qorumaq üçün olarsa, bu, müsəlmanların tarixinin başlanğıcı olur və bütün siyasi, təbliğati, ictimai hadisələrin bünövrəsini təşkil edir. Hər bir əsr, zaman və məkanda belə şərait yaranarsa, müsəlmanlar hicrət etməyə vəzifəlidirlər.

## AYƏ 101:

﴿ وَإِذَا ضَرَبْتُمْ فِي الأَرْضِ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَقْصُرُواْ مِنَ الصَّلاَةِ إِنْ خِفْتُمْ أَن يَفْتِنَكُمُ الَّذِينَ
كَفَرُواْ إِنَّ الْكَافِرِينَ كَانُواْ لَكُمْ عَدُوًّا مُّبِينًا ﴾

### TƏRCÜMƏ:

***«Yer üzündə (hətta bir ağac məsafə miqdarında olsa belə) səfərə çıxdığınız zaman kafirlərin sizə zərər və ziyan vurub incidəcəklərindən qorxduğunuz təqdirdə (öz dörd rükətli) namaz(lar)ınızdan (iki rükəti) azaltmağınızda sizə günah yoxdur. Şübhəsiz, kafirlər həmişə sizə açıq-aşkar düşməndirlər.»***

### TƏFSİR:

Cihad və hicrətlə əlaqədar bəhslərdən sonra müsafirin namazı bəyan olunur. «Zərbun fil-ərz» səfər etmək mənasınadır. Çünki səfərə çıxan şəxs səfər boyu yeri ayaqlarının altında qoyub keçir (Müfrədati-Rağib, «zə-rə-bə» kökü).

Quranda bəzi hallarda «vacibdir» kəlməsi əvəzinə «eybi yoxdur» kəlməsindən istifadə edilir ki, bu ayədə qeyd olunan hal da həmin nümunələrdən biridir.

Namazın qəsr (şikəstə) qılınması təkcə qorxu törənən, təhlükə olan hallara məxsus deyildir, lakin əksər hallarda səfərdə qorxu və nigarançılıq olduğundan, yaxud namaz ilk dəfə qorxu hallarında qəsr qılınmalı olub sonradan bütün səfərlərə aid edildiyindən «in xiftum» - əgər qorxsanız, qeydi gətirilmişdir.

### *İNCƏ MƏTLƏBLƏR*

1. Namaz heç vaxt götürülmür, lakin müəyyən qədər yüngülləşdirilir.

2. Həqiqəti dərk etmək və haqqın qarşısında təslim olmaq ilahi qanunlarda əsas bir prinsipdir.

3. Namaz halında da düşməndən qafil olmamalıyıq. Siyasətlə din, ibadətlə ayıqlıq bir-birindən ayrı deyildir. Bir əl təkbirdə, bir əl də silahda olmalıdır.

4. Küfrlə iman bir-birilə ziddiyyət təşkil edir.

5. Bütün küfr ordusu sizinlə düşmənçilikdə sanki bir qüdrət hesab olunduğundan şərif ayədə «əduvv» kəlməsi cəm şəklində deyil, tək halda gətirilmişdir.

**AYƏ 102:**

﴿وَإِذَا كُنتَ فِيهِمْ فَأَقَمْتَ لَهُمُ الصَّلاَةَ فَلْتَقُمْ طَآئِفَةٌ مِّنْهُم مَّعَكَ وَلْيَأْخُذُواْ أَسْلِحَتَهُمْ فَإِذَا سَجَدُواْ
فَلْيَكُونُواْ مِن وَرَآئِكُمْ وَلْتَأْتِ طَآئِفَةٌ أُخْرَى لَمْ يُصَلُّواْ فَلْيُصَلُّواْ مَعَكَ وَلْيَأْخُذُواْ حِذْرَهُمْ وَأَسْلِحَتَهُمْ وَدَّ
الَّذِينَ كَفَرُواْ لَوْ تَغْفُلُونَ عَنْ أَسْلِحَتِكُمْ وَأَمْتِعَتِكُمْ فَيَمِيلُونَ عَلَيْكُم مَّيْلَةً وَاحِدَةً وَلاَ جُنَاحَ عَلَيْكُمْ إِن
كَانَ بِكُمْ أَذًى مِّن مَّطَرٍ أَوْ كُنتُم مَّرْضَى أَن تَضَعُواْ أَسْلِحَتَكُمْ وَخُذُواْ حِذْرَكُمْ إِنَّ اللّهَ أَعَدَّ لِلْكَافِرِينَ
عَذَابًا مُّهِينًا﴾

**TƏRCÜMƏ:**

***«(Təhlükə zamanı) aralarında olub onlar üçün (xof) namaz(ını camaat namazı şəklində) qıldığın zaman, onlardan bir dəstə (sənin namazının birinci rükətində) səninlə birgə qalxsınlar (və namaz qılsınlar) və əlbəttə öz silahlarını da götürsünlər. Elə ki, səcdəyə getdilər (və namazın ikinci rükətini camaat namazı deyil, tək qılınan namaz niyyəti ilə tamamladılar, gedib) sizin arxanızda (düşmənin qarşısında) dursunlar və namazını qılmamış digər bir dəstə gəlsin və öz namazlarını sənin (ikinci rükətin)lə birgə qılsınlar. Əlbəttə gərək ehtiyatlı olsunlar və silahlarını götürsünlər. Çünki kafirlər istəyirlər ki, siz öz silahlarınızı və mallarınızı yaddan çıxarasınız, beləliklə də onlar qəfildən sizə hücum etsinlər. Əgər yağışdan əziyyət çəksəniz, yaxud xəstə olsanız silahlarınızı yerə qoyaraq ehtiyat halında olmağınız sizin üçün günah deyildir. Həqiqətən Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır.»***

**TƏFSİR:**

Hicrətin 6-cı ilində Peyğəmbər (s) bir dəstə müsəlmanla Məkkəyə doğru yola düşdü. Hüdeybiyyə adlı yerdə Xalid ibn Vəlid başda olmaqla 200 nəfərlə qarşılaşdılar. Onlar Peyğəmbərin (s) Məkkəyə daxil olmasının qarşısını almaq üçün səngər qurmuşdular. Bilal azan dedikdən və camaat namazı bərqərar olduqdan sonra Xalid ibn Vəlid fürsəti qənimət saydı və öz adamlarına dedi ki, hamısı əsr namazını birlikdə qılan zaman qəfildən onlara hücum edək. Yuxarıdakı ayə nazil oldu və müsəlmanları onların bu hiyləsindən agah etdi. Xalid bu möcüzəni gördükdən sonra müsəlman oldu.[39]

Bu namazda birinci rəkət sona çatdıqdan sonra əvvəlki dəstə qalxaraq namazı tamamlayır və imam camaat ikinci dəstənin gəlib ikinci rəkətə qoşulmasını gözləyir, onlar da silahlı halda namaza dayanırlar.

Buna əsasən namaz heç bir şəraitdə götürülmür və İslam əsgəri namazsız olmamalıdır (bir əldə silah, bir əldə isə mənəviyyat olmalıdır).

---

[39] «Məcməül-bəyan», «Əl-mizan», «Tibyan» və s. təfsirlər

Camaat namazının əhəmiyyəti barədə bunu demək kifayətdir ki, hətta cəbhələrdə düşmənlə üzbəüz olarkən, bir rəkətlə olsa belə, camaat namazı bərqərar olunur. İki vacib vəzifə (cihad və namaz) qarşıya çıxan zaman birini digərinə fəda etmək olmaz.

Bu kimi hallarda da ayıqlıq lazımdır. Hətta, namaz da müsəlmanları düşmənin təhlükəsindən qafil etməməlidir. Döyüşçü heç bir halda özünün müdafiə vasitələrindən uzaqda olmamalıdır. (Hətta əgər silahı olmazsa, zirehli paltarını geyinməlidir ki, ehtimal üzrə düşmən həmlə edərsə kömək çatıncaya qədər özünü qoruya bilsin.)

Lakin müəyyən zəruri halların qarşıya çıxması və namaz vaxtı silahın, müdafiə vasitələrinin daşınmasının çox çətin olması mümkün olduğundan ayənin axırında göstəriş verilir ki, əgər yağışdan narahat olsanız, yaxud xəstəlikdən əziyyət çəksəniz, öz silahlarınızı yerə qoymağınız sizin üçün günah deyildir.

Siz bu göstərişlərə əməl edin və əmin olun ki, qələbə sizinlədir. Çünki Allah kafirlər üçün xaredici cəzalar hazırlamışdır.

**AYƏ 103:**

﴿فَإِذَا قَضَيْتُمُ الصَّلاَةَ فَاذْكُرُواْ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَى جُنُوبِكُمْ فَإِذَا اطْمَأْنَنتُمْ فَأَقِيمُواْ الصَّلاَةَ إِنَّ الصَّلاَةَ كَانَتْ عَلَى الْمُؤْمِنِينَ كِتَابًا مَّوْقُوتًا﴾

**TƏRCÜMƏ:**

***«(Xof) namazı(nı) tamamladıqdan sonra (bütün hallarda) duran, oturan və böyrü üstə uzanan halda Allahı yada salın və (düşmənin şərindən) amanda olduğunuz zaman namaz(ı adi qaydada) qılın. Şübhəsiz namaz möminlərə həmişə vacib olan bir qərardır.»***

**TƏFSİR:**

***NAMAZ FƏRİZƏSİNİN ƏHƏMİYYƏTİ***

Xof namazına, yəni hətta müharibə şəraitində belə, namazın bərqərar edilməsinə dair göstəriş verilməsinin ardınca bu ayədə buyurulur: Namazı qurtardıqdan sonra Allahı yad etməyi unutmayın: ayaq üstə, oturan halda və böyrü üstə yatdığınız zaman Allahı yad edin və Ondan kömək istəyin.

Bütün bu hallarda Allahı yad etmək dedikdə bəlkə də müharibə şəraitində əsgərlərin bəzən ayaq üstə, bəzən oturan halda, bəzən isə böyrü üstə və uzanan halda müxtəlif müharibə texnikasından istifadə etdikləri hallar nəzərdə tutula bilər.

Başqa sözlə desək, məqsəd budur ki, hər bir halda – ayaq üstə, oturan halda və yatanda, eləcə də həm sağlam vəziyyətdə, həm də xəstə halında, hətta düşmən qarşısında belə Allahı yad edin.[40]

Yuxarıdakı ayədə həqiqətdə mühüm bir İslami göstərişə işarə edilir və buyurulur ki, müəyyən olunmuş vaxtlarda namaz qılmağın mənası insanın digər hallarda Allahdan qafil olması demək deyildir.

Sonra buyurulur: Xof namazının qılınma qaydası müstəsna bir yönə malikdir və xof haləti aradan getdiyi zaman namazı özünün adi qaydasında qılmalısınız.

Ayənin axırında namaza diqqət yetirməklə əlaqədar bütün bu tövsiyələrin sirri barəsində buyurulur ki, namaz hər zaman və bütün nəsillər üçün qəti ilahi

---

[40] «Məxzənul-irfan», səh. 150, «Bürhan», Əli ibn İbrahimdən nəqlən.

vacibatlardan biridir və heç vaxt imandan ayrılmaz. Hədislərdə də «məvqut» kəlməsi «vacib və müəyyən vaxtlarda sabit olan» kimi təfsir edilmişdir.[41]

**AYƏ 104:**

﴿ وَلاَ تَهِنُواْ فِي ابْتِغَاء الْقَوْمِ إِن تَكُونُواْ تَأْلَمُونَ فَإِنَّهُمْ يَأْلَمُونَ كَمَا تَأْلَمونَ وَتَرْجُونَ مِنَ اللّهِ مَا لاَ يَرْجُونَ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«(Kafirlərdən olan) o dəstəni axtarmaqda və təqib etməkdə süstlük göstərməyin. Əgər siz ağrı və əziyyət çəkirsinizsə, onlar da sizin kimi ağrı və əziyyət çəkirlər, (halbuki,) siz Allahdan elə bir şeyə ümid edirsiniz ki, onlar (buna) ümid etmirlər. Allah həmişə (hər şeyi) bilən və hikmətlidir.»***

**TƏFSİR:**

### *AYƏNİN NAZİLOLMA SƏBƏBİ*

İbn Abbasdan nəql olunmuşdur ki, ağır «Ühüd» müharibəsindən sonra Peyğəmbər (s) «Ühüd» dağına çıxdı. Əbu Süfyan dağın ətəyində dayanıb fatehlərə məxsus olan bir qürurla fəryad etdi: «Ey Məhəmməd! Bu günkü qələbəmiz «Bədr»dəki məğlubiyyətimizin əvəzində olsun!» Peyğəmbər (s) müsəlmanlara buyurdu: «Dərhal ona cavab verin!» Müsəlmanlar dedilər: «Bizim vəziyyətimiz heç vaxt sizinlə bərabər ola bilməz! Bizim şəhidlərimiz behiştdə, sizin öldürülənləriniz isə cəhənnəmdədir.» Əbu Süfyan fəryad etdi: «Bizim böyük Üzza bütümüz var, sizin isə yoxunuzdur!» Peyğəmbər (s) buyurdu: «Siz onların şüarlarının müqabilində belə deyin: Bizim başçımız və arxamız Allahdır, sizin isə başçı və arxanız yoxdur!» Əbu Süfyan İslamın bu canlı şüarları qarşısında özünü aciz gördü və Üzzadan əl çəkib Hübələ sığındı və fəryad etdi: «Yaşasın Hübəl!» Peyğəmbər (s) göstəriş verdi ki, cahiliyyət dövrünə mənsub olan bu şüara daha güclü bir şüarla cavab versinlər və «Allah yüksək və ucadır!» (“Allahu əkbər!”) desinlər.

Əbu Süfyan özünün müxtəlif şüarlarının heç bir fayda vermədiyini gördükdə belə fəryad etdi: «Bizim görüş yerimiz kiçik Bədr diyarı olsun!»

Müsəlmanlar döyüş meydanından qayıtdılar, onlar ağrılı-acılı «Ühüd» hadisələrindən çox narahat və qəmgin idilər. Bu zaman ayə nazil oldu və onlara xəbərdarlıq verdi ki, müşrikləri təqib edərkən səhlənkarlığa yol verməsinlər və bu acı hadisələrdən narahat olmasınlar.

Ayənin nazilolma səbəbi biz müsəlmanlara bunu xatırladır ki, düşmənin heç bir taktikasını nəzərdən qaçırmamalı, onların məntiqi müqabilində daha güclü məntiqlər və silahları müqabilində daha üstün və güclü silahlar əldə etməliyik. Əks halda hadisələrin gedişatı düşmənin xeyrinə tamam olacaqdır. Buna əsasən, hər bir əsrdə, xüsusilə, yaşadığımız müasir dövrdə müsəlmanları hər bir tərəfdən əhatə edən dərdli-qəmli və dəhşətli hadisələr, eləcə də insan cəmiyyətlərini mənəvi ölümə sürükləyən əxlaqsızlıqlar qarşısında təəssüflənmək əvəzinə, çox ciddi fəaliyyətə başlamaq, düşmənlərin əxlaqsız mətbuat və kitabları müqabilində sağlam ruhiyyəli kitab və nəşrləri yaymaq lazımdır. Biz bəşəriyyət və mənəviyyat düşmənlərinin hər bir şeylə təchiz olunmuş təbliğat vasitələri müqabilində ən yaxşı təchiz olunmuş gündəlik

---

[41] «Təfsiri Burhan», «Əl-mizan» və s. təfsirlər

təbliğat vasitələrindən istifadə etməliyik. Müxtəlif siyasi, ictimai və iqtisadi məktəblərdə irəli sürülən layihələr, tezislər və s. müqabilində İslamın hərtərəfli layihələrini gündəlik tələbata uyğun şəkildə hazırlayıb hamının ixtiyarına verməliyik. Məhz bu yoldan istifadə edərək, öz varlığımızı qoruyaraq həm maddi, həm də mənəvi cəhətdən inkişaf edə bilərik.

### TƏFSİR:

Cihad və hicrətlə əlaqədar olan ayələrin ardınca bu ayədə müsəlmanlarda yüksək fədakarlıq ruhiyyəsi yaratmaq üçün buyurulur: Düşməni təqib etməkdə heç vaxt süstləşməyin.

Gərək inadkar düşmənlər müqabilində özünüzdəki hücum ruhiyyəsini daim qoruyub saxlayasınız, düşmənin ruhiyyəsini sarsıtmaq üçün ciddi şəkildə çalışmalısınız.

Sonra bu hökm üçün daha canlı və aydın bir dəlil bəyan edilir və buyurulur: Nə üçün siz süstləşməlisiniz, halbuki, əgər siz cihad meydanında giriftar və əzaba düçar olmusunuzsa düşmənləriniz də bu cəhətdən əzab-əziyyətə düçar olmuşlar. Fərqiniz bundadır ki, siz ilahi rəhmətə, Pərvərdigarın geniş mərhəmətinə ümid bəsləyirsiniz, lakin onlarda belə bir ümid yoxdur.

Ayənin axırında daha artıq təkidlə buyurulur: Unutmayın ki, bütün bu narahatlıqlar, əzab-əziyyətlər, səylər, bəzən baş verən süstlüklər və laqeydliklər Pərvərdigari-aləmin nəzərindən gizli deyildir.

## AYƏ 105:

﴿ إِنَّا أَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ لِتَحْكُمَ بَيْنَ النَّاسِ بِمَا أَرَاكَ اللّهُ وَلاَ تَكُن لِّلْخَآئِنِينَ خَصِيمًا ﴾

### TƏRCÜMƏ:

***«Həqiqətən Biz bu kitabı sənə haqq olaraq (uca və ağılın təsdiq etdiyi bir məqsədlə) nazil etdik ki, insanlar arasında Allahın sənə göstərdiyi əsasda hökm çıxarasan. Xainlərin müdafiəçisi olma!»***

### TƏFSİR:

Mötəbər təfsirlərdə qeyd olunur ki, müsəlmanlardan kimsə müharibələrin birində başqasının zirehli paltarını oğurladı. Amma rüsvay olacağından qorxduğu üçün onu bir yəhudinin evinə atdı və bir neçə nəfəri toplayıb onlara göstərmək istədi ki, yəhudi oğurluq etmişdir. Bu məsələni Peyğəmbərdən (s) soruşduqda yuxarıdakı ayə nazil oldu. Bu ayədə əvvəlcə Peyğəmbərə (s) tövsiyə edilir ki, bu səmavi kitabı – Quranı göndərməkdə əsas məqsəd ədalətin və haqq prinsiplərinin cəmiyyətdə icra olunmasıdır. Biz bu kitabı haqq olaraq sənə göndərdik ki, Allahın sənə öyrətdiyi əsasda camaat arasında hökm edəsən.

Sonra Peyğəmbərə (s) xəbərdarlıq edilir ki, heç vaxt xainləri himayə edənlərdən olmasın.

«Məcməul-bəyan» təfsirində qeyd olunur ki, bu ayənin Peyğəmbərə (s) xitab etməsinə baxmayaraq, əsas məqsəd İslam ümmətidir. Çünki bütün ümmətin fikir birliyinə əsasən, Peyğəmbər (s) hər növ günah və çirkinlikdən uzaqdır.

Buna əsasən, Quran haqq əsasında nazil olunduğundan, mühakimələr və verilən hökmlər də haqq çərçivəsində olmalıdır. İslamda, hətta qeyri müsəlmanlara qarşı belə ədalətlə rəftar etmək zəruridir (bu, ayənin nazilolma səbəbinə diqqət yetirməklə aydın olur.)

**AYƏ 106:**

﴿ وَاسْتَغْفِرِ اللّهِ إِنَّ اللّهَ كَانَ غَفُورًا رَّحِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Allahdan bağışlanmaq dilə ki, həqiqətən Allah həmişə çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Bu ayədə Peyğəmbərə (s) göstəriş verilir ki, Allahdan bağışlanmaq istəsin, şübhəsiz, Allah bağışlayan və mehribandır.

«Məcməul-bəyan»dan nəql etdiyimiz kimi, əvvəlki ayədə əsas etibarı ilə İslam ümmətinə xitab olunur və Peyğəmbərə (s) buyurulur ki, ümməti üçün bağışlanmaq istəsin, çünki Peyğəmbərin (s) özü hər növ günahdan uzaqdır.

**AYƏ 107:**

﴿ وَلاَ تُجَادِلْ عَنِ الَّذِينَ يَخْتَانُونَ أَنفُسَهُمْ إِنَّ اللّهَ لاَ يُحِبُّ مَن كَانَ خَوَّانًا أَثِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Özlərinə xəyanət edən (və öz qəbilələrinin etdiyi oğurluğu bir yəhudinin boynuna atan) kəsləri müdafiə etmə ki, Allah xəyanətkar və günahkar şəxsi sevmir (müsəlmanlardan biri digərinin zirehini oğurlayıb onu bir yəhudinin boynuna atmışdı. İş məhkəməlik oldu və oğrunun qəbiləsi Peyğəmbərdən (s) müsəlmanın abrını qorumaq üçün onun lehinə hökm etməsini istədi. Səkkizə yaxın ayə bu hadisə ilə bağlıdır).»***

**TƏFSİR:**

İslam rəhbərləri xainləri tanımalı və onların məkrli planlarından agah olmalıdırlar ki, münasib mövqe seçə bilsinlər. Bunu da qeyd etmək lazımdır ki, insanın cəmiyyət üzvlərinə etdiyi zülm və xəyanət elə onun özünə rəva gördüyü xəyanət və zülmdür. Çünki bu kimi qeyri-insani xislət cəmiyyəti pozğunluğa aludə edir və bu aludəlik də zamanın keçməsi ilə insanın özünə də gəlib çatır. Buna görə də xaini müdafiə etmək haram, günahda şərik olmaq və xəyanətə razılıqdır.

Əlbəttə, bunu da qeyd etməliyik ki, bilməməzlik və sadəlik üzündən olan cüzi xəyanətlər fitnə-fəsad əhli olan, məkrli tədbirlər tökən xəyanətkarın xəyanətindən tamamilə ayrıdır (yəxtanun, xəvvan, əsim – işi-peşəsi xəyanət olanlara deyilir), buna görə də ayənin axırında buyurulur ki, Mütəal Allah xəyanət edənləri sevmir.

**AYƏ 108:**

﴿ يَسْتَخْفُونَ مِنَ النَّاسِ وَلاَ يَسْتَخْفُونَ مِنَ اللّهِ وَهُوَ مَعَهُمْ إِذْ يُبَيِّتُونَ مَا لاَ يَرْضَى مِنَ الْقَوْلِ وَكَانَ اللّهُ بِمَا يَعْمَلُونَ مُحِيطًا ﴾

**TƏRCÜMƏ:**

***«Camaatdan gizlədirlər, Allahdan isə gizlətmirlər (həmin işin Allahdan gizli olmamasından qorxmurlar), halbuki Allah Onun razı olmadığı söz barəsində gecə araşdırma aparıb çarə fikirləşdikləri zaman (Peyğəmbərə(s) müsəlmanın xeyrinə hökm etməsini deməyi planlaşdırarkən) onlarla birgə idi. Allah həmişə onların etdiklərini (elm və qüdrət baxımından) əhatə etmişdir.»***

**TƏFSİR:**

Mütəal Allah bu ayədə xainləri məzəmmət edərək buyurur: Onlar öz batini əməllərinin camaat arasında ifşa olunmasından xəcalət çəkirlər. Lakin Allah qarşısında xəcalət çəkmirlər. Halbuki, Allah hər bir yerdə hazırdır, onların gecə yarısı tökdükləri məkrli tədbirlərdən, Allahın razı olmadığı sözləri dedikləri zaman onlarla idi və onların bütün əməllərinə əhatəlidir.

**AYƏ 109:**

﴿ هَاأَنتُمْ هَؤُلاء جَادَلْتُمْ عَنْهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا فَمَن يُجَادِلُ اللّهَ عَنْهُمْ يَوْمَ الْقِيَامَةِ أَم مَّن يَكُونُ عَلَيْهِمْ وَكِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«(Oğrunun qəbiləsinə xitabən:) Bir baxın, (tutaq ki,) dünya həyatında onları (xainləri) siz müdafiə etdiniz, amma (bəs) onları Qiyamət günü Allahın qarşısında kim müdafiə edəcək, yaxud kim onların işinə yarayacaq?!»***

**TƏFSİR:**

Bu ayədə üç dəstə adama xəbərdarlıq edilir:

-Qaziyə və məhkəmə işçilərinə deyilir ki, ehtiyatlı olsunlar, haqqın hədd-hüdudunu və sərhədlərini aşmasınlar.

-Xainlərə deyilir ki, Allah onların işlərinə nəzarət edir.

-Xainləri müdafiə edənlərə deyilir ki, onların bu kimi səylərinin Qiyamətdə heç bir faydası olmayacaqdır.

**AYƏ 110:**

﴿ وَمَن يَعْمَلْ سُوءًا أَوْ يَظْلِمْ نَفْسَهُ ثُمَّ يَسْتَغْفِرِ اللّهَ يَجِدِ اللّهَ غَفُورًا رَّحِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Hər kim pis bir iş görsə, yaxud özünə zülm etsə (özünə və ya başqasına zülm etsə, yaxud etiqad və ya əməldə günah etsə), sonra Allahdan bağışlanmaq diləsə, Allahın bağışlayan və mehriban olduğunu görər.»***

**TƏFSİR:**

«Su» kəlməsi lüğətdə başqalarına zərər vurmaq mənasında da gəlmişdir. Deməli, bu ayədə insanın həm başqalarına, həm də özünə zülm etməsi irəli çəkilir və bu iş qadağan edilir.

Əvvəlki ayədə xainlərin özləri və onları himayə edənlər tənqid atəşinə tutulmuşdu. Bu ayədə isə buyurulur: Xəta iş görənlər üçün tövbə və qayıdış yolu həmişə açıqdır. Bu işlərdən əl çəkməyi iradə edən və öz günahlarından qayıdaraq tövbə edən məhz siz olmalısınız.

**AYƏ 111:**

﴿ وَمَن يَكْسِبْ إِثْمًا فَإِنَّمَا يَكْسِبُهُ عَلَى نَفْسِهِ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Kim bir günah qazansa, əslində (hətta maddi fayda və ləzzətləri olmuş olsa belə) öz ziyanına qazanır. Allah həmişə bilən və hikmətlidir.»***

**TƏFSİR:**

İlahi qanunların həddini aşmaqdan, hüdudularını pozmaqdan ibarət olan günah əməl qəlbin səfasını, ruhun təqvasını və ədaləti aradan aparır. Bu da ən böyük xəsarət və ziyankarlıqdır. Varlıq aləmində və ilahi qanunlarda başqalarına zülm etməyin ağır nəticələri gec-tez insanın özünə qayıdacaqdır.

Ayənin axırında buyurulur: Allah həm alimdir, həm bəndələrinin əməl və niyyətlərindən xəbərdardır, həm də hikmət sahibidir. Hər kəsə onun layiq olduğu qədər əvəz (mükafat və ya cəza) verir.

**AYƏ 112:**

﴿ وَمَن يَكْسِبْ خَطِيئَةً أَوْ إِثْمًا ثُمَّ يَرْمِ بِهِ بَرِيئًا فَقَدِ احْتَمَلَ بُهْتَانًا وَإِثْمًا مُّبِينًا ﴾

**TƏRCÜMƏ:**

***«Kim (səhvən və ya bilərəkdən, yaxud fərdi və ya ictimai) bir günah etsə, sonra onu günahsız bir şəxsə nisbət versə, şübhəsiz, boynuna (başqalarına töhmət vurmaqda) böhtan və aşkar bir günah götürmüşdür.»***

**TƏFSİR:**

Bu ayədə günahsız insanlara töhmət vurmağın necə ağır bir günah olduğu xatırladılır və buyurulur ki, hər kəs xəta və günah əmələ mürtəkib olub onu günahsız bir insanın üzərinə atsa, böhtan və aşkar bir günah işə düçar olmuşdur.

## TÖHMƏT CİNAYƏTİ

Günahsız insanlara töhmət vurmaq İslamda şiddətlə məhkum olunan ən çirkin işlərdən biridir.

Peyğəmbərin (s) belə buyurduğu nəql olunub: «***Allah imanlı qadına və ya kişiyə töhmət vuran, barəsində onda olmayan şeyləri deyən şəxsi Qiyamət günündə oddan olan bir dağın üstündə qərar verər ki, dediklərinin məsuliyyətinin altından çıxsın.***»

Həqiqətdə insafsızlıq üzündən olan bu yaramaz işin hər hansı bir mühitdə rəvac verilməsi ictimai nizamın, ədalətin aradan getməsinə, haqqın batilə qarışmasına, günahsız şəxsin giriftar olmasına, günahkarın özünə bəraət qazandırmasına və ümumxalq etimadının aradan getməsinə səbəb olur.

### AYƏ 113:

﴿وَلَوْلاَ فَضْلُ اللّهِ عَلَيْكَ وَرَحْمَتُهُ لَهَمَّت طَّآئِفَةٌ مُّنْهُمْ أَن يُضِلُّوكَ وَمَا يُضِلُّونَ إِلاُّ أَنفُسَهُمْ وَمَا يَضُرُّونَكَ مِن شَيْءٍ وَأَنزَلَ اللّهُ عَلَيْكَ الْكِتَابَ وَالْحِكْمَةَ وَعَلَّمَكَ مَا لَمْ تَكُنْ تَعْلَمُ وَكَانَ فَضْلُ اللّهِ عَلَيْكَ عَظِيمًا﴾

### TƏRCÜMƏ:

***«Əgər Allahın lütf və mərhəməti sənin halına şamil olmasaydı, həqiqətən onlardan bir dəstə səni (hökm çıxarmaqda) azdırmaq qərarına gəlmişdi. Halbuki onlar özlərindən başqasını azdırmaz və sənə heç bir zərər-ziyan vura bilməzlər. Allah (səma) kitab(ını) və hikməti (şəriət elmləri və əqli maarifi) sənə nazil etdi və bilmədiklərini sənə öyrətdi. Allahın sənə lütf və mərhəməti həmişə böyükdür.»***

### TƏFSİR:

105-ci ayədə qeyd olunan məsələ ilə əlaqədar belə buyurulur: Əgər Allahın fəzl və mərhəməti sənin halına şamil olmasaydı, münafiqlər, yaxud onlar kimilərin bir qrupu səni haqq-ədalət yolundan döndərməyi qərara alardılar, lakin Allahın lütf və mərhəməti sənin halına şamil oldu və O səni qorudu.

Onlar günahsız bir şəxsi ittiham etmək və sonra məsələni Peyğəmbərə (s) təqdim etməklə həm o Həzrətin (s) mənəvi və ictimai şəxsiyyətinə böyük bir zərbə vurmaq, həm də günahsız bir müsəlman haqqında özlərinin pis və mənfur niyyətlərini həyata keçirmək istəyirdilər. Lakin Allah-təala Öz Peyğəmbərinin (s) keşikçisi olduğu üçün onların hiyləgərlik planlarını ifşa etdi.

Sonra buyurulur: Onlar yalnız özlərini azdırırlar, amma sənə heç bir ziyan çatdıra bilməzlər.

Axırda Peyğəmbəri-Əkrəmin (s) hər növ xətadan amanda olması belə bəyan edilir: Allah kitabı və hikməti sənə nazil etdi, bilmədiyin şeyləri – qeyb elmini və sirləri sənə öyrətdi.

Ayənin axırında buyurulur: Allahın sənə olan fəzl və mərhəməti çox böyükdür.

Yuxarıdakı cümlədə ismət (günahsızlıq) məsələsinin əsas dəlillərindən biri qısa şəkildə bəyan olunmuşdur. O da bundan ibarətdir ki, Allah-təala Peyğəmbərə (s) elə bir elm əta etmişdir ki, onun sayəsində xəta və səhvlərdən amanda olur. Çünki elm, xüsusilə qeyb elmi və naməlum sirlərə agahlıq nəticə etibarı ilə qəlbin aydınlaşmasına və ismət kimi bir səciyyənin yaranmasına səbəb olur.

## AYƏ 114:

﴿لاَّ خَيْرَ فِي كَثِيرٍ مِّن نَّجْوَاهُمْ إِلاَّ مَنْ أَمَرَ بِصَدَقَةٍ أَوْ مَعْرُوفٍ أَوْ إِصْلاَحٍ بَيْنَ النَّاسِ وَمَن يَفْعَلْ ذَلِكَ ابْتَغَاء مَرْضَاتِ اللّهِ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا﴾

### TƏRCÜMƏ:

***«Onların gizli söhbətləri və (bir-birlərinin qulaqlarına) pıçıldadıqlarının çoxunda - sədəqəyə, ya xeyir bir işə və yaxud insanların arasını düzəltməyə əmr edən kəslər(in gizli söhbətləri) istisna olmaqla - bir xeyir yoxdur. Kim Allahın razılığını qazanmaq üçün belə etsə, tezliklə ona böyük bir mükafat verəcəyik.»***

### TƏFSİR:

Keçən ayələrdə bəzi münafiqlərin, yaxud münafiq kimilərin gecə yığıncaqlarındakı sirli söhbətlərindən və şeytançılıq tədbirlərindən söhbət açılırdı. Həmin məsələ bu ayədə daha geniş şəkildə «nəcva» (pıçıldaşma) adı ilə qeyd olunur.

«Nəcva» təkcə pıçıltılı şəkildə deyilən sözlərə deyil, sirli və məxfi olan hər növ yığıncaqlara da şamil olunur. Ayədə buyurulur: Onların şeytançılıq və təxribatçılıq əsasında təşkil olunan məxfi və sirli yığıncaqlarının çoxunda xeyir-bərəkət yoxdur.

Daha sonra, ümumiyyətlə, hər növ pıçıltının, yaxud sirli yığıncaqların qadağan və məzəmmət edilməsi təsəvvür olunmasın deyə, bir neçə hal istisna edilir və buyurulur: Amma öz pıçıltısında sədəqəyə, başqalarına köməyə, yaxşı işə, camaatın arasında islahat və barışıq yaratmağa tövsiyə edənlərdən başqa. Əgər bu kimi gizli işlər riyakarlıq üzündən olmazsa və özünü göstərmək məqsədi daşımazsa, əksinə, Allahın razılığını qazanmaq məqsədi ilə görülərsə, Allah belə şəxslərə böyük mükafat verəcəkdir.

Ayədə buyurulur: Hər kəs Pərvərdigarının razılığı üçün belə edərsə, onun üçün böyük mükafat verəcəyik.

Bir qayda olaraq Quranda sirli yığıncaqlar və məxfi çıxışların təşkil olunması şeytani bir əməl kimi təqdim olunmuşdur. «Mücadilə» surəsinin 10-cu ayəsində buyurulur: «***Nəcva (pıçıltı) şeytan əməlidir.***»

Bir sözlə, pıçıltı bir dəstə adamın hüzurunda baş verərsə, onların bu barədə sui-zənn etməsinə, bədgüman olmasına səbəb olur və hətta bəzən dostların arasında bədbinlik yaradır. Məhz buna görə də zərurət halları istisna olmaqla digər hallarda ondan istifadə olunmamalıdır. Yuxarıda qeyd olunan Quran hökmü də məhz bu məqsədlə buyurulmuşdur.

## AYƏ 115:

﴿ وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى وَنُصْلِهِ جَهَنَّمَ وَسَاءتْ مَصِيرًا ﴾

### TƏRCÜMƏ:

***«Kim hidayət yolu ona aydın olduqdan sonra Bizim göndərdiyimiz peyğəmbərlə müxalifət və düşmənçilik etsə və möminlərin yolundan başqa bir yola tabe olsa, onu elə üz tutduğu tərəfə yönəldər, Cəhənnəmə daxil edər və onun hərarətini ona daddırarıq. Ora pis bir dönüş yeridir»***

**TƏFSİR:**

«Yuşaqiq» sözünün məsdəri olan «müşaqəqət» özünü bir tərəfdə, Rəsuli-Əkrəmi (s) isə digər tərəfdə qərar verməyə deyilir. Bu, ədavətlə yanaşı, həm də agahlıq üzündən müxalifətə başlayaraq işdə maneçilik törətməyə deyilir.

Buna əsasən, bir kəs üçün haqq yol aydın olduqdan sonra Rəsuli-Əkrəmin (s) əmr və fərmanları müqabilində təslim olmaq və onlara qeydsiz-şərtsiz itaət etmək vacib, müxalifət etmək isə haramdır. Bunu da qeyd etmək lazımdır ki, Allah-təala höccəti tamam etməzdən öncə heç kəsi cəhənnəmə aparmaz.

Rəsuli-Əkrəm (s) və İslam ümməti ilə müxalifət etmək Allahdan başqasının vilayəti dairəsinə keçmək və cəhənnəmə süqut etmək sayılır. Ayənin mənası belə olur ki, hər kəs İslam dinindən, möminlərin yolundan başqa bir yolla getsə, hər bir halda günahkardır və Biz onu, özünə arxa və sığınacaq hesab etdiyi bütlərə həvalə edər, zəlalət və azğınlıq yolunu seçdiyinə, hidayət yoluna arxa çevirdiyinə görə onu cəhənnəmə atarıq ki, öz yaramaz əməllərinin cəzasını dadsın. Cəhənnəm necə də pis yerdir!

**AYƏ 116:**

﴿ إِنَّ اللَّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللَّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا ﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, Allah Ona şərik qoşulmasını (bu günahı, tövbəsiz) bağışlamaz və ondan başqasını (ondan başqa və ya aşağı günahları) istədiyi şəxs üçün (bəzi şərtlərlə, hətta tövbəsiz belə,) bağışlayar. Allaha şərik qoşan kəs, həqiqətən uzun-uzadı bir azğınlığa düşmüşdür.»***

**TƏFSİR:**

Çox çirkin ruhi xəstəlik olan şirkin kökləri kəsilməyincə gözəl əxlaq və saleh əməlin heç bir faydası yoxdur. Saleh əməllər də şirkin yeganə dərmanıdır və müşrik adam şirk məhvərindən xaric olmalıdır ki, ilahi əfv və rəhmətə nail ola bilsin. İlahi məğfirət yolları da əfv, yaxşı iş, böyük günahlardan uzaq olmaq və tövbə etməkdən ibarətdir.

**AYƏ 117:**

﴿ إِن يَدْعُونَ مِن دُونِهِ إِلاَّ إِنَاثًا وَإِن يَدْعُونَ إِلاَّ شَيْطَانًا مَّرِيدًا ﴾

**TƏRCÜMƏ:**

***«Onlar Allahdan başqa yalnız qızları (qəbilələrin ögey qızları hesab edilən bütləri) çağırır və (əslində) yalnız azğın və itaətsiz Şeytanı səsləyirlər.»***

**TƏFSİR:**

Əvvəlki ayədə müşriklərin zəlalətdə, azğınlıqda olduğu bəyan edilirdi. Bu ayədə isə onun əsas kökləri və mənşəyi bəyan edilir. Məkkə müşrikləri özlərinin puç

xəyallarına əsasən mələklərə pərəstiş edir və onları «Allahın qızları» adlandırırdılar. Bu da bir növ yanlış fikir və haqdan azmaq idi.

**AYƏ 118:**

﴿ لَّعَنَهُ اللّهُ وَقَالَ لَأَتَّخِذَنَّ مِنْ عِبَادِكَ نَصِيبًا مَّفْرُوضًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah ona lənət etdi və onu Öz rəhmətindən uzaqlaşdırdı. O dedi: «And olsun ki, mən Sənin bəndələrindən (özüm üçün) müəyyən bir pay götürəcəyəm». (Dünyada bütün kafir və fasiqlər, axirətdə isə müqəssir kafirlər və şəfaətin şamil olmadığı fasiqlər onundur.)»***

**TƏFSİR:**

Şeytanın bütün bədbəxtçiliklərinin mənşəyi onun Allah rəhmətindən uzaqlaşdırılaraq əbədi lənətə düçar olmasıdır. Şeytan insanın ən qədim düşməni olduğuna görə onu yoldan azdırmaq üçün heç bir səyini əsirgəmir. Agah olun ki, onun tələsinə düşməyəsiniz.

**AYƏ 119:**

﴿وَلأُضِلَّنَّهُمْ وَلأُمَنِّيَنَّهُمْ وَلآمُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ آذَانَ الأَنْعَامِ وَلآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ اللّهِ وَمَن يَتَّخِذِ الشَّيْطَانَ وَلِيًّا مِّن دُونِ اللّهِ فَقَدْ خَسِرَ خُسْرَانًا مُّبِينًا﴾

**TƏRCÜMƏ:**

***«Və şübhəsiz onları azdıracaq və (uzun-uzadı) arzulara düçar edəcəyəm; onlara əmr edəcəyəm ki, dördayaqlıların qulaqlarını (xurafat və bidət üzündən) deşsinlər (Maidə surəsi, 103-cü ayə); Allahın (ruh və cismdəki) xilqətini dəyişdirmələrini (fitri dini küfrə, yaxşı sifətləri rəzilətlərə, ibadətləri itaətsizliyə və təbii cismi başqa bir şəklə salmalarını) əmr edəcəyəm. Kim Allahın yerinə Şeytanı özünə başçı və yardımçı götürsə, doğrudan da aşkar bir ziyana düşmüşdür.»***

**TƏFSİR:**

Şeytan bir neçə tədbiri həyata keçirmək üçün and içmişdir. O cümlədən, Allaha aşağıdakı işləri icra edəcəyini bildirmişdi;

1. Sənin bəndələrindən mənim də müəyyən qədər qismətim olcaqdır.

O bilirdi ki, Allah bəndələrinin hamısını azdırmağa qadir deyil və yalnız həvəsbaz, imanı zəif və iradəsiz insanlar onun qarşısında təslim ola bilər.

2. Onları haqq yolundan azdıracağam.

3. Müxtəlif və uzun-uzadı arzularla onların başlarını qatacağam.

4. Onları xurafatçı əməllərə dəvət edəcəyəm. O cümlədən, fərman verəcəyəm ki, heyvanların qulaqlarını yarsınlar, yaxud dibindən kəssinlər.

Bununla cahiliyyət dövründə mövcud olan ən çirkin əməllərdən birinə işarə edilir. Onların arasında belə bir qayda var idi ki, heyvanlardan bəzilərinin qulağını kəsir, yaxud dibdən kəsib atır, beləliklə də ona minməyi qadağan edirdilər. O heyvanlardan heç bir işdə istifadə olunmurdu.

5. Onları vadar edəcəyəm ki, Allahın pak yaradılışını dəyişdirsinlər. Bu da şeytanın insanın səadətə çatması yolunda ona vurduğu sağalmaz yaralar, bərpaolunmaz xəsarətlərdir.

Bu cümlə göstərir ki, Allah-təala insanın ilkin fitrətində tövhidi, yeganəpərstliyi və hər bir bəyənilən və gözəl xüsusiyyətləri qərar vermişdir. Lakin şeytani vəsvəsələr və insanın nəfsani istəkləri onu düzgün yolundan azdırır və azğınlığa sürükləyir.

Ayənin axırında ümumi bir qanun kimi belə buyurulur: Hər kəs Allahın yerinə şeytanı özünə məbud və rəhbər seçsə, aşkar bir ziyana düçar olmuş olur.

**AYƏ 120:**

﴿ يَعِدُهُمْ وَيُمَنِّيهِمْ وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا ﴾

**TƏRCÜMƏ:**

«***Şeytan onlara vədə verir və arzulara daldırır. Şeytan onlara aldadıcı vəddən başqa bir şey vermir.***»

**TƏFSİR:**

Allah tərəfindən bəndələrin bağışlanması barədə ayə nazil olanda[42] İblis fəryad çəkərək öz dostlarını və köməkçilərini toplayıb dedi: «İnsan tövbə etməklə bizim zəhmətlərimizin hamısını hədərə verir. (Bu barədə bir tədbir tökün.)» Hərəsi bir fikir irəli sürdü, axırda şeytanlardan biri belə dedi: «**Hər kəs tövbə etmək qərarına gəlsə, onu uzun-uzadı arzularla, vədələrlə giriftar edərik ki, tövbəni təxirə salsın.**» İblis də bu təklifdən razı oldu.[43]

**AYƏ 121:**

﴿ أُوْلَئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَلاَ يَجِدُونَ عَنْهَا مَحِيصًا ﴾

**TƏRCÜMƏ:**

***«Onların yerləri Cəhənnəmdir və ondan qaçmağa əsla bir yol tapmazlar.»***

**TƏFSİR:**

Cəhənnəm bəziləri üçün əbədi bir məkandır. Bütün xoşagəlməz işlərdən qaçmaq olar, lakin axirət əzabından xilas olmaq, geriyə qayıtmaq heç vaxt mümkün deyildir, belə isə bu dünyadan getməmiş pis işlərdən əl çəkin.

---

[42] «Ali-İmran», 135.

[43] «Təfsiri Safi», 1-ci cild, səh. 464

## AYƏ 122:

﴿ وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ سَنُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا وَعْدَ اللّهِ حَقًّا وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ قِيلاً ﴾

### TƏRCÜMƏ:

***«İman gətirib yaxşı işlər görənləri tezliklə (ev və ağaclarının) altından çaylar axan Cənnətlərə daxil edəcəyik (və onlar) orada əbədi qalacaqlar. (Bu,) Allahın verdiyi haqq bir vəddir. Allahdan daha doğru danışan kimdir?!»***

### TƏFSİR:

Keçən ayələrdə qeyd olundu ki, şeytanı özlərinə vəli, dost və rəhbər seçənlər aşkar ziyandadırlar. Şeytan onlara yalan vədələr verir, uzun-uzadı arzularla başlarını qatır. Şeytanın vədələri aldatmaq və məkrdən başqa bir şey deyildir. Bunların müqabilində isə imanlı şəxslərin gözəl aqibəti bu ayədə belə bəyan edilir: İman gətirib saleh əməllər görənləri tezliklə ağaclarının altından çaylar axan behişt bağlarına daxil edərik. Bu nemətlər dünya nemətləri kimi müvəqqəti, ötəri deyil, əbədidir və möminlər orada həmişəlik qalacaqlar. Bu vədələr şeytanın yalan vədələri kimi deyil, Allah tərəfindən olan həqiqi bir vədədir. Aydındır ki, heç kəs öz vədə və sözlərində Allah qədər sadiq ola bilməz. Çünki vədəyə əməl etməmək ya bacarıqsızlıq, ya cəhalət, ya da ehtiyac üzündəndir ki, bunların Allah barəsində təsəvvür olunması qeyri-mümkündür.

## AYƏ 123:

﴿ لَّيْسَ بِأَمَانِيِّكُمْ وَلا أَمَانِيِّ أَهْلِ الْكِتَابِ مَن يَعْمَلْ سُوءًا يُجْزَ بِهِ وَلاَ يَجِدْ لَهُ مِن دُونِ اللّهِ وَلِيًّا وَلاَ نَصِيرًا ﴾

### TƏRCÜMƏ:

***«(Axirətdə mükafat və cəzanın verilməsi) nə (sonuncu peyğəmbərin ümməti olduğunuza görə) sizin arzunuzladır və nə də (ki, özlərini Allahın dostu və övladları hesab edən) kitab əhlinin arzusuyla. Kim pis bir iş görsə, cəzalandırılacaqdır və özü üçün Allahdan başqa bir dost və kömək edən tapmayacaqdır.»***

### TƏFSİR:

Müsəlmanlar Peyğəmbəri-Əkrəmin (s) sonuncu peyğəmbər, özlərinin də ən yaxşı və üstün ümmət olmaları ilə iftixar edirdilər. Kitab əhli isə öz keçmişləri ilə öyünüb deyirdi ki, cəhənnəm odu, bir neçə gün istisana olmaqla, bizə toxunmayacaq. Bu ayə

onların hər ikisinin təsəvvürlərini islah etmək üçün nazil oldu və insanların yaxşı əməlini əsas meyar qərar verdi.

***İNCƏ MƏTLƏBLƏR***

1. Əsassız və puç arzulardan, xam xəyallardan uzaq olun, çünki onların heç bir xeyiri yoxdur.
2. İslam xəyal və meyllər əsasında deyil, real gerçəkliklər əsasındadır (batil, hər kəsdə və hər məktəbdə olsa belə məhvə məhkum olunur).
3. Allah bütün hallarda adildir. İnsanların mükafat və cəzası da onların əməllərinə əsasən verilir.

**AYƏ 124:**

﴿ وَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتَ مِن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلاَ يُظْلَمُونَ نَقِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Kişi və ya qadınlardan mömin olaraq yaxşı işlərdən (bir şey) yerinə yetirən kəslər, Cənnətə daxil olacaqlar və onlar hətta xurma çərdəyinin arxasındakı nöqtə qədər zülmə məruz qalmayacaq və haqlarından kəsilməyəcəkdir.»***

**TƏFSİR:**

Bu ayədəki («nəqir»in kökü olan) «nəqr» kəlməsi «dimdikləmək» mənasınadır «Nəqir» isə quşun xurma dənəsini dimdikləməsi nəticəsində bu meyvədə əmələ gələn çuxura deyilir. Əvvəlki ayədə «mən yəməl suən» (“hər kəs pis iş görsə”) ifadəsi, burada isə «mən yəməl minəs-salihat», yəni «hər kəs saleh əməl görsə» ifadəsi gətirilir.

Buna əsasən, behişt əhli olmağın əsas amili iman və gözəl əməldir və heç vaxt (əvvəlki ayədə qeyd olunan) iddia və arzular ola bilməz.

***İNCƏ MƏTLƏBLƏR***

1. Bütün irqlər, millətlər və təbəqələr Allahın lütf və mərhəmətindən bəhrələnməkdə bərabərdirlər.
2. Qadın və kişi mənəvi kamallara çatmaqda bərabərdir.
3. Gözəl əməl görən mömінin mükafatı behiştdir.
4. Yaxşı əməllər, az da olsa belə, dəyərə malikdir.

**AYƏ 125:**

﴿ وَمَنْ أَحْسَنُ دِينًا مِّمَّنْ أَسْلَمَ وَجْهَهُ لله وَهُوَ مُحْسِنٌ واتَّبَعَ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَاتَّخَذَ اللّهُ إِبْرَاهِيمَ خَلِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Kimin dini yaxşı əməl sahibi olub (şəriət baxımından) haqpərəst İbrahimin dininə tabe halda bütün vücudunu Allaha təslim edən şəxs(in dinin)dən daha gözəldir? Allah İbrahimi (Özünə) dost tutmuşdur.»***

**TƏFSİR:**

Əvvəlki ayədə iman və əməlin təsirindən söhbət gedir və onda buyurulurdu ki, hansısa bir dinə mənsub olmaq təklikdə fayda verməz. Eyni zamanda, keçən ayələrdən anlaşılmazlıq yaranmasın deyə, İslam dininin bütün ilahi dinlərdən üstün olması belə bəyan edilir: Bütün varlığı ilə Allah qarşısında təslim olan, yaxşı əməllərdən əl çəkməyən və İbrahimin xalis və pak ayininə tabe olan kimsənin dinindən də yaxşı bir din varmı?

Bu ayədə üç şey dinin yaxşı olması meyarı kimi təqdim edilir: Birincisi, Allah qarşısında qeydsiz-şərtsiz təslim olmaq, ikincisi, yaxşı əməl görmək, (yaxşı əməl dedikdə qəlb, dil və əməllə görülən yaxşı işlər nəzərdə tutulur,) üçüncüsü isə İbrahimin (ə) pak dininə tabe olmaq.

Ayənin axırında İbrahimin dininə daha çox nəzər yetirilməsinin səbəbi belə bəyan olunur: Allah İbrahimi Özünə dost və xəlil seçmişdi.

Rəvayətlərə əsasən, İbrahim (ə) çoxlu səcdə etmək, miskinlərə təam vermək, gecə namazı qılmaq, dilənçiləri əliboş qaytarmamaq və qonaqpərvərlik sayəsində ilahi dostluq məqamına çatmışdı.[44]

**AYƏ 126:**

﴿ وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَانَ اللّهُ بِكُلِّ شَيْءٍ مُّحِيطًا ﴾

**TƏRCÜMƏ:**

***«(Hər bir şeyin yaradılışı, qorunması, idarə olunması və nəzərdə tutulan zamanda yox edilməsi Allahın iradə və istəyi ilə olduğu üçün) göylərdə və yerdə olanlar (onların özləri də daxil olmaqla) Allahın həqiqi mülküdür. Allah həmişə (vücud, qüdrət və elm baxımından) hər şeyi əhatə etmişdir.»***

**TƏFSİR:**

Bu ayədə Pərvərdigari-aləmin mütləq malikiyyətinə, hər bir şeyə əhatəli olmasına işarə edilir və buyurulur: Asimanlarda və yerdə olanlar Allahın mülküdür, çünki Allah hər bir şeyə əhatəlidir.

Ayə bunu çatdırmaq istəyir ki, Allahın İbrahimi (ə) Özünə dost seçməsi Onun ehtiyaclı olması demək deyildir. Çünki Allah hər bir şeydən ehtiyacsızdır. Allah

[44] «Təfsiri Burhan», 1-ci cild, səh. 417

İbrahimin (ə) son dərəcə gözəl və bəyənilən səciyyələrinə görə onu Özünə dost seçmişdir.

## AYƏ 127:

﴿وَيَسْتَفْتُونَكَ فِي النِّسَاء قُلِ اللّهُ يُفْتِيكُمْ فِيهِنَّ وَمَا يُتْلَى عَلَيْكُمْ فِي الْكِتَابِ فِي يَتَامَى النِّسَاء اللاَّتِي لاَ تُؤْتُونَهُنَّ مَا كُتِبَ لَهُنَّ وَتَرْغَبُونَ أَن تَنكِحُوهُنَّ وَالْمُسْتَضْعَفِينَ مِنَ الْوِلْدَانِ وَأَن تَقُومُواْ لِلْيَتَامَى بِالْقِسْطِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ كَانَ بِهِ عَلِيمًا﴾

### TƏRCÜMƏ:

***«Səndən qadınlar (onlarla evlənmək və onların irsi) barəsində hökm istəyirlər, de: «Onlar barəsində sizə (surənin əvvəlində gördüyünüz kimi) Allah hökm verir. Həmçinin bu kitabda sizə oxunan şeylər – qərara alınmış haqlarını vermədiyiniz və evlənməyə rəğbət göstərmədiyiniz yetim qızlar barəsində, eləcə də (mallarını yediyiniz) zəif və aciz uşaqlar barəsində (hökm verir). Və (Allah sizə) yetimlərlə ədalətli və insafla davranmağınızı (tövsiyə edir).» Şübhəsiz Allah gördüyünüz hər bir xeyir işi bilir.»***

### TƏFSİR:

Qadın hüquqlarının müdafiə edilməsi və ona ədalətsizlikdən, haqsızlıqdan nicat vermək üçün həmişə səmavi rəhbərlərdən göstəriş almaq lazımdır. Qadınlar, uşaqlar və yetimlərin müdafiə məsələsinin irəli çəkilməsi tarix boyu onlara zülm olunmasını göstərir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Qadınların hüququnun müdafiə olunması Allahın qaçılmaz bir hökmüdür.
2. Rəsuli-Əkrəmin (s) verdiyi cavablar elə Allahın fətvasıdır.
3. Yetimlə ədalətli rəftar yaxşı işin ən gözəl nümunəsidir.
4. İslam cəmiyyətində yetimlər barədə ədalətin bərqərar olunmasına səy edilməlidir.
5. Bilin ki, sizin cəmiyyətin məhrum təbəqəsinə göstərdiyiniz xidmət və himayələr unudulmayacaqdır.

## AYƏ 128:

﴿وَإِنِ امْرَأَةٌ خَافَتْ مِن بَعْلِهَا نُشُوزًا أَوْ إِعْرَاضًا فَلاَ جُنَاْحَ عَلَيْهِمَا أَن يُصْلِحَا بَيْنَهُمَا صُلْحًا وَالصُّلْحُ خَيْرٌ وَأُحْضِرَتِ الأَنفُسُ الشُّحَّ وَإِن تُحْسِنُواْ وَتَتَّقُواْ فَإِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**TƏRCÜMƏ:**

*«****Əgər bir qadın öz ərinin itaətsizliyindən ya (ondan) üz döndərməsindən qorxsa, o ikisinə (hətta özlərinin bəzi hüquqlarından keçməklə olsa belə) aralarında bir növ sülh və barışıq etmələrində günah yoxdur. (Əslində) sülh daha yaxşıdır. (Əlbəttə) paxıllıq və gözü götürməzlik təbiətcə (insanların) canların(ın) ayrılmaz bir hissəsinə çevrilmişdir (onların öz haqlarından keçmələri çətindir). Əgər yaxşılıq etsəniz və təqvalı olsanız, şübhəsiz, Allah etdiklərinizdən xəbərdardır.****»*

**TƏFSİR:**

Rafiq ibn Hüceycin iki arvadı var idi: biri qoca, biri isə cavan idi. Mövcud ixtilaflarına görə qoca arvadına təlaq verdi və iddəsi tamam olmazdan əvvəl ona dedi: «Əgər istəsən, səninlə bu şərtlə barışaram ki, cavan arvadıma münasibətdə səbr edəsən. Əgər buna razı deyilsənsə, iddə tamam olduqdan sonra ayrılaq.» Qadın barışmağı qəbul etdi. Sonra bu ayə nazil oldu.

«Nüşuz» kəlməsi «uca yer» mənasını ifadə edən «nə-şə-zə» kökündəndir, mənası da «tüğyan» deməkdir. Bu surənin 34-cü ayəsində qadının tüğyan etməsindən, yuxarıdakı ayədə isə kişilərin inadkarlığından və tüğyançılığından söhbət gedir.

Qadında «şühh» yaxşı paltar geyinməmək, bər-bəzəkləri tərk etmək, kişilərdə isə mehriyyəni və nəfəqəni verməmək, arvada məhəbbət göstərməmək mənasınadır. Ümumiyyətlə, ailə məsələlərində ilk növbədə ərlə-arvad arasında barışıq yaratmaq və islah etmək kimi məsələlər irəli çəkilir və bu zaman başqalarının müdaxiləsinə yol verilmir. Əgər islah olunmazsa, bu zaman başqaları işə dəxalət edə bilərlər.

***İNCƏ MƏTLƏBLƏR***

1. Daha yüksək məsləhətlərə və sağlam ailə mühitinə nail olmaq üçün bəzi haqlardan keçməyin maneəsi yoxdur.
2. Əksər ailələrdə sarsıntı və narazılıq yaranmasının səbəbi insanın varlığını əhatə edən dar dünyagörüş, paxıllıq və hərislikdir.
3. Kişilərin öz şəhvət təmayüllərindən keçməsi, iki həyat yoldaşı arasında ədalətə riayət etməsi təqvanın və ehsanın nümunələrindəndir. İstər öz haqqından keçmək olsun, istərsə də həyat yoldaşına yaxşılıq və təqva – bunların hamısı Allahın hüzurundadır.

**AYƏ 129:**

﴿وَلَن تَسْتَطِيعُواْ أَن تَعْدِلُواْ بَيْنَ النِّسَاء وَلَوْ حَرَصْتُمْ فَلاَ تَمِيلُواْ كُلَّ الْمَيْلِ فَتَذَرُوهَا كَالْمُعَلَّقَةِ وَإِن تُصْلِحُواْ وَتَتَّقُواْ فَإِنَّ اللّهَ كَانَ غَفُورًا رَّحِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Siz hər nə qədər çox istəsəniz də, heç vaxt arvadlar arasında (batini meyllərdə) ədalətə riayət edə bilməzsiniz. Buna görə də (heç olmasa, zahiri vəzifələrdə) onların birindən tamamilə üz döndərib onu qeyri-müəyyən şəraitdə (havada) qoymayın. Əgər sülh və barışıq etsəniz və təqvalı olsanız, şübhəsiz Allah həmişə bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Səmavi qanunların insanın pak fitrəti ilə heç bir ziddiyyəti yoxdur. İnsan özünün qoca həyat yoldaşına nisbətən cavan və gözəl həyat yoldaşına daha çox məhəbbət göstərdiyinə görə ədalət fərmanı qəlbi məhəbbətə deyil, rəftarlara aiddir.

Qəlbi məhəbbətlə əlaqədar ədalətə riayət edilməsi mümkün olmadığından, buna əməldə riayət edilməlidir. İslamda insanın qüdrət və bacarığından artıq mükəlləfiyyət verilmir. İnsan öz məhəbbətini mötədil etməyə qadir deyil. Lakin bu iş əməl və rəftarlarda, şübhəsiz ki, mümkündür.

Qadının vəzifəsini təyin etmədən (asılı vəziyyətdə, təklifsiz) buraxmaq haramdır.

Sülh və təqva ilə həm keçmişdəki zəif hallar, həm də agahlıq üzündən olmayan bugünkü qəflətlər bağışlanır.

**AYƏ 130:**

﴿ وَإِن يَتَفَرَّقَا يُغْنِ اللّهُ كُلاًّ مِّن سَعَتِهِ وَكَانَ اللّهُ وَاسِعًا حَكِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Əgər (təsadüfən) o ikisi (ərlə arvad) bir-birindən ayrılsalar, Allah onların hər birini Öz (rəhmətinin) genişliyi ilə ehtiyacsız edər. Allah həmişə geniş (vücud, qüdrət, elm və rəhmət) və (xilqət və şəriətdə) möhkəm yaradılış sahibidir.»***

**TƏFSİR:**

Bu ayədə buyurulur ki, əgər ailə münasibətlərinin davam etdirilməsi ər-arvad üçün üzücü və dözülməz bir vəziyyət yaradarsa, həmçinin, müəyyən səbəblərə görə bu münasibətlərin davam etdirilməsinin müsbət bir nəticəsi olmazsa və ümumiyyətlə, islah olunmazsa onda belə münasibətləri davam etdirməyə məcbur deyillər və özlərini ömürlərinin axırına qədər belə bir acınacaqlı şəraitdə saxlamamalıdırlar; onlar bir-birindən ayrıla bilərlər. Belə olan halda tam şücaətlə qəti qərara gəlməli və gələcəkdən qorxmamalıdırlar. Çünki belə bir şəraitdə bir-birindən ayrılsalar, böyük Allah Öz fəzl və mərhəməti ilə onların hər ikisini ehtiyacsız edəcək. Bu zaman onlara daha yaxşı həyat yoldaşı və daha gözəl bir həyat nəsib olacağına ümid vardır. Çünki Allah həm hikmət, həm də rəhmət, fəzl və mərhəmət sahibidir.

Rəvayətlərdə qeyd olunur ki, Həzrət Əli (ə) bir həyat yoldaşına məxsus olan gündə başqa həyat yoldaşının evində hətta dəstəmaz almazdı. Peyğəmbəri-Əkrəm (s) isə vəfatı ilə nəticələnən xəstəlik günlərində belə, xəstəlik yatağını ədalətlə həyat yoldaşları arasında bölüşdürürdü.

Məaz ibn Cəbəlin iki həyat yoldaşı var idi və onların hər ikisi taun xəstəliyi nəticəsində dünyadan getmişdi. O, ədalətə riayət etmək üçün onların dəfnində (hansını əvvəlcə dəfn etmək üçün) püşk atdı.[45]

**AYƏ 131:**

﴿وَللّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ وَإِن تَكْفُرُواْ فَإِنَّ لِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَانَ اللّهُ غَنِيًّا حَمِيدًا﴾

---

45 «Təfsiri Nümunə», «Tibyan» təfsirindən nəqlən.

**TƏRCÜMƏ:**

***«Göylərdə və yerdə olanlar (onların özləri də daxil olmaqla) Allahın həqiqi mülküdür. Həqiqətən Biz sizdən əvvəl (səmavi) kitab verilmiş kəslərə, eləcə də sizə tövsiyə etdik ki, Allahdan qorxun və (hamıya xəbərdarlıq etdik ki,) əgər küfr etsəniz (Ona heç bir ziyan vurmazsınız, çünki) göylərdə və yerdə olanlar Allaha məxsusdur. Allah həmişə ehtiyacsız və (sifət və işlərində) tərifləənəndir.»***

**TƏFSİR:**

«***Yerdə və göylərdə olanlar Allaha məxsusdur***» cümləsi bu ayədə iki dəfə, sonrakı ayədə də bir dəfə təkrar olunmuşdur. Bu da insanın etiqadlarında onun ifa etdiyi rola görədir ki, Allahın Öz vədələrinə əməl etməkdə, insanları istər evlilik, istər boşanmaq, istərsə də digər işlərdə ehtiyacsız etməyə qüdrətli olduğunu bilək. Ümumiyyətlə, Allahın bütün şeylərə olan malikiyyəti Öz vədələrinin icra olunmasına zəmanət verir.

Allah zatən ehtiyacsızdır, O, asimanlara və yerə malik olmaqla bizim ibadət etməyimizə, iman gətirməyimizə heç bir ehtiyac duymur. Həmçinin, hikmət, qüdrət və malikiyyət sahibi olan bir şəxs həm qanunçuluq, həm də işləri idarə etmək haqqına malikdir.

**AYƏ 132:**

﴿ وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَفَى بِاللّهِ وَكِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Həm göylərdə və həm də yerdə nə varsa (onların hamısı) Allahın həqiqi mülküdür. (Varlıq aləminin işlərini) qaydaya salmaq üçün Allah bəs edər.»***

**TƏFSİR:**

Bu ayədə üçüncü dəfə olaraq təkidlə bəyan olunur ki, asimanlarda və yerdə olanlar Allahın mülküdür. Allah onları qoruyur, keşiyini çəkir və idarə edir.

**AYƏ 133:**

﴿ إِن يَشَأْ يُذْهِبْكُمْ أَيُّهَا النَّاسُ وَيَأْتِ بِآخَرِينَ وَكَانَ اللّهُ عَلَى ذَلِكَ قَدِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Ey insanlar! Əgər istəsə sizin hamınızı aradan aparar və başqa bir dəstəni (vücuda) gətirər. Allah bu işə həmişə qadirdir.»***

**TƏFSİR:**

Sonra buyurulur: Allah üçün, sizi aradan aparıb yerinizə Allaha itaət yolunda daha qətiyyətli, daha hazırlıqlı və daha ciddi olan insanlar gətirməyə heç bir maneə yoxdur və əlbəttə ki, Allah bu işə qadirdir.

Bu ayə nazil olanda Rəsuli-Əkrəm (s) mübarək əlini Salman Farsinin kürəyinə vurub dedi: «***(Bu ayədə deyilən)*** «***başqa insanlar***» ***iranlılardır.***»[46]

**AYƏ 134:**

﴿ مَّن كَانَ يُرِيدُ ثَوَابَ الدُّنْيَا فَعِندَ اللّهِ ثَوَابُ الدُّنْيَا وَالآخِرَةِ وَكَانَ اللّهُ سَمِيعًا بَصِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Kim dünya mükafatını istəsə (bilsin ki), dünya və axirət mükafatı Allahın yanındadır (və Allah insanın niyyətinə görə ona verər). Allah həmişə eşidən və görəndir.»***

**TƏFSİR:**

Allahdan həm dünya, həm də axirət savabını istəyərək, hər iki dünya nemətlərindən bəhrələnə bilənlər təkcə dünya nemətləri ilə kifayətlənsələr, həmçinin cihad və yaxşı əməllərlə yalnız maddi hədəfləri güdsələr, doğrudan da, şiddətlə ziyankarlıqda olarlar.

**AYƏ 135:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ إِن يَكُنْ غَنِيًّا أَوْ فَقَيرًا فَاللّهُ أَوْلَى بِهِمَا فَلاَ تَتَّبِعُواْ الْهَوَى أَن تَعْدِلُواْ وَإِن تَلْوُواْ أَوْ تُعْرِضُواْ فَإِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, (bütün işlərinizdə) hətta özünüzün, ya ata-ananızın, yaxud yaxınlarınızın ziyanına olsa belə, həmişə və tam şəkildə ədaləti bərqərar edin və Allaha görə şahidlik edin. Əgər (dava edən tərəflərdən biri) imkanlı ya yoxsul olsa (siz onların vəziyyətlərini nəzərə alaraq haqqa zidd şahidlik etməyin, çünki) Allah onlara (onların halını nəzərə almağa) daha layiqlidir. Buna görə də nəfsi istəyə tabe olmayın ki, (nəticədə) haqdan üz çevirəsiniz. Əgər dil(inizi nahaq tərəfə) əysəniz ya (şəhadət verməkdən) üz döndərsəniz, (bilin ki,) həqiqətən Allah etdiklərinizdən həmişə xəbərdardır.»***

**TƏFSİR:**

## *İCTİMAİ ƏDALƏT*

Əvvəlki ayələrdə ədalətin yetimlər və həyat yoldaşı barədə icra olunması ilə bağlı göstərişlərin ardınca bu ayədə ədalətin hər yerdə və heç bir istisna olmadan icra

---

[46] «Məcməül-bəyan», 9-cu cild, səh. 108, həmin ayənin təfsirində, «Durrul-mənsur», 6-cı cild, səh. 67

edilməsinə dair ümumi göstəriş, əsaslı prinsip bəyan edilir və buyurulur: Ey iman gətirənlər! Ədaləti tam şəkildə bərqərar edin. Yəni ədaləti elə şəkildə icra etməlisiniz ki, heç bir tərəfdə, azacıq belə inhirafa düşməyəsiniz, azğınlığa düçar olmayasınız.

Sonra mətləbə təkid etmək üçün şəhadət məsələsi ünvanlanır və buyurulur: Xüsusilə şəhadətlə əlaqədar bütün şəxsi mülahizə və nəzəriyyələri kənara qoymalı, hətta əgər özünüzün, ata-ananızın, yaxud qohum-əqrəbanızın ziyanına tamam olsa belə. Yalnız Allah xatirinə və haqq əsasında şəhadət verməlisiniz.

Bu cümlədən məlum olur ki, insanın qohum-əqrəbaları ədalət meyarlarını qorumaq şərtilə bir-birinin xeyrinə və yaxud zərərinə şəhadət verə bilərlər.

Sonra ədalət meyarından azmanın digər bir amilinə işarə edilir: Nə varlıların mal-dövləti haqq əsasında şəhadət verməyin qarşısını almalıdır, nə də fəqirlərin ağır vəziyyətlərinin mülahizə edilməsindən irəli gələn insani duyğular. Çünki haqq əsasında verilən şəhadət sərvətli, yaxud fəqir olan bir kəsin ziyanına tamam olsa da, Allah onun vəziyyətindən daha artıq agahdır. Nə var-dövlət və qüdrət sahibləri Pərvərdigarın himayələri müqabilində haqq olan şahidlərə bir zərər çatdıra bilər, nə də ədalət hökmünün icra olunması ilə fəqir adam ac qalar.

Yenidən təkid üçün buyurulur ki, həvayi-nəfsə tabe olmayın ki, ədalətin icrası yolunda müəyyən maneələr yaranmasın.

Bu cümlədən aydın olur ki, bütün zülm və haqsızlıqların mənşəyi nəfsani istəklərə itaət etməkdir. Əgər hər hansı bir cəmiyyətin üzvləri həvayi-nəfsə itaət etməzsə, o cəmiyyətdə zülmə, haqsızlığa heç vaxt yol verilməz.

Ədalətin icra olunmasının kəsb etdiyi əhəmiyyətə görə bu göstəriş üzərində bir daha təkid edilir və buyurulur: Əgər haqqın öz sahibinə çatmasına mane olsanız və ya onu təhrif etsəniz, yaxud da haqq aşkar olduqdan sonra ondan üz döndərsəniz, bilin ki, Allah sizin bütün əməllərinizdən agahdır.

Bu ayədən İslamın «ictimai ədalət» məsələsinə, hansı surət və şəkildə olursa-olsun son dərəcə diqqət yetirməsi aşkar olur. Bir neçə dəfə ardıcıl olaraq işlədilən növbənöv təkidlər göstərir ki, İslam ictimai və insani yönə malik olan bu mühüm məsələyə həssaslıqla yanaşır.

Təəssüflə qeyd etmək lazımdır ki, müsəlmanların əməli ilə bu dəyərli İslami göstəriş arasında yerdən göyə qədər fərq vardır! Bu da müsəlmanların geridə qalma səbəblərindən birdir.

**AYƏ 136:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا﴾

**TƏRCÜMƏ:**

***«Ey Allaha iman gətirənlər, Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və bundan öncə nazil etdiyi kitaba (bunların hamısına) iman gətirin. Ey dillə iman gətirmiş kəslər, (səmimi qəlbdən) iman gətirin! Ey imanları gerçəkləşmiş kəslər, onun qorunmasında möhkəm olun. Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə kafir olsa, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür.»***

**TƏFSİR:**

Mümkündür ki, ayənin mənası «ey iman gətirənlər, özünüzü bir qədər də yüksəldin, yaxud öz imanınızda həmişəlik olaraq möhkəm qalın» kimi də olsun. İmanın müxtəlif dərəcələri olduğundan, mömin özünü hər gün imanın daha yüksək mərhələlərinə çatdırmağa səy etməlidir. Bunu da qeyd etmək lazımdır ki, peyğəmbərlərin və yaxud səmavi kitabların bəzisinə kafir olmaq onların hamısına qarşı kafir olmaqdır.

**AYƏ 137:**

﴿ إِنَّ الَّذِينَ آمَنُواْ ثُمَّ كَفَرُواْ ثُمَّ آمَنُواْ ثُمَّ كَفَرُواْ ثُمَّ ازْدَادُواْ كُفْرًا لَّمْ يَكُنِ اللّهُ لِيَغْفِرَ لَهُمْ وَلاَ لِيَهْدِيَهُمْ سَبِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Həqiqətən Allah iman gətirib sonra kafir olan, (daha sonra) yenə iman gətirib bir daha kafir olan, daha sonra küfrlərini artıran kəsləri, əsla bağışlayan və (doğru) yola hidayət edən deyildir. (İman və küfr halları bir neçə dəfə təkrar olunmuş və nəhayət küfr üzərində dayanan kəslər iman gətirməyə nail ola bilməzlər.)»***

**TƏFSİR:**

Bu ayənin oxşarı əvvəldə də qeyd olunmuşdur. Belə şəxslərin tövbəsi heç vaxt qəbul olunmur və onlar həqiqi mənada yollarını azanlardır. «Ali-İmran» surəsinin 190-cı ayəsində qeyd olunduğu kimi: «***İman gətirdikdən sonra kafir olmuş və sonra öz küfrlərini artıranların tövbəsi heç vaxt qəbul olunmayacaq. Onlar məhz yollarını azanlardır.***»

Hər gün bir rəngə düşməyin səbəbi ya haqq və din barədə lazımi təhqiqat aparmamaqdır, ya da müəyyən məkrli tədbirlərlə möminlərin əqidələrini sarsıtmaq məqsədi güdməkdir. «Ali-İmran» surəsinin 172-ci ayəsində də buyurulduğu kimi, onların bu hiyləgərlik tədbirləri ifşa olunur və buyurulur ki, onlar müsəlmanların iradə və əqidələrini sarsıtmaq üçün sübh çağı iman gətirib günün axırında kafir olurdular. Bu ayənin bariz nümunələri o kəslərdir ki, onun əməlləri belə bəyan edilir: O, əvvəlcə müsəlman oldu, Peyğəmbərin (s) vəfatından sonra kafir olub dindən çıxdı. Sonra tövbə edib Həzrət Əlinin (ə) tərəfdarlarından oldu. Sonra dindən çıxıb xəvaricin başçılarından oldu. Daha sonra tövbə edib İmam Həsən (ə) və İmam Hüseynin (ə) köməkçilərindən oldu. Məktub yazıb İmam Hüseyni (ə) Kufəyə dəvət etdi. Sonra Kufədə Müslümə vəfasızlıq etdi. Kərbəlada Yezidin qoşun sərkərdəsi oldu. İmam Hüseynin (ə) qətlə yetirilməsinə şükr əlaməti olaraq Kufədə bir məscid tikdirdi.

***İNCƏ MƏTLƏBLƏR***

1. İnsan başqalarının onun özü və əqidəsi ilə əlaqədar dediyi sözlərə etinasız yanaşmamalıdır (günah yığıncağında sükut etməyin özü də günahdır).
2. Ya pozğun mühiti islah etmək, ya da oradan çıxmaq lazımdır.
3. Təkcə günah etməmək kifayət deyil, günahın kökünü də kəsmək lazımdır. Təkcə düz yolda olmaq kifayət deyil, başqalarının da düz yoldan çıxmasının qarşısını almaq lazımdır.

4. Söz azadlığı, ürək genişliyi, güzəşt, gözəl əxlaq, camaatla keçinmək, həyalı olmaq, camaatla yaxşı rəftar etmək və s. bəhanə edərək günah əməl qarşısında sükut etmək olmaz.

5. Başqalarının günah əməllərinə razı olan adam onların günahında şərikdir.

6. Kafirlərin yaramaz danışıqları müqabilində sükut etmək bir növ nifaq (münafiqlik) əlamətidir.

7. Axirət yoldaşları dünyadakı müsahiblərin əvəzidir.

**AYƏ 138:**

﴿ بَشِّرِ الْمُنَافِقِينَ بِأَنَّ لَهُمْ عَذَابًا أَلِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Münafiqləri (Bərzəx aləmində və Qiyamətdə) onlar üçün ağrılı bir əzab olacağı ilə müjdələ.»***

**TƏFSİR:**

Dərdli əzabdan söhbət getdiyi zaman «müjdə ver» təbirinin gətirilməsi münafiqlərin puç və əsassız fikirlərinə qarşı istehza etmək üçündür. Amma əgər «surət» mənasına olan «bəşr» kökündən alınmış olsa, daha geniş bir məna ifadə edərək insanın üzündə cizgisi salınan hər bir şeyə şamil olur, istər sevinc gətirən olsun, istərsə də qəm.

**AYƏ 139:**

﴿ الَّذِينَ يَتَّخِذُونَ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُونِ الْمُؤْمِنِينَ أَيَبْتَغُونَ عِندَهُمُ الْعِزَّةَ فَإِنَّ العِزَّةَ لِلّهِ جَمِيعًا ﴾

**TƏRCÜMƏ:**

***«Həmin o kəsləri ki, möminlərin yerinə kafirləri özlərinə başçı, köməkçi və dost tuturlar. (Münafiqlər) izzət və əzəməti onların (kafirlərin) yanında axtarırlar? Belə isə (bilsinlər ki,) həqiqətən bütün izzətlər Allaha məxsusdur.»***

**TƏFSİR:**

Bu ayədə münafiqlər belə vəsf edilir: Onlar möminlərin yerinə kafirləri özlərinə dost seçirlər.

Sonra buyurulur: Görəsən, onların bu seçkidəki hədəfləri nədir? Doğrudanmı bu dostluqla özlərinə şərəf və abır-heysiyyət qazanmaq istəyirlər? Halbuki, izzət bütünlüklə Allaha məxsusdur. Çünki izzətin mənşəyi həmişə elm və qüdrətdir. Elm, qüdrət və əməlləri heç bir əhəmiyyət kəsb etməyənlər izzət mənşəyi olmaq qabiliyyətinə də malik deyillər.

Bu ayə bütün müsəlmanlara ciddi xəbərdarlıq edərək onlara anladır ki, öz izzətlərini (istər iqtisadi, mədəni və siyasi sahələrdə, istərsə də sair işlərdə) İslam düşmənləri ilə dostluqda axtarmasınlar. Çünki onların mənafeyi hər vaxt tələb etsə, səmimi müttəhidlərini belə boşlayır, bir-birilə əsla tanış deyilmişlər kimi, öz işlərinin ardınca gedirlər. Müasir tarix də bu həqiqəti aydın şəkildə isbat edir.

Deməli, müsəlmanlar xarici siyasətdə kafirlərdən asılı olmamalı, öz izzətlərini onlardan asılılıqda axtarmamalıdırlar.

«Şəbaniyyə» münacatında Həzrət Əlinin (ə) dilindən belə oxuyuruq: «*Pərvərdigara, mənim artımım da, azalmam da (başqalarının deyil,) yalnız Sənin əlindədir.*»

**AYƏ 140:**

﴿وَقَدْ نَزَّلَ عَلَيْكُمْ فِي الْكِتَابِ أَنْ إِذَا سَمِعْتُمْ آيَاتِ اللّهِ يُكَفَرُ بِهَا وَيُسْتَهْزَأُ بِهَا فَلاَ تَقْعُدُواْ مَعَهُمْ
حَتَّى يَخُوضُواْ فِي حَدِيثٍ غَيْرِهِ إِنَّكُمْ إِذًا مِّثْلُهُمْ إِنَّ اللّهَ جَامِعُ الْمُنَافِقِينَ وَالْكَافِرِينَ فِي جَهَنَّمَ
جَمِيعًا﴾

**TƏRCÜMƏ:**

***«Həqiqətən Allah sizə bu kitabda (6-cı surənin 68-ci ayəsində) nazil edib ki, Allahın ayələrinin və nişanələrinin inkar və məsxərə edildiyini eşitdiyiniz zaman, onlar başqa bir söhbətə girişənə qədər onlarla bir yerdə oturmayın, əks halda siz də onlar kimisiniz. Şübhəsiz, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə bir yerdə toplayacaqdır.»***

**TƏFSİR:**

Bu ayənin oxşarı «Ənam» surəsinin 68-ci ayəsində də qeyd olunmuşdur. Orada Peyğəmbərə (s) xitabən buyurulur: «***Əgər müəyyən adamların yaramaz danışdıqlarını görsən, onlardan üz döndər ki, söhbət etdikləri mövzu dəyişilsin.***»

Bu ayədə isə bütün insanlara xitab olunur və onlarda dərin mənəvi dəyişiklik yaradıb onları təfriqədən vəhdətə, paxıllıqdan səxavətə və əliaçıqlığa, şirkdən tövhidə, cəhalətdən elmə, əxlaqi tənəzzüldən mənəvi meraca, vahid İslam ümməti təşkil etməyə çağırır. Bütün bunlar Allahın Öz Peyğəmbərinə (s) nazil etdiyi mərhəmətə və onun dininə diqqət yetirməsinə şahiddir.

Buna görə də peyğəmbərlərin ən yaxşı arxalanacağı və ümid nöqtəsi Allah tərəfindən olan himayələrdir. Bunu da qeyd edək ki, vəhyin mənşəyi Allahın sonsuz elmi olduğuna görə müasir dövrdə elmi-texniki tərəqqi davam etdikcə Quran maarifindən hər gün yeni-yeni həqiqətlər kəşf edilir.

Mömin şəxs bunu da bilməlidir ki, dünyanın müəyyən yerlərində inadkar və günahkar adamlar bəhanə gətirsələr də, onun əvəzində varlıq aləmində olan bütün pak və agah mələklər onun xeyrinə şahidlik edəcəklər.

**AYƏ 141:**

﴿الَّذِينَ يَتَرَبَّصُونَ بِكُمْ فَإِن كَانَ لَكُمْ فَتْحٌ مِّنَ اللّهِ قَالُواْ أَلَمْ نَكُن مَّعَكُمْ وَإِن كَانَ لِلْكَافِرِينَ نَصِيبٌ
قَالُواْ أَلَمْ نَسْتَحْوِذْ عَلَيْكُمْ وَنَمْنَعْكُم مِّنَ الْمُؤْمِنِينَ فَاللّهُ يَحْكُمُ بَيْنَكُمْ يَوْمَ الْقِيَامَةِ وَلَن يَجْعَلَ اللّهُ
لِلْكَافِرِينَ عَلَى الْمُؤْمِنِينَ سَبِيلاً﴾

**TƏRCÜMƏ:**

***«(Həmin) o kəslər(i) ki, həmişə sizə bir hadisə (üz verməsini) gözləyirlər. Beləliklə, əgər Allah tərəfindən sizə bir qələbə yetişsə, «məgər biz sizinlə birgə deyildik? (Odur ki, qənimətlərdən bizim də payımızı verin)» deyərlər. Əgər (qələbədən) kafirlərə bir pay düşsə, (kafirlərə) deyərlər: «Məgər biz (söhbətdə) sizə***

***qalib gəlmirdik (ki, qələbə çalmaq üçün öz əqidələrinizdən möhkəm yapışın)?; məgər döyüşlərdə sizə qalib gəlmirdik və sizdən əl götürərək, sizi möminlərdən (onların zərər-ziyanlarından)qorumurduq? (Buna görə bizi də qənimətə şərik edin)». Allah Qiyamət günü sizin aranızda hökm edəcəkdir. Allah heç zaman kafirlərin (dəlil-sübut gətirməkdə) möminlərə qalib gəlmələrinə bir yol qoymayacaqdır.»***

**TƏFSİR:**

***MÜNAFİQLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ***

Bu və bundan sonrakı bir neçə ayə münafiqlərin bəzi yaramaz xüsusiyyətlərini, pərişan fikirlərini xatırladır və buyurulur: Münafiqlər baş verən hadisələrdən həmişə öz xeyirlərinə istifadə etmək əzmindədirlər. Əgər sizə qələbə nəsib olsa, dərhal özlərini möminlərin cərgəsində göstərir və deyirlər ki, biz sizinlə deyildikmi, məgər bizim dəyərli köməklərimiz sizin qələbənizdə təsirli olmadımı? Buna əsasən, bütün bu müvəffəqiyyətlərdə, maddi və mənəvi nəticələrdə sizinlə şərikik.

Amma əgər İslam düşmənləri qələbə çalsalar, dərhal onlara yaxınlaşır, onlardan razı olduqlarını bildirib deyirlər: Sizi müsəlmanlarla mübarizəyə, onların qarşısında təslim olmamağa və müqavimətə təşviq edən biz idik! Buna əsasən, bu qələbədə biz də sizinlə şərikik.

Beləliklə, bu kimi şəxslər xüsusi hiyləgərliklə bəzən «karvan yoldaşı», bəzən «oğrularla şərik» olur, ömürlərini bu iki yolda sərf edirlər.

Lakin Quran onların axır-aqibətlərinin necə olacağını qısa bir cümlədə bəyan edir və buyurur: Nəhayət, bir gün gələcək, bu məkr və hiylələr ifşa olunacaq, onların çirkin sifətləri üzə çıxacaqdır. Bəli! Qiyamətdə Allah sizin aranızda mühakimə edəcəkdir!

Həqiqi mömin onlardan qorxmasın deyə, ayənin axırında əlavə edilir: Allah heç vaxt kafirlərin müsəlmanlara qələbə çalıb onlara hakim kəsilmələri üçün bir yol qoymaz. Yəni kafirlər təkcə məntiq nəzərindən deyil, digər cəhətlərdən − hərbi, siyasi, mədəni, iqtisadi cəhətdən də imanlı şəxslərə qalib gələ bilməzlər. Amma hazırda onların bir çox sahələrdə müsəlmanlara qələbə çalmasının səbəbinə gəldikdə isə demək lazımdır ki, bu, müsəlmanlardan çoxunun həqiqi mömin olmamalarından irəli gəlir. Onların arasında nə ittihaddan, nə İslami qardaşlıqdan, nə də kifayət qədər elm və agahlıqdan əsər-əlamət vardır. Halbuki, İslam dini anadan olduğu vaxtdan qəbir evinə qədər elm öyrənməyi hər bir müsəlmana vacib etmişdir. Bu işləri tərk etdiklərinə görə də hazırda kafirlərin iti caynaqları altında acınacaqlı vəziyyətdə inildəyirlər.

**AYƏ 142:**

﴿ إِنَّ الْمُنَافِقِينَ يُخَادِعُونَ اللّهَ وَهُوَ خَادِعُهُمْ وَإِذَا قَامُواْ إِلَى الصَّلاَةِ قَامُواْ كُسَالَى يُرَآؤُونَ النَّاسَ وَلاَ يَذْكُرُونَ اللّهَ إِلاَّ قَلِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Həqiqətən münafiqlər Allaha qarşı hiyləgərlik edirlər, halbuki, Allah onları aldadır (onların hiylələrinin cəzasını özlərinə qaytarır). Onlar namaza durarkən***

*(yerlərindən) süst qalxır, camaatla (ünsiyyətdə olarkən) riyakarlıq edir və Allahı çox az yada salırlar.»*

**TƏFSİR:**

Bəlkə də münafiqlərin Allaha qarşı məkr və hiylə işlətmələri dedikdə məqsəd iman izhar edərək ilahi hökmləri ələ salmaları ola bilər. İmam Rza (ə) buyurur: «***Allah onların məkrli planlarının cəzasını verdiyinə görə bu ilahi cəzaya «ilahi məkr» deyilmişdir.***»[47]

Burada qeyd edilir ki, onlar Allahdan uzaqdırlar. Onunla raz-niyaz və münacatdan ləzzət almırlar. Buna görə də namaza dayandıqları zaman başdan-ayağa halsızlıq və ikraha qərq olurlar. Onlar Allahın vədələrinə iman gətirmədiklərinə görə ibadət və ya hər hansı bir əməli də Allah xatirinə deyil, məhz riyakarlıq üzündən yerinə yetirərlər. Onlar bəzən zikr deyir, Allahı yad edirlər, amma bu əməllərin hamısı səmimi qəlbdən, ayıqlıq və agahlıq üzündən olsa da, yenə də çox azdır.

**AYƏ 143:**

﴿ مُّذَبْذَبِينَ بَيْنَ ذَلِكَ لاَ إِلَى هَؤُلاء وَلاَ إِلَى هَؤُلاء وَمَن يُضْلِلِ اللّهُ فَلَن تَجِدَ لَهُ سَبِيلاً ﴾

**TƏRCÜMƏ:**

***«Onlar bu arada (möminlərlə kafirlər arasında, qəlb və ya əməldə) tərəddüddədirlər, nə (birdəfəlik) bunların tərəfindədirlər və nə də (birdəfəlik) onların. Allahın azğınlıqda boşladığı kəs üçün əsla bir yol tapa bilməzsən.»***

**TƏFSİR:**

Bu ayədəki «müzəbzəbinə» kəlməsinin kökü olan «təzəbzüb» havada asılı vəziyyətdə olan bir şeyin hərəkətinə deyilir. Deməli, münafiqlər heç vaxt müstəqil vəziyyətdə deyillər. Havadan asılmış əşyalar kimi, küləyin hərəkəti ilə hərəkət edirlər. Başqalarından asılı olduqlarına görə hədəfsiz və sərgərdandırlar. Onların ruhi asayişləri də yoxdur. Həmişə yeni mövzuda təcili qərar çıxarırlar. Bir sözlə, münafiq haqq yolunu azan, Allahın əzabına düçar olan şəxsdir.

**AYƏ 144:**

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُونِ الْمُؤْمِنِينَ أَتُرِيدُونَ أَن تَجْعَلُواْ لِلّهِ عَلَيْكُمْ سُلْطَانًا مُّبِينًا ﴾

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, möminlərin yerinə kafirləri özünüzə başçı, yardımçı və dost tutmayın! Məgər Allaha öz əleyhinizə (nifaqınıza dəlalət edən) aydın bir sübut və (əzabınıza dair) bir dəlil vermək istəyirsiniz?»***

[47] «Nurus-Səqəleyn», 1-ci cild, səh. 565

**TƏFSİR:**

Möminlərin, kafirlərin vilayət və rəhbərliyini qəbul etməyə haqları yoxdur. Lakin münafiqlər kafirlərlə sıx əlaqədədirlər. Quran kafirləri və münafiqləri «şeytanların qardaşları» adlandırır. «Nisa» surəsinin 139-141-ci ayələri onların kafirlərlə necə rabitə bərqərar etmələrini bəyan edir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Təvəlla və təbərra (Allahın dostları ilə dost, düşmənləri ilə düşmən olmaq) dinin ayrılmaz hissəsidir.
2. Nəticəsi müsəlmanların ziyanına olan hər cür dostluq və müqavilələrdən uzaq olmaq lazımdır.
3. Xarici siyasətdə, siyasi və iqtisadi əlaqələrdə, müəyyən məqamlara seçilmə və ya mənsəbdən götürülmə və s. kimi işlərdə kafirlərin müsəlmanlara hakim olmasına səbəb olacaq hər bir iş haram və məhkumdur.
4. Zilləti, zəlilliyi qəbul edən müsəlmanın Allah hüzurunda heç bir cavabı yoxdur.
5. Kafirlərin vilayətini qəbul etmək iman ruhiyyəsi ilə düz gəlmir. Bir-birinə zidd olan iki şeyin məhəbbəti bir yerə sığmaz.

**AYƏ 145:**

﴿ إِنَّ الْمُنَافِقِينَ فِي الدَّرْكِ الأَسْفَلِ مِنَ النَّارِ وَلَن تَجِدَ لَهُمْ نَصِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, münafiqlər odun ən aşağı təbəqəsindədirlər və onlar üçün əsla bir yardımçı tapmayacaqsan.»***

**TƏFSİR:**

Bu ayədə bir dəstə qafil müsəlman ilə «dostluq» edən münafiqlərin Qiyamətdəki vəziyyəti bəyan edilir və buyurulur: Münafiqlər cəhənnəmin ən alçaq dərəcələrində qərarlaşar və onlar üçün heç bir köməkçi tapa bilməzsən.

Bu ayədən məlum olur ki, İslam nəzərindən nifaq və münafiqlik küfrün ən pis növü, münafiqlər də Allah dərgahından ən uzaq olan şəxslərdir. Buna görə də onların yerləri cəhənnəmin ən pis və alçaq dərəcələridir.

**AYƏ 146:**

﴿ إِلاَّ الَّذِينَ تَابُواْ وَأَصْلَحُواْ وَاعْتَصَمُواْ بِاللّهِ وَأَخْلَصُواْ دِينَهُمْ لِلّهِ فَأُوْلَئِكَ مَعَ الْمُؤْمِنِينَ وَسَوْفَ يُؤْتِ اللّهُ الْمُؤْمِنِينَ أَجْرًا عَظِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Tövbə edib (öz vücudlarının cövhərindən və əməllərindən xarab etdiklərini) düzəldənlər, Allahdan (və Onun kitabından) möhkəm yapışanlar və dinlərini Allaha görə xalisləşdirənlər istisna olmaqla ki, onlar möminlərlə birgə olacaqlar. Tezliklə Allah möminlərə böyük bir mükafat verəcəkdir.»***

**TƏFSİR:**

Tövbə qapısı bütün insanların, hətta ən mənfur və yaramaz adamların üzünə belə daim açıqdır. Həqiqi tövbə insanı cəhənnəmin ən alçaq dərəcələrindən çıxararaq behiştin ən yüksək mərtəbələrinə çatdırır. İnsan azaddır, o, agahlıq üzündən əqidə yolunu dəyişə bilər. Tövbə sadəcə olaraq bir əməldən peşman olmaq deyil. İnsan özündə hərtərəfli dəyişiklik etməli, islahat aparmalıdır.

Münafiqlər tövbə etdikləri zaman özlərinin əvvəldəki həmfikirlərindən ayrıldıqları üçün özlərini qürbətdə hiss etməməlidirlər. Çünki bunun əvəzində daha yaxşı dostlar tapmış olurlar.

Düşüncə və əqidədə qarışıqlıq salmaq qadağandır. Yaxşı olar ki, möminlər həqiqi mənada tövbə edənləri tam gülərüzlə qarşılasınlar, onları özlərindən hesab etsinlər.

**AYƏ 147:**

﴿ مَّا يَفْعَلُ اللّهُ بِعَذَابِكُمْ إِن شَكَرْتُمْ وَآمَنتُمْ وَكَانَ اللّهُ شَاكِرًا عَلِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Əgər şükr etsəniz və iman gətirsəniz, Allah sizə əzab verməyi neyləyir (Onun buna nə ehtiyacı və bunun Ona nə xeyri var)?! Allah həmişə qədirbilən (əməli qiymətləndirərək yaxşı mükafatlandıran) və (hər şeyi) biləndir»***

**TƏFSİR:**

Əgər siz iman gətirib yaxşı əməllər görsəniz, ilahi nemətlərdən sui-istifadə etməsəniz və onların şükrünü yerinə yetirsəniz, şübhəsiz, azacıq belə cəzaya düçar olmayacaqsınız.

Bu mövzunu təkidləndirmək üçün daha sonra buyurulur: Allah həm əməl və niyyətlərinizdən agahdır, həm də əməllərinizə təşəkkür olaraq sizə mükafat verir.

Yuxarıdakı ayədə nemətlərə şükr etmək məsələsi imandan öncə gəlir. Çünki insan Allahın nemətlərini tanımayınca, şükr məqamına çatmayınca, özünü tanıya bilməz.

**AYƏ 148:**

﴿ لاَّ يُحِبُّ اللّهُ الْجَهْرَ بِالسُّوَءِ مِنَ الْقَوْلِ إِلاَّ مَن ظُلِمَ وَكَانَ اللّهُ سَمِيعًا عَلِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah zülmə məruz qalmış şəxs istisna olmaqla (qeybət etmək, böhtan demək, pisləmək, söz gəzdirmək və qarğış etmək kimi) pis sözlərin aşkar və ucadan deyilməsini sevmir. Allah həmişə eşidən və biləndir.»***

**TƏFSİR:**

Bu və bundan sonrakı ayədə İslami əxlaq göstərişlərindən bir qismi bəyan olunur. Əvvəldə buyurulur: Allah başqalarının çirkin işlərini, eyblərini aşkar etməyinizi, kiminsə ardınca danışmağınızı sevmir. Çünki O, Səttarul-uyub (eybləri örtən) olduğu kimi, insanlar tərəfindən də başqalarının iffət və həya pərdələrinin yırtılmasını, camaatın eyb və nöqsanlarının faş edilməsini, onların abır-heysiyyətinin aparılmasını istəmir.

Sonra bəzilərinin arxasınca danışıb onun abrını aparmağa icazə verən hallara işarə edilir və buyurulur: Zülmə məruz qalanlardan – məzlum şəxslərdən başqa.

Beləlləri öz haqqını almayınca, zülmü dəf etməyincə zalımların zülmündən müdafiə olunmaq üçün şikayət etməyə, onların zalımcasına olan əməllərini ifşa və tənqid etməyə, onların qeybətini etməyə və sair fəaliyyətlərə haqları vardır.

Quran bu ayənin axırında özünün həmişəki üslubuna uyğun olaraq bəzilərinin bu hökmdən sui-istifadə etmələrinin, məzlum olduqlarını bəhanə edərək camaatın eyblərini nahaq yerə aşkar etmələrinin qarşısını almaq üçün buyurur: «Allah sözləri eşidir və niyyətlərdən agahdır.»

**AYƏ 149:**

﴿ إِن تُبْدُواْ خَيْرًا أَوْ تُخْفُوهُ أَوْ تَعْفُواْ عَن سُوَءٍ فَإِنَّ اللّهَ كَانَ عَفُوًّا قَدِيرًا ﴾

**TƏRCÜMƏ:**

***«Əgər yaxşı işi aşkar etsəniz, ya gizlətsəniz, yaxud pislikdən (başqalarının pisliklərindən) keçsəniz (bunların hamısında ilahi xislətlərə yiyələnmisiniz və) həqiqətən Allah həmişə (günahlardan) keçən və qüdrətlidir.»***

**TƏFSİR:**

Qüdrətli vaxtınızda və həm də əfv etməyin müsbət təsirinə əmin olduğunuz təqdirdə əfv edin. Hər yerdə sükut etməyiniz zillətə və zülmün qüvvətlənməsinə səbəb olsa, fəryad edin.

Deməli, zülmedən bir kimsədən intiqam və qisas almaq insanın haqqı, onun qüdrət məqamında olduğu zaman əfv edib güzəştə getməsi fəzilət sayılır. İmam Əli (ə) buyurur: «***Düşməni bağışlamaq ondan qüdrətli olmağın şükrüdür.***»[48]

**AYƏ 150-151:**

﴿إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ سَبِيلاً. أُوْلَئِكَ هُمُ الْكَافِرُونَ حَقًّا وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا ﴾

**TƏRCÜMƏ:**

***150. «Əlbəttə Allaha və Onun peyğəmbərlərinə kafir olan, Allahla Onun peyğəmbərləri arasında (peyğəmbərlərin haqq olmaları və onlara etiqad bəslənilməsi baxımından) ayrılıq salmaq istəyən, «biz bəzilərinə iman gətirir, bəzilərinə isə kafir oluruq» deyən və onların (hamısına iman gətirməklə hamısına kafir olmaq) arasında bir yol tutmaq istəyən kəslər.»***

***151. «Onlar əslində həmin (əsl) kafirlərdir (çünki, peyğəmbərlərin bəzilərini inkar etmək hamısını inkar etmək deməkdir). Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.»***

---

[48] «Nəhcül-Bəlağə», kəlimatu qisar, nömrə 10

**TƏFSİR:**

Yəhudilər və məsihilər nəfs istəkləri və cəhalət üzündən olan təəssüblər, eləcə də dəlilsiz dünyagörüş əsasında bəzi peyğəmbərləri qəbul edib, bəzilərinə qarşı isə kafir olurdular. Halbuki, nübüvvət daimi bir ilahi sünnə və peyğəmbərlərin gəlişi bir-birinə bağlı zəncir halqaları kimi olduğundan hamısına eyni zamanda və eyni səviyyədə etiqad bəsləmək lazımdır.[49]

Buna əsasən, Allahla peyğəmbərlərin arasında heç bir ayrılıq yoxdur. Allaha və Onun rəsullarına küfr etmək Allaha iman gətirib bütün peyğəmbərləri inkar etmək, yaxud Allaha iman gətirib peyğəmbərlərindən bir qismini inkar etməyə bərabərdir. Haqq yolu Allaha və bütün peyğəmbərlərə iman gətirməkdən ibarətdir. Peyğəmbərlərin yolu qarşısında yeni fikirlər irəli sürmək və ona qarşı çıxmaq küfrdür.

**AYƏ 152:**

﴿ وَالَّذِينَ آمَنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُواْ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُوْلَئِكَ سَوْفَ يُؤْتِيهِمْ أُجُورَهُمْ وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah tezliklə Ona və Onun peyğəmbərlərinə iman gətirib onların heç biri arasında ayrı-seçkilik salmayan (onların hamısını təsdiq edən) kəslərin mükafatlarını verəcəkdir. Allah həmişə çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Bu ayədə möminlərin vəziyyətinə və onların gözəl axır-aqibətlərinə işarə edilir və buyurulur: Allaha və Onun bütün peyğəmbərlərinə iman gətirərək onların heç birinin arasında fərq qoymayanların (və bu işdə tam təslimçilik və ixlas ruhiyyəsi ilə haqq qarşısında təslim olub hər növ yersiz təəssüblə mübarizə edənlərin) mükafatını Allah tezliklə verəcəkdir.

Ayənin axırında xatırladılır ki, əgər möminlərdən bu qismi keçmişdə belə yersiz təəssüblərə yol vermiş, təfriqələrə və sair günahlara mürtəkib olmuşlarsa, imanlarını xalis edib Allaha doğru qayıtdıqları təqdirdə Allah onları bağışlayar. Allah bağışlayan və mehribandır.

**AYƏ 153:**

﴿يَسْأَلُكَ أَهْلُ الْكِتَابِ أَن تُنَزِّلَ عَلَيْهِمْ كِتَابًا مِّنَ السَّمَاء فَقَدْ سَأَلُواْ مُوسَى أَكْبَرَ مِن ذَلِكَ فَقَالُواْ أَرِنَا اللّهِ جَهْرَةً فَأَخَذَتْهُمُ الصَّاعِقَةُ بِظُلْمِهِمْ ثُمَّ اتَّخَذُواْ الْعِجْلَ مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ فَعَفَوْنَا عَن ذَلِكَ وَآتَيْنَا مُوسَى سُلْطَانًا مُّبِينًا﴾

---

[49] İmamət məsələsində də eynilə belədir: onların hamısına inanıb e'tiqad bəsləmək zəruridir, onlardan bə'zilərini qəbul edib, bə'zilərini inkar etmək hamısını inkar etmək kimidir.

**TƏRCÜMƏ:**

***«Kitab əhli səndən onlar üçün səmadan bir kitab endirməyini istəyirlər! Əlbəttə onlar Musadan bundan da böyüyünü istəyib «Allahı aşkar şəkildə bizə göstər!» dedilər. Beləliklə zülmlərinə görə onları ildırım vurdu. Yenə onlara aşkar dəlillər gəldikdən sonra buzovu özlərinə tanrı etdilər. Onda Biz bundan da keçdik və Musaya aydın dəlil-sübut (və aşkar qüdrət) verdik.»***

**TƏFSİR:**

Yəhudilər Peyğəmbəri-Əkrəmə (s) deyirdilər ki, gərək Quran da Tövrat kimi bir yerdə nazil olsun. Bu da sırf bəhanədən başqa bir şey deyildi. Allah onların barəsində buyurur: «***Hətta Quranı bir yerdə, yazılı bir kağız üzərində və hiss etdikləri bir şəkildə nazil etsəydik, yenə də kafirlər onu cadu hesab edərdilər.***»[50]

Bəni-İsrail tayfası haqqı axtarmırdı. Çünki bu qədər möcüzə gətirilməsinə baxmayaraq, yenə də danaya pərəstiş etmişdilər. Buna görə də ayənin davamında müsəlmanlara xatırladılır ki, kafirlərin iman gətirməməsindən nigaran və narahat olmasınlar, çünki bütün peyğəmbərlərin qarşısında inadkarlar olmuşlar. (Başqalarının dərdi ilə tanış olmaq bizim dərdlərimizə də bir məlhəm olar.)

Diqqət yetirmək lazımdır ki, haqqın inkar edilməsi və əqidə azğınlığına düşməyin ardınca Allahın qəhr və qəzəbi elə bu dünyada nazil olur. Amma peyğəmbərlər həmişə Allah tərəfindən himayə olunmuşlar.

**AYƏ 154:**

﴿ وَرَفَعْنَا فَوْقَهُمُ الطُّورَ بِمِيثَاقِهِمْ وَقُلْنَا لَهُمُ ادْخُلُواْ الْبَابَ سُجَّدًا وَقُلْنَا لَهُمْ لاَ تَعْدُواْ فِي السَّبْتِ
وَأَخَذْنَا مِنْهُم مِّيثَاقًا غَلِيظًا ﴾

**TƏRCÜMƏ:**

***«Tur dağını əhd-peymanlarına görə (Tövratı qəbul və ona əməl etmək barəsində əhd-peyman bağlamaq üçün) onların başı üzərinə qaldırdıq və onlara «bu qapıdan (Beytül-Müqəddəsin qapısından) səcdə edən halda (tam təvazökarlıqla) daxil olun» dedik. Onlara həmçinin «şənbə günü (balıq ovlamağın haramlığı) həddi(ni) aşmayın» dedik Onlardan möhkəm bir əhd-peyman aldıq.»***

**TƏFSİR:**

Bu ayədə buyurulur ki, Bəni-İsrail tayfası (yəhudilər) qəflət yuxusundan ayılmadılar, qürur və inadkarlıqlarından əl çəkmədilər. Buna görə də Biz Tur dağını onların başları üzərində hərəkətə gətirdik. Həmin halda onlardan əhd-peyman aldıq və onlara buyurduq ki, öz günahlarınızdan tövbə əlaməti olaraq Beytül-Müqəddəsin qapısından xüzu və xüşu halətində daxil olun. Həmçinin onlara təkid etdik ki, şənbə günündə ticarətdən əl çəkinsinlər, təcavüzkarlıq yolunu tutmasınlar (həmin günlərdə ovlanması haram olan balıqlardan istifadə etməsinlər) və bütün bunlar haqqında onlardan möhkəm əhd-peyman aldıq. Ancaq onlar bu təkidli əhd-peymanların heç birinə vəfa etmədilər.

---

[50] «Ən'am» surəsi, ayə 7

## AYƏ 155:

﴿فَبِمَا نَقْضِهِم مِّيثَاقَهُمْ وَكُفْرِهِم بَآيَاتِ اللَّهِ وَقَتْلِهِمُ الأَنْبِيَاء بِغَيْرِ حَقًّ وَقَوْلِهِمْ قُلُوبُنَا غُلْفٌ بَلْ طَبَعَ اللَّهُ عَلَيْهَا بِكُفْرِهِمْ فَلاَ يُؤْمِنُونَ إِلاَّ قَلِيلاً﴾

### TƏRCÜMƏ:

***«Beləliklə (Biz İsrail övladlarını) əhd-peymanı pozduqlarına, Allahın ayələrini inkar etdiklərinə, (Allahın) peyğəmbərləri(ni) haqsız yerə öldürdüklərinə, eləcə də «qəlblərimiz pərdədədir (və sənin sözlərini dərk etmir)» demələrinə görə (lənət və əzaba düçar etdik). (Lakin bu onların dedikləri kimi deyil) əksinə, Allah ona (onların qəlblərinə) küfrlərinə görə (bədbəxtlik) möhür(ü) vurmuşdur. Buna görə də onlar, az bir hissəsinin azacıq imanı istisna olmaqla iman gətirməyəcəklər.»***

### TƏFSİR:

Bu ayədə Bəni-İsrailin və yəhudilərin növbəti yaramaz əməllərinə – İslam Peyğəmbəri (s) ilə düşmənçilik etmələrinə və onun qarşısında müxtəlif maneə yaratmalarına işarə edilir. Əvvəlcə onların bir dəstəsinin əhd-peyman pozmalarına, Allahın ayələrinə qarşı kafir olmalarına, peyğəmbərləri günahsız olaraq qətlə yetirmələrinə işarə edilir və buyurulur ki, əhd-peyman pozduqlarına görə Biz onları Öz rəhmətimizdən uzaq etdik (yaxud pak-pakizə nemətlərin bir qismini onlara haram etdik).

Onlar əhd-peyman pozmağın ardınca Allahın ayələrini inkar edərək Onunla müxalifətə başladılar. Bununla da kifayətlənməyib böyük bir cinayətə əl atdılar; heç bir əsas olmadan haqqa yol göstərənləri, ilahi peyğəmbərləri qətlə yetirib məhv etdilər.

Onlar özlərinin yaramaz əməllərində o qədər həddini aşmışdılar ki, peyğəmbərlərin sözlərini məsxərəyə qoyur və onlara deyirdilər ki, qəlbləri möhürlənmişdir. Bu da peyğəmbərlərin dəvətini eşitməklərinə mane olur.

Burada əlavə edilir və buyurulur ki, onların qəlbləri, doğrudan da, möhürlənmişdi. Ora heç bir haqq söz nüfuz edə bilməzdi. Lakin küfr və imansızlığın amili onların özləri idilər. Buna görə də belə inadkarlıqlardan əl çəkən az bir dəstə istisna olmaqla, heç biri iman gətirməz.

Sonra buyurulur: Bəli, küfrləri səbəbi ilə Allah onların qəlblərinə möhür vurmuşdur. Haqqa dönərək inadkarlıqdan əl çəkən az bir dəstədən başqa heç biri iman gətirməz.

## AYƏ 156:

﴿ وَبِكُفْرِهِمْ وَقَوْلِهِمْ عَلَى مَرْيَمَ بُهْتَانًا عَظِيمًا ﴾

### TƏRCÜMƏ:

***«Həmçinin (İsaya qarşı olan) küfrlərinin və Məryəmin (İsanı haradan gətirməsi) barəsində dedikləri böyük böhtanın cəzası olaraq.»***

**TƏFSİR:**

Onların Həzrət Məryəmə (ə) vurduqları zinakarlıq töhməti «Məryəm» surəsinin 27-ci ayəsində qeyd olunmuşdur. Onlar üstəlik Həzrət İsaya (ə) da zinazadəlik töhməti vurur və onu insanlara rəhbər və hidayətçi olmağa ləyaqətsiz hesab edirdilər. Elə bu töhmət də onların Həzrət İsaya (ə) qarşı kafir olmalarına dəlildir. Buna görə də töhmət günahı küfr ilə bir səviyyədə qeyd edilmişdir, (böyük böhtanın böyük də əzabı vardır). Əxlaqsız bir cəmiyyətdə də bəzən ən pak insanlara ən çirkin töhmətlər vurulur.

**AYƏ 157-158:**

﴿وَقَوْلِهِمْ إِنَّا قَتَلْنَا الْمَسِيحَ عِيسَى ابْنَ مَرْيَمَ رَسُولَ اللّهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَكِن شُبِّهَ لَهُمْ وَإِنَّ
الَّذِينَ اخْتَلَفُواْ فِيهِ لَفِي شَكٍّ مِّنْهُ مَا لَهُم بِهِ مِنْ عِلْمٍ إِلاَّ اتِّبَاعَ الظَّنِّ وَمَا قَتَلُوهُ يَقِينًا. بَل رَّفَعَهُ اللّهُ
إِلَيْهِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا ا﴾

**TƏRCÜMƏ:**

***«Və eləcə də "biz Allahın peyğəmbəri Məryəm oğlu İsanı öldürdük" demələrinə görə (lənət və əzaba düçar oldular)! Halbuki onu öldürmədilər və çarmıxa çəkmədilər, amma iş onlara belə göründü (güman etdilər ki, İsa döyüşdə öldürüldü, yaxud onun şəklində olan başqa bir şəxsin öldürülməsini güman etdilər, yaxud da yalandan peyğəmbərlik iddiasında olan İsa adlı birisi bir müddətdən sonra öldürüldü). Həqiqətən onun barəsində fikir ayrılığında olanlar bu barədə şəkk və tərəddüd içərisindədirlər və o haqda zənn və gümana tabe olmaqdan başqa bir elmləri yoxdur. Onu həqiqətən öldürməyiblər, əksinə, Allah onu (diri halda və dünyadakı bədəni ilə) Özünə (dərgahına) tərəf qaldırıb. Allah həmişə yenilməz qüdrət və (xilqət və şəriətdə) hikmət sahibidir.»***

**TƏFSİR:**

Onlar (Bəni-İsrail tayfası) hətta peyğəmbərləri qətlə yetirməklə iftixar edib deyirdilər ki, Allahın rəsulu olan İsa ibn Məryəmi (ə) öldürüblər. Bəlkə də Həzrət Məsihin (ə) barəsində «Allahın göndərdiyi» təbirini istehza və məsxərə üzündən deyirdilər. Halbuki, öz iddialarında da yalançı idilər. Onlar İsanı heç vaxt öldürməmiş, yaxud dara çəkməmişdilər. Əksinə, ona oxşar başqa bir şəxsi səhvən dara çəkmişdilər.

Sonra buyurulur: Həzrət Məsih (ə) barəsində ixtilaf edənlərin özləri də şəkdə idilər və onların heç biri öz dediklərinə inanmır, yalnız təxmini hesablamalara və gümanlara əsaslanırdılar.

Sonra bu mətləbə təkid edilərək buyurulur: Şübhəsiz, onu öldürməmişdilər. Əksinə, Allah onu Öz dərgahına aparmışdı; Allah qüdrətli və hikmətlidir.

Quranda Həzrət İsanın (ə) dara çəkilməməsi ilə bağlı ona görə daha çox təkid edilir ki, ümmətin günahlarının bağışlanmasını və xurafatçı «fida» məsələsini şiddətlə məhkum etsin, məsihilər də nicatın xaça sığınmaqda deyil, öz əməllərinin sayəsində mümkün olduğunu bilsinlər.

Biz Həzrəti İsanın (ə) həm təvəllüdünün, həm də Allah dərgahına getməsinin qeyri-təbii şəkildə olduğunu yəqinliklə bilirik. O, Allah dərgahına merac etmişdir ki, gələcək üçün bir ehtiyat olsun.

## AYƏ 159:

﴿ وَإِن مِّنْ أَهْلِ الْكِتَابِ إِلاَّ لَيُؤْمِنَنَّ بِهِ قَبْلَ مَوْتِهِ وَيَوْمَ الْقِيَامَةِ يَكُونُ عَلَيْهِمْ شَهِيدًا ﴾

### TƏRCÜMƏ:

***«Kitab (Tövrat və İncil) əhlindən elə bir nəfər yoxdur ki, ölümündən (bir neçə an) qabaq ona (İsanın Allahın elçisi və qulu olmasına) iman gətirməsin (lakin bu imanın heç bir xeyri yoxdur). (Yaxud: Kitab əhlinin hamısı (dünyanın sonunda İsa göydən yerə gələndən sonra və) ölümündən qabaq ona iman gətirəcək.) O da Qiyamət günü onlara şahid olacaqdır.»***

### TƏFSİR:

Bu ayənin təfsirində iki ehtimal edilir. Hər biri də müəyyən cəhətlərə görə mülahizə olunur:

1. Ayənin belə buyurduğu ehtimal verilir: Kitab əhlindən elə birisi yoxdur ki, ölümündən qabaq Həzrət İsaya (ə) iman gətirməsin. Bu da o zamana təsadüf edir ki, insan ölüm ərəfəsində olsun, onun bu dünya ilə olan əlaqələri zəifləsin və ölümdən sonrakı bərzəx aləmi ilə rabitələri möhkəmlənsin. Bu zaman pərdələr insanın gözlərindən kənara çəkilir, bəsirət gözü açılır və həqiqətlərdən çoxunu görüb müşahidə edir. Məhz belə halda insanın həqiqət görən gözü Həzrəti İsanın (ə) yüksək məqamını müşahidə edir və onun qarşısında təslim olur. Onu inkar edənlər ona iman gətirir, onu «Allah» hesab edənlər öz səhvlərini anlayırlar. Halbuki, belə bir imanın onlara heç bir faydası yoxdur. Yaxşı olar ki, imanın faydalı olduğu indiki zamanda iman gətirsinlər.

2. Ayə belə də təfsir oluna bilər ki, kitab əhli Həzrət Məsihin (ə) ölümündən qabaq ona iman gətirər; yəhudilər onu peyğəmbər kimi qəbul edər, məsihilər onun ilahiləşdirilməsi iddiasından əl çəkərlər. Bu da o zamana təsadüf edəcəkdir ki, İslam rəvayətlərinə uyğun olaraq, Həzrət Məsih (ə) Həzrət Məhdinin (ə) zühuru zamanı asimandan yerə nazil olsun və o həzrətə iqtida edərək onun arxasında namaz qılsın. Bu zaman yəhudilər və məsihilər onu görüb həm ona, həm də Həzrət Məhdiyə (ə) iman gətirəcəklər.

Aydındır ki, bu zaman Həzrət Məsihin (ə) dininin dövrü keçdiyinə görə, o öz zəmanəsinin dininə – yəni Həzrəti Məhdinin (ə) əli ilə dünya səviyyəsində bərqərar edilən İslam dininə tabe olacaqdır.

Rəvayətlərə əsasən, Həzrət Məhdinin (ə) dövründə əminamanlıq və təhlükəsizlik elə yüksək bir səviyyədə olacaqdır ki, hətta qoyunla canavar, şirlə öküz və sair yırtıcı heyvanlar bir yerdə olacaq, dünyanı maddi, can və namus baxımından əminamanlıq bürüyəcək, heç bir zülm və təcavüz olmayacaq, haqq-ədalət dünyanın hər yerini əhatə edəcəkdir. Ayənin axırında buyurulur: Qiyamət günündə Məsih (ə) onların əleyhinə şəhadət verəcəkdir.

«Həzrət Məsihin (ə) onların əleyhinə şəhadət verməsi» fikrində məqsəd budur ki, o risalətini təbliğ etməkdə heç vaxt özünün ilahiləşdirilməsini təbliğ etmədiyinə, əksinə, hamını Pərvərdigarın qarşısında bəndə olmağa dəvət etməsinə dair şəhadət verəcəkdir.[51]

---

[51] «Təfsiri Burhan», 1-ci cild, səh. 426, «Təfsiri Safi», 1-ci cild, səh. 480, «Məcməül-bəyan», həmin ayənin təfsirində.

## AYƏ 160:

﴿ فَبِظُلْمٍ مِّنَ الَّذِينَ هَادُواْ حَرَّمْنَا عَلَيْهِمْ طَيِّبَاتٍ أُحِلَّتْ لَهُمْ وَبِصَدِّهِمْ عَن سَبِيلِ اللّهِ كَثِيرًا ﴾

### TƏRCÜMƏ:

***«Bəli, yəhudilərdən baş vermiş (bütün bu) zülmün və həmçinin insanların çoxunu Allahın yolundan saxlamalarının cəzası olaraq, onlara halal edilmiş (dəvə südü və əti, balıq ovu və heyvanın piyi kimi) pak şeyləri onlara haram etdik.»***

### TƏFSİR:

Bəlkə də «onlara haram edilən pak-pakizə nemətlər» deyildikdə «Ənam» surəsinin 146-cı ayəsində bəyan olunanlardır. Bu qadağalar hazırkı Tövratda da mövcuddur.[52]

***İNCƏ MƏTLƏBLƏR***

***ZÜLM NEMƏTLƏRDƏN MƏHRUM OLMAĞA ŞƏRAİT YARADIR.***

Bəzi vaxtlar iqtisadi məhrumiyyətlər və maddi çətinliklər Allahın qəhr, qəzəb və cəzasının nişanəsidir. Hər hansı vasitə ilə olursa-olsun, Allahın yolunu bağlamaq (haqqı təhrif etmək, gizlətmək, bidət qoymaq, fəsad törətmək, azğınlıq yaratmaq və s.) bütün məhrumiyyətlərin mənşəyidir.

Ən ağır cəzaların Qiyamətdə veriləcəyinə baxmayaraq, dünyəvi cəzalar da insana bir növ xəbərdarlıqdır: qanun pozanlar üçün cəza, saleh insanlar üçün bir növ imtahandır.

## AYƏ 161:

﴿ وَأَخْذِهِمُ الرِّبَا وَقَدْ نُهُواْ عَنْهُ وَأَكْلِهِمْ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ وَأَعْتَدْنَا لِلْكَافِرِينَ مِنْهُمْ عَذَابًا أَلِيمًا ﴾

### TƏRCÜMƏ:

***«Eləcə də çəkindirilmələrinə baxmayaraq sələm aldıqlarına və camaatın mallarını boş və nahaq yerə yemələrinə görə (həmin halal şeyləri onlara haram etdik). Biz onların kafirlərinə ağrılı bir əzab hazırlamışıq.»***

### TƏFSİR:

Sələmçiliyin qadağan olunması Tövratda da qeyd olunmuşdur. (Təsniyə sifri, 23-cü fəsil, 19, 20-ci cümlələr.) Sələmçilik, zahirdə qazanc və firavanlıq mənbəyi olmasına baxmayaraq, cəmiyyətdə müxtəlif məhrumiyyətlərə şərait yaradır.

Bütün səmavi dinlərdə insanların maddi və ticarət əlaqələrinə, onların necə qazanıb hansı yollarda xərcləmələrinə ciddi şəkildə diqqət yetirilir.

Zülm, sələmçilik və haram mal yemək insanı küfrə sürükləməyincə, bu işlərdən qayıtmaq asandır. Çünki günahlar küfrə zəmin yaradır, kafirlər də əbədi əzabdadırlar.

---

[52] «Sifri laviyan», 11-ci fəsil

**AYƏ 162:**

﴿لَّكِنِ الرَّاسِخُونَ فِي الْعِلْمِ مِنْهُمْ وَالْمُؤْمِنُونَ يُؤْمِنُونَ بِمَا أُنزِلَ إِلَيكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ وَالْمُقِيمِينَ الصَّلاَةَ وَالْمُؤْتُونَ الزَّكَاةَ وَالْمُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ أُوْلَئِكَ سَنُؤْتِيهِمْ أَجْرًا عَظِيمًا﴾

**TƏRCÜMƏ:**

***«Lakin onların elmdə qüvvətli olanlarına (Tövrat və İncilin həqiqi alimlərinə), sənə və səndən əvvəl (keçmiş peyğəmbərlərə) nazil olana iman gətirən bütün möminlərə, xüsusilə namaz qılanlara, həmçinin zəkat verənlərə və Allaha və axirət gününə iman gətirənlərə - onların hamısına tezliklə böyük bir mükafat verəcəyik.»***

**TƏFSİR:**

Bu ayədə mühüm bir həqiqətə işarə olunur. Belə ki Quran təkrar olaraq həmin həqiqət üzərində dayanıb bəhs etmişdir. O da bundan ibarətdir ki, Quranda yəhudilərin məzəmmət olunması heç vaxt irqçilik xarakteri daşıyan mübarizə tipli deyildir. İslam heç bir irqi məhz irq olduğuna görə məzəmmət etmir, əksinə, onların içərisində yollarını azanları və əxlaqsızlıq edənləri məzəmmət edir. Buna görə də bu ayədə yəhudilərdən pak və imanlı insanlar istisna edilib təriflənir, onlar üçün böyük mükafat vədəsi verilir və buyurulur: Lakin yəhudilərdən dərin elmə malik olanlar və möminlər sənə və səndən qabaqkı peyğəmbərlərə nazil olanlara iman gətirir, həmçinin namaz qılıb zəkat verir, Allaha və Qiyamət gününə iman gətirirlər. Biz onlara böyük mükafat verəcəyik.

Məhz buna görə də yəhudilərin böyük şəxsiyyətlərindən bir qrupu İslam Peyğəmbərinin (s) zühur etdiyi zaman onun haqq olması dəlillərini müşahidə etdikdə İslamı qəbul edərək canları və malları ilə onu himayə etdilər. Nəticədə Peyğəmbər (s) və digər müsəlmanlar tərəfindən hörmətə layiq görüldülər.

**AYƏ 163:**

﴿إِنَّا أَوْحَيْنَا إِلَيْكَ كَمَا أَوْحَيْنَا إِلَى نُوحٍ وَالنَّبِيِّينَ مِن بَعْدِهِ وَأَوْحَيْنَا إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإْسْحَقَ وَيَعْقُوبَ وَالأَسْبَاطِ وَعِيسَى وَأَيُّوبَ وَيُونُسَ وَهَارُونَ وَسُلَيْمَانَ وَآتَيْنَا دَاوُودَ زَبُورًا﴾

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi sənə də vəhy göndərdik. Həmçinin İbrahimə, İsmailə, İshaqa, Yəquba, Əsbata (Yəqubun övladlarından olan peyğəmbərlərə), İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana vəhy göndərdik. Və Davuda Zəburu əta etdik (deməli sən peyğəmbərlik iddiası etmək və kitab verilmək baxımından ilk şəxs deyilsən).»***

**TƏFSİR:**

Qurani-Kərimdə ilahi peyğəmbərlərdən 25 nəfərin adı qeyd olunmuşdur. Bu ayədə onların 11 nəfərinin adı çəkilir. Adları Quranda gələn başqa peyğəmbərlər bunlardır: Adəm, İdris, Hud, Saleh, Lut, Yusif, Şüeyb, Zil-kəfl, Musa, İlyas,

Zəkəriyya, Yəhya, Üzeyr. Hədislərdə qeyd olunur ki, bütün peyğəmbərlərə nazil olunanların hamısı Məhəmməd peyğəmbərə (s) nazil olmuşdur.[53]

«Əsbat» həzrət Yəqubun (ə) nəslindən olan peyğəmbərlərdir.

«Zəbur» lüğətdə «kitab» mənasını ifadə edir və Həzrəti Davuda nazil olan kitaba deyilir.

Davudun (ə) Məzamiri Əhdi Qədimdən (Tövratdan) olub 150 fəsildən ibarətdir ki, hər bir fəsli bir «məzmur» adlanır. («Məzamir» «məzmur»un cəm formasıdır.)

Peyğəmbəri-Əkrəm (s) bütün ilahi peyğəmbərlərdən üstün olduğuna görə bu ayədə ona vəhy olunması onların hamısından qabaq qeyd olunmuşdur.

### *İNCƏ MƏTLƏBLƏR*

1. Vəhy və risalət bəşəriyyət tarixində Allahın heç bir xələl qəbul etməyən sünnəsi və qanunudur.
2. Vəhydə həm hədəf, həm üslub, həm möhtəvanın külliyyatı, həm də onların mənşəyi birdir – o da Allahdır.
3. Tarixdə peyğəmbərlərə nazil olan vəhy dəfələrlə təkrar olunmuşdur. Lakin müxaliflər bizim Peyğəmbərin (s) nübüvvətini qəbul etmir, onu digər peyğəmbərlərdən ayırırlar. Buna görə də, şübhəsiz, böyük azğınlığa düçar olmuşlar.

## AYƏ 164:

﴿ وَرُسُلاً قَدْ قَصَصْنَاهُمْ عَلَيْكَ مِن قَبْلُ وَرُسُلاً لَّمْ نَقْصُصْهُمْ عَلَيْكَ وَكَلَّمَ اللّهُ مُوسَى تَكْلِيمًا ﴾

### TƏRCÜMƏ:

***«Həmçinin (başlarına gələnləri) bundan öncə sənə söylədiyimiz və söyləmədiyimiz peyğəmbərləri (göndərdik). Və Allah Musa ilə məxsus bir tərzdə (pərdəsiz və vasitəsiz yetmiş iki saat ayaq üstə durduğu halda bütün Tövratı onun qulağına oxumaqla) danışdı.»***

### TƏFSİR:

«Hud» və «Şüəra» surələri peyğəmbərlərin sərgüzəştlərini daha əhatəli şəkildə bəyan etmişdir. Bu ilahi şəxsiyyətlərin tarixi barədə məlumat kəsb etmək o qədər faydalı və ibrətamizdir ki, Allah da bu məsələni irəli çəkmişdir.

Peyğəmbərlərin tarixi Quranda qeyd olunanlardan çox-çox artıqdır. İnsanın ömrü onların hamısının tarixlərini eşitməyə belə kifayət deyil, onların hamısını eşitməyə və dinləməyə də ehtiyac yoxdur. Bunları ibrət dərsi almaq üçün eşitmək lazımdır. Bu da onu göstərir ki, Qurani-Kərim dastan kitabı deyil, hidayət və tərbiyəvi bir kitabdır.

Bunu da qeyd edək ki, peyğəmbərlər vəhyi müxtəlif yollarla əxz etmişlər: Qəlbinə təlqin edilməklə, mələk göndərilməklə, hicab arxasından danışmaqla. Peyğəmbərlərin hamısına Allah tərəfindən xitab olunmuşdur, lakin onların arasında təkcə Musa (ə) Allahla birbaşa danışmışdır.

Bəlkə də Həzrət Musa (ə) Fironla mübarizə apardığına, yaxud Bəni-İsrailin inadkarlıq və tərslik etdiyinə görə Allahla daha artıq rabitə bərqərar edərək göstəriş aldığına görə «Kəlimullah» adlandırılmışdır.

---

[53] «Nurus-Səqəleyn», səh. 572

## AYƏ 165:

﴿ رُّسُلاً مُّبَشِّرِينَ وَمُنذِرِينَ لِئَلاَّ يَكُونَ لِلنَّاسِ عَلَى اللّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«(Onları) müjdə verən və qorxudan peyğəmbərlər (olaraq göndərdik) ki, bu peyğəmbərlər(in gəlişin)dən sonra insanların Allaha qarşı heç bir dəlil-sübutu olmasın. Allah həmişə yenilməz qüdrət və (bütün işlərində) hikmət sahibidir.»***

**TƏFSİR:**

Bu ayə həm peyğəmbərlərin dəvətindəki üslubları, həm də onların göndərilməsindəki əsas məqsədi bəyan edir. Belə ki, onların iş üslubları və vəzifələri iki istiqamətdə − müjdələmə və qorxutma əsasında bərqərar olmuşdur. Peyğəmbərlərin göndərilməsinin fəlsəfə və səbəbi Allah tərəfindən höccətin insanlara tamam edilməsidir ki, «rəhbərimiz olmamışdı və biz bilmirdik» – deyə bəhanə gətirməsinlər.

Xatırlatmaq lazımdır ki, peyğəmbərlər ictimai, siyasi, ailəvi, fiziki və sair cəhətlərdə gözəl əxlaqi səciyyələrə, parlaq həyata malik olmaqda, eləcə də möcüzə göstərməkdə, gözəl və fəsahətli danışmaqda, qeybi imdadlardan faydalanmaqda elə bir mərhələdə olmalıdırlar ki, heç kəs, heç bir sahədə bəhanə gətirə bilməsin. Allah əziz və hikmətli olduğuna görə heç kəsin Onun qarşısında höccət və bəhanəsi olmasın.

## AYƏ 166:

﴿ لَّكِنِ اللّهُ يَشْهَدُ بِمَا أَنزَلَ إِلَيْكَ أَنزَلَهُ بِعِلْمِهِ وَالْمَلآئِكَةُ يَشْهَدُونَ وَكَفَى بِاللّهِ شَهِيدًا ﴾

**TƏRCÜMƏ:**

***«(Kitab əhlindən olan kafirlər sənə vəhy və kitab nazil olmasına şəhadət vermirlər) lakin Allah sənə nazil etdiyinə şəhadət verir ki, onu Öz elmi ilə nazil etmişdir (kəlmələrin nəzmlə düzülüşü, məzmunu və bəşər cəmiyyətinə nazil olması – bunların hamısı Onun əzəli elmi ilədir) və (buna) mələklər də şəhadət verirlər. Allahın şahid olması kifayətdir.»***

**TƏFSİR:**

Quranın uca maarifinin dərs oxumamış bir şəxsin dilindən, cahil, şirkə aludə mühitdə bəyan olması, xalqın dəyişməsi, təfriqədən vəhdətə, xəsislikdən isara, şirkdən tövhidə, cəhalətdən elmə, süqutdan mənəvi yüksəlişə, islami ümmətin təşkilinə çatması peyğəmbər və dinə edilmiş lütfə Allahın şəhadətidir.

Haqsız zəiflətmələrin qarşısında yerli qüvvətləndirmələr gerçəkləşməlidir.

Dəvət yolunda peyğəmbərlərin də ilahi yardıma ehtiyacı var.

Hər bir din təbliğatçısının ən üstün arxası və ümid yeri Allah olmalıdır.

Vəhy qaynağı Allahın sonsuz elmidir. Bu səbəbdən də elmlərin inkişafı ilə hər gün Quran maarifinin üzərindən pərdə götürülür.

Əgər yerin bir guşəsində inadkar günahkarlar bəhanə gətirirlərsə, varlıq aləmindəki bütün mələklər sənin xeyrinə olaraq şəhadət verirlər.

### AYƏ 167-169:

﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ اللّهِ قَدْ ضَلُّواْ ضَلاَلاً بَعِيدًا. إِنَّ الَّذِينَ كَفَرُواْ وَظَلَمُواْ لَمْ يَكُنِ اللّهُ لِيَغْفِرَ لَهُمْ وَلاَ لِيَهْدِيَهُمْ طَرِيقا. إِلاَّ طَرِيقَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا أَبَدًا وَكَانَ ذَلِكَ عَلَى اللّهِ يَسِيرًا ﴾

**TƏRCÜMƏ:**

***167. «Həqiqətən kafir olub (başqalarını) Allahın yolundan saxlamış kəslər, şübhəsiz, uzun-uzadı bir azğınlığa düşüblər.»***

***168. «Həqiqətən Allah kafir olub (özlərinə və başqalarına) zülm etmiş kəsləri bağışlayan və (doğru) bir yola hidayət edən deyildir.»***

***169. «Yalnız Cəhənnəm yoluna (hidayət edər) ki, orada həmişəlik olaraq əbədi qalarlar. Bu iş (saysız-hesabsız insana sonu bilinməyən bir müddət ərzində məhdudiyyəti olmayan bir əzab vermək) Allah üçün asandır.»***

**TƏFSİR:**

Birinci ayədə qeyd olunan «zəlalin bəid» kəlməsi kafirlərin qat-qat azğınlıqlarını göstərir. Küfr bir növ haqq yoldan azmaq və başqalarının imana gəlməsinə mane olmaqdır. Küfr edə-edə özünü haqq hesab etmək isə daha üstün bir azğınlıqdır. Küfr insanın özünə zülm etməsi, başqalarının haqqa yönəlməsinə mane olmaq isə bütün tarixə və insan nəsillərinə zülm etməkdir.

Bəlkə də 168-ci ayədə qeyd olunan «zülm» kəlməsindən məqsəd başqalarının hidayət olunmasına mane olmaqdır. Çünki ideoloji, mədəni və etiqadi baxımdan olunan zülmdən də yüksək bir zülm ola bilməz.

Ən kəskin təbirlə bəyan olunan böyük əzab vədələri cürbəcür təbliğatlar, töhmətlər və təhqirlərlə haqq sözün haqqı axtaranların qulağına çatmasına mane olan kafirlərə verilmişdir (bağışlanmamaq, hidayətə nail olmamaq, cəhənnəm əhli olmaq və orada əbədi qalmaq) və bunlar onların çirkin əməllərinin nəticəsidir.

### AYƏ 170:

﴿ يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُمُ الرَّسُولُ بِالْحَقِّ مِن رَّبِّكُمْ فَآمِنُواْ خَيْرًا لَّكُمْ وَإِن تَكْفُرُواْ فَإِنَّ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Ey insanlar, həqiqətən Bizim elçimiz sizə Rəbbiniz tərəfindən haqq (din və kitab)ı gətirmişdir. Buna görə də iman gətirin ki, (bu) sizin xeyrinizədir. Əgər kafir olsanız, onda (bilin ki, Allahın sizə ehtiyacı yoxdur, çünki) həqiqətən göylər və yer Allahın həqiqi mülküdür və Allah həmişə bilən və hikmət sahibidir.»***

**TƏFSİR:**

### *İSLAM ÜMUMDÜNYA SƏVİYYƏSİNDƏ DƏVƏT EDİR.*

Peyğəmbərlərin dəvət silahı və onların dəvətinin genişlənib yayılmasının amili təhdid etmək, tamahlandırmaq, rüşvət vermək deyil, onların məramlarının haqq

olmasıdır. Kitab əhli, hətta müşriklər belə, bir peyğəmbərin gəlişini gözləyirdilər, onların bu barədə əvvəlcədən müəyyən qədər məlumatları vardı. İndi həmin peyğəmbər gəldikdən sonra ona iman gətirməli və bilməli idilər ki, iman gətirmək onların öz xeyrinədir, iman gətirməklə İslama minnət qoymamalıdırlar. Allah onlara minnət qoyaraq düz yola hidayət etmişdir.

Nə insanların kafir olması Allaha ziyan çatdırar, nə də iman gətirmələri Ona bir xeyir verər. Allah insanların səadət və xoşbəxtliyini peyğəmbərlərə itaət etməkdə, onların yolunu getməkdə qərar vermişdir və Onun hikməti insanların hidayəti üçün peyğəmbərlər göndərməyi zəruri edir.

**AYƏ 171:**

﴿يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ وَلاَ تَقُولُواْ عَلَى اللّهِ إِلاَّ الْحَقِّ إِنَّمَا الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ رَسُولُ اللّهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِّنْهُ فَآمِنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلاَ تَقُولُواْ ثَلاَثَةٌ انتَهُواْ خَيْرًا لَّكُمْ إِنَّمَا اللّهُ إِلَهٌ وَاحِدٌ سُبْحَانَهُ أَن يَكُونَ لَهُ وَلَدٌ لَّهُ مَا فِي السَّمَاوَات وَمَا فِي الأَرْضِ وَكَفَى بِاللّهِ وَكِيلاً﴾

**TƏRCÜMƏ:**

***«Ey kitab əhli (ey xaçpərəstlər), öz dininizdə həddi aşmayın və Allaha qarşı haqq və həqiqətdən başqa bir şey deməyin (“Allah allahlıqdan İsanın vücuduna çevrilmişdir” və ya “Allah ruh kimi İsanın bədəninə daxil olmuşdur” deməyin). Həqiqətdə Məryəm oğlu İsa Məsih Allahın elçisi, Məryəmə təlqin etdiyi bir kəlmə (“ol!” kəlməsi ilə onu Məryəmin bətnində yaradıb) və Onun tərəfindən olan (və canlara həyat bəxş edən) bir ruhdur. Odur ki, Allaha və Onun peyğəmbərlərinə iman gətirin və “(Allah) üçlükdür (Allahın zatının cövhəri üç mövcuda – ata, oğul və Ruhul-Qudusa bölünüb)” deməyin. (Bu sözdən) çəkinin ki, sizin xeyrinizədir. Həqiqətən Allah tək olan tanrıdır, övladı olmaqdan pak (və uzaq)dır. Göylərdə və yerdə olanlar Onun həqiqi mülküdür. Allah (varlıq aləminin işlərini) düzəltmək üçün kifayətdir.»***

**TƏFSİR:**

***PUÇ VƏ XURAFATÇI ÜÇ ÜQNUM ƏQİDƏSİ***

Bu və bundan sonrakı ayədə kitab əhli və kafirlər barəsində aparılan bəhslərə uyğun olaraq məsihiyyət aləminin ən mühüm əqidə azğınlığından olan təslis (üç üqnuma inam) məsələsinə işarə edilir, qısa, dolğun və kəsərli bir məntiqlə onları bu böyük azğınlıqdan çəkindirir.

Əvvəlcə onlara xəbərdarlıq edilir və buyurulur ki, ey kitab əhli, öz dininizdə həddi aşıb ifrata yol verməyin, Allah barəsində haqdan başqa bir şey deməyin.

İlahi rəhbərlər barəsində həddi aşıb onların ilahiləşdirilməsi səmavi dinlərdə inhirafın ən mühüm mənşələrindən biri olmuşdur. Məhz buna görə də İslam ifratçılar barəsində çox şiddətli tədbirlər görmüşdür. Əqidəvi və fiqhi kitablarda ifrata varanlar ən pis kafirlər kimi təqdim edilmişdir.

Bu ayədə təslisin və Həzrət Məsihin (ə) ilahiləşdirilməsinin batil olması bir neçə möhkəm dəlillə bəyan edilir:

1. ***İsa (ə) yalnız Məryəmin övladı idi.***

Bu təbir göstərir ki, Həzrət Məsih başqa insanlar kimi əvvəlcə ana bətnində qərarlaşmış, sonra rüşeym dövrünü keçirmiş, adi insanlar kimi doğulmuş, anasından süd əmmiş, ana ağuşunda böyüyüb boya-başa çatmışdır. Bir sözlə, digər insanlarda

olan bütün sifətlər onda da olmuşdur. Bu halda təbiətdəki qanunların təsir dairəsində qərarlaşan, maddi aləmin dəyişikliklərinə düçar olan bir şəxsin əzəli və əbədi bir Allah olması necə mümkün ola bilər?

***2. İsa (ə) Allahın göndərdiyi (rəsulullah) idi.*** Bu da onun ilahiləşdirilməsi məqamı ilə uyğun gəlmir.

***3. İsa (ə), Allahın Məryəmə təlqin etdiyi kəlməsi idi.***

Bu təbirin də gətirilməsinin səbəbi Həzrət Məsihin (ə) məxluq və yardılmış varlıq olduğunu bəyan etməkdir. Sözlər və kəlmələr bizim tərəfimizdən icad edilən məxluq olduğu kimi, yaradılış aləmində olan varlıqlar da Allahın məxluqu sayılır.

4. ***İsa (ə) Allah tərəfindən xəlq edilən bir ruhdur.***

Quranda Həzrət Adəmin (ə), eləcə də tam və birmənalı şəkildə bütün bəşər övladının yaradılışı barəsində qeyd edilən bu təbir Allahın yaratdığı bütün insanların, xüsusilə Həzrət Məsihin (ə) və digər peyğəmbərlərin vücudunda olan ruhun əzəmətinə işarə edir.

Bu bəyanın ardınca buyurulur: İndi ki belədir, yeganə Allaha və Onun Peyğəmbərinə iman gətirin, «Allah üçdür» deməyin. Əgər bu sözdən əl çəksəniz, sizin xeyrinizədir.

Bir daha təkidlə buyurulur ki, yalnız Allah yeganə məbuddur. Yəni siz üçlüklə eyni zamanda Allahın yeganə olduğunu da qəbul edirsiniz, halbuki, əgər övladı olsaydı Ona oxşar olacaq və bu halda yeganə olmağın mənası olmayacaqdı. Allahın övlad sahibi olması necə mümkün ola bilər? Halbuki O, həyat yoldaşına və övlada ehtiyacdan, ümumiyyətlə cism olmaq və cismə məxsus olan xüsusiyyətlər kimi bütün ehtiyaclardan uzaqdır. Bundan əlavə, O, asimanlarda və yerdə olanların malikidir, hamısı Onun məxluqudur. Allah onların xaliqidir, Həzrət Məsih (ə) də Allahın məxluqlarından biridir.

Onun üçün istisna olduğunu necə qəbul etmək olar? Görəsən, başqasının mülkiyyəti və məxluqu olan bir şəxs həmin malikin və xaliqin övladı ola bilərmi? Allah təkcə onların xaliqi və maliki deyil, həm də onların müdəbbiri, hafizi, ruzi verəni və başçısıdır. Onlara başçılıq edib tədbir etməkdə Allah Özü kifayətdir!

Ümumiyyətlə, əzəli və əbədi olan, əzəldən əbədiyyətə qədər bütün varlıqların rəhbərliyi və himayəsini Öz öhdəsinə alan Allahın övlada nə ehtiyacı var? Məgər O bizim kimidirmi ki, Öz «ölümündən» sonra övladının özünə canişin olmasına ehtiyac duysun?

**AYƏ 172:**

﴿ لَّن يَسْتَنكِفَ الْمَسِيحُ أَن يَكُونَ عَبْداً لِّلّهِ وَلاَ الْمَلآئِكَةُ الْمُقَرَّبُونَ وَمَن يَسْتَنكِفْ عَنْ عِبَادَتِهِ وَيَسْتَكْبِرْ فَسَيَحْشُرُهُمْ إِلَيهِ جَمِيعًا ﴾

**TƏRCÜMƏ:**

***«Məsih Allahın qulu olmaqdan əsla imtina etmir və (bundan Allahın dərgahına) yaxın olan bütün mələklər də imtina etmirlər. Kim Ona ibadət etməkdən imtina etsə və təkəbbürlük göstərsə, (Allah Qiyamət günü) onların hamısını (layiq olduqları kimi cəzalandırmaq üçün) Öz hüzuruna toplayacaqdır.»***

**TƏFSİR:**

İsa (ə) özünü Allahın bəndəsi hesab etdiyi halda nə üçün siz onu Allahın övladı hesab edirsiniz?

Özü abid (ibadət edən) olan bir şəxs məbud (ibadət olunan) ola bilməz.

İmam Rza (ə) bu məsələ ilə əlaqədar məsihilərin rəhbəri Casliqə buyurdu:

–İsanın (ə) bütün işləri yaxşı idi, amma təəssüf ki, o, ibadət əhli deyildi.

Casliq narahat olub dedi:

– Xeyr, o ən çox ibadət edənlərdən idi!

Həzrət (ə) soruşdu:

–Kimə ibadət edirdi?

Casliq sükut etdi. Çünki artıq başa düşmüşdü ki, İmam (ə) abidin məbud və Allah ola bilmədiyini ona başa salmaq istəyir.

***İNCƏ MƏTLƏBLƏR***

1. Allahın müqərrəb mələkləri, o cümlədən Ruhul-quds da Allaha bəndəlik etdiyi halda, siz onu nə üçün üç üqnumdan biri hesab edirsiniz?
2. İbadətdən imtina etməyin mənşəyi təkəbbürdür. Əgər insanda təkəbbürlük ruhiyyəsi yaransa, bunun ardınca bütün təhlükələr gələcəkdir.
3. Əgər Həzrət İsa (ə) və müqərrəb mələklər Allaha xalis bəndəlik və ibadət edirlərsə, biz nə üçün Allaha ibadət etməyək?
4. Hər bir halda hamının qayıdacağı yer Allaha tərəfdir. Belə isə Qiyamətdən qorxun və təkəbbürlük göstərməyin!

**AYƏ 173:**

﴿فَأَمَّا الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ فَيُوَفِّيهِمْ أُجُورَهُمْ وَيَزيدُهُم مِّن فَضْلِهِ وَأَمَّا الَّذِينَ اسْتَنكَفُواْ وَاسْتَكْبَرُواْ فَيُعَذِّبُهُمْ عَذَابًا أَلُيمًا وَلاَ يَجِدُونَ لَهُم مِّن دُونِ اللّهِ وَلِيًّا وَلاَ نَصِيرًا﴾

**TƏRCÜMƏ:**

***«Lakin iman gətirib yaxşı işlər görmüş kəslərin mükafatlarını kamil şəkildə verəcək və onlara Öz lütf və rəhmətindən artıracaqdır. (İbadət etməkdən) imtina edən və təkəbbür göstərən kəsləri isə ağrılı bir əzabla cəzalandıracaqdır və onlar (orada) özlərinə Allahdan başqa bir başçı və yardımçı tapmayacaqlar.»***

**TƏFSİR:**

1. Nicat və qurtuluş yolu iman gətirib yaxşı əməllər görməkdir.
2. İman rütbə cəhətindən əməldən öndə gəlir, amma hər ikisi eyni zamanda mövcud olmalıdır. İmansız əməl və ya əməlsiz iman insanı səadətə çatdırıb onu behişt əhli edə bilməz.
3. İlahi əxlaqa yiyələnmək istəyiriksə, işçilərin muzdunu kamil şəkildə ödəyib üstəlik əlavə də verməliyik.
4. İman və saleh əməl olmadan peyğəmbərlərdən heç bir şəfaət təmənnası etmək olmaz.

**AYƏ 174:**

﴿ يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا ﴾

**TƏRCÜMƏ:**

***«Ey insanlar, həqiqətən Rəbbinizdən sizə (peyğəmbər, din və onun möcüzələri kimi) bir dəlil-sübut gəlmişdir. Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur (Quran) nazil etdik.»***

**TƏFSİR:**

Rəvayətlərə əsasən, bu ayədəki «bürhan» (dəlil) Rəsuli-Əkrəmin (s) özü, «nurin mubin» (açıq-aşkar nur) dedikdə isə Quran nəzərdə tutulur.[54]

Doğrudan da, Peyğəmbər (s) öz dininin sübutdur. Çünki təhsil almamış bir şəxs elə yüksək maarif, ilahi bir kitab gətirmişdir ki, zamanın keçməsi və elmlərin inkişaf etməsi ilə dininin haqq olması, təlimlərinin doğru-düzgün olması günbəgün aydınlaşır.

***İNCƏ MƏTLƏBLƏR***

1. İslam dini bütün insanlar, nəsillər və bütün əsrlərlə söhbət edir. Onun məramları dünya səviyyəlidir.
2. Quran qəti dəliləri olan, əqli mühakimələr yürüdən hidayət və nur kitabıdır.
3. Nur və bürhanın göndərilməsi Allahın Rəbb olmasının əlamətlərindəndir.

**AYƏ 175:**

﴿ فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ وَاعْتَصَمُواْ بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا ﴾

**TƏRCÜMƏ:**

***«Allah tezliklə Ona iman gətirmiş və sığınmış kəsləri Öz tərəfindən olan bir rəhmət və mərhəmətə daxil edəcək və Özünə tərəf olan doğru yola hidayət edəcəkdir.»***

**TƏFSİR:**

Allaha sarılmaq dedikdə Onun övliyalarına və ilahi rəhbərlərə sarılmağın nəzərdə tutulması mümkündür. Belə ki, onlar cəmiyyətlərin təfriqəyə düçar olmasının, ikitirəliyə düşməsinin qarşısını alır.

---

[54] «Təfsiri Safi», 1-ci cild, səh. 475, «Təfsiri Burhan», 1-ci cild, səh. 429

Əvvəlki iki ayədə iman və saleh əməl, bu ayədə isə iman və Allaha sarılmaq, təvəssül etmək ilahi lütfə nail olmaq vasitəsi kimi bəyan olunur. Bu da göstərir ki, Allaha sarılmaq iman və saleh əməldən ibarətdir. Bu ikisi Quranda dəfələrlə yanaşı şəkildə qeyd olunmuşdur. Buna əsasən, düzgün hidayət yolu insanı Allaha tərəf aparan yoldur. Rəvayətlərə əsasən «sirati-müstəqim» kəlməsi Əmirəl-möminin Əli (ə) və Əhli-Beyt (ə) kimi təfsir edilmişdir.[55]

**AYƏ 176:**

﴿يَسْتَفْتُونَكَ قُلِ اللّهُ يُفْتِيكُمْ فِي الْكَلاَلَةِ إِنِ امْرُؤٌ هَلَكَ لَيْسَ لَهُ وَلَدٌ وَلَهُ أُخْتٌ فَلَهَا نِصْفُ مَا تَرَكَ
وَهُوَ يَرِثُهَآ إِن لَّمْ يَكُن لَّهَا وَلَدٌ فَإِن كَانَتَا اثْنَتَيْنِ فَلَهُمَا الثُّلُثَانِ مِمَّا تَرَكَ وَإِن كَانُواْ إِخْوَةً رِّجَالاً
وَنِسَاء فَلِلذَّكَرِ مِثْلُ حَظِّ الأُنثَيَيْنِ يُبَيِّنُ اللّهُ لَكُمْ أَن تَضِلُّواْ وَاللّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**TƏRCÜMƏ:**

***«Səndən hökm verməyini istəyirlər, de: «Kəlalə (ata-anaları bir olan, yaxud yalnız atadan bir olan bacılar) barəsində sizə Allah hökm verir: Əgər övladı (atası, anası və babası) olmayan bir kişi ölsə və onun yalnız bir bacısı olmuş olsa, onun mirasının yarısı (şəriətin ilkin qaydasına əsasən) ona məxsusdur (qalan hissələr ikinci qaydaya əsasən irs olaraq ona düşür). Bu qardaş da, əgər bacının övladı yoxdursa onun (malının hamısının) varisi olur. Amma əgər bacılar iki nəfər olsalar, ölənin mirasının üçdə ikisi onlara məxsusdur (və qalan hissələr də şəriətin ikinci qaydasına əsasən irs kimi onlara düşür). Əgər onlar bir neçə bacı və qardaş olsalar (bütün miras onlara məxsusdur, lakin) kişiyə iki qadının payı qədər düşür. Allah (məsələləri) sizə (bu cür) bəyan edir ki, məbada azasınız. Allah hər şeyi biləndir.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

Cabir ibn Əbdüllah Ənsarinin belə dediyi nəql olunmuşdur: “Mən ağır xəstəliyə düşdüm. Peyğəmbər (s) mənim görüşümə gələndə dəstəmaz aldı və dəstəmazın suyundan mənim üstümə səpdi. Mən ölüm fikrində olduğum bir halda Peyğəmbərə (s) ərz etdim: «Mənim varisim təkcə bacılarımdır, mənim mirasım necə bölünəcək?» «Fəraiz ayəsi» adı ilə məşhur olan bu ayə nazil oldu və onların necə irs aparmalarını bəyan etdi.

Bəzilərinin nəzərinə görə, bu ayə İslam hökmləri ilə əlaqədar Peyğəmbəri-Əkrəmə (s) nazil olan sonuncu ayədir.

[55] «Təfsiri Burhan», 1-ci cild, səh. 429, «Təfsiri Safi», 1-ci cild, səh. 286

**TƏFSİR:**

Bu ayə mərhumun bacı və qardaşlarının ondan apardığı irsin miqdarını bəyan edir. Əvvəldə, 12-ci ayənin təfsirində qeyd etdiymiz kimi, Quranda bacıların və qardaşların irsi barəsində iki ayə nazil olmuşdur. «Nisa» surəsinin 12-ci ayəsi təkcə ana tərəfdən, yaxud təkcə ata tərəfdən olan bacı və qardaşların irsini bəyan edirdi. Bu ayədə isə buyurulur ki, səndən bu barədə soruşsalar de: Allah kəlalə hökmünü (bacıların və qardaşların hökmünü) sizin üçün bəyan edir. Sonra bir neçə irs hökmünü bəyan edərək buyurur:

1. Hər vaxt övladı olmayan bir kişi dünyadan getsə və onun yalnız bir bacısı olsa, onun mirasının yarısı o bacıya çatacaq.

2. Əgər övladı olmayan bir qadın dünyadan getsə və onun varisi yalnız (ata-anadan, yaxud atadan bir olan) bir qardaşı olsa, irsin hamısı o qardaşa çatacaqdır.

3. Əgər bir şəxs dünyadan getsə və varisi iki bacısı olsa mirasın üçdə ikisi onlara çatır.

4. Əgər vəfat edən şəxsin vərəsələri bir neçə qardaş və bir neçə bacı olsa (ikidən artıq olsalar), onun mirasının hamısını öz aralarında bölürlər, qardaş bacıdan ikiqat artıq pay aparır.

Ayənin axırında buyurulur: Allah bu həqiqətləri sizin üçün bəyan edir ki, yolunuzu azmayasınız və səadət yolunu tapasınız. Allahın göstərdiyi yollar da şübhəsiz, səhih yoldur, çünki Allah hər şeyi bilir.

Qeyd edək ki, «Nisa» surəsi ailə məsələləri ilə əlaqədar ayələrlə başladığı kimi, o cür ayələrlə də sona çatır.